

*Mən xoşbəxt adamam ki, əziz, doğma xalqıma işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərimi çatdırıram. Bu əziz gündə bir daha bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm, bundan sonra da var gücümlə çalışacağam ki, Azərbaycan daim sürətlə inkişaf etsin, yüksələn xətlə getsin və qarşıda duran bütün vəzifələr icra edilsin. Qarabağ Azərbaycandır!*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2022**
**1 (77)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2022**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2022, №1(77).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2022, 288s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2022*

ISSN 2309-1347

**The Academy of Public Administration**
**under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

**2022**
**1 (77)**

**ACADEMY OF PUBLIC ADMINISTRATION**

**BAKU – 2022**

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2022, №1(77)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2022, 288p.*

*© Academy of Public Administration, 2022*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

### *Yanvar - fevral - mart 2022-ci il*

### Yanvar

**5 yanvar**
- 2022-ci ili Azərbaycan Respublikasında "Şuşa İli" elan etmişdir.
- İsa peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik etmişdir.

**6 yanvar**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.

**10 yanvar**
- Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul etmişdir.
- Koreya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul etmişdir.

**11 yanvar**
- Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etmiş, ən səmimi arzularını çatdırmış, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulamışdır.
- Anası – Aura Hersoqun vəfatı ilə əlaqədar İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa başsağlığı vermişdir.

**12 yanvar**
- Yerli televiziya kanallarına müsahibə vermişdir.

**13 yanvar**
- Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının Gülüstan sarayında keçirilən təməlqoyma mərasimində iştirak və çıxış etmişdir.

**14 yanvar**
- Ukrayna Prezidenti Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya işgüzar səfərə gəlmişdir.
- Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək görüşü olmuşdur.
- Ukrayna Prezidenti Volodimir Zelenski ilə geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatdıqdan sonra Ukrayna Prezidenti Volodimir Zelenski ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimində iştirakı etmiş, Birgə Bəyannaməni imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Ukrayna Prezidenti Volodimir Zelenski ilə mətbuata bəyanatla çıxış etmişdir.
- Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenskinin adından onun şərəfinə verilən lançda iştirak etmişdir.
- Prezident Volodimir Zelenskinin dəvəti ilə Ukraynaya etdiyi işgüzar səfəri başa çatmışdır.

**15 yanvar**
- Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**17 yanvar**
- Monteneqro parlamentinin sədri Aleksa Beçiç ilə videoformatda görüşü olmuşdur.

**18 yanvar**
- Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələrinin perspektivlərini müzakirə etmiş, regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparmışdır.

**19 yanvar**
- Rəsmi feysbuk səhifəsində 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar "Əbədi məşəl" abidəsinin və Dövlət bayrağımızın görüntülərinin əks olunduğu və "20 Yanvar - Allah bütün şəhidlərimizə rəhmət eləsin" sözlərinin yazıldığı paylaşımı etmişdir.

**20 yanvar**
- Ümumxalq Hüzn Günündə - Qanlı 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şəhidlər Xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad etmiş, "Əbədi məşəl" abidəsi önünə əklil qoymuşdur.
- Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.

**24 yanvar**
- Əlamətdar yubileyi – anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının

sədri İkinci Dünya müharibəsi veteranı Fatma Səttarovanı təbrik etmişdir.
- Yeni ilin gəlişini simvolizə edən Bahar bayramı münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.

**25 yanvar**
- İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul etmişdir.
- İkinci Dünya müharibəsinin iştirakçısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovanın 100 illiyi münasibətilə ona Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə "İstiqlal" ordenini təqdim etmişdir.
- Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**27 yanvar**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

**28 yanvar**
- Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul etmişdir.
- "Nur Otan" Partiyasının sədri seçilməsi münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.

**30 yanvar**
- "Rossiya 24" telekanalında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanmışdır.
- Gəncə şəhərində səfərdə olmuşdur.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.
- Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışında iştirak etmişdir.
- 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışını etmişdir.
- Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Gəncədə "Azərbaycan Dəmir Yolları" QSC-nin lokomotiv deposunun açılışında iştirak etmişdir.
- Gəncə Memorial Kompleksinin təməlini qoymuşdur.
- Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumu nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoymuşdur.
- Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə vermişdir.

**31 yanvar**
- İtaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Sercio Mattarellanı təbrik etmişdir.

## Fevral

**1 fevral**
- 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm" sözlərinin yer aldığı paylaşımı etmişdir.

**2 fevral**
- Bakıda, "Gülüstan" sarayında təşkil olunan Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak və çıxış etmişdir.
- Sonra 2022-ci ildə Prezident mükafatı ilə təltif olunmuş gənclərə mükafatlarını təqdim etmişdir.

**3 fevral**
- Azərbaycan Respublikası ilə Ukrayna arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Ukraynanın Prezidenti Volodimir Zelenskini təbrik etmişdir.

**4 fevral**
- Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Bakıda, "Gülüstan" sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak iştirak və çıxış etmişdir.
- Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə iştirak etmişdir.

**5 fevral**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, koronavirus xəstəliyinə yoluxması ilə əlaqədar ona və həyat yoldaşı Əminə xanıma öz adından və Mehriban xanımın adından cansağlığı arzulamış və şəfa diləklərini yetirmişdir.

**8 fevral**
- Yenidən qurulan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak etmişdir.

- Ölkəsinin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisini təbrik etmişdir.

**10 fevral**

- Ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul etmişdir.

**11 fevral**

- "Qobu" Enerji Qovşağının - yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının açılışında iştirak etmişdir.
- "Qobu" Enerji Qovşağının açılışından sonra Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə vermişdir.

**12 fevral**

- Ölkəsinin milli bayramı münasibətilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçi təbrik etmişdir.

**13 fevral**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam rayonunda səfərdə olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əvvəlcə Ağdam şəhərində yeni inşa olunmuş "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam şəhərində inşa olunacaq "Park Forest Otel Ağdam" mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olmuşdur.
- Görülən işlərlə tanışlıqdan sonra çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağcabədi rayonuna səfər etmişdir. Birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanış olmuşdur.
- Yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyasının açılışını etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirak etmişdir.
- Hərbi şəhərcikdə qərargah, əsgər yataqxanaları, tibb məntəqəsi və yeməkxana ilə tanış olmuşdur.
- Sonra Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və hərbi texnikaya baxmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağcabədi rayonunda Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

**15 fevral**

- NATO-nun Baş katibi Yens Stoltenberq ona zəng edərək, Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluğunu ifadə etmiş, eyni zamanda Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparmışdır.
- Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Frank-Valter Ştaynmayeri təbrik etmişdir.

**16 fevral**

- Polşa Respublikasının Prezidenti Andjey Duda ona zəng edərək, Azərbaycan ilə Polşa arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparmışdır.

**17 fevral**

- Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Polşa Respublikasının Prezidenti Andjey Dudanı təbrik etmişdir.

**18 fevral**

- Coşqun Cəbrayılovu Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı, Elgin Həbibullayevi Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı və Elxan İbrahimovu Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmişdir.

**21 fevral**

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına rəsmi səfərə gəlmişdir.
- Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonu təbrik etmişdir.
- Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**22 fevral**
- Rusiya paytaxtında Kremlin divarı yanındakı Aleksandr bağına gəlmişdir.
- Sonra Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoymuşdur.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birlikdə “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannaməni imzalamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olmuşdur.
- Daha sonra Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü olmuşdur.

**23 fevral**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Moskvada TASS agentliyinin mənzil-qərargahında “Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında” adlı ekspozisiya ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə sərgi ilə tanışlıqdan sonra TASS agentliyinin mənzil-qərargahında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüşdür.
- Rusiya Federasiyasına rəsmi səfəri başa çatmışdır.

**24 fevral**
- Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Moldova parlamentinin sədri İqor Qrosu ilə videoformatda görüşmüşdür.
- Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Belleni təbrik etmişdir.
- Ad günü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**25 fevral**
- BMT Baş Assambleyasının sədrinin “Universal peyvəndlənmə üçün səylərin artırılması” mövzusunda təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələrdə milli qisimdə və Qoşulmama Hərəkatının sədri kimi Hərəkata üzv dövlətlər adından videoformatda çıxışı təqdim olunmuşdur.
- Rəsmi feysbuk səhifəsində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar “Xocalıya Ədalət! 30 il” sözlərinin yer aldığı paylaşım etmişdir.

**26 fevral**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak etmiş, Xətai rayonunda ucaldılan Xocalı abidəsinin yerləşdiyi əraziyə gəlmişdir.
- Xocalı soyqırımı abidəsinin önünə əklil qoymuş, faciə qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, ona ad günü münasibətilə təbriklərini çatdırmış, ona qardaş Türkiyənin inkişafı və firavanlığı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə telefon danışığı zamanı Ukraynada hadisələrin eskalasiyası ilə əlaqədar vəziyyəti, həmçinin Rusiya-Azərbaycan münasibətləri ilə bağlı məsələləri müzakirə etmişdir.

## Mart

**1 mart**
- Fransa Respublikasının Prezidenti Emmanuel Makron ona telefonla zəng edərək, Ukraynada cərəyan edən böhran vəziyyəti və Ukraynaya humanitar dəstəyin göstərilməsi məsələlərini müzakirə etmiş, həmçinin enerji məsələlərinə dair fikir mübadiləsi aparmışdır.

**2 mart**
- Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı videoformatda qəbul etmişdir.

**3 mart**
- Şahin Seyidzadəni “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.
- Moldova Respublikasının Prezidenti Maya Sandu ona telefonla zəng edərək, regional məsələlər barədə fikir mübadiləsi aparmış, həmçinin Azərbaycan ilə Moldova arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələlərini müzakirə etmişdir.

**5 mart**

- Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.
- BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul etmişdir.
- Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.

**7 mart**

- Sosial şəbəkə hesablarında 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə bağlı “8 Mart – Beynəlxalq Qadınlar Günü” sözlərinin yer aldığı paylaşımı etmişdir.
- Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Fransa Respublikasının Prezidenti Emmanuel Makronu təbrik etmişdir.

**8 mart**

- İtaliya Respublikasının Nazirlər Şurasının Sədri Mario Draqi ona zəng edərək, ikitərəfli və regional mövzular barədə, o cümlədən Ukraynada cərəyan edən hadisələr ətrafında fikir mübadiləsi aparmışdır.

**9 mart**

- Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi xanım Baronessa Emma Nikolsonu qəbul etmişdir.

**10 mart**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfərə gəlmişdir.
- Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.
- Türkiyə Respublikasına işgüzar səfəri başa çatmışdır.
- Tacqoyma Günü münasibətilə Roma Papası Fransisk Həzrətlərini təbrik etmişdir.

**11 mart**

- Gürcüstanın ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**14 mart**

- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ona zəng edərək, Cənubi Qafqazda post-münaqişə dövrü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası ilə bağlı məsələləri müzakirə etmişdir.
- Koreya Respublikasının Prezidenti vəzifəsinə yeni seçilməsi münasibətilə Prezident Yun Sok Yolu təbrik etmişdir.
- Macarıstanın Prezidenti vəzifəsinə yeni seçilməsi münasibətilə Prezident xanım Katalin Novakı təbrik etmişdir.

**15 mart**

- Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Gülüstan sarayında Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak və çıxış etmişdir.
- Türkmənistanın Prezidenti vəzifəsinə keçirilmiş seçkilərdə qazandığı qələbə münasibətilə Türkmənistanın yeni seçilmiş Prezidenti Sərdar Berdiməhəmmədovu təbrik etmişdir.
- Rumıniya Prezidenti Klaus Yohannis ona zəng edərək, ikitərəfli əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparmışdır.
- Amerika Birləşmiş Ştatlarının dövlət katibi Entoni Blinken ona zəng edərək, Cənubi Qafqaz regionunda postmünaqişə dövrünə aid məsələləri, o cümlədən Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparmış, regional təhlükəsizlik məsələlərini müzakirə etmiş, eyni zamanda Ukraynaya humanitar yardım göstərdiyinə görə Azərbaycana təşəkkürünü bildirmişdir.

**17 mart**

- 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Tunis Respublikasının Prezidenti Kays Sayidi təbrik etmişdir.

**18 mart**

- Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Pakistan Günü münasibətilə Pakistan İslam Respublikasının Prezidenti Arif Alvini təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Yunanıstan Respublikasının Prezidenti xanım Katerina Sakellaropulunu təbrik etmişdir

**19 mart**

- Sosial şəbəkə hesablarında Novruz bayramı ilə əlaqədar paylaşım etmişdir.

**20 mart**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Tərtərin Suqovuşan qəsəbəsində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Azərişıq" ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasında olmuş, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Tərtər rayonunun Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əvvəlcə sıra meydanında düzülmüş döyüş texnikalarına baxmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə turizm kompleksində istifadə olunacaq xüsusi maşınlara baxmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kompleksin ərazisində ağac əkmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılış mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə məşq prosesini və bayraq şousunu izləmişdir.
- Sonra xatirə hədiyyəsini imzalamış və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasına təqdim etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırmışdır.
- Sonra Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
- Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden onu Novruz bayramı münasibətilə təbrik etmişdir.

**26 mart**
- Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişeli təbrik etmişdir.

**28 mart**
- Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışında iştirak etmişdir.

**29 mart**
- Cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olmuşdur.
- Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisini təbrik etmişdir.

**30 mart**
- Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul etmişdir.

**31 mart**
- Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul edib.

Səfir Abdelouahab Osman etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edərək, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrə toxunaraq, bu müstəvidə də fəaliyyətin intensivləşdirilməsinin və ticarət dövriyyəsinin artırılması imkanlarının araşdırılmasının zəruriliyini bildirdi. Dövlətimizin başçısı, həmçinin insanlar arasında fəal təmasların təşviqinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev Abdelouahab Osmanın səfirliyi dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə həmişə beynəlxalq hüququn aliliyini və Qoşulmama Hərəkatının təməlini təşkil edən Bandunq prinsiplərini rəhbər tutmuşdur.

Prezident İlham Əliyev 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin işğal altında qalmasına və Ermənistanın bu ərazilərdə törətdiyi dağıntılara, Azərbaycanın mədəni irsinə qarşı vandalizm əməllərinə toxunaraq regional əməkdaşlığı nəzərdə tutan postmünaqişə dövrünə aid sülh gündəliyinin həyata keçirildiyini bildirdi.

Səfir Abdelouahab Osman Əlcəzair Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Abdelouahab Osman Əlcəzairin BMT Nizamnaməsinin prinsipləri və məqsədlərinə, o cümlədən ölkələrin milli suverenliyinə, ərazi bütövlüyünə hörmət etməyə və daxili işlərə müdaxilə etməməyə tam sadiq olduğunu qeyd etdi. Səfir ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Səfir Abdelouahab Osman Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək qiymətləndirdiyini vurğuladı.

### *Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul edib.

Səfir Li İn-Yonq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu bildirərək, müstəqillik illərində münasibətlərimizin çox uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanla Koreya Respublikası arasında uzun illər müxtəlif sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi, siyasi əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Bu baxımdan Koreyanın yüksək səviyyəli rəsmilərinin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafına töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığa toxunaraq, Koreyanın bir çox şirkətinin ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən infrastruktur və inşaat layihələrində uğurla iştirak etdiklərini vurğuladı. Dövlətimizin başçısı birgə investisiya sahələrinin, ixrac-idxal əməliyyatlarının artırılmasının, insanlar arasında təmasların genişləndirilməsinin əhəmiyyətinə toxundu. Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Səfir Li İn-Yonq son 30 il ərzində Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığın və insanlar arasında əlaqələrin ölkələrimizin potensialına uyğun olaraq daha da möhkəmləndirilməsinin vacibliyini bildirdi və səfir fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd etdi.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində Koreya şirkətlərinin mümkün iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı.

***Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

– Cənab nazir, bir daha xoş gəlmisiniz. Mən həqiqətən çox məmnunam ki, siz gəlib bizim ölkəmiz, tərəfdaşlığımız, qardaşlıq münasibətlərimiz üçün mühüm olan bu tədbirdə iştirak etməyə vaxt tapmısınız. Bir daha sizdən Əlahəzrət Krala və Əlahəzrət vəliəhd şahzadəyə ən xoş salamlarımı çatdırmağı xahiş etmək istərdim.

Mən sizin ölkənin rəhbərləri ilə görüşlərimi və qardaş Səudiyyə Ərəbistanına çoxsaylı səfərlərim zamanı mənə göstərilən böyük qonaqpərvərliyi xatırlayıram. Çıxışımda qeyd etdiyim kimi, işğal illərində Səudiyyə Ərəbistanının Azərbaycana göstərdiyi davamlı dəstəyə görə minnətdarlığımı bildirmək istərdim. Biz bunu həqiqətən də yüksək qiymətləndiririk və əsl qardaşlıq, həmrəylik göstəricisi və həqiqi dəstək göstəricisi hesab edirik. Əlbəttə ki, bizim beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında torpaqlarımızın işğalı ilə bağlı ədalətin bərpasına yönəlmiş birgə səylərimiz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Torpaqlarımızın işğaldan azad olunması indi ölkə üçün yeni imkan, regionda nəhəng geosiyasi dəyişiklikdir. Bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz regional əməkdaşlıq, o cümlədən elektrik enerjisi istehsalı, xüsusilə bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır. Mən artıq planlarımız, potensial barədə danışdım. Hesab edirəm ki, biz artıq bu mühüm infrastruktur layihəsinin icrası zamanı gələcəyə baxaraq, nəhəng potensialımızdan istifadə edərək maksimal dərəcədə səylərimizin necə əlaqələndirilməsini nəzərdən keçirə bilərik. Çox şadam ki, bizim nazirlə sizin yaxın münasibətləriniz var. O, mənə OPEC+ formatında və ikitərəfli əlaqələr sahəsində sizin təmaslarınız haqqında müntəzəm olaraq məlumat verir.

Mən investorları cəlb etmək məqsədimizə nail olduğumuzu yüksək qiymətləndirirəm və bu investorun bu sahədə dünyada ən aparıcı şirkətlərdən biri və qardaş ölkədən olması məni şəxsən sevindirir. Bu, bizim üçün və gələcək əməkdaşlığımız üçün çox önəmlidir. Əminəm ki, sizin bizi ziyarət etmək üçün daha çox vaxtınız olacaq. Qeyd etdiyiniz kimi bu, sizin Azərbaycana ilk səfərinizdir. Ümidvaram ki, biz sizi daha da çox görəcəyik. Bir daha xoş gəlmisiniz.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səud ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini dedi. Qonaq özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda fəal çalışdıqlarını vurğulayaraq qarşılıqlı əməkdaşlığın daha da genişlənəcəyini bildirdi. Əbdül Əziz bin Salman Əl-Səud yaxın vaxtlarda daha geniş əlaqələri əks etdirən əməkdaşlıq müqaviləsi layihəsinin təqdim olunacağına ümidvarlığını ifadə etdi.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri əlaqələrimizin uğurla inkişaf etdiyini bildirərək "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasiminin əhəmiyyətini vurğuladı, səmərəlilik, bərpa olunan enerji mənbələri və digər aspektlər üzrə baxışlarımızın üst-üstə düşdüyünü məmnunluqla bildirdi.

***Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü vurğulandı. Ölkəmizdə bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının bir ailə kimi mehribanlıq və əmin-amanlıq şəraitində yaşaması, dövlət qayğısı ilə əhatə olunması, onlar üçün dövlət səviyyəsində hərtərəfli şəraitin yaradılması yüksək qiymətləndirildi, bunun dünyada nümunəvi xarakter daşıdığı qeyd edildi. Devid Harrisin və onun rəhbərlik etdiyi Amerika Yəhudi Komitəsinin ölkəmizlə əməkdaşlığından məmnunluq ifadə olundu.

Söhbət zamanı hazırda regionda yaranan yeni geosiyasi vəziyyət, Azərbaycanın dünyada və regionda artan nüfuzu, həmçinin qarşılıqlı maraq doğuran bir sıra regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Devid Harris səfər çərçivəsində Bakıda keçirdiyi məhsuldar görüşlər, o cümlədən yəhudi icması ilə keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.

***Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.

Prezident İlham Əliyev Fransanın Avropa İttifaqının sədrliyi funksiyasını qəbul etməsi münasibətilə təbriklərini çatdırdı və Fransanın Avropa İttifaqına sədrliyinin uğurla həyata keçiriləcəyinə və səmərəli olacağına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı ötən il dekabrın 15-də

Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Fransa Prezidenti Emmanuel Makronla keçirdiyi görüşləri məmnunluqla xatırladı. Prezident İlham Əliyev Fransa və Avropa İttifaqı nümayəndələrinin iştirakı ilə bu formatda baş tutan görüşü yüksək qiymətləndirərək bunun Brüsseldə müzakirə olunan sülh gündəliyinin inkişaf etdirilməsi üçün müsbət imkanlar yaratdığını vurğuladı.

Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümon Azərbaycan xalqı üçün 20 Yanvar Hüzn Günündə nümayəndə heyətini qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O, Avropa İttifaqının sədri qismində Fransadan və Avropa İttifaqından olan nümayəndələrlə birlikdə bu səfəri həyata keçirdiklərini qeyd etdi. İzabel Dümon bu səfərin dekabrın 15-də Brüsseldə keçirilən müsbət görüşlərin davamı olaraq müzakirələrin aparılması məqsədi daşıdığını vurğuladı.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Brüsseldə Avropa İttifaqı Şərq Tərəfdaşlığının VI Sammiti çərçivəsində keçirilən görüşlərin əhəmiyyətini vurğuladı, regiona səfərin vacib məsələlərin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirdi.

Görüşdə regionda davamlı sülhün və sabitliyin təmin olunması, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətinin videoformatda qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib.

İranlı naziri salamlayan Prezident İlham Əliyev dedi:

– Hörmətli cənab nazir, hörmətli İran nümayəndə heyətinin üzvləri Azərbaycana xoş gəlmisiniz. Mən çox şadam ki, sizin Azərbaycana səfəriniz azad edilmiş torpaqlardan başladı. Siz dünən İrandan birbaşa Füzuliyə, Füzuli Beynəlxalq Hava Limanına təyyarə ilə gəlmisiniz, həm Füzulidə, həm Zəngilanda olmusunuz və biz bunu çox yüksək qiymətləndiririk.

Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır. Müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət almışdır. Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platforması yaradılmışdır. Artıq birinci görüş keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrinin maraqlarını təmin edəcək. Eyni zamanda, əminəm ki, yaxın gələcəkdə İran şirkətləri azad edilmiş torpaqlarda fəal işə başlayacaqlar. İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verildi, İran tərəfi ilə ilkin danışıqlar aparıldı və indi konkret nəticələr gözləyirik.

Siz azad edilmiş torpaqlarda olan dağıntıları dünən öz gözlərinizlə görmüsünüz. Ermənistan işğal dövründə bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib. Ona görə bu böyük ərazidə - 10 min kvadratkilometrdən böyük olan ərazidə indi quruculuq işlərinə start verildi, amma gördüyünüz kimi, bu, çox genişmiqyaslı bir işdir. Yüzlərlə şəhər və kənd demək olar ki, yer üzündən silinib. Bərpa işlərinə start verildi və dediyim kimi, ümid edirəm ki, İran şirkətləri bu işlərdə fəal iştirak edəcəklər.

Siz dünən, eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olmusunuz. Həm avtomobil yolu, həm dəmir yolu artıq uğurla inşa edilir və Ermənistandan da biz müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır.

Bir sözlə, ümid edirəm ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq. Əlbəttə ki, İran İslam Respublikasının bu işlərə töhfəsi də çox önəmlidir.

Digər məsələlərə gəldikdə, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması, Xudafərin Su Elektrik stansiyalarının inşa edilməsi, Astaraçay üzərində körpünün inşa edilməsi – bütün bu və digər məsələlər dünən Şahin Mustafayevlə müzakirə olunub və hökumətlərarası komissiyanın işində, əlbəttə ki, prioritetlər sırasında olacaq.

Onu da bildirməliyəm ki, noyabrın sonlarında İran İslam Respublikasının Prezidenti cənab Rəisi ilə keçirdiyim görüş çox uğurlu, əhəmiyyətli idi və İran-Azərbaycan əlaqələri üçün yeni imkanlar açır. Bu, əlaqələrimizin, dostluq, qardaşlıq əlaqələrimizin yeni səhifəsinin açılması deməkdir.

Bir daha xoş gəlmisiniz.

İranlı nazir Rüstəm Qasimi dedi:

– Allahın adı ilə. Cənab Prezident, mən Sizi salamlayıram və Sizə, Azərbaycan xalqına cansağlığı, Azərbaycan dövlətinə uğurlar arzu edirəm. İran İslam Respublikasının Prezidenti cənab doktor Rəisinin səmimi salamlarını Sizə çatdırıram.

İran dövləti və İran xalqı adından şəxsən Sizə, Azərbaycan dövlətinə, Azərbaycan xalqına ərazilərin geri qaytarılmasında əldə etdiyiniz uğurlar və bu müharibədə qazandığınız Qələbə münasibətilə təbrik çatdırıram. Qeyd etdiyiniz kimi, Sizinlə cənab Prezident Rəisi arasında keçirilən görüş iki ölkə münasibətlərində yeni bir səhifə yaradacaq.

Biz dünən azad edilmiş əraziləri gördük, orada aparılan quruculuq və yenidənqurma işləri ilə yerində tanış olduq. Ümid edirəm ki, bu gün cənab Şahin Mustafayevlə və eləcə də Azərbaycan Respublikasının digər nazirləri ilə keçirəcəyim görüşlərdə iki ölkə arasındakı əlaqələr və müştərək layihələr barədə bir daha fikir mübadiləsi aparacağıq.

Onüçüncü hökumət, yəni, cənab İbrahim Rəisinin prezidentliyi dövründə dövlətimiz bütün qonşu ölkələrlə, xüsusilə də mədəni, tarixi və ictimai bağları daha çox olan Azərbaycan Respublikası dövləti və xalqı ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir.

* * *

Prezident İlham Əliyev İran dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı ikitərəfli əlaqələrə dair müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### *Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın videoformatda qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırladı. Dövlətimizin başçısı Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırdı.

Baş katib Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə etdi, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildirdi. Kunio Mikuriya Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirdi və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı regional əməkdaşlıq məsələlərinə toxunaraq, COVID-19 pandemiyasının yaratdığı qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycanın keçən il əsas tərəfdaş dövlətlərlə ticarət dövriyyəsinin artmasının ölkə iqtisadiyyatının bərpasının və inkişafının göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti keçən il iqtisadiyyatın 5 faizdən çox, qeyri-neft sektorunun 7 faiz, qeyri-neft sənaye sektorunun isə 20 faiz artmasının aparılmış islahatların nəticəsi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsindən sonra regionda əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğuladı.

Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *Avropa İttifaqının energetika məsələləri üzrə komissarının başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirakına və dəyərli çıxışına görə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsona təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığa dair birgə bəyanatın imzalanmasından 10 ildən artıq müddətin keçdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə həyata keçirilən əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu və bunun Cənub Qaz Dəhlizi çərçivəsində də davam etdirildiyini bildirdi. Bu layihənin birgə əməkdaşlıq və əlaqələndirmə şəraitində uğurla başa çatdırıldığını dedi.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrin ikitərəfli və çoxtərəfli əsasda enerji sahəsində əməkdaşlıq üzrə yeni ideya və planların müzakirəsi baxımından əhəmiyyətini vurğuladı.

Bu toplantının Cənub Qaz Dəhlizi xətti ilə qazın Avropa İttifaqına çatdırılmasından bir il sonrakı dövrə, həm Avropa İttifaqı, həm də Azərbaycanın yeni "yaşıl enerji" strategiyasına keçidi mərhələsinə və hazırda dünya qaz bazarında baş verən qiymət dəyişmələri və digər tendensiyalar şəraitinə təsadüf etdiyini bildirən Prezident İlham Əliyev bu baxımdan tədbirdə aparılan müzakirələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqların uğurla aparıldığını bildirdi və bu danışıqların da tezliklə başa çatdırılacağına ümidvar olduğunu ifadə etdi.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısının

keçirilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Cənub Qaz Dəhlizinin Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında rolunu qeyd edən Kadri Simson Avropa İttifaqının enerji təminatının şaxələndirilməsinə böyük əhəmiyyət verdiyini dedi və bu xüsusda Cənub Qaz Dəhlizinin önəmini vurğuladı.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji, o cümlədən "yaşıl enerji" sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan alternativ və bərpaolunan enerji konsepsiyasını inkişaf etdirir və ölkəmizdə bu sahə xarici sərmayədarları cəlb edir.

***Moldovanın Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya nazirinin qəbulu***

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul edib.

Prezident İlham Əliyev ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayıb və ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku Moldova Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev Moldovanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş edib.

Nazir Niku Popesku ölkələrimiz arasında diplomatik münasibətlərin olduğu 30 ilə yaxın müddətdə həmrəylik prinsipindən çıxış edərək Azərbaycan və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb. Niku Popesku iqtisadi, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, enerji sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib, bu sahələrdə konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Regionda bütün iqtisadi, nəqliyyat əlaqələrinin tezliklə açılmasına bundan sonra da kömək göstərmək barədə razılaşdıq. Söhbət Azərbaycan və Ermənistan arasında və regionun digər ölkələri ilə sərnişin və yük daşımalarının tam həcmdə bərpasından, ticarət, sənaye, kənd təsərrüfatı, infrastruktur kimi sahələrdə konkret birgə layihələrin icraya hazırlanmasından gedir. Bu prosesin bütün iştirakçıları – bilavasitə Azərbaycan və Ermənistan, əlbəttə ki, Ermənistanın və Azərbaycanın bütün qonşuları bunda maraqlıdırlar.

Daha bir prioritet məsələ Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası prosesinin işə salınmasıdır. Rusiya öz tərəfindən, yuxarıda adları çəkilən bütün hədəf və məsələlərə nail olmaq üçün çox iş görüb və görəcək. Əlbəttə ki, hər hansı mübahisəli məsələlərə, o cümlədən sərhəd məsələlərinin nizamlanmasına hər cür yardım göstərməyə davam edəcək, mövcud olan kəskin problemlərin həllinə kömək göstərəcəyik.

Ümumiyyətlə, bugünkü danışıqlar aydın göstərdi ki, Qafqaz və Xəzər regionlarında sabitlik və təhlükəsizliyin təminatında, bütün Avrasiya məkanında inteqrasiya proseslərinin inkişafında Rusiya və Azərbaycanın ümumi maraqları var.

Sonda İlham Heydər oğluna bu gün məhsuldar birgə işə görə minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, bu gün əldə olunan razılaşmalar iki ölkə naminə Rusiya-Azərbaycan münasibətlərinin bütün kompleksinin bundan sonra da möhkəmlənməsinə xidmət edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə, Rusiyaya rəsmi səfərə dəvətə görə Sizə təşəkkürümü bildirmək istərdim. Mən yenidən Moskvada olmağıma çox şadam. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Təxminən üç ay bundan əvvəl də görüşdük və ikitərəfli gündəliyə, regional problemlərə aid mühüm məsələləri müzakirə etdik. Bizim görüşlərimizin intensivliyi əlaqələrimizin inkişafının dinamik xarakter daşımasına parlaq sübutdur. Rusiya ilə Azərbaycanı çoxəsrlik dostluq, mehriban qonşuluq telləri bağlayır. Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, bu əlaqələr bu gün keyfiyyətcə yeni səviyyəyə çatıb.

Ölkələrimiz arasında çox geniş müqavilə-hüquq bazası vardır, 245 sənəd imzalanıb. Lakin onların arasında bu gün imzalanmış Bəyannamə xüsusi əhəmiyyət kəsb edir. Bu Bəyannamə bizim münasibətlərimizi müttəfiqlik səviyyəsinə çıxarır. Bu, həm böyük imtiyaz, həm də böyük məsuliyyətdir. Biz bu günə təkidlə, uzun müddət əməkdaşlıq potensialını artırmaqla, səmimiyyətə, mehriban qonşuluğa, praqmatizmə, qarşılıqlı maraqların nəzərə alınmasına əsaslanan münasibətlər qurmaqla gəlib çatmışıq. Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə üzərində praktiki iş bir ildən bir qədər artıq bundan əvvəl başlanıb. Bu müddətdə ölkələrimizin müvafiq ekspert qrupları tərəfindən 43 bənddən ibarət olan və praktiki olaraq fəaliyyətimizin bütün əsas sahələrini əhatə edən çox geniş sənəd razılaşdırılıb. Bəyannamənin birinci bəndində deyilir ki, tərəflər öz münasibətlərini müstəqilliyə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq əsasında quracaqlar. Bu bənd bizim münasibətlərimizin xarakterinə, ona dəlalət edir ki, bu münasibətlər zamanın sınağından çıxıb və artıq dediyim kimi, dostluq hisslərinə, qarşılıqlı maraqlara və gələcəyə yönəlməyə əsaslanır. Ona görə ki, bu sənəd təkcə çoxillik birgə işə yekun vurmaqla kifayətlənməyib, həm də gələcək üçün böyük perspektivlər açır. Biz qarşılıqlı siyasi fəaliyyəti artıracaq, əvvəl olduğu kimi, yenə bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyəcək, qarşılıqlı ticarətin həcmini artıracaq və gündəlikdəki bütün məsələləri həll edəcəyik.

Bu gün biz 5 saatdan çox Vladimir Vladimiroviçlə birlikdə olduq. Vaxt hiss olunmadan keçdi. Beş saat intensiv ünsiyyət özlüyündə bizim əlaqələrimizin nə qədər sıx və səmimi olmasının göstəricisidir. Biz əminik

ki, ticari-iqtisadi sahədə yeni imkanlar açılır. Vladimir Vladimiroviç əmtəə dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasını qeyd etdi. Əminəm ki, bu müsbət meyillər bu il daha da artacaq.

Sizə məlum olduğu kimi, bu il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 30 illiyidir. Aprel ayında bu tarixi qeyd edəcəyik. Biz həmin hadisəyə yaxşı bünövrə ilə yaxınlaşırıq.

Qarşılıqlı investisiyaların artırılması işində çox ümidverici imkanlar var. Bu gün biz nəqliyyat sahəsində, özü də təkcə ikitərəfli formatda deyil, regionda yeni vəziyyət, yeni geosiyasi reallıqlar nəzərə alınmaqla çoxtərəfli, regional formatda əməkdaşlığın dərinləşdirilməsi imkanlarını da ətraflı müzakirə etdik. Artıq "3+3" deyilən əməkdaşlıq platforması mövcuddur. Əminəm ki, bu platformanın iştirakçıları olan tərəflər ilk addımı atandan sonra, o cümlədən bu sahədə də əməkdaşlıq edəcəklər. Bu gün regionda kommunikasiyaların açılması məsələsi də müzakirə edildi və düşünürəm ki, bu məsələnin çox yaxşı perspektivi var. Bizim fəaliyyətimizi, humanitar əməkdaşlıq üzrə birgə fəaliyyətimizi qiymətləndirdiyinə görə Vladimir Vladimiroviçə təşəkkür edirəm. Bu sahə həmişə prezidentlərin diqqət mərkəzindədir. Biz demək olar ki, bu sahənin inkişafına müvafiq impuls veririk və Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı və təhsilin rus dilində olduğu məktəblərin sayı barədə Vladimir Vladimiroviçin gətirdiyi rəqəmlər əlamətdardır, onlar özləri çox şeyi deyir. Buna onu əlavə etmək istərdim ki, Azərbaycanda ali məktəblərin rus bölməsində 15 mindən çox tələbə təhsil alır və rus dilində təhsilə maraq artır. Ölkəmizdə Moskva Dövlət Universitetinin, Seçenov adına Tibb Akademiyasının filialları fəaliyyət göstərir və biz əməkdaşlıq potensialını artırmaq niyyətindəyik.

Biz bu il Bakı Humanitar Forumunun müntəzəm keçirilməsini də bərpa etməyi planlaşdırırıq. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında keçirilən və keçiriləcək Forumda pandemiya səbəbindən fasilə yaranmışdı. Bu gün biz işğaldan azad edilmiş ərazilərdə aparılan işlərdə Rusiya şirkətlərinin iştirakı ilə bağlı məsələləri də müzakirə etdik, bu işə böyük maraq var. Bu günə qədər artıq Rusiya şirkətlərindən 14 sifariş alınıb və biz həmin sifarişləri diqqətlə nəzərdən keçiririk. Hesab edirəm ki, bu sahə bizim əməkdaşlığımızın yeni sahəsidir. O, həm praktiki baxımdan faydalı olacaq, həm də bizim qarşılıqlı fəaliyyətimizin səviyyəsini artıracaq.

Əlbəttə, bu gün biz regionda münaqişədən sonrakı vəziyyəti də ətraflı müzakirə etdik. Azərbaycan ilə Ermənistan arasında müharibənin başa çatmasında və münaqişədən sonrakı dövrdə nizamlama səylərində roluna görə Rusiyaya və şəxsən Prezident Vladimir Vladimiroviç Putinə təşəkkür edirik. Hesab edirəm ki, belə çoxillik, – otuz ilə yaxın, – qarşıdurma, Azərbaycanın üzləşdiyi böyük itkilər şəraitində bir ildən bir qədər çox vaxt keçəndən sonra Azərbaycan və Ermənistan ən azı iki beynəlxalq formatda, məhz Rusiya, Azərbaycan və Ermənistanın Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup, habelə Rusiya, Türkiyə, İran, Azərbaycan və Ermənistanın daxil olduğu "3+3" platformasında fəaliyyət göstərirsə, bu, artıq bizim niyyətlərimizin göstəricisidir. Əlbəttə, biz gözləyirik ki, Ermənistan tərəfi 9–10 noyabr 2020-ci il tarixli Bəyannamənin bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması, habelə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması barədə bütün bəndləri tamamilə yerinə yetirəcək. Bu, erməni tərəfin hüquqi öhdəliyidir, lakin təəssüf ki, bu istiqamətdə iş çox ləng gedir. Artıq qeyd etdiyim kimi, Prezident Vladimir Vladimiroviç Putin müharibənin başa çatmasında, nizamlamanın qaynar fazadan siyasi nizamlama fazasına keçməsində mühüm rol oynayıb. Bu gün Rusiya Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması üçün yollar axtarışında bizim əsas tərəfdaşımızdır. Bunun üçün imkanlar var. Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağa hazır olduğunu dəfələrlə bəyan edib. Bu müqavilə öz aralarında münasibətləri tənzimləmək istəyən hər hansı ölkələr üçün zəruri olan sərhədlərin dəqiqləşdirilməsi, delimitasiyası və digər məsələləri də əhatə edəcək.

Mən əminəm, regionda yeni reallıqlar yeni imkanlar yaradacaq. Azərbaycan dinc gələcək əzmindədir. Bizə müharibə lazım deyil. O, bizə heç vaxt lazım olmayıb. Azərbaycan ərazilərinin azad edilməsi, ərazi bütövlüyünün hərbi yolla bərpa olunması məcburi tədbir idi və müharibədən sonrakı mərhələdə bu məsələni siyasi metodlarla həll etməyə hazır olmağımız bizim niyyətlərimizin daha bir təsdiqidir. Mən əminəm ki, Rusiya və Azərbaycan birgə səyləri ilə Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında əməkdaşlığın möhkəmləndirilməsi işinə bundan sonra da sanballı, mən deyərdim, həlledici töhfə verəcəklər.

Hörmətli Vladimir Vladimiroviç, dəvətə, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edib Rusiyanın dost, müttəfiq xalqına yeni uğurlar və yeni nailiyyətlər arzu etmək istərdim.

Prezident Vladimir Putin: Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olub.

Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin Prezident İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında görüş oldu.

Prezident İlham Əliyevi salamlayan Mixail Mişustin dedi: Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizi bir

daha salamlayım. Bu gün Vladimir Vladimiroviç Putin ilə Sizin imzaladığınız Rusiya ilə Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə ilə əlaqədar ən mühüm, strateji məsələləri müzakirə etməyi təklif edirəm. Bu mühüm qərar bizim dostluq və mehriban qonşuluq münasibətlərimizi daha yüksək səviyyəyə çatdırır. Sizi əmin etmək istərdim ki, Rusiya Federasiyasının Hökuməti liderlərimizin qərarlarını həyata keçirmək üçün nə lazımdırsa edəcək.

Biz azərbaycanlı tərəfdaşlarla dostluğumuzu yüksək qiymətləndiririk. Bu dostluq bizim qardaş xalqlarımızın sıx əlaqələrinə əsaslanır. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunur və bizim mehriban qonşuluğumuzun tarixinin kökləri əsrlərin dərinliyinə gedib çatır. Əsas odur ki, pandemiyaya baxmayaraq, bizim ticari-iqtisadi əlaqələrimiz möhkəmlənir, əmtəə dövriyyəsi, - Siz yəqin bu barədə ətraflı danışdınız, - 2020-ci ildəkinə nisbətən 16 faiz artaraq 3 milyard 300 milyon dollara çatıb. Azərbaycanda Rusiya kapitalı ilə mindən artıq şirkət fəaliyyət göstərir, energetika, maşınqayırma, nəqliyyat sahələrində böyük sayda birgə layihələr icra olunur, kənd təsərrüfatı, infrastruktur, bərpaolunan enerji, rəqəmsal iqtisadiyyat sferalarında belə əməliyyatlar üçün böyük potensial mövcuddur. Bizim hökumətlərarası komissiya bu məsələni fəal həll edir. Rusiya Federasiyası tərəfindən komissiyaya Baş nazirin müavini Aleksey Loqvinoviç Overçuk kuratorluq edir. Rusiya şirkətlərinin Azərbaycana müntəzəm işgüzar missiyaları da müsbət nəticələr verir. Biz bu əlaqələri, Rusiya İxrac Mərkəzi tərəfindən təşkil olunan səfərləri davam etdirmək istərdik. Biz, həmçinin regionlararası əlaqələrimizə də böyük diqqət yetiririk. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycan ilə əməkdaşlıq edir.

Biz koronavirus infeksiyasına qarşı birgə mübarizə aparır, bir-birimizə qarşılıqlı kömək edirik. Bizim tərəfimizdən Azərbaycana xüsusi test-sistemlər verilib, ən yaxşı həkimlərimizdən ibarət briqadalar göndərilib. Bu günədək təqribən 220 min doza “Sputnik V” vaksini tədarük edilib. Mən əminəm ki, kütləvi immunlaşdırma bizə, həmçinin pandemiyanın öhdəsindən gəlməyə və insanlarımızın sağlamlığını qorumağa kömək edəcək.

Bir daha Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Cənubi Qafqazın inkişafına imkan verən mühüm Bəyanatını xüsusi qeyd etmək istəyirəm. Əminəm ki, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, yeni infrastruktur marşrutlarının yaradılması Cənubi Qafqazın bütün dövlətlərinin maraqlarına cavab verir. Bizim zəngin gündəliyimiz var. Sağ olun. Biz şadıq ki, Siz bizim Rusiya Federasiyası Hökumətinin Əlaqələndirmə Mərkəzinə gəlmisiniz. Əlbəttə, bizim qarşılıqlı fəaliyyətimizin bütün aktual məsələlərini müzakirə etməyə hazırıq. Buyurun, söz Sizindir, hörmətli İlham Heydər oğlu.

Prezident İlham Əliyev dedi: Çox sağ olun, hörmətli Mixail Vladimiroviç. Xoş sözlərə görə sağ olun. Siz tamamilə düzgün olaraq qeyd etdiniz ki, bu gün Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalanıb. Bu, bizim münasibətlərimizin inkişafında yeni mərhələdir. Bu gün Vladimir Vladimiroviç ilə biz çox söhbət etdik, həm ikitərəfli qarşılıqlı fəaliyyətə, həm də regional problemlərə dair çox mühüm mövzuları müzakirə etdik. Əlbəttə, mətbuat qarşısına çıxanda ölkələrimizin dövlətlərarası münasibətləri tarixində qalacaq bu günün vacibliyini qeyd etdik. Əlbəttə, rəmzi haldır ki, bu hadisə ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində baş verir. Başqa məsələlərdən əlavə, biz ticari-iqtisadi əməkdaşlıq məsələlərini də nəzərdən keçirdik, əlaqələrimizin necə inkişaf etməsindən məmnun olduğumuzu bildirdik. Ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrimizin inkişafına şəxsən ayırdığınız diqqətə görə sizə təşəkkürümü bildirmək istərdim. Pandemiya şəraitinə baxmayaraq, əmtəə dövriyyəsi xeyli artıb. Bu, əlbəttə, bizim nə dərəcədə səmərəli işləməyimizin göstəricisidir. Ölkələrimizin Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi hökumətlərarası komissiyanın səmərəli işini də qeyd etmək istərdim. Bu komissiya gömrük məntəqələrində, nəzarət-buraxılış məntəqələrində yaranan məsələləri operativ surətdə həll edir və ticari-iqtisadi əlaqələrimizin strateji planlaşdırılması ilə məşğul olur. Çox xoşdur ki, qarşılıqlı ticarətin həcmi artır. Fikrimcə, daha çox potensial var. Ümid edirik ki, biz bu il də əmtəə dövriyyəsinin artmasını məmnuniyyətlə qeyd edəcəyik.

Şübhəsiz, regionda yeni reallıqlar nəzərə alınmaqla regional problemlərlə bağlı məsələlər həm regionda etimad, sülh və təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi, həm də ikitərəfli və çoxtərəfli formatda qarşılıqlı faydalı iqtisadi tərəfdaşlıq üçün yaxşı ilkin şərait yaradır. Bu gün Rusiya Federasiyasının Prezidenti ilə görüşdə biz “3+3” yeni əməkdaşlıq formatının perspektivlərini də müzakirə etdik. Bu format indiki mərhələdə, ilk növbədə, nəqliyyat-kommunikasiya, logistika problemlərinə dair fəal iş aparılmasını nəzərdə tutur. Əminəm, bugünkü diskussiyalar, aparacağımız fikir mübadiləsi Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin 2020-ci il noyabr tarixli üçtərəfli Bəyanatın bütün bəndlərinin həyata keçirilməsinə xidmət edəcək ki, biz öz planlarımızı tamamilə reallaşdıra bilək.

Rusiya-Azərbaycan münasibətləri zamanın sınağından çıxıb. Əlbəttə, biz diplomatik münasibətlər yaradılmasından bəri əlaqələri inkişaf etdiririk, lakin, əlbəttə, əvvəlki nəsillər tərəfindən qoyulmuş təməl olmasaydı, yəqin ki, biz bu uğurları qazana bilməzdik. Bu gün imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə bizim ticari-hüquqi baza portfelində xüsusi sənəddir. Əminəm ki, bu sənəd ölkələrimiz

arasında dostluq, mehriban qonşuluq və bu gündən etibarən müttəfiqlik münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcək.

Koronavirusa qarşı mübarizədə köməyə görə Rusiya tərəfinə ayrıca təşəkkür etmək istərdim. Biz çox minnətdarıq ki, bizə mütəxəssis briqadaları göndərilib, PZR-testlər almışıq və bildiyiniz kimi, biz "Sputnik-V" vaksinini sertifikatlaşdırmışıq. Vətəndaşlarımızın sağlamlığını qorumaq üçün biz gələcəkdə də bu istiqamətdə işləmək niyyətindəyik.

Fikir mübadiləsi aparmaq üçün yaratdığınız bu imkana görə bir daha sağ olun. Əlaqələndirmə Mərkəzinin çox maraqlı təqdimatına görə sağ olun və artıq indidən ümumi mülahizələrdən irəli gələn praktiki məsələləri müzakirə edəcəyik. Sağ olun.

Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Moskvada TASS agentliyinin mənzil-qərargahında "Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında" adlı ekspozisiya ilə tanış olublar. Bu, TASS və AZƏRTAC-ın birgə layihəsidir.

İyirmi fotoşəkildən ibarət olan ekspozisiyada Rusiya və Azərbaycan xalqlarının siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dostluğunun və əməkdaşlığının tarixinin ən yeni dövrü barədə söhbət açılır.

TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman ekspozisiyada təqdim edilən şəkillər barədə qonaqlara məlumat verib. TASS-ın fotoqrafları 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Boris Yeltsin tərəfindən Dostluq, Əməkdaşlıq və Təhlükəsizlik haqqında Müqavilənin, 2001-ci ildə Heydər Əliyev və Vladimir Putin tərəfindən Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanatın və Qafqazda təhlükəsizliyin təmin edilməsi və əməkdaşlığın inkişafı prinsipləri haqqında Bakı Bəyannaməsinin imzalanması anlarını əbədiləşdiriblər.

Ekspozisiyada Rusiya Prezidenti Vladimir Putinin, RF xarici işlər naziri Sergey Lavrovun, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin Azərbaycana rəsmi səfərlərindən çəkilmiş fotoşəkillər nümayiş etdirilir.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılışı və Rusiya Prezidenti Vladimir Putin tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Rusiya-Azərbaycan münasibətlərinin inkişafında və möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeninin təqdim edilməsi mərasimlərindən çəkilmiş kadrlar Mehriban Əliyevanın Rusiyaya səfərlərini əks etdirir.

2021-ci ildə Cəbrayılda "KamAZ" Açıq Səhmdar Cəmiyyətinin servis mərkəzinin və "Gəncə Avtomobil Mərkəzi" İstehsalat Birliyinin təməlinin qoyulmasını əks etdirən, AZƏRTAC-ın fotomüxbirinin çəkdiyi fotoşəkil iqtisadiyyat sahəsində əməkdaşlıq nümunəsidir. Azərbaycanın Xəzər Gəmiçiliyi üçün tikilmiş "Prezident Heydər Əliyev" neftdaşıyan tankerinin "Krasnoye Sormovo" zavodunun stapellərindən suya buraxılması mərasimindən çəkilmiş fotoşəkli TASS agentliyi təqdim edib.

Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışından, Rusiyanın və Azərbaycanın Xalq artisti Lyudmila Zıkinanın konsertindən sonra Heydər Əliyevin onunla söhbəti zamanı AZƏRTAC-ın fotomüxbirinin çəkdiyi kadrlar mədəniyyət sahəsində qarşılıqlı münasibətlərdən bəhs edir.

Ekspozisiyada Rusiya Prezidenti Vladimir Putin ilə Azərbaycan Prezidenti İlham Əliyevin görüşləri həm rəsmi fotoşəkillərlə, həm də onların Bakı sakinləri ilə qeyri-formal görüşündən çəkilmiş kadrlarla nümayiş etdirilir.

Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra TASS agentliyinin mənzil-qərargahında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüb.

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində fevralın 23-də TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüb.

Görüşdə birinci xanım Mehriban Əliyeva da iştirak edib.

Görüş iştirakçılarını salamlayan TASS agentliyinin Baş direktoru Sergey Mixaylov dedi: Salam, həmkarlar. Biz sizin hamınızı burada görməyə şadıq. Əlbəttə, pandemiya üzərində qələbə elan edə bilmərik, lakin yavaş-yavaş TASS-ın məşhur "TASS-ın baş redaktorları klubu"nu bərpa edirik. Ona görə yox ki, biz əlifba sırası ilə "A" hərfindən başlamağı qərara almışıq, sadəcə, belə alınıb. TASS agentliyinə gəldiyinizə görə çox sağ olun. Cənab Prezident, biz çox şadıq, Siz burada həmişə çox əziz qonaqsınız və 10 il bundan əvvəlki görüş yadımızdadır, Mehriban xanım da burada olmuşdu. Ümumiyyətlə, nisbətən yaxın vaxtlarda, 5-6 il bundan əvvəl. Adətən bizim görüşlər səmimi dostluq şəraitində keçir. İstənilən sualları verə bilərsiniz. Siz nə isə demək istəyirsinizmi?

Prezident İlham Əliyev: Çox sağ olun. Mən Rusiyanın aparıcı media rəhbərləri ilə görüşmək imkanı yaratdığına görə TASS rəhbərliyinə təşəkkür etmək istərdim. Zənnimcə, mənim Rusiyaya rəsmi səfərimin formatı və əlbəttə, xüsusən dünən qarşılıqlı müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması nəzərə alınmaqla, əsl münasib vaxtdır. Rusiya ilə Azərbaycan arasında çoxsaylı sənədlər imzalanıb – 200-dən artıq. Lakin bu, xüsusi sənəddir, çünki dövlətlərarası münasibətlər qurulmasından 30 il keçdikdən sonra biz müttəfiqlik səviyyəsinə çatmışıq. Əslində, mən deyərdim ki, biz bunu rəsmən təsbit etmişik. Ona görə ki,

Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakteri, mənim fikrimcə, uzun illər boyu müttəfiqlərin münasibətlərinin bütün parametrlərinə cavab verirdi. Yəni, bu sənəd təkcə böyük işə yekun vurmaqla qalmayıb, həm də Rusiya ilə Azərbaycanın gələcək qarşılıqlı əlaqələri üçün, müsbət regional inkişaf üçün böyük perspektivlər açır. Bu sənəd imzalanandan heç bir gün keçməmiş mən buradayam. Qeyd edildiyi kimi, mən buraya ilk dəfə gəlməmişəm və bu divarlar mənə doğma olub. Xüsusən TASS-da həmişə mövcud olan sərbəstlik şəraitini, fikir mübadiləsi aparmaq və bəzən rəsmi bəyanatların çərçivəsindən kənarda olan müəyyən məsələləri aydınlaşdırmaq imkanını vurğulamaq istərdim.

Dünən Rusiya Prezidenti və mən rəsmi bəyanatlar verdik. Həmin bəyanatlar Azərbaycan mətbuatında tam şəkildə dərc edilib. Fikrimcə, onlarla tanış olmağa imkanınız olub. Buna görə təkrarçılıq etmək istəməzdim. Zənnimcə, sadəcə, bizim söhbətimiz üçün daha çox vaxt saxlamaq lazımdır. Beləliklə, sizin hamınızı görməyə çox şadam. Sağ olun ki, gəlməyə, vaxtınızı bu görüşə sərf etməyə imkan tapmısınız. Mən bunu çox yüksək qiymətləndirirəm.

Sergey Mixaylov: Buyurun, həmkarlar.

Vladislav Fronin, "Rossiyskaya qazeta"nın Baş redaktoru: Onda Bəyannaməyə aid birinci sual yaranır. Bəyannamədə 43 bənd var. Siz ümumi sözlərlə "ümumi səviyyə" deməsək, yeni səviyyə daha konkret olaraq nə deməkdir? Xahiş edirəm izah edin, həqiqətən iqtisadiyyatda, mədəniyyətdə, qarşılıqlı fəaliyyətin digər sahələrində yeni səviyyə nədən ibarətdir? Axı, bizdə neçə illərdir ki, müqavilə mövcuddur. Bəs bu, nə deməkdir, müqavilədən yüksək sənəddirmi?

Prezident İlham Əliyev: Mənim fikrimcə, elədir. Bu, müqavilədən yüksəkdir, ona görə ki, yadımdadırsa müqavilə dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında idi, lakin o, müttəfiqlər kimi münasibətlərin formatını müəyyən etmirdi. Uzun illər boyu Rusiya ilə Azərbaycan arasında münasibətləri mən də, Prezident Putin də strateji tərəfdaşların münasibətləri kimi xarakterizə etmişik. Münasibətlərin indiki formatı ali formatdır. Yəni, bundan yüksək format praktiki olaraq yoxdur. Dövlətlərarası münasibətlərdə bu, belə demək mümkünsə, aysberqin zirvəsidir. Mən tapşırıq vermişəm, Azərbaycanın Xarici İşlər Nazirliyi Bəyannamənin tam mətnini öz saytında yerləşdirib ki, hər kəs onunla tanış ola bilsin. Mənim dünən qeyd etdiyim kimi, orada 43 bənd var. Əlbəttə, bütün bəndləri şərh etmək həddən artıq vaxt aparar. Bir də ki, buna ehtiyac yoxdur, baxmaq olar. Lakin bu Bəyannamənin adının özü çox şeydən xəbər verir. Bu, artıq dediyim kimi, qarşılıqlı fəaliyyətin səviyyəsinin artırılması üzrə uzun illər boyu aparılmış çox ciddi işin nəticəsi, Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrupun bir ildən artıq müddətdə, – keçən ilin yanvar ayından, – bu Bəyannamənin mətni üzərində konkret işinin nəticəsidir. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir. Əlbəttə, bu Bəyannaməni müxtəlif istiqamətlər üzrə konkret sazişlərlə möhkəmlədəcək silsilə sənədlər də işlənib hazırlanma mərhələsindədir.

Onu da deməliyəm ki, Rusiya və Azərbaycan tərəfindən müxtəlif istiqamətlər – ticari-iqtisadi, nəqliyyat, humanitar fəaliyyət və digər istiqamətlər üzrə qəbul edilmiş səkkiz yol xəritəsi reallaşma mərhələsindədir. Yəni, münasibətlər o dərəcədə şaxələndirilib ki, bizim hansı sahələrdə əməkdaşlıq etməyimizi müəyyənləşdirməkdənsə, hansı sahələrdə əməkdaşlıq etmədiyimizi göstərmək və ya söyləmək daha asandır. Əlbəttə, hesab edirəm ki, bizim iki qonşu ölkə üçün bu səviyyəni qarşılıqlı müttəfiqlik səviyyəsi kimi müəyyən etmək böyük nailiyyətdir və əlbəttə, böyük məsuliyyətdir. Biz gələcəkdə də həmişə bu yüksək səviyyəyə uyğun olmalıyıq.

Dmitri Kiselyov, "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru: İlham Heydər oğlu, müttəfiqlik münasibətləri bir şəraitdə və bir Rusiya ilə hazırlanıb, lakin dünyada vəziyyətin keyfiyyətcə dəyişdiyi və Rusiyanın da keyfiyyətcə dəyişdiyi məqamda imzalanıb. Biz hamımız nə barədə danışdığımızı bilirik. Bax, bu dəyişmiş şəraitdə Rusiya ilə müttəfiqlik münasibətləri nə deməkdir? Bu, vəziyyəti – bizim müttəfiqlik münasibətlərimizi nə dərəcədə dəyişir və Siz bu şəraitdə həmin münasibətləri necə açıqlayırsınız?

Prezident İlham Əliyev: Bütün bunlar o qədər yaxın vaxtda baş verib ki, əlbəttə, bunu hələ yenidən dərk etmək lazımdır. Lakin deməliyəm ki, Bəyannamənin mətni bir neçə ay bundan əvvəl hazır idi. Yəni, son mətn hazır idi, sadəcə, prezidentlərin şəxsən görüşməsi lazım idi. Əlbəttə, pandemiya ilə bağlı bütün məhdudiyyətlər və prezidentlərin iş qrafiki nəzərə alınmaqla. Hələ mənim Moskvaya bundan əvvəlki səfərim zamanı - noyabrın axırlarında razılıq əldə edilmişdi ki, bu görüş cari ilin əvvəlində olacaq. Hətta Rusiya tərəfi görüşün tarixini də təklif etmişdi. Təklif edilən tarix imzalanma günündən təqribən 20 gün əvvəl idi və biz həmin təklifi qəbul etmişdik. Təbii ki, mən bu tarixi təshih etmək imkanını heç nəzərdən keçirməmişdim, ona görə ki, haqqında sizin dediyiniz hadisələr ayın 21-də, mən təyyarə ilə buraya uçanda baş verdi. Hətta mən hələ Bakıda olsaydım belə, buraya uçub gələrdim. Buna görə də bizim münasibətlərimizdə heç nə dəyişməyib və dəyişməməlidir. Biz bundan sonra da Bəyannamədə əks olunmuş və uzun illər boyu işlədiyimiz istiqamətlərdə çalışacağıq. Biz uzun illər boyu beynəlxalq arenada həmişə bir-birimizi dəstəkləyirik. Saxta təvazökarlıq olmasın, deyə bilərəm ki, bu yolun əsasını mən qoymuşam, AŞPA-da Azərbaycan parlamenti nümayəndə heyətinin sədri olarkən. Biz oraya seçiləndə bizim

təşəbbüsümüzlə Rusiya nümayəndə heyəti ilə görüş təşkil etdik və razılığa gəldik ki, bütün məsələlər barədə bir-birimizi dəstəkləyəcəyik və həmişə həmrəylər kimi səs vermişik. Bu ənənə sonradan başqa beynəlxalq strukturlara da transformasiya edib. Ona görə də bunu hətta mütəxəssis olmayanlar da izləyə bilərlər. Odur ki, mənim fikrimcə biz dünən, sadəcə, olanları rəsmiləşdirdik, bunu lazım olduğu şəkildə, bizim münasibətlərimizin ruhuna uyğun şəkildə adlandırdıq və bundan sonra da bu istiqamətdə işləyəcəyik. Əminəm ki, bizim regionda baş vermiş və hələ baş verə biləcək hadisələrlə əlaqədar istər Azərbaycan tərəfindən, istərsə də Rusiya tərəfindən heç bir düzəliş olmayacaq.

Mixail Komissar, "İnterfax" Agentliyinin baş direktoru: Elə bu mövzunun davamı kimi və eyni zamanda, yaxın vaxtlarda Qarabağda vəziyyətin müəyyən dərəcədə nizamlanmasını nəzərə alaraq Siz necə hesab edirsiniz, indi Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Şanxay Əməkdaşlıq Təşkilatına tərəf meyil edə bilərmi? Belə planlar varmı?

Prezident İlham Əliyev: Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, biz müəyyən mənada artıq fəaliyyətə başlamışıq. Artıq neçə ildir ki, biz dialoq üzrə tərəfdaşıq. Bu, birinci pillədir. İkinci pillə - müşahidəçilərdir. Biz bir neçə il bundan əvvəl öz statusumuzu müşahidəçi statusuna qədər yüksəltmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının Katibliyinə rəsmən müraciət etmişik. Təəssüf ki, bu məsələ indiyə qədər həll edilməyib. Mənim Rusiya rəhbərliyi ilə, Çin Xalq Respublikasının rəhbərliyi ilə və Şanxay Əməkdaşlıq Təşkilatının digər üzvləri ilə bu kontekstdə əlaqələrim onu göstərir ki, bizim statusumuzu yüksəltməmək üçün heç bir səbəb yoxdur. Lakin bizə məlum olmayan səbəblərə görə, bu məsələ indiyə qədər baş tutmur.

Digər inteqrasiya layihələrinə gəldikdə, biz bunun məqsədəuyğunluğunu və milli maraqlarımıza nə dərəcədə cavab verməsini əsas götürürük. Fikrimcə heç kəs üçün sirr deyil ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında aparıcı rol Rusiyaya məxsusdur. Bu, yaxın vaxtlarda MDB məkanında nümayiş etdirildi və hətta Qazaxıstan hadisələrindən əvvəl də hamıya aydın idi. Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri, habelə 43 bənddən 2-si - 6-cı və 16-cı bəndlər, - zəruri hallarda hərbi yardım göstərilməsi ilə bağlı məsələlərə birbaşa dəlalət edir. Mənim fikrimcə bu, tamamilə kifayətdir. Axı aydındır ki, KTMT-ni KTMT edən Rusiyanın orada olmasıdır. Əgər Rusiya KTMT-də olmasa, KTMT heç kəsin yadına düşməz. Hər şey bundan irəli gəlir. Rusiya ilə Azərbaycan arasında hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir addım artıq atılıb. Ermənistan istisna olmaqla KTMT-nin digər üzvləri ilə bizim çox etimadlı, yaxın, dostluq münasibətlərimiz var. Fikrimcə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlər də normallaşacaq. Hər halda biz Ermənistan ilə sülh müqaviləsi bağlamaq arzusunda olduğumuzu rəsmən bəyan etmişik. Yəqin ki, müəyyən mərhələdə bu, baş tutacaq. Lakin indiki geosiyasi reallıqlarda biz realist olmalı, əldə edilməsi mümkün olmayanı arzu etməməliyik. Biz Qafqazda möhkəm sülhün bərqərar olması istiqamətində irəliləməliyik. Buna görə düşünürəm ki, dünənki sənəd sizin sualınıza müəyyən dərəcədə cavab verir. Növbəti mövzuları qabaqcadan duyaraq deyə bilirəm ki, eyni sözlər Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı ilə bağlı suala da aiddir. Həm ekspertlər cəmiyyətində, həm də siyasi müstəvidə bu barədə də çoxdan diskussiya gedir. Lakin biz burada da onu əsas götürürük ki, bu, bizim iqtisadi maraqlarımıza nə dərəcədə cavab verəcək, çünki bizim strategiyamız və taktiki addımlarımız həmişə öz resurslarımıza, nəyə malik olmağımıza əsaslanıb. Biz özünəyetərli iqtisadiyyat yaratmağa və istər beynəlxalq maliyyə təsisatlarından, istərsə də hər hansı başqa maliyyə mədaxilindən asılı olmamağı bacarmışıq.

Buna görə də biz hər şeyi praqmatik baxımdan təhlil edəcəyik. Dünən Rusiya Federasiyası Hökumətinin başçısı ilə görüşdə bu mövzu müzakirə edilib. Bizim mövqeyimiz Rusiya tərəfə açıq çatdırılıb ki, biz, necə deyərlər, qarşımıza iki kağız vərəqi qoymalıyıq – harada müsbət cəhətlər, harada müəyyən məhdudiyyətlər ola bilər və ya bizim iqtisadi suverenliyimizə müəyyən dərəcədə düzəliş edilə bilər. Təbii ki, lehinə və əleyhinə olan məqamları təhlil edəndən sonra bizə sərfəli olan qərar qəbul ediləcək. Bununla yanaşı, deməliyəm ki, MDB üzvü olan bütün ölkələrlə, - təbii ki, Ermənistan istisna olmaqla, - azad ticarət haqqında, o cümlədən Rusiya ilə müqavilələr imzalanıb. İqtisadi və gömrük baryerlərinin yumşaldılması istiqamətində addım atılıb. Sonrasını isə, necə deyərlər, yaşayarıq, görərik. Heç nəyi tapmaca kimi tapmaq olmaz və biz heç vaxt qısa müddətdə əldə edilməsi mümkün olmayan hansısa hədəflər elan etməmişik. Lakin təbii ki, bu, bizim komandamızın daxilində müzakirələr çərçivəsində gündəlikdədir.

Marqarita Simonyan, "RT" telekanalının və "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş redaktoru: İlham Heydər oğlu, biz yeni-yeni sanksiyaların, o cümlədən personal sanksiyaların müzakirə olunduğu prosesdəyik, burada iştirak edənlərin bəzilərinin, məsələn Dmitrinin Avropaya girişi artıq qadağan edilib, mənim kimi bəzilərinə isə yəqin ki, bu gün qadağan ediləcək. Biz insanların nəyi isə etdiklərinə və ya etmədiklərinə görə, yaxud Dmitri ilə mənim kimi nəyi isə dediyimizə və ya demədiyimizə görə harayasa getməyin qadağan edilməsinə dair çox nümunə gətirə bilərik. Biz, həmçinin vətəndaşlıq əsasında ölkəyə girişə qadağa qoyulmasına dair çox nümunə göstərə bilərik, çünki müxtəlif ölkələr arasında münasibətlər müxtəlif

olur. Lakin dünyada etnik əlamətinə görə ölkəyə girişə qadağa qoyulmasına aid nümunələr demək olar ki, yoxdur. Biz hamımız bilirik ki, ermənilərin Azərbaycana girişinə qadağa qoyulub. Adətən bu, təhlükəsizlik mülahizələri ilə izah olunur. Beləliklə Azərbaycan xalqı qəribə də olsa, pis şəkildə təqdim olunur. Mənim üçün inanmaq çətindir və mən inanmıram ki, insanlar Azərbaycanda canlı etnik erməni görərsə onun üstünə atılar və onu tikə-tikə edərlər, hər halda orta əsrlərdə yaşamırıq. Siz bu məsələyə belə sivil, mədəni münasibət nümunəsi göstərmək və bu cəfəng status-kvonu, sadəcə, ləğv etmək istəməzdinizmi?

Prezident İlham Əliyev: Birincisi, deməliyəm ki, bizimlə bölüşdüyünüz informasiya yumşaq desək, həqiqətə uyğun deyil. Bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Onlar Avropa Oyunları kimi idman tədbirlərində iştirak edirlər. Ermənistandan olan komanda iştirak edib, mən hətta xatırlayıram ki, Ukraynanın milliyyətcə erməni olan bir nümayəndəsinə gümüş medalı şəxsən özüm təqdim etmişəm. O, qızıl medal qazanan azərbaycanlı boksçu ilə fəxri kürsüdə yanaşı dayanmışdı. Mən onun da əlini sıxıb təbrik etdim və bu, zaldakı adamların ürəyincə olmasa da, onlar məni uzun müddət alqışladılar.

Marqarita Simonyan: Mən bu əhvalatı bilirəm.

Prezident İlham Əliyev: Bax, görürsünüz. Deməli, sizin dediklərinizdə hər halda müəyyən qərəzlilik var. Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycana müxtəlif tədbirlərə gələndə də eyni vəziyyət baş verir. Bir neçə il bundan əvvəl Katolikos Qareginin səfəri olub, mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm – erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur. Narahatlıq var, daha doğrusu, vardı ki, belə hallar xaotik şəkildə baş verəndə hansısa insidentlərin ola biləcəyi barədə müəyyən risk var. Çünki təqribən 30 il ərzində Qarabağda və Zəngəzurda bütün Azərbaycan mədəniyyəti, tarixi, dini irsi məhv edilib. Mən özümlə kitab gətirmişəm, bu, hətta kitab deyil, "Qarabağ işğaldan əvvəl və sonra" adlı fotoalbomdur. Mən onu sizə təqdim edəcəyəm, siz baxarsınız, bu, hər bir sözdən yaxşıdır, orada nə baş verib və təbii ki, çoxlu zərərçəkən, valideynlərindən, yaxınlarından məhrum olan çoxlu insanlar. Bizdə indiyədək itkin düşənlərimizin sayı təqribən 4 mindir. Əfsuslar olsun ki, onlar bizə qaytarılmır və kütləvi məzarlıqların yerləri bildirilmir.

Biz öz vətəndaşlarımızın və qonaqlarımızın təhlükəsizliyinə cavabdehik. Buna görə xahişimiz ondan ibarətdir ki, ya Ermənistan vətəndaşları, ya da erməni soyadlı vətəndaşlar Azərbaycana gələndə müvafiq orqanlar məlumatlandırılsın. Xüsusi halda Rusiyadan söhbət gedirsə, səfirlik və səfir Polad Bülbüloğlu bu təlimatları bilir. Azərbaycana gəlməyə rədd cavabı verilən hallar olub. Lakin belə hallar məhz ona görə olub ki, bu formal qaydalara riayət edilməyib.

Erməni silahlı dəstələrinin nəzarəti altında olan əraziyə təsadüfən düşmüş, öz evlərinə getmək istəyən və tutulub saxlanmış, sonra əsir götürülmüş və işgəncələrə məruz qalmış azərbaycanlıların başına gələnlər barədə danışmaq istəmirəm. Bu, başqa mövzudur. Lakin düşünürəm ki, müharibə başa çatandan sonra əgər Ermənistan rəhbərliyi sülh müqaviləsi üzərində işləməyə başlamaq barədə bizim ideyaları qəbul etsə, belə səfərlər müharibədən əvvəl olduğu kimi adi hal ala bilər. İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub. Monoetnik dövlət olan, praktiki surətdə bütün milli azlıqların, ilk növbədə, azərbaycanlıların deportasiya edildiyi, qovulduğu Ermənistandan fərqli olaraq, Azərbaycan indiyə qədər çoxmillətli dövlətdir. Buna görə də Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq hər yerdə görünür və üstəlik, Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır. Onların sayı deyilən 30 mindən azdır. Yəqin ki, 30 min 10-15 il bundan əvvəl olub, bununla belə onlar var, yaşayırlar və normal yaşayırlar, heç kəs onlara heç bir iddia irəli sürmür. Buna görə də sizin sualınıza cavab vermək imkanından istifadə edərək sizi Azərbaycana gəlməyə dəvət etmək istərdim. Siz görərdiniz ki, heç bir məhdudiyyət yoxdur.

Marqarita Simonyan: Siz dediniz ki, mənim sualımda qərəzlilik var. İnanın, qərəzlilik yoxdur. Sizin dediyiniz halları mən bilirəm. Siz deyirsiniz ki, hər halda bunlar xüsusi hallardır. Onlar ölkənin Prezidentinə məlumdur – idman tədbirləri, siyasi, ictimai tədbirlər. Amma, məsələn, mənim bu sistemdə işlədiyim 20 il ərzində heç kəs oraya erməni soyadlı səs rejissorunun da daxil olduğu çəkiliş qrupu göndərə bilməyib. Əgər indi belə deyilsə, Siz erməni soyadlı məni dəvət edirsinizsə, bəlkə mən özümlə daha bir neçə həmkarımı götürüm, onlar məmnuniyyətlə gələrdilər. Mən Sizi düz başa düşdümsə, belə hallarda, əgər biz oraya qrup şəklində gəliriksə, müraciət etmək olar?

Prezident İlham Əliyev: Bəli.

Mixail Qusman: Bu, o demək deyil ki, Marqaritanın başçılıq etdiyi qrupda işləyənlərin hamısı ermənidir. Xeyr, bu, o demək deyil.

Prezident İlham Əliyev: Amma mən fikirləşirəm ki, onların əksəriyyəti ermənilərdir.

Marqarita Simonyan: Siz yanılırsınız.

Prezident İlham Əliyev: Siz də indicə yanıldınız.

Marqarita Simonyan: Mənim 6 min işçim var. Onların əksəriyyəti ingilis və amerikalıdır. Mən düz

başa düşürəmmi ki, biz oraya gələ bilərik. İlham Heydər oğlu, mənim beşinci nəslim rusiyalıdır.

Prezident İlham Əliyev: Bəli, lakin mən belə başa düşdüm ki, siz indiki halda erməni kimi sual verdiniz.

Marqarita Simonyan: Mən öz əməkdaşlarını yalnız etnik əlamətə görə iki ölkəyə - erməni soyadlı insanları Azərbaycana və gürcü soyadlı insanları Abxaziyaya göndərə bilməməklə üzləşən təşkilatın rəhbəri kimi sual verdim. Sadəcə, mənə elə gəlir ki, müasir dünyada bu, düzgün deyil və indi Sizinlə söhbətimizdə hansısa etnik səviyyəyə keçməyimiz də düzgün deyil.

Prezident İlham Əliyev: Siz başladınız, mən, sadəcə, düzəliş vermək istədim, dedim ki, sizin dediyiniz düz deyil. Mən yüzlərlə belə misal göstərə bilərəm, erməni soyadlı insanlar həm çəkiliş qrupunun tərkibində, həm rəsmi nümayəndə heyətlərinin tərkibində, o cümlədən Rusiyadan, digər ölkələrdən – Fransadan, ABŞ-dan gəlirlər. Belə hallar çox olub, sadəcə, yəqin bu barədə sizin məlumatınız yoxdur. Lakin düşünürəm ki, siz öz qrupunuzla gəlsəniz, bunu yəqin edərsiniz.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva: Olarmı, mən Marqaritanın dediklərinə bir az əlavə edim.

Prezident İlham Əliyev: Əlbəttə, olar.

Mehriban Əliyeva: Bizim Moskvaya səfərimiz ərəfəsində Azərbaycan televiziyasında bir sənədli film göstərilirdi. Film bir ahıl qadın haqqında idi. Onun 79 yaşı var, Ağdama, işğaldan azad edilmiş Ağdama gəlib, öz evini axtarır. Qadın həqiqətən çox qoca idi, çətinliklə yeriyirdi və 30 dəqiqə ərzində o, praktiki olaraq göz yaşları tökə-tökə öz emosiyaları barədə, təbii ki, heç nə tapmaması barədə danışmağa çalışırdı. O, hətta evinin xarabalığını da tapmadı, yəni o, heç olmasa həmin sahəni tapmağa çalışırdı. Bu, həqiqətən tamamilə dəhşətli mənzərədir. Düşünürəm, indi imkan yaranıb, mən sizin hamınızı dəvət etmək istəyirəm. Ona görə ki, cənab Prezident kitab barədə də danışdı, lakin bunları öz gözünüzlə görmək lazımdır. Nə üçün indi bu barədə danışıram, - o qadın öz sərgüzəştini danışdı və paralel olaraq müharibədən əvvəl, birinci müharibədən əvvəl çəkilmiş kadrlar qalıb. O vaxt o qadının ailəsində toy olub, - onlar bu toyu həyətdə necə qeyd ediblər, gənc gəlini qəbul ediblər və indiki, bugünkü kadrlar. Onun gözlərindən sevinc yaşı axır: nəhayət ki, bu torpağa qovuşub. O deyirdi: “Mən bu günü gördüm. Xoşbəxtəm ki, bu günə qədər yaşadım”. Sonda həmin qadın bir ovuc torpağı götürüb öpür. İndi mən bunu ona görə danışıram ki, bunları çatdırmaq çətindir, yəqin bunu görmək, hiss etmək lazımdır ki, belə insanlar çoxdur. Birinci müharibə illərində bizdə 1 milyona yaxın qaçqın olub. Bu günü görmək arzusu ilə yaşayanların çoxu dünyasını dəyişib, sağ qalanlar üçün indi, əlbəttə, xoşbəxt günlərdir. Təbii ki, bu insanların ailələri var, tanışları var. Belə vəziyyətlər yarananda, həqiqətən Prezidentin vurğuladığı kimi, ilk növbədə, onları qorumaq lazımdır. Ona görə ki, çox vaxt biz böyük problemlərdən söz açanda ümumi şəkildə danışırıq və ayrıca insanı görmürük, - bu, bəlkə də təbiidir. Hər bir problemin arxasında yəqin ki, konkret insan dayanır, onun həyat tarixçəsi, emosiyaları dayanır və təəssüf ki, insanlar da, onların emosional fonu da fərqlidir. Məhz bu səbəbdən dövlət, - indiki halda Prezident Azərbaycan dövlətinin adından danışır, - Azərbaycana gələn hər kəsi qorumalıdır. Lakin dövlət insanların hansı emosiyalarla yaşadığını da bilir. Mən məktəbdə oxuyanda bizim sinif çoxmillətli idi – ermənilər, ruslar, yəhudilər, azərbaycanlılar... Hətta deyə bilmərəm ki, mənim sinfimdə azərbaycanlılar əksəriyyət təşkil edirdi, - yadınızdadırsa o vaxt bir sinifdə 45 şagird olurdu. Biz hamımız dostluq edirdik, əlbir idik, heç bir pislik gözləmirdik. Hesab edirəm ki, bu məziyyət Azərbaycan xalqının ən yaxşı cəhətlərindən biridir və o, yox ola bilməz. Bu gün belə olması tamamilə izah edilə biləndir və təəssüf ki, bunun baş verməsinin tarixi səbəbləri var.

Marqarita Simonyan: Sizinlə bir sinifdə oxuyan ermənilər yəqin ki, artıq Azərbaycanda yaşamırlar, onlar gələ bilərlərmi? Mən bunu soruşuram. İndi mən tarixə varmaq istəmirəm.

Mehriban Əliyeva: Əlbəttə, Marqarita, gələ bilərlər.

Marqarita Simonyan: Yəni, onlar səfirliyə müraciət etməlidirlər və gələ bilərlər.

Timur Vaynşteyn, NTV telekanalının baş prodüseri: Marqarita, bu mövzuda biz hətta səninlə danışdıq. Hətta dedim ki, mən Mehriban xanımın oxuduğu məktəbdən təqribən 150 metr məsafədə yerləşən 160 nömrəli məktəbdə oxumuşam. Bizim sinifdə də müxtəlif millətlərdən 45 nəfər var idi, özü də o zaman hələ bilmirdilər, sonralar kimin hansı millətdən olmasını öyrənməyə başladılar. Mən erməni millətindən olan məktəbli yoldaşımı konkret bilirəm, o, bir neçə il əvvəl Bakıda olub, o zaman səfirliyə müraciət edib. Bütün bunlar rəsmi idi. Aydındır ki, bizim eşitdiyimiz hallar yəqin var. Sadəcə, hadisələr olur, təəssüf ki, sosial şəbəkələrə çıxır. Lakin qlobal olaraq mümkündür. Mən yaxın vaxtlarda öz məktəbimdə oldum. Orada hər şey gözəldir. Mən hətta oxuduğum illərdən əvvəl həmin məktəbdə işləmiş pedaqoqlara rast gəldim. Hərçənd mən məktəbi bitirəndən 30 ildən çox vaxt keçib. Əlbəttə, mənim diqqət yetirdiyim, heyrətamiz faktlardan biri odur ki, məktəb indi də rus dilində işləyir. Siz dünən Vladimir Vladimiroviçlə bunu müzakirə etdiniz ki, Azərbaycanda tədrisin rus dilində aparıldığı 300-dən çox məktəb - 340 məktəb və təqribən 20 ali təhsil müəssisəsi, o cümlədən Rusiyanın məşhur universitetlərinin filialları var. Mənə elə gəlir, biz bu gün Rusiyanın müxtəlif ölkələrlə münasibətindən danışanda, vacib məsələlərdən biri məhz müttəfiqlikdir. Çünki bir çox ölkələr, təəssüf ki, həmin 1990-cı illərdə rus dilində

təhsil imkanlarını və ünsiyyətin qarşısını, ümumiyyətlə, kifayət qədər sərt şəkildə kəsdilər, bu gün biz ümumilikdə Rusiyanın bu ölkələrlə kifayət qədər mürəkkəb münasibətlərini görürük, mən keçmiş Sovet İttifaqı ölkələrindən danışıram. Siz necə hesab edirsiniz, bu tendensiya, ümumiyyətlə, necə davam edəcək?

Prezident İlham Əliyev: Bu, dövlət siyasətinin bir hissəsidir. Lakin sizin suala cavab verməzdən əvvəl mən söhbətimizin mövzusu barədə kiçik bir arayış vermək istərdim. Lap elə bu günlərdə, hətta ola bilər elə bu gün Azərbaycan parlamentinin iki üzvü İrəvanda Avronestin sessiya iclasında olublar. Onların ora getməsi üçün biz Dövlət Təhlükəsizliyi Komitəsi və ya Nazirliyindən, – mən bilmirəm Ermənistanda necə adlandırılır, – bu adamların təhlükəsizliyi barədə zəmanət aldıq. Bəziləri biləndə ki, onlar Ermənistandadır, iğtişaşlar başlandı. İndi buna sosial şəbəkələrdə baxmaq olar, iğtişaşlar səngimir. Mənə bu gün məlumat verdilər ki, etirazçılardan on nəfəri saxlanılıb, onlar bizim deputatlarımız üçün sadəcə, təhlükə doğurur. Bundan başqa, bu iclasın iştirakçıları üçün naharın nəzərdə tutulduğu yerdə, – orada isə təbii ki, təkcə bizim vətəndaşlar deyil, həm Avropa Parlamentinin üzvləri, həm Şərq Tərəfdaşlığı ölkələrindən üzvlər var, – restoranın sahibləri azərbaycanlılara xidmət göstərməkdən imtina ediblər. Onlar Ermənistanın baş nazirini bunda ittiham edirlər ki, guya o, azərbaycanlılar Yerevana gedəcək deyən Əliyevin fikri ilə oturub-durur. Bəli, mən bunu demişəm. Onu da demişəm ki, tanklarda yox, tədbirlərə gedəcəyik. Bu, ona görədir ki, onlar özləri razılaşdırılmadan, bütün təhlükəsizlik tədbirləri olmadan getsəydilər, onların üzərində hansı Linç mühakiməsinin qurulacağını və bütün bunların nə ilə qurtaracağını təsəvvür etmək çətin deyil. Mən əminəm ki, ən azından hamının gözü qarşısında onların başlarını kəsərdilər. Buna görə biz də tədbirlər görürük. Bu mövzu, yeri gəlmişkən, Rusiya xarici siyasət idarəsinin rəhbəri Sergey Viktoroviç Lavrovun səfərləri zamanı müzakirə edilib. Mən o vaxt izah etməyə çalışdım ki, biz hər hansı ekssess baş verməsinə yol verə bilmərik və onda bizi də ittiham edəcəklər ki, kimsə kiməsə hücum edib, daş atıb, buna görə də biz məsuliyyətli yanaşmalıyıq. Əgər bunların hamısı təşkil edilib və razılaşdırılıbsa, onda buyurun, heç bir məhdudiyyət yoxdur. Üstəlik, Mehribanın dediyi tamamilə doğrudur, müharibənin yaraları sağalmayıb. Əgər bu yaralar bizdə 30 il ərzində sağalmayıbsa, təbii ki, ikinci müharibədə məğlubiyyətdən sonra erməni xalqının da yaraları indi sağalmayıb. Bunu da başa düşmək lazımdır. Biz axı, hansısa vakuumda yaşamırıq, biz insanlar arasında yaşayırıq və buna məsuliyyətlə yanaşmalıyıq. Yeri gəlmişkən, bizim, o cümlədən mənim atdığım addımlar, erməni rəhbərliyindən fərqli olaraq, barışmalı olduğumuzu bəyan etməyimiz belə məsələlərin yaranmamasına, bunun adi hala çevrilməsinə yönəlib. Yəqin ki, İkinci Dünya müharibəsi qurtarandan sonrakı ilk ildə də almanlar və SSRİ vətəndaşları bir-birinə qonaq getməyiblər. Onda da yəqin ki, müəyyən vaxt lazım olub. Təsəvvür edin, deyək ki, Ukraynanın və ya Belarusun, yaxud Smolenskin işğalı dövründə Moskvaya almanlar gəlsəydilər, onlara nə edərdilər? Yəni, bu analogiya, necə deyərlər, tam adekvatdır. Bu sözləri mövzuya qayıdaraq deyirəm.

Rus dilində təhsilə gəldikdə, bəli, bu, düşünülmüş siyasətdir. Təbii ki, biz bunu, ilk növbədə, özümüz üçün edirik, rus dilində təhsil almaq istəyənlərin – həm azərbaycanlıların, həm qeyri-azərbaycanlıların belə imkanları olsun. Bizim rus sektoru dediyimiz məktəblərə tələbat çoxdur və dediyim kimi, həmin məktəblərdə həm azərbaycanlılar, həm də qeyri-azərbaycanlılar – 140 mindən çox uşaq və ali məktəblərin rus bölmələrində 15 mindən çox Azərbaycan vətəndaşı təhsil alır. Arayış üçün deyim ki, Ermənistanda erməni millətinin uşaqlarının qeyri-erməni məktəblərində təhsil alması, ya qanunvericiliklə, ya da hansısa təlimatlarla ümumiyyətlə qadağan edilib. Bildiyimə görə, Ermənistanda cəmi bir və ya iki rus məktəbi var, onlar da hərbçilər üçündür. Necə deyərlər, baxın görün kim kimdir. Odur ki, əlbəttə, dünən imzalanmış Bəyannamədə humanitar əməkdaşlıq haqqında bənd də var, bu, qarşılıqlı əməkdaşlıqdır. Moskvaya səfərdən əvvəl mənə arayış verildi, orada deyilir ki, Rusiyada da təqribən 80 məktəbdə Azərbaycan dili bölməsi var. Biz bunu çox alqışlayırıq ki, azərbaycanlılar və Rusiya vətəndaşları, burada işləyənlər, onların uşaqları da öz dillərində təhsil ala bilsinlər. Yəni, bu qarşılıqlı proses tamamilə əməkdaşlıq ruhundadır və düşünürəm ki, Timur dediyi kimi, postsovet məkanındakı digər ölkələrlə müqayisədə, bu, məsələyə necə yanaşmaq nümunəsidir. Bu, təkcə təhsilə yox, bütövlükdə rus dilinə münasibətə aiddir. Azərbaycanda dövlət ali təhsil müəssisəsi var – Slavyan Universiteti, orada, ilk növbədə, rus dili öyrənilir, rus dili və digər slavyan dilləri üzrə müəllimlər hazırlanır.

Pandemiyaya qədər, demək olar, Bakıda hər həftə yaradıcı ziyalıların nümayəndələri çıxış edirdilər – tamaşalar, konsertlər olurdu, yəni biz bu cür qarşılıqlı əlaqədə yaşayırıq. Timur yaxşı bilir, birinci il deyil və çox vacibdir ki, bizim artıq bir dövlətdə olmadığımız illərdə yeni nəsil yetişib, biz bunu qorumağı bacardıq və bunu gələcəkdə də qorumaq üçün əlimizdən gələni edəcəyik.

Pavel Qusev, "Moskovskiy komsomolets" qəzetinin baş redaktoru: Rusiyalıların nəzərində Türkiyə istirahət üçün çox populyar yerdir. Azərbaycan burada birinciliyə nail olmaq barədə düşünürmü, alkoqollu içkilər daha yaxşı, dəniz pis deyil, meyvələr və yerdə qalan hər şey, çay - əladır. Mənə elə gəlir ki, Azərbaycan Türkiyə ilə güclü rəqabət apara bilərdi.

Prezident İlham Əliyev: Yox, əlbəttə, düşünürəm bu, ağlabatan deyil. Çünki birincisi, Türkiyənin turizm sənayesi, mən hesab edirəm, dünyada ən yaxşılarından biridir və əlbəttə, iqlim şəraiti də. Yəni, sırf iqlim şəraiti səbəbindən bizim rəqabət aparmağımız tamamilə faydasızdır. Əlbəttə ki, biz, mən düşünürəm, tamam başqa seqmenti təmin edərik. Biz buraya gələnlərin özlərini evlərində olduğu kimi hiss etmələrini təmin edərik. Türkiyəyə isə görməli yerlərə baxmaq, dənizdə çimmək, xizək sürmək üçün gedirlər. Bütün bunları da Azərbaycanda etmək olar, lakin rusiyalılar çox vaxt elə bil öz evlərinə gedirlər. Yeri gəlmişkən, pandemiyaya qədər 2019-cu ildə bizdə Rusiyanın bir milyon vətəndaşı turist kimi səfərdə olub, onlar, ilk növbədə, ona görə gedirlər ki, özlərini rahat, öz mühitində, o cümlədən dil mühitində hiss edirlər. Əlbəttə ki, sizin dedikləriniz də mövcuddur, lakin bütün başqa şərait olsaydı və bu ab-hava olmasaydı, onlar yəqin ki, gəlməzdilər. Biz hər il təqribən 15-20 faiz artım müşahidə edirdik, pandemiya bütün bunları dağıtdı, lakin ötən il yenə 15 faiz artım oldu. Odur ki, biz, sadəcə, təkcə Moskvada deyil, Rusiyada daha fəal olmalı, imkanlarımızı göstərməliyik. Yəni, Azərbaycanda istirahət ən müxtəlif formalardadır və düşünürəm ki, istənilən adam, necə deyərlər, özünə maraqlı məşğuliyyət tapa bilər, sadəcə, bunu yaxşı təqdim etmək lazımdır. Əlbəttə ki, turizm sənayesinin zəif olması bizim zəif yerimizdir. Lakin burada yəqin ki, həm də obyektiv səbəblər var. Çünki bu sahə bizim üçün nisbətən yenidir və burada kadrların hazırlığı, servis məsələləri mühüm rol oynayır. Lakin məsələn, indi Rusiya şəhərləri ilə Azərbaycan şəhərləri arasında həftədə yüz reys var, əlbəttə, bu, yaxşı göstəricidir. Mən fürsətdən istifadə edib sizin hamınızı Azərbaycana dəvət etmək istərdim, ya qrup şəklində, ya fərdi qaydada.

Mixail Qusman: Yaz gələndə, təbiət çiçək açanda, – TASS-ın təcrübəsi var, – biz bütün heyətlə Azərbaycana gələrik.

Konstantin Remçukov, "Nezavisimaya qazeta"nın baş redaktoru: Avropada olanda ATV kanalını tapdım və iki həftə hər gün xəbərlərə baxdım. Aydın oldu ki, bu, Azərbaycan xəbərləridir. Mənim o zaman türklərlə Sizin əməkdaşlığınız haqqında belə geniş məlumatım yox idi: Hər gün regional aeroport, avtostansiyalar açılır və insanlar danışır. Türkiyənin regional güc kimi rolunun dinamizmini, bəzən Rusiyanın mənafeləri ilə kəsişən və ya üst-üstə düşən maraqlar, bəzən Suriyadakı kimi münaqişəli, Ukraynaya hərbi dronların tədarükü halında olduğu kimi məqamlar nəzərə alınmaqla, dünyanın bu hissəsində tərəfdaşlar kimi Azərbaycan-Türkiyə münasibətlərini səciyyələndirməyinizi xahiş etmək istərdim. Sağ olun.

Prezident İlham Əliyev: Münasibətlər də müttəfiqlik münasibətləridir. İşğaldan azad edilən Şuşa şəhərində ötən il iyunun 15-də mən və Prezident Ərdoğan tərəfindən müttəfiqlik barədə Bəyannamə imzalandı. Bu da bizim malik olduqlarımızın formallaşdırılması idi, çünki Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri birinci il deyildi ki, mövcud idi. Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkə idi. Biz müstəqil dövlət kimi ən birinci addımlardan Türkiyə tərəfindən mənəvi dəstəyi hiss etdik. Son illər ərzində Prezident Ərdoğanın prezidentliyi dövründə və mənim dövrümdə, - bu dövrlər ümumilikdə daha çox üst-üstə düşür, - biz faydalı əməkdaşlıq fəaliyyətimizin əmsalını əhəmiyyətli şəkildə artırmışıq. Belə bir misal çəkim: Azərbaycan Türkiyə iqtisadiyyatına 19 milyard dollar, Türkiyə isə Azərbaycana 13 milyard dollar sərmayə qoyub. Podratçı kimi Türkiyə şirkətləri tərəfindən icra olunan çoxlu infrastruktur layihələri var. Təbii ki, mədəni yaxınlıq, dil yaxınlığı, etnik yaxınlıq – bunlar çox vacibdir. Bu, həmin bünövrədir ki, bizə bu münasibətləri misli görünməmiş səviyyəyə yüksəltməyə imkan verib.

Ancaq biz bilirik, etnik yaxınlıq, o cümlədən dil yaxınlığı əfsuslar olsun ki, heç də həmişə sıx münasibətlərin rəhni deyil. Bizim vəziyyətdə buna nail olundu, fikrimcə, uzun illər ərzində və indi də qorunub saxlanılan düzgün siyasət, bərabərhüquqlu münasibətlər sayəsində buna nail olduq. Əlbəttə, Türkiyə Azərbaycana İkinci Qarabağ müharibəsinin elə ilk günlərindən siyasi və mənəvi dəstək göstərən ölkə oldu. Həmçinin bu siyasi, mənəvi dəstəklə Türkiyə bəzi ölkələrdəki bir sıra dairələrin Azərbaycana münasibətdə düşməncəsinə hərəkətlərin birmənalı şəkildə qarşısını aldı. Biz bunu çox yüksək qiymətləndiririk. İkinci Qarabağ müharibəsinin ilk günündən, ilk saatlarından Prezident Ərdoğan bəyanatla çıxış etdi və sonra dəfələrlə Azərbaycanı dəstəkləyən bəyanatlar verdi. Təəccüblü deyil ki, indi Qarabağın və Şərqi Zəngəzurun bərpası işində ən başlıca rolu Türkiyə şirkətləri oynayır, onlar bizə çox kömək edirlər.

Deməliyəm ki, biz bütün bərpa işlərini yalnız öz vəsaitimiz hesabına görürük, biz heç kimdən nə kredit qismində, nə də hansısa müftə kömək kimi bir manat, rubl və ya dollar almamışıq. Biz hər şeyi öz hesabımıza edirik, lakin podratçı kimi Türkiyə şirkətlərindən çox fəal istifadə edirik. Yeri gəlmişkən, deməliyəm ki, Rusiyanın 14 şirkəti də onlara işğaldan azad edilən ərazilərdə işləmək imkanı yaradılması istəyi ilə bizə müraciət edib. Fikrimcə, əgər bizim nöqteyi-nəzərdən baxsaq dünən imzalanan sənəd mahiyyətcə tarixi nailiyyətdir. Çünki Azərbaycan iki böyük ölkə, iki qonşusu ilə müttəfiqlik münasibətlərinə malikdir. Düşünürəm ki, başqa heç bir ölkə bununla öyünə bilməz. Mən hələ o barədə demirəm ki, NATO-ya üzv ölkə ilə və KTMT-nin de-fakto rəhbər ölkəsi ilə. Bu, əslində, nailiyyətdir və yəqin, heç kim üçün sirr deyil ki, artıq əməkdaşlığın üçtərəfli formatı da de-fakto

formalaşır. O, hələ formalaşmayıb, prezidentlər də daxil olmaqla, hələ xarici işlər nazirlərinin görüşü baş tutmayıb, lakin o, artıq formalaşır. O, ümumi maraqlar, praqmatizm və oxşarlıq əsasında formalaşır. Bizim idarəetmə sisteminin oxşarlığı, tərəfdar olduğumuz dəyərlərin oxşarlığı heç kim üçün sirr deyil. Məsələn, bizə çox xoşdur ki, prezidentlər Ərdoğan və Putin arasında olduqca etibarlı münasibətlər mövcuddur. Onların hər ikisi bu barədə açıq şəkildə danışırlar. Beləliklə, mən fikirləşirəm ki, bu münasibətləri formalaşdıracağımız o gün artıq uzaqda deyil. Xüsusən ona görə ki, Azərbaycan Rusiyanın və Türkiyənin müttəfiqidir, burada necə deyərlər, artıq növbəti addım tələb olunur. Ancaq bu, bizim işimiz deyil, lakin biz öz tərəfimizdən iki ölkənin maraqlarının yaxınlaşdırılması üzərində həmişə işləmişik.

Oleq Dobrodeyev, Ümumrusiya Dövlət Teleradio Yayımlar şirkətinin baş direktoru: İlham Heydər oğlu, mən Sizdən bunu soruşmaq istərdim. Mənim yəqin ki, ən ağır xatirələrimdən biri 1990-cı illərin əvvəllərində Bakıda olanda yüz minlərlə qaçqın barədə idi, praktik olaraq bütün şəhər, şəhərin bütün mərkəzi. Əlbəttə, Siz xatırlayırsınız. Mənim sualım belədir. Artıq 30 ildən çox müddət keçib. Aydındır ki, bu, ağlasığmaz ağrı, faciədir, lakin Siz haqlı olaraq dediniz, ən ağrılı odur ki, bu, hər bir konkret insanın üzərindən keçir. Onlar indi hansı fəallıqla geriyə qayıdırlar?

Prezident İlham Əliyev: Hələ ki, qayıtmağa yer yoxdur, çünki birincisi, hər şey dağıdılıb və ikincisi, hər yer minalanıb. Müharibənin qurtarmasından keçən bir il üç ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200 nəfərdən çoxdur. Müharibə başa çatandan sonra ilk aylarda Vladimir Vladimiroviç Putinin çağırışlarına baxmayaraq, baş nazir Paşinyan onlarda mina xəritələrinin olmaması barədə inadla danışırdı. Bu, yalan idi və biz bilirdik ki, minalanmış sahələrin xəritəsi var. Bir neçə aydan sonra artıq onlar etiraf etdilər ki, bəli, belə xəritələr mövcuddur, lakin onları bizə verməkdən imtina edirdilər. Əslində, bununla beynəlxalq humanitar hüququ kobud şəkildə pozur və barələrində danışdığınız qaçqınları ölümə məhkum edirdilər. Çünki insanlar 30 il gözləmişdilər, hamının qarşısını almaq, hər yolda blok-postlar qurmaq da mümkün deyildi. Yəni, dolayı yollar var, insanlar keçir, gedirlər, öz evlərinin heç olmasa xarabalığını axtarıb tapmaq istəyirlər və həlak olurlar. Minalanmış sahələrin xəritələri yekunda bizə təhvil verildi, lakin onların dəqiqliyi 25 faiz təşkil edir. Yəni, əslində, yararsızdır. Bu, başlıca problemdir ki, niyə biz artıq indi insanları qaytara bilmirik. Buna baxmayaraq, biz indi pilot layihəni icra edirik, yəqin ki, bir neçə aydan sonra Zəngilan rayonunun kəndlərindən birində həyata keçiriləcək, ilk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq. Sadəcə, müqayisə üçün deyim ki, biz Livanın ərazisinə bərabər ərazini bərpa etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni, sözün əsl mənasında, hər şey dağıdılıb. Ağdam şəhərində 30-40 min insan yaşayırdı, orada xarabalıqdan başqa heç nə yoxdur. Daşları daşıyıb aparıb, satıblar. Başdaşılarını sındırıb, aparıb və satıblar. Yəni, misli görünməmiş, ağlasığmayan miqyasda vandallıq. Bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Əfsuslar olsun ki, işğal altında olan ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bunu görməməyi üstün tutub.

Beləliklə, bizim qarşıda böyük işlərimiz var – su, işıq, qaz, yollar, minalar, evlər. Biz başlamışıq, biz ötən il 1 milyard 300 milyon dollar ayırmışdıq, bu il isə eyni vəsaiti bərpa işlərinə ayırmışıq. Pilot layihə icra olunur, lakin bu, vaxt aparacaq. Deməliyəm ki, bununla paralel olaraq, işğal dövründə biz qaçqınlar üçün fəal şəkildə evlər tikirdik, hər il təxminən 5-6 min ailəni, təqribən 30 min insanı yerləşdirirdik. Yəni, onlardan təqribən 70 faizi normal yaşayır. Biz Bakıda, Sumqayıtda, Gəncədə və bir çox şəhərlərdə evlər tikirdik. Lakin onların 30 faizi hələ də uyğunlaşdırılmayan binalarda, yataqxanalarda, uşaq bağçalarında və ağır şəraitdə yaşayır. Buna görə də, ilk növbədə, bu kateqoriyadan olan insanlar geri qaytarılacaq. Artıq bizim tərəfimizdən Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin Baş planları işlənib hazırlanıb, digər şəhərlərinki də yaxın vaxtlarda təsdiqlənəcək. Hər şey plan üzrə yerinə yetiriləcək, heç bir qarma-qarışıqlıq olmayacaq. “Yaşıl enerji” prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün zonası “yaşıl enerji” zonası və “ağıllı şəhərlər”, “ağıllı kəndlər” konsepsiyası olacaq. Bu insanlar çox gözləyiblər, bu səbəbdən onlar Azərbaycanda mümkün olan ən yaxşı şəraitdə yaşamalıdırlar. Mən konkret müddət deyə bilmərəm, hətta onlarla görüşlərdə deyə bilmərəm, onları yanıldа bilmərəm. Biz bu prosesi sürətləndirmək üçün hər gün, hər saat hər şey edirik. Lakin bizə, əlbəttə ki, kömək lazımdır, məhz minalardan təmizlənmə baxımından, hətta maliyyə yardımı deyil, texniki yardım lazımdır. Sadəcə, biz fiziki cəhətdən çatdıra bilmirik. Bizim Minatəmizləmə Agentliyimiz var, Müdafiə Nazirliyində bir neçə batalyonumuz var, FHN qrupu var. Lakin fiziki baxımdan çatmır, çünki bu, çox ləng prosesdir. Buna görə də biz beynəlxalq strukturlara kömək üçün müraciət etmişik. Lakin əfsuslar olsun ki, artıq bir il üç ay keçib, hələ də müraciətimiz cavabsız qalıb.

Konstantin Ernst, Birinci kanalın baş direktoru: Minalardan təmizlənmə işlərində Rusiya FHN-in böyük təcrübəsi var. Onlar Afrikada böyük müqavilələr götürürlər, onlarda təcrübə böyükdür.

Prezident İlham Əliyev: Onlar, ilk növbədə, treninq üzrə pulsuz kömək qismində iştirak ediblər, çünki hər şeydən ziyadə indi bizə bacardığımız qədər çox mütəxəssis hazırlamaq lazımdır ki, onlar bu işlə məşğul

olsunlar. Əfsuslar olsun ki, minalardan təmizləmə işlərini aparanlar arasında da zərər çəkənlər var. Bu, əsas problemdir.

Əlbəttə ki, itkin düşənlər, çünki İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad etdiyimiz ərazilərdə 1700-dən çox həlak olmuş erməni hərbi qulluqçusu bizim tərəfimizdən tapılıb və biz onların hamısını qaytarmışıq. Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir. Biz erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, lakin hələ cavab yoxdur. Mən bilmirəm niyə. Yəqin onlar başa düşürlər ki, orada, sadəcə, hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağdadır, bizim işğaldan azad etdiyimiz ərazilərdədir.

Yevgeni Bekasov, “Rossiya-24” telekanalının Baş redaktoru: İlham Heydər oğlu, qısa sual verəcəyəm. Hazırda spot bazarındakı qazın qiymətinin artması barədə hamınız bilirsiniz. Azərbaycan Avropa bazarına tədarükü artırmağa hazırdırmı və hansı miqdarda?

Prezident İlham Əliyev: Belə sorğular bizə mövcud vəziyyəti nəzərə almaqla Avropa komissiyasının məsul nümayəndələri tərəfindən daxil olur. Lakin məsələ ondadır ki, bizim ölkədə Avropaya tədarükə başladığımız bütün həcmlər, biz isə bunu bir ildən bir qədər artıq, Trans-Adriatik qaz kəmərinin tikildiyi zaman etməyə başladıq, hamısı artıq çoxdan, 4 və ya 5 il əvvəl kontraktlaşdırılıb. Siz yaxşı bilirsiniz, qaz elə bir məhsuldur ki, onu əvvəlcə satmaq, sonra isə hasil etmək lazımdır, ona görə də biz, sadəcə, fiziki olaraq, buna malik deyilik, yəni, bizə əlavə qazın lazım olduğunu nəzərə almamışdıq. Bizim ən böyük istehlakçımız Türkiyədir. Ondan sonra İtaliya, sonra Gürcüstan, Yunanıstan, Bolqarıstan. Biz keçən il cəmi 19 milyard kubmetr qaz ixrac etmişik, bu il daha çox olacaq. Ola bilər ki, artığı spot bazarında satılsın.

Uzunmüddətli kontraktlara gəldikdə isə bunun üçün təbii ki, biz əlavə olaraq sərmayə qoymalıyıq. Söhbət böyük həcmlərdən gedirsə, o cümlədən Trans-Adriatik qaz kəmərinin genişləndirilməsinə sərmayə qoymaq lazımdır, çünki o, bizim qazın həcminə uyğun hesablanmışdı. Bütün bunlar, təbii ki, böyük xərc və təminat tələb edir. Artıq bizə bir neçə ölkə müraciət edir, lakin onlar özləri də, yəqin başa düşürlər ki, bu, həll oluna bilməz. Spot bazarında satışlar cüzi ola bilər, həcmi artırmaq üçün isə təbii ki, potensial var. Bir neçə ildən sonra biz ən azı iki yeni yataqdan qaz hasil edəcəyik, onlardan birindən artıq gələn il. Bu qaz, təbii ki, xarici bazarda satıla bilər.

Lakin deməliyəm ki, bizim üçün ən cəlbedici tərəfdaş Türkiyədir. Birincisi, çünki biz müttəfiqik və düşünürəm ki, Türkiyə və Azərbaycan arasında qarşılıqlı fəaliyyət təsəvvür oluna biləcək ən yüksək səviyyədədir. İkincisi, Türkiyə bazarında artan tələbatdır və Rusiya iri təchizatçıdır. Bazar da böyüyür, çünki Türkiyədə qazlaşdırma prosesi gedir. Lakin yaxşı şərtlər təklif olunduğu təqdirdə, əlbəttə, biz istənilən digər variantı gözdən keçirə bilərik. Hazırda Avropada müxtəlif ölkələr arasında Türkiyədən keçməklə Rusiya, Azərbaycan və ya hər hansı digər ölkənin qazına yönəldilmiş interkonnektorların yaradılması üzrə iş gedir. Odur ki, sata biləcəyimiz həcmi dəqiq təsəvvür etmək üçün səylərimizi əlaqələndirmək planında Rusiya ilə Azərbaycan arasında fəal əməkdaşlıq da mümkündür. Başqa sözlə, bir-birimizə problem yaratmamalıyıq. Çünki qazın yüksək qiyməti həm bizim, həm Rusiyanın maraqlarına cavab verir. Buna görə düşünürəm ki, burada söhbət rəqabətdən getmir, həcmlər müqayisə olunmazdır. Lakin aydındır ki, qaz bazarında hətta kiçik həcmlər bəzən müəyyən əhəmiyyət kəsb edə bilər. Bax, bunun qarşısını almaq üçün biz prinsip etibarilə Rusiya tərəfi ilə bu istiqamətdə iş birliyi qurmağa hazırıq.

Jurnalist: Biz Pavel Nikolayeviçin sayəsində artıq aprel ayında Azərbaycana səfər barədə razılığa gəlmişik.

Mixail Qusman: TASS ənənəvi olaraq təşkilati məsələlərlə məşğul olur.

Prezident İlham Əliyev: Əlbəttə, maraq olsa, həmçinin istərdim ki, Siz işğaldan azad etdiyimiz ərazilərdə də olasınız. Hazırda, yeri gəlmişkən, artıq ikinci beynəlxalq səyahətçilər qrupu gəlir, üstəlik, onlar bizim onlara yardım etməyimizi xahiş edirlər, yəni, biz onları çağırmırıq, onlar özləri gəlirlər. Nomad Maniya beynəlxalq səyahətçilər qrupu vardır. Bu, yəqin ki, heç bir yerdə görə bilməyəcəyiniz bir mənzərədir. Bu, əslində, ağır, çox ağır sınaqdır. Müharibədən dərhal sonra ilk dəfə biz Mehribanla orada olanda bunu gördük. Onu heç nə ilə müqayisə etmək olmaz. Yenə də deyirəm, dağıntının miqyasını təsəvvür etmirdik, biz güman edirdik, bilirdik, orada binoklla nəyisə görmüşdük, lakin bunun bu qədər kütləvi xarakter daşıdığını təsəvvür etmirdik.

Mixail Qusman: İlham Heydər oğlu, Azərbaycanın COVID-19-la necə mübarizə apardığını mən şəxsən özüm bilirəm və ÜST yüksək qiymət verib. Hazırda vəziyyət necədir?

Prezident İlham Əliyev: Mən düşünürəm ki, bu suala Mehriban cavab versə, daha məqsədəuyğun olar, çünki bizdə bu məsələ ilə o, məşğul olur.

Birinci vitse-prezident Mehriban Əliyeva: Hazırda vəziyyətə görə demək olar ki, Azərbaycanda son dalğa azalmaqdadır. Lakin maraqlıdırsa, mən bir qədər təcrübəmiz barədə danışa bilərəm, çünki Azərbaycan da

daxil olmaqla, bütün ölkələrin qarşılaşdığı vəziyyət qeyri-adi idi və problem çox böyük idi. İki ildən bir qədər artıq müddət keçəndən sonra hazırda bizdə müəyyən təcrübə var və mən onu bölüşə bilərəm. Bütün bunlar başlayanda, 2020-ci ilin fevral-mart ayları idi. Yəqin ki, hamınız xatırlayırsınız, müxtəlif versiyalar var idi, kimsə inanırdı, kimsə dərk edirdi, kimsə anlamırdı, inkaretmə mövcud idi. Fevral ayının sonunda biz aydın şəkildə dərk edirdik ki, nəyisə həqiqətən də çox ciddi hadisə baş verir və bu, qeyri-ordinar, təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Mən hesab edirəm ki, sonrakı işin uğurlu həyata keçirilməsinin başlıca səbəblərindən biri yəqin ki, çox peşəkar qərargahın, komandanın tez bir zamanda yaradılmasına nail olmağımızdır. Üstəlik, aydın idi ki, burada yalnız tibb işçiləri ilə kifayətlənmək olmaz, diapazon tamamilə genişdir və hökumət üzvləri, ekspertlər, gənc alimlər, xüsusilə riyaziyyatçılardan ibarət qrup toplandı. Çünki artıq o vaxt aydın idi ki, hesablamaq, proqnozlaşdırmaq lazım olacaq.

Lakin cənab Prezident sağ olsun, o, dərhal tövsiyələri dinləməyə başladı. Beləliklə, biz birinci mərhələdə sərhədlərin bağlanması barədə qərarı kifayət qədər tez qəbul etdik. Mart ayı idi. Bu, əlbəttə, müəyyən dərəcədə kömək etdi, lakin hadisələrin sonrakı gedişi göstərdi ki, güclü, ciddi karantin rejimləri nə dərəcədə kifayət imiş. Bundan başqa tez bir zamanda daha bir vacib tədbir görülməli idi və komanda bu işin öhdəsindən gəldi. Təbii ki, səhiyyə sahəsində bizim zəif yerlərimiz gözdən keçirilməli idi, çünki əsas problem – səhiyyə sistemində kollaps idi və artıq təxminən aprel ayında bizdə nəyin çatışmadığını bilirdik. Biz qısa müddətdə on, sonradan isə daha iki – cəmi 12 modul tipli xəstəxana ala bildik. Əlbəttə, yenə vəsait ayrılmışdı. Həmin xəstəxanalar çox qısa müddətdə ölkəyə gətirildi və yığıldı. Bir ildən sonra, ilk ilin təcrübəsinə əsaslanaraq, hansı avadanlığın, hansı xəstəxanaların bizə lazım olduğunu biz dəqiq bilirdik. Məsələn, pandemiyanın ikinci ilində biz artıq sırf reanimasiya çarpayıları ilə təchiz olunmuş modul tipli xəstəxanalar sifariş edirdik, çünki aydın oldu ki, adi çarpayılarla problem olmayacaq, reanimasiya çarpayıları ilə isə ola bilər.

Yəqin əsas aspektlərdən biri ondan ibarətdir ki, bu komanda işləyirdi. O, indiyə qədər işləyir. Deyə bilərəm ki, onların bu günə qədər verdiyi proqnozlar 90-95 faiz düz çıxıb. Yəni, biz hər bir dalğanı gözləyirdik. Bizdə nə vaxt artım, nə vaxt azalma, nə vaxt pik olacağı barədə xəta bir həftə ola bilərdi. Bu, bizə çox kömək edirdi, çünki hökumətin müəyyən təcili tədbirlər, karantin tədbirləri görməsi lazım olanda, müddətləri düzgün hesablamasına imkan verirdi. Təbii ki, bununla paralel olaraq zəruri tibbi avadanlıq və dərmanlar alındı. Birinci ilin sonuna, hətta ortalarına doğru artıq aydın oldu ki, söhbət vaksinasiyadan gedir. Burada da həmkarlarımız sürətlə əlaqə saxlaya bildilər. Səhv etmirəmsə, dünyada birinci vaksinasiya 2020-ci ilin dekabrında Amerikada, gərək ki, Birləşmiş Ştatlarda həyata keçirilib. Bizdə vaksinasiya 2021-ci il yanvarın 18-də başlandı. Yəni, ölkəyə vaksinlər kifayət qədər tez çatdırıldı. Bunlar Çin vaksinləri, növbəti mərhələdə Rusiya vaksinləri idi. COVAX layihəsi xətti ilə Avropa vaksinləri də aldıq. Yəni, vaksinləri seçmək imkanı vardı. Təbii ki, vaksinasiyanın könüllü olacağı qərara alındı və seçim vardı. Burada, əlbəttə, ikinci aspekt çox vacibdir. Hesab edirəm ki, Mixailin dediyi kimi, bizim təcrübəmizi uğurlu hesab etsək, yəqin ki, cəmiyyətlə düzgün kommunikasiya çox vacib aspektdir. Ona görə ki, situasiya insanlar üçün yeni, çox cəhətdən qorxulu idi. İnkar edənlər də vardı, hər yerdə olduğu kimi, prinsip etibarilə müxtəlif konspiroloji versiyalar vardı. Bizə nə kömək etdi? İlk növbədə, bizə kömək edən bunu başa düşməyimiz oldu ki, qərargahdan daxil olacaq ismarıclar tamamilə dürüst olmalıdır, biz onları elə yoxlamalıyıq ki, sonradan dəyişməyək. Ona görə ki, belə vəziyyətdə dediyimizi etmək çox vacib idi. Bu halda da mən yenə Prezidentə minnətdaram, çünki o, insanlara, ictimaiyyətə müraciət edir və bu ismarıcları verirdi. Əlbəttə, burada insanların Prezidentə etimadı öz rolunu oynadı. COVID ilə bağlı vəziyyətdə bu etimadın nə dərəcədə vacib olması bir daha təsdiqləndi, ona görə ki, Prezidentdən eşidilənlər birmənalı həqiqət kimi qəbul edilirdi. Əlbəttə, skeptiklər, skeptik əhval-ruhiyyəli insanlar vardı, az sayda vaksin əleyhdarları var. Lakin bütövlükdə biz ciddi ziddiyyətlərdən və ya iğtişaşlardan qaça bildik. Bizdə insanlar vaksin vurdurmağa getdilər və yetərincə intizamlı şəkildə vaksinləndilər. Bu günə qədər bizdə yaşı 18-dən yuxarı olan insanların təqribən 70 faizi iki doza vaksin alıb. Ona görə ki, bizdə əsasən yaşı 18-dən yuxarı olan insanlar vaksinlənir. Uşaqlar üçün vaksinləmə yalnız valideynlərin qərarı ilə həyata keçirilir, məcburi vaksinləmə yoxdur. Səhiyyə Nazirliyi belə də elan edir ki, bu, yalnız valideynlərin qərarı ilə həyata keçir. Ona görə də bu iki tədbirin kompleksi ən optimal ssenari üzrə hərəkət etməyə imkan verdi. Əlbəttə, belə bir ehtiyatlı optimizm var ki, "omikron" epidemiyanın sonu ola bilər. Bununla bərabər, başqa versiyalar da səslənir. Deyirlər ki, virusun daha artıq təhlükəli, daha ölümcül yeni versiyaları yarana bilər. Lakin bütövlükdə keçilmiş yolu təhlil edərək bu gün mən bu iki komponenti əsas hesab edirəm: tezliklə yüksək iş qabiliyyətli, çox düzgün komanda yaratmaq, - vurğulamaq istəyirəm ki, bu komanda təkcə həkimlərdən ibarət olmamalıdır, - ikincisi, biz cəmiyyətə fikrimizcə, çox yoxlanılmış və çox düzgün ismarıclar vermişik. Bu, öz təsirini göstərib. Bu, elə mövzudur ki, fürsətdən istifadə edib, hamıya cansağlığı arzu etmək istəyirəm. Ona görə ki, əlbəttə,

bu iki il hamı üçün çox mürəkkəb olub. Kimlərinsə daha uğurlu sağalmasına baxmayaraq, təəssüf ki, kimlərinsə müalicəsi nisbətən uğursuz olur, insanlar vəfat edir. Bizdə də ölənlər olur. Çox ümid etmək istərdim ki, biz artıq bu bəlanın sonuna yaxınlaşırıq.

Mixail Qusman: Mehriban xanım, qeyd etmək lazımdır ki, cənab Prezident televiziya formatında müraciət edirdi, yaşı "18+" olanlar isə Sizin yazdıqlarınızı sosial şəbəkələrdə oxuyurdular. Obyektivlik naminə həm də daim sosial şəbəkələr vasitəsilə müraciət edirdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva: Bax, məhz bu, çox vacibdir. Ona görə ki, yadımdadır, bu iki il ərzində Prezidentin keçirdiyi müxtəlif tədbirlərin istər pandemiyaya, istərsə təbabətə aidiyyəti yox idi. Lakin mən hər dəfə ondan xahiş edirdim ki, həmin məqam üçün mühüm tezis hazırlayım, bu və ya digər formada xahiş edirdim ki, bu tezis səsləndirilsin, bilirəm ki, insanlar qulaq asır və inanırlar. Bu da real təsirini göstərdi. Bax, bu, çox kömək etdi.

Prezident İlham Əliyev: Yeri gəlmişkən, biz beynəlxalq səviyyədə də həm kömək edən, həm də "vaksin millətçiliyi"nə qarşı çox fəal çıxış edən azsaylı ölkələrdən biriyik. Mən beynəlxalq tribunalardan çıxışlarımda dəfələrlə demişəm, rəqəmlər gətirmişəm ki, inkişaf etməkdə olan ölkələr arasında vaksinasiya səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə onlarca dəfə aşağıdır. Üstəlik, inkişaf etmiş bəzi ölkələr, xüsusən ilk dövrdə, bu vaksinlərin çatışmadığı, onları əldə etməyin çox çətin olduğu dövrdə onları külli miqdarda alıblar və almaqda davam edirlər. Mehriban deyir ki, biz yanvarda başlamışıq, lakin bu, çox çətin idi, çünki o vaxt, ümumiyyətlə, vaksinləri olanlar az idi, biz regionda birincilərdən biri olduq. Məhz yardım göstərmək, inkişaf etməkdə olan ölkələrə kömək göstərmək üçün biz başçılıq etdiyimiz Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsi təşəbbüsünü, sonra isə Qoşulmama Hərəkatının adından Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürdük və bu sessiya keçirildi. Həmçinin nəinki başqalarına kömək etməyən və yalnız özü haqqında düşünən, həm də onlara lazım olduğundan qat-qat çox vaksin alan ölkələri qınayan müvafiq qətnamələr qəbul edildi. İndi mən həmin ölkələrin adlarını çəkmək istəmirəm, bu statistika bizdə var. Bu, qəbul edildi. Ona görə ki, həqiqətən qlobal mənzərəyə nəzər salsaq inkişaf etmiş ölkələr, - təbii ki, Avropa ölkələri, - özlərini tam təmin ediblər, amma belə adlanan üçüncü dünya ölkələrinin çoxunda hətta kimin ölməsi, kimin qalması statistikası belə aparılmır. Onlar, sadəcə, taleyin ümidinə qalıb. Biz təqribən 80 ölkəyə maliyyə yardımı və humanitar yardım göstərmişik. Bir çox ölkələrə vaksinlərlə - həm Çin vaksini, həm AstraZeneca ilə yardım göstərmişik və göstərməkdə davam edirik. Biz Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) ilk növbədə, Qoşulmama Hərəkatının üzvü olan ölkələrdə vaksinasiya üçün 10 milyon dollar könüllü ianə ayırmışıq və ÜST özünün açıq çıxışlarında Azərbaycanı həm daxildə, həm də kənarda nümunəvi ölkə kimi qiymətləndirib. Ona görə bu beynəlxalq format da çox vacibdir. Mən bilirəm ki, Rusiya da çox fəal kömək edib və edir. Yeri gəlmişkən, Rusiya bizə də həm PZR testləri ilə kömək edib, həm həkim briqadaları, həm də "Sputnik V" vaksini göndərib. Biz bilirik ki, bəzən ölkə daxilində də "Sputnik V" vaksini çatışmır, lakin bizim üçün artıq 220 min doza ayrılıb. Əlbəttə, bizim istifadə etdiyimiz 12 milyon doza ilə müqayisədə bu, kiçik miqdardır, lakin hər halda bu da dostluq jestidir. Biz bunu belə qəbul etmişik.

Mixail Qusman: İlham Heydər oğlu, Siz Qoşulmama Hərəkatını xatırlatdınız. Bu Hərəkat daha çox 1960-cı illərdə populyar idi. Siz dediniz ki, indi Hərəkata Azərbaycan sədrlik edir. Dünya arenasında Qoşulmama Hərəkatının yeni amil kimi yaranması meyli varmı? Çünki bu, onunla bağlıdırmı ki, ona Azərbaycan sədrlik edir. Lakin prinsipcə müasir dünyada yeni qüvvə kimi bu, nə qədər aktualdır?

Prezident İlham Əliyev: Fikrimcə, buna tələbat var. Biz bu missiyaya çox məsuliyyətlə yanaşmışıq. Mən, əlbəttə, bizi heç kimlə müqayisə etmək istəmirəm. Lakin siz də qeyd etdiniz ki, müəyyən mərhələdə Hərəkat öz dinamikliyini itirdi. Yəqin ki, bu, nəsillərin dəyişməsi ilə əlaqədar idi. Hər halda Qoşulmama Hərəkatının başlanğıcında Tito, Nasir... durmuşdular.

Mixail Qusman: Bandaranaike...

Prezident İlham Əliyev: Əlbəttə, bu xadimlər siyasi arenadan getdikdən sonra yəqin ki, müəyyən boşluq əmələ gəldi. Lakin beynəlxalq ictimaiyyətin belə qütbləşməsi də ümumilikdə ehtimal ki, öz rolunu oynayıb, çünki o, necə isə yavaş-yavaş sönməyə başladı. Biz nisbətən yeni üzvük. Biz 10 ildən bir az artıqdır ki, seçilmişik və sözün əsl mənasında, bir neçə ildən sonra bizə belə etimad göstərildi, yekdilliklə seçildik. Bizə özümüz daxil olmaqla, 120 ölkə səs verdi. Bizim missiyamızın hansı dərəcədə uğurlu olmasını deyə bilmərik. Lakin sədrliyimizin bir il uzadılması faktı yenə də bizim öz funksiyamızı yerinə yetirməyimizdən xəbər verir. Bakıda, sədrliyi öz üzərimizə götürdüyümüz sammitdə mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti qoruyacaq və üzv ölkələrin maraqlarını müdafiə edəcəyik. Biz bunu edirik. Biz beynəlxalq hüququ və ədaləti 2020-ci ildə bərpa etdik, üzv ölkələrin maraqlarını isə öz imkanlarımız hüdudunda müdafiə edirik. Dediyim kimi, humanitar-maliyyə yardımı və qlobal arenada mühüm tezislərin artikulyasiyası ilə. Hesab edirəm ki, Hərəkatın institutlaşdırılması istiqamətində müəyyən addımların atılması üçün potensial mövcuddur. Çünki bu, təşkilat deyil, Hərəkat adlandırılıb. Həm

ölkə daxilində, həm də bəzi ölkələr arasında ziddiyyətlər olmasına baxmayaraq, hər halda bu, BMT-dən sonra ikinci təşkilatdır. Lakin Azərbaycanın həm vicdanlı üzv kimi və rəhbər kimi rolu artıq tanınıb. Bir daha deyirəm ki, Hərəkatın bütün üzv ölkələrinin bizi iki dəfə dəstəkləməsi, - ölkələr arasında çox ciddi qarşıdurmalar mövcuddur, - məhz bizim xarici siyasətimizin qarşıdurmasız kursundan xəbər verir, əksinə, bu siyasət əməkdaşlığa və imkanlar çərçivəsində köməyə hədəflənib. Bu istiqamətdə işləyən bizik. Fikrimcə, məkan mövcuddur və biz onun içərisinə çox səmərəli şəkildə yerləşə bilərik.

Mixail Petrov, TASS agentliyinin baş redaktoru: İlham Heydər oğlu, icazə versəniz, bugünkü görüşümüzə nə ilə başlamağımıza qayıtmaq istərdim. Belə alındı ki, Siz Rusiya tərəfindən Donetsk respublikalarının tanınmasından sonra Prezident Putin ilə ünsiyyətdə olan ilk xarici dövlət liderisiniz. Aydındır ki, biz, əlbəttə, hamımız Prezidentin Bəyanatını, Rusiya Prezidentinin televiziya müraciətini eşitdik. Lakin bununla belə Siz vəziyyəti daxildən bilirsiniz və Putin ilə danışıqlardan sonra Siz ukraynalı həmkarlarınızla, türkiyəli həmkarınızla daim kontaktda olursunuz, hər halda, bu hadisəyə cəlb edilmiş olursunuz. Bu biliyinizlə, böyük təcrübənizlə Sizin proqnozunuz necədir? Aydındır ki, bu, ikitərəfli Rusiya-Ukrayna vəziyyəti deyil, bu vəziyyət bütün dünyaya aid edilir. Bundan sonrakı inkişafı Siz necə görürsünüz? Bu, zaman etibarilə nə qədər davam edəcək? Həm region üçün və həm də bütün dünya üçün bunun nə dərəcədə ciddi fəsadları olacaq? Mən, əlbəttə, Sizdən danışıqlarda səslənən qapalı məlumatlardan söhbət açmağınızı xahiş etmirəm. Lakin bununla belə Sizin bu məsələyə verdiyiniz şəxsi qiymət necədir?

Prezident İlham Əliyev: Bilirsiniz ki, proqnoz vermək mən tərəfdən çox məsuliyyətsizlik olardı, çünki mən həmişə faktlardan istifadə etməyin, baş verən vəziyyəti bizə aid olan sahədə dəyərləndirməyin, bu vəziyyətin Azərbaycan üçün maksimum əlverişli formalaşması üçün mümkün olan hər şeyi etməyin tərəfdarıyam. Düzünü desəm, Azərbaycan ilə Ermənistan arasında münasibətlər, bu münasibətlərin necə cərəyan edəcəyi barədə proqnoz vermək mənim üçün çətindir. Çünki bütün bunlar təzədir. Bizim bəyanatlarımız və sülhün bərqərar olmasına hədəflənməyimiz hələ ki, erməni rəhbərliyi tərəfindən ən azı açıq şəkildə qəbul edilmir. Buna görə də bu yaxınlarda baş verən hadisələr nəzərə alınmaqla dünyada vəziyyətin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çox çətindir. Fikrimcə, təkcə mənə deyil, bilavasitə bu prosesə cəlb edilənlərə də çox çətindir. Çünki hər şeyi və bütün əsas ölkələrin hərəkətini qabaqcadan görmək çox çətindir. Hətta İkinci Qarabağ müharibəsi başlananda, hətta o potensialla - həm siyasi, həm hərbi, həm iqtisadi potensialla biz hər şeyi qabaqcadan nəzərə ala bilmirdik. Çünki müharibəni qabaqcadan proqnozlaşdırmaq mümkün deyil. Çünki təsdiqlənmiş planlar çərçivəsində gedirdik və yolumuzdan çıxmırdıq, lakin bu axında müxtəlif dolambaclar vardı. Rusiya ilə Ukrayna arasında vəziyyət barədə də bunu demək olar. Hər şey o qədər təzədir ki, hələ aparıcı paytaxtlardan biz yalnız təbii ki, büsbütün zidd bəyanatlar görürük. Vəziyyətin necə cərəyan edəcəyini deməyə çətinlik çəkirəm. Rusiyaya qarşı da sanksiyalar nədən ibarət olacaq? Axı, Qərb hələ də bunları elan etməyib. Yəni, hansısa eyhamlar edilir.

Mən eşitdim ki, sanksiya elan etmək istəmirlər, guya hesab edirlər ki, bu, onların elan olunmamasının qarşısının alınması amili ola bilər, elan isə onların nöqteyi-nəzərindən əl-qolu açacaq. Lakin bu, sizin kimi mənim də həm Rusiya televiziyasına, həm Türkiyə televiziyasına, həm də Britaniya televiziyasına, mənim linqvistik bacarıqlarım imkan verdiyi qədər baxaraq çıxardığım elə həmin təhlildir. Mən hansısa analogiyalar və analiz, vəziyyəti bilmək nöqteyi-nəzərindən sizdən çox məlumata malik deyiləm, çünki biz Rusiya ilə çox sıx işləyirik, Ukrayna ilə də bizim münasibətlərimiz inkişaf edir. Nəyisə təxmin edə bilərəm, lakin əminəm ki, dediyim kimi, bilavasitə cəlb edilənlər hər şeyi proqnozlaşdıra bilməzlər. Bunun üçün planları bilmək lazımdır. Bunun üçün Rusiya rəhbərliyinin planlarını, Ukrayna rəhbərliyinin planlarını, imkanlarını bilmək lazımdır. Biz Qərbin reaksiyasını o, praktik müstəviyə - bəyanatlardan fəaliyyətə keçəndə təxmin edə bilərik. Hələ ki, bütün bunları proqnozlaşdırmaq çox çətindir, lakin birmənalıdır ki, bu, uzunmüddətli prosesin başlanğıcıdır. Birmənalıdır ki, Rusiya Federasiyasının Prezidenti bu qərarı qəbul edəndə, yəqin düşünürəm ki, o da bu prosesin uzun olduğunu nəzərə alıb. Mən hesab edirəm ki, Rusiya özünün potensialı, coğrafiyası, imkanları ilə istənilən növ sanksiyaya davamlıdır. Bu, mənim şəxsi fikrimdir və bu, Rusiyaya tətbiq edilmiş həmin sanksiyalarla təsdiq edilir. Əslinə baxanda həmin sanksiyalar Rusiya istehsalçılarına idxaldan asılılığı azaltmaqda kömək etdi. Yəni, mən birmənalı əminəm ki, sanksiya yolu səmərəsizdir. Əlbəttə, o, Rusiya iqtisadiyyatına sözsüz ki, zərər vuracaq. Prezident Putin bu qərarı qəbul edəndə, yəqin ki, o, bunun hamısını hesablayıb. Lakin bu, həmin sanksiyaları tətbiq edənlərə də birmənalı şəkildə zərər vuracaq. Çünki ixrac üçün, özü də yüksək texnologiya məhsulları üçün ikinci belə perspektivli bazar tapmaq çətindir. Bu, mənim deyə biləcəyim maksimum bundan ibarətdir. Bu mövzunu 30 il ərzində bizə hər zaman çağırış edilən məlum ifadələrlə bitirmək istəyirəm: “Bütün məsələləri sülh yolu ilə həll etmək lazımdır”. Biz bunu 30 il eşitdik, 30 il çalışdıq, lakin heç nə alınmadı. Buna görə də, əlbəttə, istərdik ki, hər şey sülh yolu ilə həll edilsin, lakin bu, həyatda, təəssüf ki, heç də hər zaman, mümkün olmur.

Mixail Qusman: İlham Heydər oğlu, Sizə bir texniki sual verməк olarmı? Bildiyiniz kimi, bizim bu görüşlər ənənəvi olaraq "off the record" formatında keçirilir. Bu gün isə bizim görüş bir növ yarım "off the record" formatında alınıb. Sonuncu sualı TASS agentliyinin baş redaktoru verdiyinə görə, biz həmkarlarımıza Sizin söhbətinizdən özlərinin, necə deyərlər, praktiki fəaliyyətində istifadə etmələrinə icazə verə bilərikmi?

Prezident İlham Əliyev: Əlbəttə. Mən dediyim hər bir sözə görə məsuliyyət daşıyıram.

Mixail Qusman: Bu çıxışdan ümumi məkanda istifadə etmək olarmı?

Prezident İlham Əliyev: Birmənalı şəkildə olar.

Mixail Qusman: Mən Prezidentə sual vermək istəyirəm. Gəlin məsləhətləşək, həmkarlar?

Prezident İlham Əliyev: Mən öz praktikam barədə danışaram. Azərbaycan cəmiyyətinin müxtəlif kateqoriyalarının nümayəndələri ilə və media, - Azərbaycan və xarici media, - təmsilçiləri ilə mənim bütün söhbətlərim açıq keçirilir. Yəni, mən heç nəyi gizlətmirəm. Mən nə düşünürəmsə, onu deyirəm, öz sözlərimə görə cavabdehəm və düşünürəm ki, bu gün burada elə bir söz deyilməyib ki, ona görə bizlərdən kim isə xəcalət çəksin. Əksinə, mənim fikrimcə, biz çox mühüm məsələləri aydınlaşdırdıq. Mən Azərbaycanın mövqeyini bütün məsələlər barədə yetərincə dürüst ifadə edirəm və bağlı qapılar arxasında öz həmkarlarıma dediklərimi bu və ya digər dərəcədə açıq şəkildə də deyirəm. Ona görə indiki halda mən aşkarlığın tərəfdarıyam. Bəs siz?

Mixail Qusman: Onda indiki halda "off the record" formatını ləğv edirik. Bu istisnaya görə sağ olun. Bu, o deməkdir ki, qabaqcadan xəbərdarlıq edirəm, növbəti dəfə biz yenidən qayıdacağıq.

Prezident İlham Əliyev: Bəlkə ənənələrin əsasını siz qoyursunuz?

Mixail Qusman: İlham Heydər oğlu, heç də hamı bizimlə Sizin kimi açıq olmur, heç də hamı.

Prezident İlham Əliyev: Mən bilmirəm, siz ki məsuliyyətli insanları, dövlət başçılarını dəvət edirsiniz. Düşünmürəm ki, onlar sizə bir söz desinlər, ictimaiyyətə nə isə başqa söz.

Mixail Qusman: Bəziləri hətta bizim suallarımızı bilirlər. Belə də olur.

Prezident İlham Əliyev: Xeyr, mən hər bir suala cavab verməyə hazıram. Bir daha deyirəm, məndən ötrü hər hansı qapalı mövzu yoxdur. Xarici siyasətə gəldikdə isə, o cümlədən sizin qeyd etdiyiniz kimi, vəziyyətin həssaslığı nəzərə alınmalıdır. Buna görə düşünürəm ki, bu, düzgün yoldur. Çünki bu, hər hansı ikimənalı şərhi və hər hansı interpretasiyanı istisna edir. Mən öz mövqeyimin ən yaxşı interpretasiyasını özüm verə bilərəm, odur ki, belə də edirəm. Qəribə olardı ki, biz burada görüşək, sonra isə Azərbaycanda fikirləşsinlər, tapmaca tapsınlar, onlar orada bağlı qapılar arxasında nə barədə danışıblar?

Sergey Mixaylov: Biz lap yaxın vaxtlarda Sizin bütün dünyada ardıcıl müsahibələrinizi müşahidə etmişik.

Prezident İlham Əliyev: Elədir.

Sergey Mixaylov: Məlum hadisələr haqqında müsahibələrinizin hamısını diqqətlə izləmişik.

Prezident İlham Əliyev: Fikrimcə, bütün prezidentlik illərim ərzində hər hansı dövrdə olduğundan daha çox müsahibəm olub.

Sergey Mixaylov: Bu zaman kəsiyi ərzində müsahibələr qalan bütün müddətdəkindən çox olub.

Prezident İlham Əliyev: Azərbaycanda məni hətta bəzən tənqid edirdilər ki, nə üçün mən nadir hallarda müsahibə verirəm. Hesab edirəm ki, müxtəlif tezislərlə və müxtəlif məsələlərlə əlaqədar kifayət qədər çıxış edirəm. Sadəcə, hesab edirdim ki, mən demək istədiklərimin hamısını çıxışlarımda demişəm. Lakin müharibə xüsusi vəziyyətdir, buna görə belə etməli oldum.

Sergey Mixaylov: Bu dövrdə müsahibələrinizin sayı misli görünməmiş dərəcədə çox olub.

Prezident İlham Əliyev: Yeri gəlmişkən, TASS agentliyi sağ olsun ki, sizin vasitənizlə öz baxışlarımı çatdırmağa imkan verib.

Mixail Qusman: Bu əyləşən xanım Sizdən müsahibə götürəndir.

Prezident İlham Əliyev: Bəli, tanıdım. Çox vacib idi. Ona görə ki, bilirsiniz, biz müstəqilliyin lap ilk dövründən müəyyən informasiya boşluğu ilə üzləşmişik. Üstəlik, əgər bu, sadəcə, vakuum olsaydı dərd yarı idi, biz öz fəaliyyətimizin düzgün interpretasiya edilməməsi ilə üzləşdik. Yeri gəlmişkən, biz indiyə qədər bunu hiss edirik, təkcə qərb ölkələrində deyil, həm də başqa ölkələrdə. Bəzən bilməmək səbəbindən, bəzən də qərəzli şəkildə bizim ölkə daxilində və beynəlxalq arenada nə etdiyimizi düzgün interpretasiya etmirlər. Buna görə son vaxtlara qədər bizim üçün əsas problemlərdən biri məhz Qarabağ münaqişəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılması idi. Məhz ictimaiyyətə, çünki siyasi strukturlar hər şeyi çox gözəl bilirdilər. Lakin bu, sadəcə, onları qane edirdi – nə müharibə, nə sülh, faydasız danışıqlar, 30 ildir ki, Minsk qrupu gəlir, gedir. Yeri gəlmişkən, bu il onlar 1992-ci ildən bəri fəaliyyətlərinin yubileyini qeyd edəcəklər. Buna görə biz Qarabağda baş verənlər barədə həqiqəti geniş ictimaiyyətə, ekspert cəmiyyətlərindəkilərə, ictimai əhval-ruhiyyəni formalaşdıranlara çatdırmalı idik. Məhz həqiqəti, təəssüf ki, illər boyu təqdim edilənləri yox, müharibə dövründə bunu edə bildik. Bacardıq. Çoxları deyir ki, biz informasiya müharibəsini udmuşuq. Lakin biz elə müharibə aparmamışıq. Biz, sadəcə, imkan qazandıq, dünyanın diqqəti bu müharibəyə yönəldiyinə görə biz, sadəcə, həqiqəti demək imkanı qazandıq. Erməni tərəfindən fərqli olaraq biz öz xalqımıza da, ictimaiyyətə də həqiqəti deyirdik. Buna görə mən həm

sizə, həm də bu imkanı yaradan digər Rusiya KİV-lərinə təşəkkür edirəm. Dmitri Konstantinoviçə xüsusi təşəkkürümü bildirirəm ki, o, efirdə Paşinyan ilə olmağa və necə deyərlər, öz mövqeyimizi Rusiya və bir sıra qərb televiziya tamaşaçılarına çatdırmaq imkanı verdi. Hərçənd deməliyəm ki, mənim ünsiyyətdə olduğum qərb KİV-lərinin demək olar ki, hamısı Azərbaycana qarşı qərəzli əhval-ruhiyyədə idilər və onların suallarında nə isə öyrənmək arzusundan daha çox ittihamlar səslənirdi. Bununla belə bu, hər halda həmin məkana daxil olmağımıza imkan verdi. Fikrimcə, dünyada bütövlükdə kifayət qədər tezliklə yeni reallıqları qəbul etdilər, o cümlədən ona görə ki, kimin haqlı olması, kimin işğala məruz qalması, kimin öz torpağında vuruşması, kimin işğalçı olması aydın idi. Bax, buna görə Sizə və sizin həmkarlarınıza təşəkkür edirəm. Onu da deməliyəm ki, Rusiya media məkanı bütövlükdə neytral olub. Əlbəttə, bəzi şəxsi məqamlar istisna olmaqla bütövlükdə neytrallıq tamamilə qorunub saxlanıb. Buna görə də təşəkkür edirəm, çünki heç də həmişə belə olmayıb.

Mixail Qusman: Çox sağ olun.

Prezident İlham Əliyev: Siz sağ olun.

Mixail Qusman: Sizə bir hədiyyəmiz var. Bunu həmkarlara demək lazımdır. Hamı bilir ki, bu yaxınlarda İlham Heydər oğlunun yubileyi oldu. Bu, Azərbaycan Prezidentinin TASS lentlərində və fotoxronikasında tam arxividir. Burada 32 mindən çox məlumat və 400-ə yaxın fotoşəkil var. Sizin bütün prezidentlik dövrünün bütün arxividir.

Prezident İlham Əliyev: Sağ olun. Mənim belə arxivim yoxdur.

Dövlətimizin başçısı da TASS agentliyinə xatirə hədiyyəsi təqdim etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri fevralın 23-də başa çatıb.

## *Türkiyə Respublikasına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə martın 10-da Türkiyəyə işgüzar səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlətimizin başçısını qarşıladı.

Prezidentlər birgə foto çəkdirdilər.

Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulandı. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi qeyd edildi, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparıldı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunuldu, bu xüsusda Cənub Qaz Dəhlizinin uğurla fəaliyyət göstərdiyi qeyd olundu, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edildi, həmçinin İğdır-Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulandı.

Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı.

Hərbi, hərbi texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Görüşdə Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparıldı, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirildi.

Sonda Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olundu və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri martın 10-da başa çatıb

## *Tərtər rayonuna səfər*

"Azərişıq" ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimatda iştirak ediblər.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına və birinci xanıma layihə ilə bağlı məlumat verdi.

Diqqətə çatdırıldı ki, "Azərişıq" ASC tərəfindən ölkədə ilk dəfə tətbiq edilən, müasir texnologiyalara əsaslanan 35 kilovoltluq izolyasiyalı və mühafizəli kabel elektrik veriliş xətləri ənənəvi hava elektrik xətlərinə nisbətən daha rentabelli və texniki baxımdan şəbəkələrin dayanıqlı işini təmin etmək üçün əlverişli innovativ həldir. Suqovuşan qəsəbəsinin elektrik enerji təchizatında tətbiq edilmiş 35 kilovoltluq kabel xətti məhz belə, müasir şəbəkə quruculuğu üçün əsas elementlərdən biridir. Belə ki, izolyasiya olunmuş 35 kilovoltluq yeni tip xətlərin mühafizə zonası 3-6 metrdir və bu, mövcud xətlərə nisbətən 6-10 dəfəyə qədər azdır. Mövcud naqillərdə texniki itkilər 9-12 faiz olduğu halda, müasir tipli izolyasiya olunmuş kabellərdə itkilər 3,5-4 faiz təşkil edir. Həmçinin şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik mal-material sərfi 100 faizdən 25 faizə endirilir. İzolyasiya olunmuş kabellərdə qəza açılmalarının sayı və müddəti mövcud naqil xətləri ilə müqayisədə 60 faizədək azdır.

Prezident İlham Əliyev: Bütövlükdə gələcəkdə ölkəmizin bütün yerlərində bu sistemə keçmək lazımdır.

Vüqar Əhmədov: Cənab Prezident, Siz artıq tapşırıq vermisiniz. Biz Bakıda da bunun üzərində işləyirik.

Bildirildi ki, yeni kabel xətlərinin tətbiqi yüksək gərginlik xətlərinin bilavasitə altında, yaxud yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, həmçinin insanların fəaliyyət təhlükəsizliyi dəfələrlə artır, təbiət hadisələrinin elektrik veriliş xətlərinə təsiri aradan qalxır. İzolyasiya olunmuş yeni tip kabel xətlərinin istifadəsi ümumilikdə ölkənin enerji sisteminin dayanıqlılıq, etibarlılıq və səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verir. Eyni zamanda, bu növ kabel xətlərinin istənilən mühitdə, o cümlədən yeraltı, sualtı və hava ilə çəkilişinin mümkünlüyü işğaldan azad edilmiş ərazilərdə qurulan 35/0,4 kilovoltluq innovativ paylayıcı şəbəkələrin istismarını asanlaşdırmaqla yanaşı, dayanıqlı fəaliyyətini də tam təmin edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, 44 günlük Vətən müharibəsi zamanı, hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsində 16 fərdi ev qismən yararsız vəziyyətə düşmüşdür. Bu evlərdən biri əsaslı təmir olunub.

Təmir olunan evin ümumi yaşayış sahəsi 92 kvadratmetrdir. Layihəyə əsasən ev 3 otaq, mətbəx və 2 sanitar qovşağından ibarətdir. Tikinti altında olan sahə isə 148 kvadratmetr təşkil edir. Fasadın əsas hissəsi dekorativ təbii daşla üzlənib ki, bu da evin və yerləşdiyi ərazinin ahəngini tamamlayır. Fasadın qalan hissəsində isə suyadavamlı boya materialından istifadə olunub. Evin damı metal kirəmitlə örtülüb, terrasa keramika döşənib, tavanı isə taxta materialdan hazırlanıb.

Evin otaqları yüksək səviyyədə və müasir dizaynla bərpa olunub. Həyətyanı sahə abadlaşdırılıb, ərazidə ağaclar əkilib. Fərdi evlərin yerləşdiyi məhəlləyə işıq və su xətləri çəkilib, yola asfalt örtüyü döşənib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşana səfərləri çərçivəsində qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasında olub, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanıblar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma eskiz layihəsi əsasında məlumat verdi.

Qeyd olundu ki, yararsız vəziyyətə düşmüş Suqovuşan qəsəbə tam orta məktəbinin binası Təhsil Nazirliyi tərəfindən təmir olunacaq. Diqqətə çatdırılıb ki, məktəbin ərazisi 1 hektardır. Binanın ümumi sahəsi 820 kvadratmetrə yaxındır. Məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir.

Bildirildi ki, dördmərtəbəli binanın fasadının ətrafdakı fərdi evlərə uyğunlaşdırılacağı nəzərdə tutulur. Fasadda fərdi evlərdə olduğu kimi, dekorativ təbii daşlardan istifadə ediləcək. Məktəbdə müasir standartlara uyğun idman meydançası qurulacaq, həyətyanı sahə abadlaşdırılacaq.

Dövlətimizin başçısı məktəb binasının əsaslı təmirinə başlanılması barədə tapşırıq verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər

rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoyublar.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma qəsəbədə inşa olunacaq məscidin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaq.

Dövlətimizin başçısı və birinci xanım məscidin təməlini qoydular.

Qeyd edək ki, işğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir.

Tarixi abidələrin bərpası. Şuşa şəhərində, görün, nə qədər böyük işlər görülüb. Eyni zamanda, Ağdam, Zəngilan, Hadrut, Daşaltı məscidlərinin təməli qoyulub və təmir işlərinə start verilib. Yəni, bunları sadalamaq üçün çox vaxt lazımdır, mən də çalışıram ki, hər bir layihəyə daim diqqət göstərim. Ona görə, 2021-ci ildə azad edilmiş torpaqlarda dəfələrlə olmuşam və bu il artıq bu infrastruktur layihələri ilə yanaşı, şəhərsalma layihələri də icra ediləcək. Biz indi məktəblərin, xəstəxanaların təməlini qoyduq. Ağdam, Füzuli şəhərlərinin baş planı hazırdır. Digər şəhərlərin baş planlarının hazırlanması ilə bağlı müvafiq şirkətlərlə sazişlər imzalanıb. Biz istəyirik ki, hər şey əsaslı olsun. Həm tez edək, eyni zamanda, tələskənliyə yol verməyək. Çünki hər şey əsaslı olmalıdır və ora qayıdacaq insanlar ən yaxşı şəraitlə təmin edilməlidir. Çünki bu insanlar 30 il ağır vəziyyətdə yaşayırdılar. Düzdür, onların bir çoxu dövlət tərəfindən ayrılmış gözəl mənzillərdə yaşayırdı, ancaq onlar həmişə Vətən həsrəti ilə, öz torpaqlarının həsrəti ilə yaşamışlar. Biz elə şərait yaratmalıyıq ki, onlar bundan sonra rahat yaşasınlar. Ona görə həm vaxt itirməməliyik, həm də tələsməməliyik. Hər şey əsaslı olmalıdır, bütün inşaat işləri şəffaf, tender əsasında aparılmalıdır. Xüsusi göstəriş verilib, maksimum şəffaflıq təmin edilməlidir. Əgər hər hansı bir xoşagəlməz halla üzləşsək, cəzamız çox sərt olacaq, bunu hər kəs bilməlidir və bilir.

Yenə də deyirəm, infrastruktur layihələri ilə bərabər, məsələn, Şuşada artıq yaşayış kompleksinin inşasına start verilib, təməli qoyulub, artıq praktiki inşaata başlayacağıq. Ağdamda, digər yerlərdə, kəndlərdə məktəb, xəstəxana. İndi Ağalı kəndinin istifadəyə verilməsi nəzərdə tutulur. Yəni genişmiqyaslı işdir, çox böyük işdir - həm texniki nöqteyi-nəzərdən, maliyyə

tutumu baxımından və məsuliyyət baxımından. Çünki bu, çox məsuliyyətli işdir, biz burada səhv buraxmamalıyıq.

*– Cənab Prezident, sosial-iqtisadi inkişafa nail olmaq, bunu reallaşdırmaq, eyni zamanda, korrupsiya və rüşvətxorluqla mübarizə də deməkdir? Siz şəffaflıqdan danışdınız və xüsusən Sizin bu sahədə, korrupsiya ilə mübarizə sahəsində barışmaz mövqeyiniz məlumdur. Ona görə bilmək istərdik, bütün bu ciddi islahatların aparılmasına baxmayaraq, məmur bürokratiyası, məmur biznesi – yəni, bu neqativlərlə rastlaşırıq. Bu il bu sahədə hansı islahatların aparılmasını nəzərdə tutursunuz?*

– Bu il bu sahədə mübarizə davam etdiriləcək. Son illər ərzində göstərdiyimiz qətiyyət və sözlə əməl arasında olan vəhdət, hesab edirəm ki, hər kəs üçün dərs olmalıdır. Çünki mən dəfələrlə dövlət məmurlarına həm rəsmi qaydada, həm də görüşlər zamanı, onları vəzifəyə təyin edərkən təlimat verirdim ki, korrupsiya ilə, rüşvətxorluqla ciddi mübarizə aparılmalıdır və əgər bu və ya digər məmur bu çirkaba bulaşarsa, cəza çox sərt olacaq. Nəticə də onu göstərir - ən yüksəkvəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar. Bir daha demək istəyirəm ki, heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq. Xüsusilə bu əyri yola gedən insanların xidmətləri daha çox “ayı xidməti”nə bənzəyir. Ona görə hesab edirəm ki, bunu hər kəs artıq görüb və bilib. Ona görə bizim addımlarımız çox sərt olacaq, cəzalarımız da çox sərt olacaq.

Amma bu, işin bir tərəfidir. Artıq 18 ildir ki, mən Prezident vəzifəsində işləyirəm və mənim təşəbbüsümlə çoxlu kadr dəyişikliyi edilib. Əfsuslar olsun, bəzi hallarda kadr dəyişikliyi vəziyyətin müsbətə doğru dəyişməsinə aparmır. Çünki yeni kadr təyin edilir, müəyyən müddət ərzində özünü verilmiş təlimatlara uyğun aparır, amma sonra vaxt keçdikcə, necə deyərlər, köhnə, əyri yola gedir. Ona görə burada cəza tədbirləri ilə yanaşı, kadrların düzgün seçilməsi məsələsi öz rolunu oynamalıdır.

Bu sahədə son vaxtlar, Azərbaycan ictimaiyyəti görür ki, çox ciddi kadr islahatı aparılıb. Hakimiyyətin demək olar ki, bütün qollarında ciddi kadr islahatları aparılıbdır. Hökumətdə, Milli Məclisdə, Prezident Administrasiyasında, nazirliklərdə, yerli icra orqanlarında artıq böyük dərəcədə ciddi kadr dəyişikliyi baş verib və bu, hesab edirəm ki, korrupsiyaya qarşı mübarizədə önəmli rol oynayacaq. Eyni zamanda, biz cəmiyyətdə də elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət güclənsin. Siz yaxşı bilirsiniz ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin. İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin. Sizin, media nümayəndələrinin bu sahədə çox böyük rolunuz var. Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir.

Hesab edirəm ki, vacib amillərdən biri də korrupsiya üçün meydanı daraltmaqdır. Burada da əlbəttə ki, institusional tədbirlər görülməlidir, şəffaflıqla bağlı, hesabatlılıqla bağlı əlavə addımlar atılmalıdır. Bunu sadə sözlə desəm - bütün sahələrdə ASAN modeli tətbiq edilməlidir. Çünki ASAN modeli artıq sınaqdan çıxmış bir modeldir. O da bizim təşəbbüsümüz idi. Bizə qədər bu cür, bu miqyasda və bu əhatədə oxşar bir xidmət sahəsi olmamışdı. Bunu da biz etmişik və bacarmışıq. Ona görə “ASAN xidmət”in əhali tərəfindən bəyənmə əmsalı haradasa 98 faizdir, bəlkə də çox. Mən təəccüb edirəm, nə üçün 100 faiz deyil. Çünki orada tam şəffaf mənzərə mövcuddur. Ona görə bütün sahələrdə – iqtisadi, sosial, məmur-vətəndaş münasibətləri sahəsində bu model tətbiq edilməlidir. Məmur-vətəndaş təmasları da, yəni haradakı korrupsiya imkanları var, minimuma endirilməlidir. Belə olan halda uğurlar daha da təsirli olacaq. Ancaq hesab edirəm ki, bizim siyasi iradəmiz artıq hər kəsə bəllidir. Mən demişəm, əgər hansısa dövlət məmuru özünü dəmir barmaqlıqlar arxasında görmək istəmirsə və əgər öz çirkin əməllərindən əl çəkə bilmirsə, o, vəzifədən könüllü çıxsın ki, özünü bədbəxt etməsin.

*CBC telekanalından Elmira Musazadə: Cənab Prezident, CBC beynəlxalq kanal olduğuna görə icazənizlə, sualımı rus dilində vermək istərdim. Siz bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı layihələr barədə danışdınız. Bununla əlaqədar mən hərbi quruculuq məsələləri barədə danışmaq istərdim. Dekabrın 24-də Siz Xocavənd rayonunun Hadrud qəsəbəsinə səfəriniz çərçivəsində Komando qüvvələrinin formalaşması üzrə yeni hərbi hissənin açılış mərasimində iştirak etmisiniz. Siz orada qeyd etdiniz ki, icazənizlə, sitat gətirmək istərdim: “Bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, müharibədən sonra biz ordu quruculuğu prosesini dayandırmamışıq, ordu üçün xərcləri azaltmamışıq, əksinə, artırmışıq”. Bu, nəyə görə belə vacibdir və Azərbaycanın Vətən müharibəsində Qələbəsindən sonra qarşıdakı illərdə hərbi quruculuq necə həyata keçiriləcək?*

– İşğal faktı nəzərə alınmaqla hərbi quruculuq məsələləri mənim gündəliyimdə həmişə birinci dərəcəli yer tutub. Bu mövzu həm mənim iş qrafikimdə, həm açıq çıxışlarımda, həm də həmkarlarımla əlaqələrimdə həmişə üstünlük təşkil edib. Təbii ki, bu mövzu bütün

xalqı birləşdirirdi və biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etməyə çalışmışıq. Təsadüfi deyil ki, biz dövlət büdcəsini nəzərdən keçirən və hazırlayan vaxt mən həmişə göstəriş verirdim ki, ən böyük xərclər hərbi quruculuq üçün ayrılmalıdır. Bu, başqa amillərlə yanaşı, özünün haqlı olduğunu sübut edib. İndiki mərhələyə gəldikdə isə, mən bu barədə danışdım və siz tamamilə düzgün olaraq mənim sözlərimi xatırlatdınız ki, biz bir sıra amillər üzrə dayanmamalıyıq. İlk növbədə, ona görə ki, təəssüflər olsun, Ermənistanda həm iqtidarda, həm müxalifətdə, həm də cəmiyyətdə güclü revanşist əhval-ruhiyyə var. Təəssüf ki, biz bunu real həyatda da görürük. Elə dünən Azərbaycan hərbi qulluqçularına qarşı növbəti hərbi təxribat törədilib. Heç bir əsası olmayan bu təcavüz nəticəsində Azərbaycanın hərbi qulluqçusu öldürülüb. Bu, müharibədən sonra baş verən birinci hadisə deyil. Təəssüf ki, bizim bundan əvvəlki cəza xarakterli bütün cavab tədbirlərimiz Ermənistan üçün ibrət dərsi olmayıb. Dünənki hadisə də istisna deyil. Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüblər və bu gün müdafiə nazirindən aldığım məlumata görə düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başladı. Lakin onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq. Erməni tərəfin çoxsaylı xahişlərinə, mən deyərdim, yalvarışlarına, bu hadisənin rusiyalı sülhməramlıların məsuliyyət zonasında deyil, Kəlbəcər istiqamətində baş verməsinə, rusiyalı sülhməramlıların da xahişlərinə baxmayaraq, saat 21:30-da mən müdafiə nazirinə komanda verdim ki, atəş dayandırılsın və erməni tərəfin çoxsaylı yaralılarını götürməsinə imkan verilsin. Yəni, istər bu hadisə, istərsə də əvvəl baş vermiş hadisələr bu şəkildə sona çatıb – cinayətlər, təxribat, gizlincə törədilən alçaq təxribatlar, Azərbaycan tərəfin cəza tədbirləri, sonra da atəşin dayandırılması barədə yalvarışlar. Nəticədə Azərbaycan yenə humanizm nümayiş etdirdi, lakin yalnız bizim fikrimizcə cəza əməliyyatının başa çatdırılmalı olması qənaətinə gələndən sonra.

Əslində, bizim hərbi quruculuğu davam etdirməyimiz bununla izah olunur. Burada bir neçə aspekt var. Birincisi, müharibə dövründə biz, əlbəttə, çoxlu sayda döyüş sursatından istifadə etmişik, indi biz onları bərpa etməliyik və bağlanmış yeni kontraktlar bizim üçün bunu təmin edir. Artıq silah və sursat tədarükü gedir. Növbəti məqam – müxtəlif xarakterli müasir silah sistemlərinin alınmasıdır. Biz bu məsələyə həmişə böyük əhəmiyyət vermişik. Ona görə ki, hərbi texnologiya inkişaf edir və biz həmişə ən yaxşı texnologiyaları almaq istəyirik. Bildiyiniz kimi, bizə silah satmaq istəyənlərin sayı baxımından problemimiz yoxdur. Üçüncüsü – Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması. İkinci Qarabağ müharibəsi Böyük Qələbə ilə yanaşı, həm də əməliyyatlar aparılması sahəsində böyük təcrübə deməkdir. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanmasıdır və bizim Silahlı Qüvvələr bu yoxlamadan şərəflə çıxdılar. Bununla belə, İkinci Qarabağ müharibəsi bizim bundan sonra nə etməli olduğumuzu, hərbi infrastrukturun hansı elementlərinin bizim tərəfimizdən ya istifadə edilməməsini, ya çox məhdud formatda istifadə edilməsini, ya da onların zəif olmasını göstərdi. Bu da böyük təcrübədir. Lakin indi dediklərimdən artığını məlum səbəblərə görə deyə bilmərəm. Komando qüvvələrinin yaradılması bizim hərbi potensialı təkmilləşdirmə elementlərindən yalnız biridir və lakin çox vacib elementdir. Bu proses başlanıb və artıq dediyim kimi, davam etdiriləcək.

Xüsusi təyinatlı qüvvələr İkinci Qarabağ müharibəsi dövründə özlərini ən yaxşı cəhətdən göstərdilər. Mən bunu dəfələrlə demişəm. Buna görə də həmin qüvvələrin təkmilləşdirilməsi, həmçinin xüsusi təyinatlı yeni qüvvələrin yaradılması vəziyyətin diktə etdiyi zərurətdir. Söhbət revanş cəhdlərindən gedir. Söhbət ondan gedir ki, bir ildən, iki ildən, beş ildən sonra nə olacağını bilmirik. Bu gün Ermənistan ordusu tamamilə bərbad vəziyyətdədir və İkinci Qarabağ müharibəsi dövründə olduğundan daha artıq dərəcədə bizə müqavimət göstərməyə qabil deyil. Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir.

Beləliklə, bizim gördüyümüz tədbirlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri İkinci Qarabağ müharibəsi dövründə nümayiş etdirildiyindən daha güclü olacaq. Hərçənd, artıq hamının bildiyi kimi, bizim nümayiş etdirdiyimiz həm mütəxəssislərin, həm də bir sıra ölkələrin ictimaiyyətinin gizlətmədiyi heyranlıq doğurub. Bu gözlənilməz və gizlədilməyən heyranlıq, əlbəttə, bizdə, hər kəsdə qürur hissi doğurub. Lakin, eyni zamanda, biz, necə deyərlər, qürrələnməməli, lovğalanmamalı, özlərini böyük döyüşçülər hesab edən, lakin, əslində, sprintdə yeni rekordlar müəyyən etmiş böyük sprinterlər olan erməni tərəfin səhvlərini təkrarlamamalıyıq. Əlbəttə, belə olmayacaq, lakin hər halda indi mənim hərəkətlərim, o cümlədən hərbi quruculuq çərçivəsində hərəkətlərim reallıqlardan kənara çıxmamağa yönəlib. Biz nə lazımdırsa onu etmişik, ləyaqətlə, şərəflə, ədalətlə etmişik və gələcək haqqında, Azərbaycan Silahlı Qüvvələrinin xalqımızı və dövlətimizi bütün mümkün təhlükələrdən qoruya bilməsi barədə düşünməliyik. Fikrimcə, müharibədən sonrakı dövr, – ötən bir il ərzində çox hadisələr baş verib, özü də təkcə Ermənistana münasibətdə deyil, - nümayiş etdirib ki, biz özümüzü layiqincə qorumağı bacarırıq.

*– Cənab Prezident, Ermənistanda revanşizm meyillərinə toxundunuz. Bu məsələ ilə bağlı Sizin fikrinizi öyrənmək istərdim. Erməni mətbuatında daim revanşist meyillər hiss olunur. Sanki kimlərsə onilliklər boyu, xüsusən Robert Koçaryanın, Serjik Sarkisyanın vaxtında olan mifləri – Ermənistan ordusu, "böyük Ermənistan" miflərini bərpa etməyə çalışır. Sizin fikrinizcə, bu qüvvələrin məqsədi nədir və bu, nə ilə nəticələnə bilər?*

– Bəli, mən də bunu, təbii ki, izləyirəm. Deyə bilərəm ki, Ermənistanda revanşist meyillər təkcə keçmiş hakimiyyət nümayəndələri tərəfindən yox, eyni zamanda, indiki hakimiyyət nümayəndələri tərəfindən özünü büruzə verir. Çünki biz görürük ki, birincisi, dediyim kimi, müharibədən sonrakı dövr ərzində hərbi təxribatlar və bir neçə dəfə belə cəhd edilmişdir - həm noyabr ayında, ondan əvvəl, dünən və istisna deyil ki, bundan sonra da belə cəhdlər ediləcək. Təbii ki, Ermənistan rəhbərliyi və bütövlükdə cəmiyyəti müharibədəki məğlubiyyətindən hələ özünə gələ bilməyib. Onlara elə bir ciddi psixoloji zərbə vurulub, psixoloji cəhətdən elə zədələniblər ki, onların indi bütün ideoloji əsasları darmadağın edilib. Yəni, onların uydurduqları və özləri inandıqları bütün miflər dağıdılıb. Onu biz 44 gün ərzində göstərmişik. Ona görə belə meyillər Ermənistan ictimaiyyətində var və istənilən hakimiyyət ictimai rəylə hesablaşmalıdır. Ona görə belə meyillər davam edəcək. Bu, birincisi.

İkincisi, onu da biz unutmamalıyıq ki, indiki hakimiyyət əgər bu gün özünü daha konstruktiv aparırsa, faktiki olaraq müharibədən əvvəlki dövrdə müharibənin qaçılmaz olmasını şərtləndirdi. Axı "Qarabağ Ermənistandır və nöqtə" deyən indiki hakimiyyətin təmsilçisidir, "Yeni torpaqlar uğrunda yeni müharibə" ilə bizi hədələyən indiki hakimiyyətin təmsilçisidir. Cıdır düzündə oynayan, Azərbaycan xalqının heysiyyətinə toxunan indiki hakimiyyətin təmsilçisidir. Yəni, indi biz indiki hakimiyyətin davranışına baxmamalıyıq, özümüzü aldatmamalıyıq. Məhz onlar Azərbaycan ərazilərini daim işğal altında saxlamaq fikrində idilər, məhz indiki hakimiyyət dırnaqarası qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Şuşaya köçürmək istəyirdi və hətta orada binanın daş işləri də artıq tamamlanmışdı. Biz onu yerlə bir etdik. İndiki hakimiyyət nümayəndələri deyirdi ki, biz dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıyıq və dırnaqarası "Dağlıq Qarabağ respublikası" danışıqlar masasında olmalıdır. Yəni Koçaryan-Sarkisyan yox, məhz indiki hakimiyyət. Ona görə yenə də deyirəm, biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq. Sərhəddə törədilmiş təxribatlar da bundan qaynaqlanır. Onlar bizi yenə də sınağa çəkmək istəyirlər. Ola bilsin, dünənki təxribatın mənşəyi də son vaxtlar MDB məkanında baş vermiş hadisələrdir və hesab edirlər ki, bunların imkanları artıb, yaxud da haradansa dəstək ala bilərlər. Amma unutmamalıdırlar ki, İkinci Qarabağ müharibəsindəki kimi, kimin onlara yardım edəcəyindən asılı olmayaraq, biz istədiyimizə nail olacağıq və heç kim bizi dayandıra bilməz, heç nə bizi dayandıra bilməz. Bizi dayandıran sadəcə odur ki, üçüncü müharibə istəmirik, bu, bizim planlarımızda yoxdur. Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək.

O ki qaldı, Ermənistan müxalifətinə, yəni, özünü müxalifət adlandıran Sarkisyan-Koçaryan cütlüyünə, əlbəttə, o insanlarda Azərbaycan xalqına qarşı o dərəcədə nifrət var ki, onlar öz çirkin əməllərindən əl çəkmək istəmirlər. Halbuki İkinci Qarabağ müharibəsi onların məğlubiyyəti idi. Çünki biz onların ordusunu məhv etmişik. Paşinyan iki ildə nə ordu yarada bilərdi, nə ordu dağıda bilərdi. Bu, Koçaryan-Sarkisyan ordusu idi ki, biz o ordunu məhv etmişik. Onların hər ikisi müharibə zamanı Xankəndiyə gəlmişdilər və orada guya müqavimət hərəkatına rəhbərlik etmək istəyirdilər. Görəndə ki, artıq Azərbaycan Ordusu Şuşaya yaxınlaşır, oradan qorxaqcasına qaçmışdılar. Yəni, onlar fəraridirlər, onlar yalançı qəhrəmandırlar. Onlar ancaq dinc əhaliyə qarşı müharibə apara bilərdilər. Onların hər ikisi Xocalı qatilləridirlər. Onlar elə bil ki, Siam əkizləridir. İkisi də partiya işində olublar, ikisi də Gevorkovun əlaltıları olublar, ikisinin də namizədliyi Bakıda, Mərkəzi Komitədə təsdiqlənib. Atam Xankəndinə gələndə ikisi də onu orada ayaqüstə qarşılayıb əl çalırdılar. Bunların Ermənistan-Azərbaycan, erməni-Azərbaycan xalqlarının dostluğu haqqında nə qədər çıxışları var. Yəni, onlar Azərbaycan çörəyini yeyib və çörəyi diziüstə olan nankorlardır. Birinci Qarabağ müharibəsində, sadəcə olaraq, özlərindən belə bir mif yaratmışdılar ki, guya bunlar müharibə qəhrəmanlarıdır. Mən dedim, onların sinələrində olan o dəmir-dümürlərin yeri zibil yeşiyidir. Çünki İkinci Qarabağ müharibəsi onu göstərdi ki, kim kimdir. Birinci Qarabağ müharibəsində onlar dinc əhaliyə qarşı vuruşurdular, soyqırımı, qətliam törətmişdilər. O vaxt Azərbaycan ordusu müqavimət göstərmək iqtidarında deyildi. Amma bu dəfə biz onları diz çökdürdük və onlar öz miskin ömürlərinin sonuna qədər məğlubedilmiş fərarilər kimi yaşayacaqlar. Əlbəttə ki, belə adamlar istənilən fürsətdən istifadə edib bizə zərbə vurmağa hər an hazır olan adamlardır. Amma onlar da bilməlidirlər, indiki hakimiyyət də bilməlidir və istənilən hakimiyyət bilməlidir ki, Ermənistan bizim qabağımızda heç vaxt dayana bilməz. Yenə də deyirəm, bizi heç nə dayandıra bilməz. Bizi dayandıran yeganə amil odur ki, biz müharibə istəmirik. Məhz buna görə dünən saat 21:30-da mən Müdafiə Nazirliyinə göstəriş verdim ki, atəşi dayandırın. Mən bu göstərişi verməsəydim, bu gün də onların vəziyyəti daha ağır olacaqdı.

Yəni, biz bir daha göstərdik ki, bizim səbrimizlə oynamasınlar. Ümid edirəm ki, bu cəhd, bu təxribat cəhdi sonuncu cəhd olacaq. Olmasa, yenə də nəticə eyni olacaqdır.

*– Cənab Prezident, bu gün rəsmi Bakı Yerevana sülh təklif edir. Amma Sizin qeyd etdiyiniz kimi, Ermənistan yenə zaman-zaman təxribatlara əl atır. Siz may ayında, noyabrda və dünən baş verən ciddi toqquşmalar barədə danışdınız. Belə halların bir daha baş verməməsi üçün Azərbaycan hansı rıçaqlardan istifadə edəcək və delimitasiya, demarkasiya ilə bağlı bu il hansı tədbirlərin görülməsi nəzərdə tutulur?*

- Biz, əslində, bu sülh gündəliyini onlara təqdim etmişik və delimitasiya ilə bağlı, əgər o baş tutarsa, ondan sonra demarkasiya ilə bağlı çox aydın təkliflər irəli sürmüşük. Bildiyiniz kimi, ilkin mərhələdə Ermənistan cavab vermirdi, nə hə, nə yox deyirdi. Yəni, bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyində gələcəklə bağlı açıq-aydın təsəvvür yoxdur. Bizim siyasətimiz isə tam aydındır - istər müharibə ilə bağlı, istər keçmiş Qarabağ münaqişəsinin baş vermiş həlli ilə bağlı, istər gələcəklə bağlı. Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Halbuki biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər. İndi imzalansa da, imzalanmasa da, biz dediyim kimi, öz hərbi gücümüzü, qüdrətimizi daim artıracağıq və artırmalıyıq. Ermənistan tərəfi isə tərəddüd edir. Yenə də bu, onu göstərir ki, rəsmi dairələr bu məsələ ilə bağlı öz fikrini hələ formalaşdıra bilməyib. Bir tərəfdən, onlar başa düşürlər ki, sülh müqaviləsi olmasa və güclü Azərbaycan mövcud olduğu halda onların müəyyən narahatlığı ola bilər. Digər tərəfdən başa düşürlər ki, sülh müqaviləsi imzalanarsa, orada mütləq hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması müddəası olmalıdır və onlar buna hazır olmalıdırlar. Ona görə, bilirsiniz, necə deyərlər, iki daş arasında qalıblar. Ancaq seçim etməlidirlər, düzgün seçim etməlidirlər. Mən demişəm, bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni, bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var. Amma buna baxmayaraq, gələcək sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə biz buna hazırıq. Amma mən qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq.

*– Çox üzr istəyirəm, qısa bir dəqiqləşdirmə. Müqayisəli təhlil apardıq, yəni, Ermənistan tərəfindən davamlı təxribatlar, indiki hakimiyyətin hərəkətlərində mütərəddidlik, qeyri-davamlı proseslərin baş verməsi. Qeyd etdiyiniz məsələ – sülh sazişi və ölkələrin bir-birinin ərazilərini tanıma məsələsinin, fikrinizcə, perspektivi görünür, yoxsa yox?*

– Yox, mən bunu görmürəm. Çünki Ermənistan tərəfindən hələlik hər hansı bir cavab verilməyib bu təklifə. Kommunikasiyanın açılması ilə bağlı artıq cavab verilib. Baxmayaraq ki, biz bu məsələni gündəliyə salanda ona da etiraz edirdilər. İndi hər kəs bunu yaxşı xatırlayır ki, həm dəmir yolunun tikintisinə, xüsusilə avtomobil yolunun tikintisinə etiraz edirdilər və deyirdilər ki, yox, bu, olmayacaq. Sonra mən müsahibələrimin birində dedim ki, istəsə də, istəməsə biz bunu edəcəyik. Bunu deyəsən aprel ayında demişdim və nəticə etibarilə indi avtomobil yolunun, Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasındakı avtomobil yolunun çəkilişinə də razılıq verib. Yəni, mən demək istəmirəm ki, biz onları məcbur etmişik, biz heç bir zor tətbiq etməmişik. Ola bilər ki, bizim, necə deyərlər, siyasi addımlarımız, diplomatik addımlarımız, eyni zamanda, bölgədə gedən proseslər göstərir ki, bunu artıq təkcə Azərbaycan yox, bir çox region ölkələri istəyir. Ona görə bu tarixçəyə nəzər salsaq görərik ki, Ermənistanın mövqeyində dəyişiklik baş verir. Ona görə istisna edilmir ki, bu gün inkar etdiyi sülh müqaviləsinin imzalanmasına da nə vaxtsa hazır olacaq. Ancaq yenə də deyirəm, elə bilməsinlər ki, biz daim onlardan sülh tələb edəcəyik. Biz, sadəcə olaraq, regionun gələcəyi naminə və müharibə riskinin sıfra endirilməsi naminə bu təklifi edirik. Yenə də deyirəm, əgər Ermənistan buna hazır deyilsə, onda bu, olmayacaq. Olmasa nə olacaq? Heç nə. Biz nə itirəcəyik? Heç nə itirməyəcəyik, nə bu gün, nə sabah. Bəlkə də əksinə. Amma itirən tərəf Ermənistan olacaq.

*– Cənab Prezident, bu gün biz açıq-aşkar görürük, Siz də dəfələrlə vurğulamısınız ki, Qarabağ münaqişəsi artıq keçmişdə qalıb. Şübhəsiz, bu, yeni geosiyasi reallıq yaradır. Sizin rəyiniz necədir, bəzi ölkələrin, beynəlxalq təşkilatların, siyasi liderlərin bu yeni reallığı necə qəbul etmələri Sizi qane edirmi?*

– Bəli, deməliyəm ki, müharibənin başa çatmasından bir il keçəndən sonra beynəlxalq birliyin reaksiyası məni qane edir. Lakin deməliyəm ki, bu, çox cəhətdən bizim fəaliyyətimiz nəticəsində baş verib. Ona görə ki, müharibə qurtarandan sonra, elə ertəsi gün mənim tapşırığımla biz işə başladıq ki, müharibənin nəticələri bütün beynəlxalq birlik tərəfindən qəbul

edilsin. Yəni, biz, belə deyək, bircə gün də həm ərazilərin bərpası baxımından, həm də artıq dediyim kimi, yüzlərlə kilometrlik sərhədin qaydaya salınması, beynəlxalq birliyin bunu qəbul etməsi baxımından nail olduğumuz işləri dayandırmamışıq. Bu iş tədricən gedib, lakin hər halda biz buna nail olmuşuq. ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk bəyanatlarını yada salsaq görərik ki, onlar yeni reallıqlardan tamamilə uzaq idi. Biz orada vaxtaşırı həm münaqişə mövzularını, həm də digər qəbuledilməz məsələləri görürdük. Lakin sonradan, onların bəyanatlarına baxsaq indi artıq həm 10 noyabr tarixli üçtərəfli Bəyanata, həm də başqa sənədlərə istinadlar görərik. Yəni, reallıq artıq üstünlük təşkil edir. Bir də ki, bilirsiniz, Azərbaycan artıq o ölkə deyil ki, onun mənafelərinə etinasızlıq göstərilsin. Əlbəttə, biz heç vaxt özümüzü şişirməmişik və şişirtməli deyilik, lakin lazımınca qiymətləndirməmək də gərək deyil. Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır. Bu, asan məsələ deyildi. Bu, ictimaiyyətə görünməyən iş idi. Ona görə ki, biz bu işi açıq şəkildə görə bilməzdik. Əks halda özümüzə ziyan vura bilərdik. Ona görə bu, daimi iş idi. Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər. Biz bunu həm formal mənada, həm də xalis ünsiyyətdə görürük. Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük. Bəli, amma bunlar hər şey başa çatandan sonra belə olub. Əlbəttə, çoxları bizə deyir ki, siz haqlı idiniz, siz hər şeyi düzgün edirdiniz, biz həmişə sizin tərəfinizdə olmuşuq. Lakin nədənsə çoxları bu barədə susmağı üstün tuturdu. Amma bilirsiniz, həmişə qaliblərin dostları çox olur. Biz bunu tarixdə dəfələrlə görmüşük, lakin hər halda bu, müsbət addımdır, xüsusən deməliyəm ki, buna İkinci Qarabağ müharibəsinin necə getməsi də yəqin ki, təsir göstərib. Biz o müharibəni ləyaqətlə, kişi kimi, beynəlxalq humanitar normaları pozmadan aparmışıq. Mən dəfələrlə demişəm, erməni tərəfdən dinc əhali arasında itki az olub. Olan qurbanlar da yalnız müharibədə iştirak edən dinc vətəndaşlar olub. Erməni tərəfi isə alçaqcasına hücumlar edib, bizim şəhərlərimizi daim bombalayıb. Təkcə Tərtərə 16 min mərmi düşüb. Təsəvvür edin, kiçik bir şəhər və 16 min mərmi. Bəs Gəncə, bəs Şuşa, “Skad”lar, “İskəndər”lər!

Müharibənin daha bir epizodu barədə hələ danışmamışam. Yəqin ki, bu söhbət ilk dəfə biz Zəngilan istiqamətində Ermənistanla sərhədə doğru irəliləyəndə və Ağbənd qəsəbəsinə bir neçə kilometr qalan vaxt olub. Biz məlumat aldıq ki, erməni tərəfi Rusiya tərəfinə müraciətlə xahiş edib ki, Rusiyanın Gümrüdəki hərbi bazasının kontingentinin bir hissəsi oraya, sərhədə, Zəngilana ezam edilsin. Bunu onunla əsaslandırmaq istəyirdilər ki, guya Azərbaycan Ermənistan ərazisinin Mehri hissəsini ələ keçirmək niyyətindədir. Hərçənd bizim belə niyyətimiz yox idi. Bununla belə Gümrüdəki Rusiya bazasının çox məhdud kontingenti oraya ezam edildi. Bu operativ informasiya bizdə vardı. Bu hadisə baş verəndən dərhal sonra erməni silahlı qüvvələri rusiyalı hərbi qulluqçuların arxasından Azərbaycan qoşunlarını atəşə tutmağa başladılar. Orada məsafə çox kiçik idi, buna görə onlar minomyotlardan da atəş açırdılar. Orada biz tələfat verdik. Lakin təbii ki, biz cavab verdik və dərhal Rusiyaya müraciət etdilər ki, Azərbaycan rusiyalı hərbi qulluqçuları atəşə tutur. Bu dərəcədə alçaqlığı təsəvvür etmək olarmı? Yeri gəlmişkən, Rusiya tərəfi sonralar, artıq bizimlə kontaktlarda bu hadisəni eyni ilə mənim kimi qəbul edirdi: bu, alçaqlıqdan başqa bir şey deyil. Yəni istəyirdilər ki, biz erməni mövqelərinə cavab atəşi açmaqla rusiyalı hərbi qulluqçulara ziyan vuraq, onlar öz məqsədlərinə çatsınlar və Rusiyanı bu müharibəyə cəlb etsinlər.

Müharibə dövründə baş verən çox hadisələr erməni tərəfin hərəkətlərinin alçaq xarakterinə sübutdur. Hətta öz hərbi qulluqçularına münasibətdə. Səngərlərdə, maşınlarda, yük maşınlarında zəncirlə bağlanmış vəziyyətdə ölən erməni hərbi qulluqçularını nə qədər tapdıq. Ermənistanın hərbi və siyasi komandanlığı fərarilərin yerindəcə güllələnməsi barədə göstəriş vermişdi. Bütün bu informasiya bizdə var. Ona görə ki, biz təkcə Qarabağda deyil, Ermənistan ərazisinin çox hissəsində də bütün məkanı izləmişik. Buna görə baş verənlər haqqında mötəbər informasiyaya malik idik. Yeri gəlmişkən, indi də belədir.

Düşünürəm ki, bu amil də rol oynayıb. Fikrimcə növbəti amil odur ki, biz işğaldan azad edilmiş ərazilərə dərhal müxtəlif ölkələrdən olan diplomatların, jurnalistlərin, ictimaiyyət nümayəndələrinin səfərlərini təşkil etdik. Onlar hamısı şokda idi. Elə biz hamımız da. Orada olan hər birimiz, sadəcə, şok vəziyyətinə düşürdük. Ona görə ki, biz vandalizmin və barbarlığın miqyasını bilmirdik. Bu da ermənilərin bütün ideoloji konsepsiyasını tamamilə alt-üst edirdi ki, guya onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxartmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə satmağa aparmaq, məscidləri dağıtmaq, orada donuz saxlamaq. Biz bütün bunları göstərdik, hərçənd heç nə göstərməyə ehtiyac yox idi, sadəcə, adamların oraya gəlməsi lazım idi ki, özləri baxıb görsünlər. Mən hələ işğal dövründə müsəlman ölkələrə müraciətlə deyəndə ki, ermənilər dəhşətli hadisələr törədir, bütün müsəlmanların müqəddəs ziyarətgahlarını təhqir edirlər, bəlkə də çoxları buna inanmırdı, lakin indi özləri bunu görəndən sonra necə qəbul edəcəklər? Yəni burada baş verənlərin dərk edilməsində, bizim təkcə tarixi, hüquqi və siyasi baxımdan deyil, həm də xalis insanlıq baxımından haqlı

olmağımızı dərk etməkdə daha bir dönüş baş verdi. Biz belə hərəkətlər etməmişik. Hazırda bizim nəzarətimizdə olan kəndlərdə, – mən ermənilərin yaşadıqları kəndləri nəzərdə tuturam, – hər şey salamatdır. Bir il keçib, mən Hadrutda olmuşam, orada bircə binaya da toxunulmayıb. İşğal dövründə orada əsasən ermənilər yaşayırdı. Bu, ümumiyyətlə, Azərbaycan xalqının xarakterinə ziddir. Heç bir qəbirüstü daş sındırılmayıb, heç bir kilsə dağıdılmayıb. Amma yəqin bilirsiniz, UNESCO ilə bağlı epopeyanı deyirəm, onlar bizi az qala vandalizmdə təqsirləndirməyə çalışırdılar, düşünürdülər ki, indi biz kilsələri dağıdacağıq. Biz ermənilərin buraya gəlməsi marşrutunu onlarla razılaşdırdıq. Onlar da, onlarla əlaqədə olan bəzi ölkələr də çox təkidlə buraya gəlmək istəyirdilər. Biz işğaldan azad edilmiş ərazilərə xarici diplomatların və əcnəbi jurnalistlərin səfərlərini təşkil edəndə, onlar bu kilsələrin və bu qəbirlərin yerində olduğunu görəndə UNESCO-nun gəlməsi mövzusu gündəlikdən çıxarıldı. Məsələ belədir. Biz bütün illər boyu onları dəvət edirdik. Cavab necə olurdu? Deyirdilər ki, UNESCO siyasi məsələlərlə məşğul olmur. İkinci Qarabağ müharibəsi başa çatan kimi onlar təkidlə buraya gəlməyi xahiş etməyə başladılar. Biz marşrutları razılaşdırdıq və sair. Bu müddətdə baş verənlər məlumdur. Onlar özləri də gördülər ki, biz heç nəyi dağıtmırıq, amma buraya gələndə dağıdılmış məscidləri, dağıdılmış qəbiristanlıqları, tarixi abidələri, dağıdılmış şəhərləri görəcəklər, sadəcə, bunu kimin etdiyini deməyə məcbur olacaqlar. Deməli, bunu etmək istəmirlər. Bütün bu amillər, üstəgəl bizim fəal diplomatik işimiz bu reallıqların dünyada qəbul edilməsinə şərait yaratdı. Hesab edirəm ki, bu, böyük uğurdur. Ona görə ki, bu müharibədən sonra, əslində, biz müharibə başlayacağı halda nələr baş verəcəyi barədə dünya miqyaslı himayədarları olan Ermənistanın bütün proqnozlarını, bütün fərziyyələrini alt-üst etdik. Əlbəttə, düşünürəm ki, dünya Azərbaycan xalqının öz torpağına nə qədər sadiq olduğunu, hər şeyə - qurbanlar verməyə də, böyük riskə də nə dərəcədə hazır olduğunu gördü və bu amil də rol oynadı. Ona görə ki, sentyabrın 27-də ermənilərin himayədarlarının reaksiyasını hətta mən də - bunu bilən və ya güman edə biləcək adam da fərz edə bilməzdik. Bütün bunlar öz rolunu oynadı. Buna görə də bizim xalqımıza və ölkəmizə hörmət inanılmaz dərəcədə artdı. Biz bunu görürük. Bunu hər kəs, hər bir azərbaycanlı, Azərbaycandan uzaqda yaşayan hər kəs görür və hiss edir. İkinci Qarabağ müharibəsi təkcə ərazilərin azad edilməsi, təkcə milli ruhun oyanması və ləyaqət hissinin qaytarılması demək deyil, bu, çox böyük multiplikativ, müsbət effektdir və düşünürəm ki, daim müsbət təsir göstərəcək.

*– Cənab Prezident, münaqişə dövründə ATƏT-in Minsk qrupu deyilən bir qrup da var idi, bayaq Siz də onu qeyd etdiniz. ATƏT-in bu Minsk qrupu faktiki olaraq 30 il müddətində heç bir irəliləyişə nail olmadı və Azərbaycan öz gücünə istər beynəlxalq hüququ, istərsə də BMT-nin məlum qətnamələrini özü təmin etdi. Münaqişə həll olunandan sonra isə Minsk qrupu bir neçə bəyanat verdi və ondan sonra yoxa çıxdı. Onlardan heç xəbər də yoxdur. Sizdə hər hansı məlumat varmı? Onlar nə işlə məşğuldurlar?*

– Yox, məndə də məlumat yoxdur. Hesab edirəm ki, onlar indi yubiley tədbirlərinə hazırlaşırlar. Çünki bildiyiniz kimi, Minsk qrupu 1992-ci ildə yaradılmışdır və bu il 30 illiyidir. Yəqin ki, bu tədbirlərin hazırlanması onları məşğul edir. Amma əgər bu zarafatları kənara qoysaq, hesab edirəm ki, onlar özləri üçün bir gündəlik formalaşdırmalıdırlar. Bu, bizim işimiz deyil. Halbuki, mənim təsəvvürüm var ki, onlar nə ilə məşğul olmalıdırlar və nə ilə məşğul olmamalıdırlar. Nə ilə məşğul olmamalıdırlar, mən deyə bilərəm. Onlar Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdırlar, çünki bu münaqişə həll olunub. Biz onların yerinə bu məsələni həll etdik. Onların görünməməsinin səbəbi də hesab edirəm ki, bundan qaynaqlanır. Çünki onlar üçün nə qədər çətin olsa da, bu yeni reallığı qəbul etməlidirlər. Bilməlidirlər ki, onlar bundan sonra Qarabağ məsələsi ilə məşğul olmayacaqlar. Çünki buna biz imkan verməyəcəyik. Biz bu münaqişənin bir tərəfi idik. Əgər bir tərəf deyir ki, bu münaqişə həll olunub, deməli, burada vasitəçiliyə yer qalmır və bizim mövqeyimiz onlara çatdırılıbdır. Nə ilə məşğul olacaqlar, yəqin ki, özləri fikirləşməlidirlər. Bildiyimə görə, indi həmsədrlər arasında da əvvəlki dövrlərdəki kimi birlik yoxdur. Mənim mülahizələrim buna dəlalət edir. Həm bu ölkələr arasındakı münasibətlər son vaxtlar xüsusilə çox gərginləşib, eyni zamanda, keçmiş münaqişə və indiki vəziyyətlə bağlı onların fərqli fikirləri var. Məncə, onlar öz aralarında bir razılığa gələ bilmirlər. Hər halda onların fəaliyyətinin belə aşağı səviyyədə olması bizi qətiyyən narahat etmir, bəlkə də əksinə. Prinsipcə 30 il böyük iş stajıdır, pensiya ərəfəsindədirlər. Ona görə onlara uzun ömür, cansağlığı arzulayıram.

*– ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri də Fransadır. Fransanın nəinki parlament nümayəndələri, hətta prezidentliyə bir neçə namizədləri də Ermənistana və qeyri-qanuni olaraq Qarabağa səfər etdilər və orada bir az qızışdırıcı bəyanatlar verməyə başladılar. Bu bəyanatlar nəyisə dəyişə bilərmi?*

– Yox, əlbəttə ki, yox. Hesab edirəm ki, bu bəyanatları verənlərdə bunu başa düşürlər ki, bu, heç nəyi dəyişməyəcək. Bu bəyanatların səbəbi də aydındır, növbəti prezident seçkilərində erməni təşkilatlarının səsini qazanmaqdır. Prezidentliyə namizəd xanım Pekresin Azərbaycan ərazisinə bu təxribat xarakterli səfəri, ilk növbədə, Prezident Makrona qarşı edilən səfər idi. Mən, sadəcə olaraq, təəccüb edirəm ki, Prezident Makron müharibə zamanı Ermənistana dəstək verən ən qabaqcıl siyasətçi idi və hətta məsələ o yerə çatmışdı ki, Fransa-Azərbaycan əlaqələri də artıq sual altına düşmüşdü. Buna baxmayaraq, bütün müharibə dövründə o, birmənalı şəkildə Ermənistan tərəfini tuturdu.

Mən təəccüb edirəm ki, Paşinyan tərəfindən indi nə dərəcədə nankorluq göstərilir, ona əsas rəqib olan xanım Pekres Qarabağa göndərilir və beləliklə, erməni səslərinin qazanılmasında onun daha böyük imkanları yaranır. Yəni məni təəccübləndirən budur. İkincisi, bir daha demək istəyirəm ki, bu, heç nəyi dəyişməyəcək.

Prinsipcə siz də, yəqin Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, müharibə dövründə və müharibədən sonra bu üç ölkə necə davranış sərgiləyirdi. Rusiya siyasi nöqteyi-nəzərdən tam neytral mövqe nümayiş etdirirdi. Amerikadakı Tramp administrasiyası ümumiyyətlə, bu məsələ ilə məşğul olmaq fikrində deyildi. Müharibə Tramp administrasiyasının məhz son aylarına təsadüf etdiyi üçün biz Amerika tərəfinin hər hansı bir mövqeyini görmədik. Avropa İttifaqı rəhbərlik səviyyəsində həm Ermənistan, həm Azərbaycan rəhbərliyi ilə telefon təmaslarında olmuşdur. Fransa isə birmənalı Ermənistan mövqeyini müdafiə edirdi. Azərbaycana qarşı əsassız ittihamlar ifadə edirdi və əlbəttə ki, hər iki parlamentin palatasının qondarma "Dağlıq Qarabağ respublikası"nı tanıması Fransa-Azərbaycan əlaqələrinə çox böyük zərbədir. Müharibədən sonra isə müəyyən müddət bu siyasət davam edirdi. Ancaq sizin sualınıza qayıtdıqda deyə bilərəm ki, Fransa da müharibənin nəticələrini qəbul edib və Prezident Makronun təşəbbüsü ilə keçən ay Brüsseldə üçtərəfli görüş keçirilmişdir. Bu görüş, eyni zamanda, Fransa-Azərbaycan əlaqələri üçün önəmli idi. Çünki biz bir çox məsələləri Prezident Makronla aydınlaşdırdıq. Hesab edirəm ki, normal münasibətlər formatına qayıtmaq üçün imkanlar var. Bilirsiniz, siyasətdə mən həmişə onun tərəfdarı idim ki, emosiyalara qapılmayım və emosiyaları siyasətlə heç vaxt qarışdırmaq olmaz. Bizim müharibədəki davranışımız da bunu göstərirdi. Gəncə, Tərtər, digər şəhərlər bombalanandan sonra biz eyni cavabı vermədik. Halbuki, siz də başa düşürsünüz ki, mən hansı hissləri keçirirdim. Eyni zamanda, beynəlxalq müstəvidə, indi necə deyərlər, Fransa başa düşür ki, səhv addım atıb, heç nə əldə etməyib. Sadəcə olaraq, öz addımları ilə və müharibədən sonrakı addımlarla Azərbaycan ictimaiyyətinin inamını itirib. Nəticə etibarilə, bax, Ermənistan hakimiyyəti onlara belə nankorluq göstərib. Azərbaycan isə faktiki olaraq, öz yolu ilə davam edir. Ona görə münasibətlərin normallaşması istiqamətində Fransa tərəfindən atılan addımlar bizim tərəfimizdən müsbət qarşılanır.

*– Cənab Prezident, Azərbaycan cəmiyyətində ölkəmizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının fəaliyyəti ilə bağlı daim müəyyən suallar yaranır, yumşaq desək, suallar yaranır. Bu, xüsusən də Siz qeyd etdiyiniz kimi qeyri-qanuni səfərlər zamanı baş verir, cəmiyyətdə qıcıq və narahatlıq doğurur. Siz necə hesab edirsiniz, sülhməramlıların fəaliyyətini necə qiymətləndirirsiniz və bu cür halların qarşısını almaq üçün əlavə hansı alətlərdən istifadə eləmək olar?*

– Sülhməramlıların fəaliyyətini qiymətləndirmək üçün hesab edirəm ki, biz daha geniş prizmadan yanaşmalıyıq və əlbəttə ki, qıcıq doğuran məqamlar az deyil. Amma, eyni zamanda, onların müsbət funksiyalarını da qeyd etməmək ədalətsizlik olar. Onlar indi önəmli funksiyanı yerinə yetirirlər. Eyni zamanda, onlar Kəlbəcər, Laçın rayonlarına bizim həm hərbçilərimizin, həm də yüklərin göndərilməsini və daşınmasını müşayiət edirlər və prinsipcə deyə bilərəm ki, mən onların ümumi fəaliyyətinə müsbət yanaşıram. Yəni, keçən il bir çox şeylərə aydınlıq gətirdi, çünki eyni zamanda, bizim Rusiya ilə əlaqələrimizdə yeni bir element yarandı, hansı ki, bu element yox idi. Azərbaycan–Rusiya əlaqələri həmişə çox müsbət olub. Amma keçən il bu əlaqələr daha da dinamik olub və təmaslar daha çox olub, o cümlədən prezidentlər səviyyəsində, müxtəlif səviyyələrdə. Bu, bizim əlaqələrimiz üçün bir yenilik idi və bu yenilik ikitərəfli əlaqələrə problem yarada bilərdi, ya da ki, ikitərəfli əlaqələri gücləndirə bilərdi. Mən deyə bilərəm, artıq keçən ili, bu ili təhlil edərkən sülhməramlı missiyanın Azərbaycan tərəfdaşları ilə münasibətləri ikitərəfli əlaqələrə müsbət təsir göstərmişdir. Ona görə bunu biz bilməliyik, Azərbaycan vətəndaşları da bilməlidirlər.

O ki qaldı, qıcıq doğuran məsələlərə, əlbəttə, bu bizi də qıcıqlandırır və dəfələrlə belə qanunsuz səfərlər baş verdikdə rəsmi qaydada Rusiya tərəfinə irad bildirilir. Həm müdafiə nazirimiz öz həmkarına məktublar göndərib dəfələrlə, həm sülhməramlı missiya rəhbərinə irad bildirilir və Valeri Pekresin son qanunsuz səfəri ilə bağlı da eyni addımlar atılmışdır. Bizə belə bir cavab verildi ki, biz görməmişik, bilməmişik, diqqətdən kənarda olub, o, hansısa adi bir maşında gəlib və sair. Halbuki, əlbəttə, bu, inandırıcı deyil və mən necə var elə də deməliyəm, müsbəti də, mənfini də. Bu, təşkil edilmiş səfər idi, çünki Valeri Pekres istədiyi müşayiətlə gedə bilməyib, çox məhdud sayda gediblər. Onun yanında Fransanın keçmiş xarici işlər naziri, avrokomissar Barnye, bir deputat olmuşdur. Onlar gizli şəkildə oraya getdilər və qayıtdılar. Qayıdandan sonra artıq xəbər çıxdı, çünki yəqin ehtiyatlanırdılar ki, biz Laçın dəhlizində onları dayandıracağıq. Çünki əgər xəbərimiz olsaydı ki, onlar oradadırlar, biz onları geri buraxmayacaqdıq, birmənalı şəkildə. Laçın dəhlizi bizim nəzarətimiz altındadır. Siz Şuşada olmusunuz, görmüsünüz. Biz orada istənilən maşını saxlaya bilərik və heç kim bizə heç nə deyə bilməz. Ona görə belə hallar baş verir, buna yol vermək olmaz qətiyyən və buna son qoyulmalıdır. Məndə olan məlumata görə, Qarabağa gələn Ermənistan nümayəndələri sülhməramlı missiyaya xarici vətəndaşların səfərləri ilə bağlı müraciətlər edirlər. Orada ya icazə verilir, ya da ki, verilmir. Ümumiyyətlə, deyə bilərəm ki, həm giriş-çıxışda, həm Xankəndidə, həm ətraf bölgələrdə baş verən bütün hadisələrdən bizim dəqiq xəbərimiz var. Ona görə bizdən nəyisə gizlətmək, "görməmişik, bilməmişik" demək, qeyri-ciddidir.

Digər qıcıq doğuran məsələ odur ki, biz görürük, Qarabağa, Xankəndiyə və Rusiya sülhməramlı qüvvə-

lərinin nəzarətində olan digər yerlərə gələnlərin sayı gedənlərin sayı ilə böyük fərq təşkil edir. Daha çox insan oradan gedir. Biz bunu izləyirik. Bir şeyi də izləyirik ki, gedən maşınların 91 faizi, - bax, 91 faiz deməklə, o cümlədən mən bildirirəm ki, biz bunu nə dərəcədə dəqiqliklə bilirik, – yoxlanılmır. Oradan çıxan maşınların cəmi 46 faizi yoxlanılmır. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, Rusiya sülhməramlı qüvvələri çalışırlar, giriş sərbəst olsun, çıxışda isə müəyyən problemlər olsun. Yəni, o maşını dayandırırlar, sorğu-suala tuturlar və sair. Yəni, istəyirlər ki, insanlar oradan getməsinlər. Bu isə təsadüfən ola bilməz. Bu dərəcədə fərq ola bilməz. Biz maşınların da, insanların da sayını bilirik, nə qədər insan girib, nə qədər çıxıb və bu da qəbuledilən məsələ deyil. Bizdə olan məlumata görə, müharibə dövründə oradan çıxmış əhalinin 38 mini İkinci Qarabağ müharibəsindən sonra qayıdıbdır və qayıdanlardan 11 mini oranı həmişəlik tərk edib. Dəqiqləşdirilmiş məlumata görə, indi Rusiya sülhməramlılarının nəzarətində olan ərazidə 27 min insan yaşayır. Bax, bu iki məsələ istisna olmaqla, bütövlükdə, yenə də deyirəm, onların funksiyasını mən müsbət qiymətləndirirəm. Ciddi insidentlər olmamışdır. İnsidentlər Ermənistan-Azərbaycan sərhədində baş verib, yəni, o zonada ciddi insidentlər olmayıb.

*– Cənab Prezident, icazə versəniz, ATƏT-in Minsk qrupu ilə bağlı daha bir sualım var. Həmsədrlər və onları dəstəkləyən ölkələr özlərinə haqq qazandırmaq üçün deyirlər ki, otuz il ərzində, – bu həqiqətən böyük müddətdir, – onlar müəyyən qədər təcrübə toplayıblar. Biz hamımız İkinci Qarabağ müharibəsinin də, müharibəyə qədər onların işinin də nəticələrini gördük. Siz necə hesab edirsiniz, bu müddət ərzində onların fəaliyyətsizliyi nəzərə alınmaqla bu formatı necə dəyişmək lazımdır ki, itirilmiş etimad bərpa olunsun?*

– Bu, yenə də onların nə ilə məşğul olmağa hazırlaşmalarından asılı olacaq. Mən bu məsələ barədə öz mövqeyimi bizim xarici işlər naziri vasitəsilə çatdırmışam. Artıq dediyim kimi onların nə ilə məşğul olmamalı olduğunu demişəm. Onlar öz gündəliyini formalaşdırmalı və bizə təqdim etməlidirlər. Sonra biz həmin gündəliyi ya təsdiq etməli, ya təsdiq etməməli, ya da qismən təsdiq etməliyik. Yəni, onların belə konsolidə edilmiş qrup kimi məşğul olmaq istədikləri bəndlərdən söhbət gedir. Hərçənd, bir daha vurğulamalıyam, Rusiya ilə ABŞ, Rusiya ilə Avropa İttifaqı arasında baş verən son hadisələr bunu deməyə əsas verir ki, həmin ölkələr arasında əməkdaşlığın bu yeganə formatı formal mənada deyil, məhz belə konsolidə edilmiş şəkildə saxlanacaq. Buna görə də biz özümüz üçün ilk növbədə, aydınlaşdırmalıyıq ki, bu gün Minsk qrupunun həmsədrliyi zamanın reallıqlarına nə dərəcədə cavab verir, həmsədrləri dəyişməyə zərurət varmı, çünki Minsk qrupu təkcə bu üç ölkədən ibarət deyil. Bu üç ölkə, əslində, qalan ölkələri təcrid ediblər, həqiqəti demək lazımdır. Üstəlik, nizamlamaya hansı şəkildəsə kömək etmək arzusunu bildirmiş bütün başqa təşkilatlar da bloklanmışdı. Bu, mənə dəqiq məlumdur. 2005-ci ildə biz Avropa Şurasının Parlament Assambleyasında işğalı pisləyən Qətnaməni keçirməyə nail olanda, bildiyimə görə, orada Minsk qrupu tərəfindən böyük qalmaqal qoparılmışdı ki, necə yəni, siz özünüzə aid olmayan işlərə qoşulursunuz. Onlar Avropa İttifaqının cəhdlərinə də beləcə qısqanclıqla yanaşırdılar. Yadınızdadırsa, bir müddət bundan əvvəl - keçən il, mənim fikrimcə Avropa İttifaqının üzvləri olan üç ölkənin xarici işlər nazirlərindən ibarət nümayəndə heyəti gəlmişdi. Bu səfərə də münasibət çox qısqanc olmuşdu.

Yəni, prosesi tamamilə inhisarlaşdırmaq, təkcə başqa aktorları deyil, Minsk qrupunun öz üzvlərini də kənarlaşdırmaq cəhdi onların, sadəcə, statistlər rolunda qalmasına səbəb olur. Çoxları hətta bu qrupun kimlərdən ibarət olmasını bilmir. Ardıcıllıq belə olmalıdır. Birincisi, bu qrupun nə dərəcədə həyat qabiliyyətli olması aydınlaşdırılmalıdır. İkincisi, onlar nə ilə məşğul olmağı planlaşdırdıqlarını əks etdirən gündəlik təqdim etməlidir, özü də bu gündəlik onların üçünün arasında razılaşdırılmalıdır. Daha sonra Azərbaycan və erməni tərəfi buna öz münasibətini bildirməlidir. Hələlik bu iki ilk bənd yoxdur. Buna görə də prinsip etibarilə danışmaq üçün mövzu yoxdur.

Təcrübə məsələsinə gəldikdə isə, təcrübə yaxşı şeydir, lakin o halda ki, bu, müsbət təcrübə olsun. Buna görə düşünürəm ki, onlar özləri bir şey fikirləşib tapmalı, bir qərara gəlməlidirlər.

*– Cənab Prezident, bu gün Azərbaycan görünməz bir düşmənlə də mübarizə aparır – koronavirus. Xatırlayaq, iki il bundan öncə əksər ölkələr Azərbaycana nümunə göstərilirdisə, bu gün bu virusla mübarizədə Azərbaycan dünya ölkələrinə nümunədir. Amma təəssüflər olsun ki, ölkəmizdə artıq "omikron"a da yoluxma halları təsdiqləndi. Az zərərlərlə çıxmaq üçün, bu siyasətin davam etdirilməsi üçün bundan sonra hansı tədbirlər görüləcək?*

– Bilirsiniz, görülmüş tədbirlər öz səmərəliliyini göstərir. Azərbaycan o ölkələrdəndir ki, hesab edirəm, bu çətin sınaqdan şərəflə çıxır. Halbuki itkilərimiz də az deyil və hər ölən vətəndaş, əlbəttə ki, bizim vətəndaşdır. Bütün ölənlərin yaxınlarına bir daha başsağlığı vermək istəyirəm. Biz əvvəlcədən bu məsələ ilə bağlı ciddi məşğul olmağa başlamışıq. Yəqin xatırlayırsınız, MDB məkanında birinci ölkə idik ki, vaksinasiyaya start verdik. Dəqiq xatırlayıram, keçən ilin yanvarın 18-də artıq biz vaksinləri əldə etdik. O vaxt vaksinləri ölkəyə gətirmək də çox böyük problem idi, indiki kimi deyildi. Çünki vaksinlər çox məhdud sayda idi və birinci mərhələdə qardaş Türkiyə bizə böyük köməklik göstərdi. Türkiyə vasitəsilə biz "Sinovac" vaksinlərini ölkəyə gətirdik və peyvəndləmə prosesinə start verdik. Ondan sonra biz həm "Sinovac"la, həm "Pfizer"lə birbaşa kontraktlar bağladıq. Əsas bu vaksinlərdən istifadə olunur və biz tibb sahəsindəki imkanlarımızı da

böyük dərəcədə genişləndirdik. Bildiyiniz kimi, ölkəmizə modul tipli xəstəxanalar gətirildi, Yeni Klinikanı – ən gözəl xəstəxananı COVID xəstələrinin sərəncamına verdik və bütövlükdə hazırda 46 xəstəxanamız COVID xəstələrinin müalicəsi ilə məşğuldur. Hesab edirəm ki, bu sahədə nəticələr pis deyil.

Vaksinasiya ilə bağlı son məlumata görə, 18 yaşdan yuxarı olan əhalinin haradasa 64 faizi artıq iki dozu alıb, ümumi əhali daha az. Eyni zamanda, buster dozasını 1 milyon 500 mindən çox adam alıb, o cümlədən də mən. Mən bunu ilk dəfə deyirəm. Mən üçüncü dəfə vaksin almışam və hər kəsə bunu məsləhət görürəm.

Hazırda bir çox ölkədə əsas problem xəstələrin sayı və çarpayıların çatışmazlığı ilə bağlıdır. Bizdə isə vəziyyət müsbətdir. Bizdə hazırda 10 min çarpayı var, onlardan cəmi 10 faizi doludur. Yəni, 9 min çarpayı boşdur. Allah eləməsin, əgər pandemiya daha geniş vüsət alsa, bizim kifayət qədər imkanımız var. Burada önəmli məsələ reanimasiya yerləri ilə bağlıdır. Bizdə 875 reanimasiya yerimiz var, onlardan 26 faizi doludur. Burada da kifayət qədər boş reanimasiya yerlərimiz var. Yəni bu nöqteyi-nəzərdən biz özümüzü rahat hiss edə bilərik. Məhz buna görə biz demək olar ki, bütün məhdudiyyətləri aradan qaldırdıq. İndi bir çox ölkələr yenidən qapanır, yenidən məhdudiyyətlər tətbiq edirlər. Bu, insanların psixoloji vəziyyətinə, iqtisadi fəallığa çox mənfi təsir göstərir. Biz isə hər şeyi vəziyyətə uyğun şəkildə edirdik, lazım olan halda qapanırdıq, lazım olan halda açılırdıq. Yəni burada əsas məsələ bu virusun yayılma həcmini azaltmaqdır. Onu da bildirməliyəm ki, Azərbaycan əhalisi də özünü çox məsuliyyətlə aparır və bizdə hər hansı bir anti-COVID meyilləri, anti-COVID kampaniyaları yoxdur. İndi insanlar şüurlu şəkildə gedirlər, bu peyvəndi alırlar və başa düşürlər ki, bu, onları qoruyur. Peyvəndlənmiş insanların arasında ölüm halları çox azdır. Bəlkə də peyvəndlənmiş xəstələrdən hansısa çox ciddi xəstəliyi olan, yaxud da ki, xroniki xəstələr dünyadan gedir. Mənim tanıdığım bir çox insan var ki, onlar vaksinasiyadan keçiblər, sonra yoluxublar və əsasən çox yüngül keçib. Hətta mən “omikron”a yoluxmuş insanları tanıyıram ki, 5-6 günə heç bir ciddi simptom olmadan sağalırlar. Görünür ki, “omikron” daha zəif virusdur. Mən düzü, mütəxəssis deyiləm, bu haqda belə geniş fikir söyləmək istəmirəm. Amma müşahidələrim onu göstərir ki, bu, daha yoluxucudur, amma fəsadları daha azdır.

Amma bunu da heç kim bilmir. Bunu əlbəttə ki, biz gərək izləyək. Əsas məsələ özümüzü, hamımız özümüzü qorumalıyıq. Hər birimiz vaksin almalıyıq və vaxtaşırı o anticisimlərin sayını da yoxlamalıyıq. Mən də özümü yoxlatdırıram, qan analizi verirəm, baxıram. Mən nə üçün üçüncü dəfə peyvənd olundum?! Gördüm ki, artıq məndə anticisimlər azalır. Haradasa artıq o səviyyəyə düşə bilər ki, sanki peyvənd almamışam, ona görə üçüncü – “buster” dozanı aldım. Heç bir təsir yoxdur, Azərbaycanda ümumiyyətlə heç bir fəsad olmayıb. Çünki həm “Sinovac”, həm “Pfizer” görünür ki, çox sağlam və keyfiyyətli vaksinlərdir. Ona görə məsləhətim budur və əlbəttə ki, özlərini qorusunlar, öz valideynlərini qorusunlar. Xüsusilə yaşlı insanlar özlərini qorumalıdırlar. Bütün bu yeni davranış qaydalarına biz gərək özümüzü uyğunlaşdıraq. İndi görək, deyirlər ki, bu viruslar illər keçdikcə öz gücünü itirir və sonra adi qrip halına çevrilir. Ümid edirəm ki, bunu da biz görəcəyik.

*– Cənab Prezident, icazənizlə Zəngəzur dəhlizi məsələsinə qayıdaq. Bir daha vurğuladınız ki, hansı yolla olursa-olsun bu dəhliz açılacaq və biz bir müddət əvvəl ötən ilin yekunlarından danışdıq. Ötən il də artıq siyasi-diplomatik müstəvidə biz bunun ritorikaya daxil olduğunu gördük, Brüssel səfərinizdə media nümayəndələri bu ifadəni işlətdi. Hətta ötən il mülki aviasiya sahəsində olmaq şərti ilə biz Zəngəzur dəhlizi üzərindən, hava məkanından artıq dəhlizin açıldığını gördük. Bəs, quru yolla açılma mərhələsi hansı yerdədir?*

– Hava məkanından istifadə etmək məsələsinə gəldikdə, onu da bildirməliyəm ki, biz bu dəhlizdən Ermənistandan icazə almadan istifadə etdik. Bunu hər kəs bilsin, biz onlardan icazə almamışıq. Bu, bizim hüququmuzdur, bu, beynəlxalq dəhlizdir. Dünya aviasiya sistemində qaydalar var, yəni, mövcud olan dəhlizdən istifadə etmək olar. Biz qərara gəldik ki, bundan da istifadə edək, Zəngəzur dəhlizinin hava versiyasını həyata keçirək. Naxçıvana uçan təyyarələr həm vaxta, həm də yanacağa qənaət edirlər. Amma əsas məsələ, əlbəttə ki, bu deyil. Əsas məsələ artıq bu dəhlizi açmaq idi.

Bildiyiniz kimi, Ermənistan tərəfi bu Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşır. Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm. Nə üçün mən bunu məhz Zəngəzur adlandırdım? Ona görə ki, birincisi, bu, Zəngəzurdur, bunun tarixi adıdır. Azərbaycan toponimidir, necə ki, Zəngilan, Zəngəzur, Zəngi çayı, - hansı ki, ermənilər indi Razdan adlandırırlar, - Azərbaycan toponimidir. İkincisi, biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin. Çünki bizim elektrik enerjisi ilə bağlı çox böyük ixrac planlarımız var. Mən qeyd etdim ki, sabah 240 meqavatlıq külək elektrik stansiyasının təməli qoyulacaq. Cəbrayıl rayonunda 240 meqavatlıq yeni günəş stansiyasının tikintisi ilə bağlı xarici investorlar artıq bizə rəsmən müraciət edib. Xudafərin, Qız qalasında biz 140 meqavat elektrik enerjisi əldə edə bilərik. Kəlbəcər və Laçında isə 10 min meqavata yaxın potensial var, külək və enerji gücləri almaq imkanımız var. Ona görə biz elektrik xətləri də nəzərdə tuturuq. Ondan sonra ola bilsin ki, qaz xətləri də oradan keçsin. Bir xətt Qafandan, bir xətt Mehridən keçə bilər. Bir xətt Qarakilsədən keçə bilər, onlar Sisyan

adlandırırlar. Ona görə Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir. Ermənistan tərəfi, bildiyiniz kimi, ilkin mərhələdə həm bu söz ifadəsinə etiraz edirdi, həm də ki, bütövlükdə buna etiraz edirdi. Hətta bu gün də belə Ermənistan siyasi məkanında bu dəhlizin Ermənistan üçün əlverişsiz olması ilə bağlı fikirlər var.

Biz isə ardıcıl olaraq bu məsələnin həlli ilə bağlı çalışmışıq. Bildiyiniz kimi, Rusiya, Azərbaycan, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir. Onun başlıca vəzifəsi budur. Bu işçi qrup Ermənistan ərazisində olub və avtomobil yolunun mümkün olan marşrutlarını da incələyib. Çünki Ermənistan tərəfi ilkin mərhələdə qeyd edirdi ki, orada avtomobil yolu çəkmək mümkün deyil. Halbuki biz bilirik ki, bu, mümkündür və sovet vaxtında belə bir layihə var idi. Sovet vaxtında Ermənistan bu layihəyə etiraz edirdi və qeyd edirdi ki, bu, mümkünsüzdür. O vaxt Heydər Əliyev Moskvada Siyasi Büronun üzvü idi və sovet hökumətinin Nazirlər Soveti sədrinin birinci müavini idi. Məhz onun göstərişi və təkidi ilə Ermənistanın ovaxtkı rəhbərliyi – birinci katib və hökumətin rəhbəri məcbur olub bu layihəyə icazə verdilər. Necə icazə verdilər? O vaxt Dövlət Plan Komitəsi və digər aidiyyəti qurumlar yerində tanış oldular və bunu artıq plana salmışdılar. Avtomobil yolunun tikintisi də artıq başlanmışdı. Baxın, ermənilər hələ o vaxt istəmirdilər ki, Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında avtomobil bağlantısı olsun. Hələ o vaxt buna müxtəlif bəhanələrlə etiraz edirdilər. Yəni, bu imkanlar var. Bu gün bu işçi qrup da bunu təsbit edib. Ermənistan isə ilkin mərhələdə dəmir yoluna elə bil ki, razılığını verdi. Ondan sonra avtomobil yolunun çəkilişinə razılığını verdi. Artıq bu, təsdiqləndi. Hazırda avtomobil yolunun marşrutu məsələsi müzakirə olunur, haradan keçəcək. Bizim əsas şərtimiz ondan ibarətdir ki, ən qısa marşrut olmalıdır və ilin bütün fəsillərində bu marşrutdan istifadə etmək mümkün olsun. Çünki orada həm hava şəraiti bəzi yerlərdə əlverişsizdir, həm relyef. Bax belə. Bu dəhlizlə bağlı məsələ bu yerdədir.

Onu da bildirməliyəm ki, bizim səylərimiz nəticəsində artıq bu termin beynəlxalq leksikona da daxil edilib. Hətta qeyd etdiyiniz kimi, xarici jurnalistlər mənə sual verdikdə də Zəngəzur dəhlizi deyirlər. Bunu hər dəfə eşitdikcə, necə deyərlər, mənə çox xoş olur. Hər dəfə təxmin edirəm ki, Ermənistan tərəfi yəqin, yenə də başını divara vurur. Ona görə ki, bu, artıq beynəlxalq leksikona daxil edildi və əlbəttə, həyata keçiriləcək.

Bildiyiniz kimi, 3+3 formatı çərçivəsində də, – baxmayaraq, birinci görüş tanışlıq xarakteri daşıyırdı, – mən əminəm ki, ikinci görüşdə daha predmetli müzakirələr aparılacaq, ilk növbədə, kommunikasiyaların açılması ilə bağlı. Burada hər bir ölkənin fayda götürməsi göz önündədir. Sadəcə olaraq, Ermənistan öz antiazərbaycan, islamofob, antitürk xislətlərindən əl çəkməlidir. Ermənistan da təbii olaraq bundan fayda götürə bilər.

*– Cənab Prezident Zəngəzurla bağlı biz bilirik ki, Sizin şəxsi tarixçəniz də var. Siz Naxçıvana səfəriniz zamanı öz əcdadlarınızı ziyarət etdiniz. Şuşa azad olunanda Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməyinizi bunun davamı hesab edə bilərikmi?*

-Bəli, belədir. Mən təşəkkür edirəm ki, siz bunu belə qəbul etdiniz, bəli. Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziyarət etməklə, eyni zamanda, ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir.

Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm.

*-Cənab Prezident, münaqişədən sonrakı dövr, müharibədən sonrakı dövr barədə danışarkən Azərbaycanın beynəlxalq arenada artmış rolunu qeyd etməmək mümkün deyil. Siz dediyiniz kimi, Azərbaycan regionda gedən prosesləri, sadəcə, müşahidə etmir, Azərbaycan regionun gündəliyini diktə edir. Bunun təməlində hansı amillər durur və bu, ölkənin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində necə əks olunub?*

-Bəli, siz tamamilə haqlısınız. Bu gün regional gündəlikdə duran məsələlər çox cəhətdən bizim fəaliyyətimizlə bağlıdır və bizim təşəbbüslərimizin çoxu, tərəfdaşlarımızın təşəbbüslərinin çoxu bizim iştirakımız və müsbət münasibətimiz olduğu halda reallaşır. Bununla paralel olaraq deməliyəm ki, bu, qarşılıqlı faydalı əməkdaşlığa yönəlib. Energetika, nəqliyyat, humanitar məsələlərlə, multikulturalizmlə bağlı bütün təşəbbüslər regionda daha çox proqnozlaşdırılan vəziyyətə, həm siyasi, həm iqtisadi fayda əldə edilməsinə hədəflənib. Ona görə də bu halda artıq uzun illər ərzində Azərbaycanın təşəbbüsləri ilə bağlı olan hər şey apriori, düşünülmüş və həyata keçirilmək üçün zəmin olan təşəbbüs kimi qəbul edilir. Onu da deməliyəm, elə bir hal olmayıb ki, biz kiməsə ağıllı görünmək və ya kiminsə xoşuna gəlməkdən ötrü hansısa xəyalpərəstliklə, populizmlə, havaya sözlə və ya hansısa bayağı, çeynənmiş terminlərin artikulyasiyası ilə məşğul olaq. Yəni, bizim təşəbbüs göstərdiyimiz hər şey yerinə yetirilə bilən idi və yerinə yetirildi.

Qoşulmama Hərəkatına gəlincə, əlbəttə bu, Azərbaycan üçün yeni roldur. Xüsusən ona görə ki, bizim ölkəmiz bu təşkilata daxil olan son ölkələrdən biridir. Biz yeni üzvük. Lakin biz dərhal bütün ölkələrin etimadını və

hörmətini qazana bildik. Buna görə də ölkələr iki dəfə bizim lehimizə səs verdilər. Yəni bir dəfə bizim rəhbərlik etməyimizə etimad göstərdilər, sonra isə yekdilliklə təklif etdilər ki, biz sədrliyimizi daha bir il uzadaq. Biz buna formal baxımdan deyil, hansısa fayda və ya hansısa güzəşt naminə deyil, bizim nə edə biləcəyimiz və bu təşkilatı necə möhkəmlədə biləcəyimiz baxımından yanaşırıq. Çünki mən sırf mexaniki surətdə təşkilat deyirəm, amma bu, təşkilat deyil, Hərəkatdır və beynəlxalq terminologiyada o, təşkilat adlandırılmır. Lakin, düşünürəm ki, institusionallaşdırma yolu ilə getmək lazımdır. Bu yolda biz müəyyən addımlar atmışıq. Birincisi, Hərəkatın üzvü olan parlamentlərin başçılarının qarşıdakı Bakı görüşüdür. Biz parlament elementi yaratmaq istəyirik. Artıq razılıq əldə edilib. Həmçinin bu Hərəkatın gənclər elementini də yaratmaq və beləliklə, struktur dəyişiklikləri yolu ilə getmək istəyirik. Əlbəttə, bu, bütün ölkələrin razılığını tələb edəcək. Bilirsiniz ki, Hərəkatın üzvü olan bəzi ölkələr arasında mürəkkəb münasibətlər var. Biz bütün bunları nəzərə alırıq və buna görə də çox səliqə ilə, lakin israrla hərəkət edirik.

Pandemiya vaxtı bizim gördüyümüz işlər, beynəlxalq təşəbbüslər, Hərəkatın sammiti, BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü, BMT-nin İnsan Haqları Şurasında aldığımız dəstək, yaxın vaxtlarda Baş Assambleyada planlaşdırılmış, lakin COVID-19 səbəbindən təxirə salınmış müzakirə - bütün bunlar Hərəkatın nüfuzunu artırır. O, beynəlxalq arenada daha tanınmış, daha nəzərəçarpan olur. Biz, eyni zamanda, hətta COVID pandemiyasına qədər üzv ölkələrə kömək göstərmişik. Bizim çoxlu humanitar proqramlarımız var ki, bu barədə bəlkə də Azərbaycan ictimaiyyətinin məlumatı yoxdur. Xarici İşlər Nazirliyi tərkibində Beynəlxalq Yardım Agentliyinin xətti ilə biz çox ölkələrə humanitar yardım göstəririk, pandemiya dövründə isə biz 80-dən çox ölkəyə həm maliyyə yardımı, həm də maddi yardım göstərmişik. Bu, əlbəttə, yüksək qiymətləndirilir. Xüsusən ona görə ki, bu ölkələrin resursları məhduddur, onlar vaksin millətçiliyindən əziyyət çəkirlər. Fikrimcə, bu məsələni beynəlxalq səviyyədə bizdən çox qaldıran olmayıb. Bu, hiddətləndirici ədalətsizlikdir ki, özlərini demokratiya, insan hüquqları bərabərliyi mənbələri kimi göstərməyə çalışan ölkələr onlara lazım olduğundan üç-dörd dəfə artıq vaksin alırlar, sonra bu vaksinlərin istifadə müddəti bitir və onları tullayırlar. Yoxsul ölkələrə isə, əslində, heç nə qalmır. Axı, bu statistika məlumdur. Bu, hiddətləndirici ədalətsizlikdir. Bu, bütün mənəvi oriyentirlərin və hansısa hüquqdan, ədalətdən danışmaq haqqının tamamilə itirilməsidir. Azərbaycan bu mürəkkəb funksiyanı öz üzərinə götürüb. Biz başa düşürük ki, Afrika ölkələrində və digər yerlərdə insanların öldüyü bir vaxtda, - sadəcə, orada statistika aparılmır, - öz əhalisini artıq üç doza ilə təmin edəndə özlərini çox yaxşı hiss edən bir sıra ölkələrlə qarşıdurmaya gedirik. Biz şüurlu olaraq buna getdik. Məhz ona görə ki, biz buna inanırıq və ona görə ki, konyunkturanı deyil, prinsipləri rəhbər tuturuq. Bu, bizim ölkəmizə daha çox hörmət qazandırdı. Hərəkata üzv ölkələrin çoxu indi Azərbaycanı onların maraqlarını açıq şəkildə müdafiə edə bilən ölkə kimi görürlər. Yeri gəlmişkən, Bakıda keçirilən sammitdə, sədrlik funksiyasını öz üzərimə götürəndə demişəm ki, biz üzv ölkələrin maraqlarını, beynəlxalq hüququ və ədaləti qoruyacağıq. Biz bunu edirik və Hərəkatın nüfuzunu yüksəltməyə, struktur dəyişiklikləri yolu ilə getməyə səy göstərəcəyik.

*– Cənab Prezident, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri barədə də soruşmaq istəyirəm. Ötən ilin iyul ayında Avropa İttifaqının Prezidenti Azərbaycana gəldi. Siz isə dekabr ayında Brüsselə getdiniz. Bakı-Brüssel əlaqələrinin perspektivini necə qiymətləndirirsiniz?*

– Mən müsbət qiymətləndirirəm. Prezident Şarl Mişelin Azərbaycana səfəri və burada keçirdiyim görüş çox müsbət idi. Brüsseldə keçən ay keçirdiyimiz görüşlə bağlı eyni sözləri deyə bilərəm. Bizim üçün əsas məsələ, Avropa İttifaqı ilə gələcək planlarımızı düzgün tərtib etmək idi. Mən bunu dəfələrlə keçmiş rəhbərliklə görüşlər əsnasında dilə gətirmişdim. Deyirdim ki, bilirsiniz, bizim hər hansı bir xüsusi gözləntilərimiz yoxdur. Bildiyiniz kimi, biz assosiasiya sazişinə qoşulmadıq. Bu gün həyat göstərir ki, haqlı idik. Çünki qoşulan o biri ölkələr haqqında mən indi bir şey demək istəmirəm. Əgər biz real baxsaq bu assosiasiya sazişi nə verdi?! Əlbəttə ki, sual doğurur. Yəni, üzvlük perspektivi varmı? Yoxdur. Yəni, yaxın gələcəkdə və orta müddətli gələcəkdə yoxdur. Hansısa başqa imtiyazlar varmı? Bilmirəm. Hər halda yenə də deyirəm. Bizim mövqeyimiz həmişə realist olub. Deyirdim ki, biz gərək həyata keçirə bilmədiyimiz şeylərin, necə deyərlər, ətəyindən yapışmayaq. Real. Biz istəyirik ki, Avropa ilə daha yaxın əlaqələr olsun. Avropa da istəyir ki, onun sərhədlərində vəziyyət sabit olsun. Hesab edirəm ki, cənab Mişellə görüşlər əsnasında biz bu gündəliyi formalaşdıra bildik. Ümid edirəm, bu müştərək yanaşma imkan verəcək ki, tezliklə yeni sazişi də tamamilə razılaşdırılacaqdır. Çünki hazırda sazişin təqribən 90-92 faizi razılaşdırılıb. Bir neçə maddə var ki, orada fikir ayrılığı var. Amma hesab edirəm ki, ciddi iradə göstərilərsə, hər iki tərəfdən buna biz nail ola bilərik.

Əlbəttə ki, bizim əlaqələrimiz üçün yeni səhifə açılacaqdır. Bununla paralel olaraq Avropa İttifaqı ilə bizim gündəliyimiz onsuz da çox genişdir. Bunu mən artıq dəfələrlə demişəm ki, 9 ölkə ilə biz strateji tərəfdaşıq. Enerji təhlükəsizliyi baxımından fəal əməkdaşlıq edirik. Xüsusilə indiki şəraitdə. Avropada qaz böhranı yaşanır. Bizim qazımıza böyük ehtiyac var. İndi artıq bu, açıq mətbuata da çıxır. Mən Bolqarıstanla olan məsələləri nəzərdə tuturam. Bilirsiniz ki, bu, bizdən yox, Bolqarıstandan çıxıbdır. İndi bu məsələnin mahiyyəti yəqin ki, bəllidir. Ona görə buna böyük ehtiyac var. Azərbaycan da etibarlı təchizatçıdır. Uzun illər ərzində

neft təchizatçısı olaraq etibarlı tərəfdaş kimi rol oynayıb, o cümlədən Avropa üçün qaz təchizatçısı kimi. Onların bizim nəqliyyat imkanlarımıza böyük marağı vardır. Onu da bildirməliyəm ki, Avropa İttifaqı Şurasının keçmiş prezidenti cənab Tusk 2019-cu ildə Bakıda olarkən, xüsusilə Ələtə getmişdir. Beynəlxalq Dəniz Limanına gedib orada vəziyyətlə tanış olmuşdur. İndiki Prezident Mişelə isə Şamaxıya səfəri çərçivəsində orada həm Ələt İqtisadi Zonası ilə, həm də limanla bağlı təqdimat edilmişdir. Yəni, bu sahəyə çox böyük maraq var.

Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturu ən müasirdir. Demək olar ki, bütün işlər artıq tamamlanıb. Bu, Avropa üçün böyük maraq kəsb edir. Şarl Mişel Azərbaycanda olarkən, Şamaxıya gedəndə yol üstündə Azərkosmosu da ziyarət etdi. İndi Azərbaycanın Avropa tərəfdaşları ilə kosmik sahədə yeni əməkdaşlıq formatı yaradılır. Bu da çox müsbətdir. Biz, əlbəttə ki, texnologiyaların Azərbaycana gətirilməsində maraqlıyıq. Biz bu texnologiyaları Avropadan alırıq, Avropa isə bizim enerji resurslarımızı alır. Yəni, burada qarşılıqlı maraqlar uzlaşır. Narahatedici məqamlar demək olar ki, yoxdur. Ya da ki, son hadisələrə qədər yox idi. Onu da mən cənab Mişelə həm Bakıda, həm Brüsseldə demişəm. O da Ermənistana və Azərbaycana nəzərdə tutulan maliyyə paketinin həcmi ilə bağlıdır. Biz çox təəccüb etdik ki, böyük dağıntılara məruz qalmış Azərbaycana cəmi 140 milyon, Ermənistana isə 2,6 milyard avro maliyyə paketi nəzərdə tutulur. Bu, ədalətsizlikdir. Hətta onu deyə bilərəm ki, dekabr ayında Brüsseldə İtaliya jurnalistinə müsahibə verərkən jurnalist məndən soruşdu ki, bu nə dərəcədə ədalətlidir. Yəni, bunu təkcə mən demirəm. Artıq bu Avropa məkanına yayılmış bir məsələdir. Mən bunu ictimai qaydada da dilə gətirmişəm həmişə. Bu, ədalətsizlikdir və bunun izahatı bizə lazımdır. Əgər bu ədalətsizlik həyatda öz əksini taparsa, əlbəttə ki, biz səssiz qalmayacağıq. Nəinki səssiz qalmayacağıq, bu, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə çox böyük mənfi təsir göstərəcək. Çünki əhali və ərazi baxımından Azərbaycan Ermənistandan beş dəfə böyükdür. Ermənistanda bir dənə də bina dağılmayıb. Bizim Livan boyda ərazimiz tamamilə yerlə-yeksan edilib. Bizə cəmi 140 milyon, onlara 2,6 milyard? Hansı əsasla, əsas nədir?! Qoy, izahat versinlər. Mən məsələni elə qoymuşam ki, Ermənistana hansı şərtlərlə və hansı məbləğdə vəsait veriləcəksə, eyni şərtlərlə eyni məbləğdə bizə də verilsin. O izahat ki, Azərbaycanın pulu çoxdur, Ermənistanın pulu azdır. Bu, nə dərəcədə ədalətlidir? Ola bilməz. Ona görə bu son hadisələrdə yeganə narahatlıq və problem yarana biləcək məsələ budur. Bizim aramızda hər hansı başqa bir fikir ayrılığı yoxdur. Şərq Tərəfdaşlığının son Zirvə Görüşü də bunu göstərdi. Avropa İttifaqı ilə əminəm ki, əlaqələrimiz uğurla davam etdiriləcək. Bu, bizim üçün önəmlidir, bizim xarici siyasət konsepsiyamızın tərkib hissəsidir.

*– Cənab Prezident, Avropa İttifaqı ilə bağlı qısa sual vermək istəyirəm. Avropa İttifaqı əvvəlki dövrlərdən fərqli olaraq, Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində müəyyən rol oynamağa çalışır. Bu, Brüsseldə keçirilən görüşdən göründü. Bəzən ekspertlər camiyəsində belə bir fikir yaranır ki, bu məsələdə Moskva ilə Brüssel arasında müəyyən bir rəqabət var. Siz necə hesab edirsiniz, Azərbaycanla Ermənistanı yaxınlaşdırmaqda bir tərəfdaş və bir vasitəçi kimi Avropa İttifaqının rolu ola bilərmi?*

– Bəli, əlbəttə, ola bilər. Mən Brüsseldə olarkən orada Avropa İttifaqının rəhbərliyinə də bu haqda bildirdim ki, ola bilər. Əsas odur ki, bu gündəlik düzgün tərtib edilsin və Ermənistan da burada özünü səmimi aparsın. Çünki bilirsiniz, Ermənistan bir çox hallarda bir tərəfdaşa bir söz deyir, o biri tərəfdaşa bunun əksini deyir, üçüncü tərəfdaşa isə üçüncü versiyanı deyir. Yəni, bu, uzunmüddətli siyasət ola bilməz. Çünki gec-tez bunun üstü açılacaq. Bizim isə mövqeyimiz birmənalıdır və mən bunu açıq bəyan edirəm və bəli, hesab edirəm ki, Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasında Avropa İttifaqı rol oynaya bilər. Mən bunu müsbət qarşılayıram və sadəcə olaraq, burada ədalət prinsipi əsas rol oynamalıdır. Çünki bu günə qədər bəzi ölkələrdən fərqli olaraq, Avropa İttifaqı ədaləti qorumuşdur. Qeyd etdiyim kimi, müharibə zamanı Fransa baxmayaraq ki, neytral olmalı idi, vasitəçi kimi birmənalı şəkildə Ermənistan tərəfini tutdu. Müharibədən sonra Amerika Birləşmiş Ştatları, halbuki vasitəçidir, neytral olmalıdır, açıq şəkildə Ermənistan tərəfini tutdu. Təkcə elə mətbuatda olan iki hadisəni qeyd etməklə, bunu sübut etmək olar. Birincisi, Ermənistanı dırnaqarası "demokratiya zirvəsinə" dəvət etməsi, halbuki Ermənistan və demokratiya – bunlar fərqli qütblərdir. Ermənistanda insan haqları kobudcasına pozulur, siyasi müxalifət həbsə atılır və siyasi rəqiblər təqib edilir. Ermənistan, necə deyərlər, hansı əməllərə görə ora dəvət edilib ki, Azərbaycan dəvət edilməyib. Yəni bu, açıq ayrı-seçkilikdir. İkinci də, bu yaxınlarda Ermənistan Təhlükəsizlik Şurasının katibi Vaşinqtona dəvət edilib, orada görüşlər keçirir. Azərbaycan Təhlükəsizlik Şurasının katibi isə dəvət edilməyib. O, başqa məsələdir ki, biz dəvət olunmamışıq, heç nə itirmirik və demokratiya uğrunda dırnaqarası "zirvə görüşündə" iki dəqiqəlik çıxış üçün adam özünü heç əziyyətə verməməlidir. Amma fakt odur ki, burada balans pozulur, nümayişkaranə göstərilir ki, indiki Amerika administrasiyası birtərəfli olaraq Ermənistan tərəfindədir və bu, onların öz işidir. Biz, necə deyərlər, sadəcə olaraq, öz fikirlərimizi bildiririk və əlbəttə ki, öz siyasətimizdə bunu nəzərə alacağıq. Avropa İttifaqı belə balansı pozan hadisələrdə olmayıb. Son Brüssel görüşündə də tam paritet saxlanılıb və bu, deməyə əsas verir ki, onlar iki ölkə arasındakı əlaqələrin normallaşmasında müsbət rol oynaya bilərlər. Bu ola bilər, eyni zamanda, Zəngəzur dəhlizinin fəaliyyəti ilə bağlı,

iqtisadi və maliyyə yardımı ilə bağlı, qeyd etdiyim kimi, əgər bu, ədalətli olarsa. Avropa məkanında böyük intellektual potensial mövcuddur, təcrübə mövcuddur və sərhədlərin müəyyən edilməsində onlar öz tövsiyələrini verə bilərlər. Yəni bir çox sahələrdə onlar yardımçı ola bilərlər. Hər halda biz bunu alqışlayırıq.

*– Cənab Prezident, əgər Avropa və qarşılıqlı maraq məsələsini davam etdirsək, Siz artıq qeyd etdiniz ki, Azərbaycan uzun illərdir Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır və bu status artıq 2020-ci ilin son günündə Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə daha da möhkəmlənib. Onu da vurğuladınız ki, hazırda dünyada, ələlxüsus Avropada qaz böhranı yaşanır. Biz həm də bilirik ki, Cənub Qaz Dəhlizinin ixracat imkanları da daha da genişdir. Bunu qarşılıqlı, müqayisəli təhlil etsək, hansı reallıqlar üzə çıxır və perspektivlər necə görünür?*

– Birinci onu deməliyəm ki, Cənub Qaz Dəhlizinin reallaşması birmənalı şəkildə tarixi hadisədir və bu nəhəng enerji layihəsini bu dərəcədə, yəni keyfiyyətlə və çətin geosiyasi vəziyyətdə həyata keçirmək doğrudan da böyük səylər tələb edirdi. Burada Azərbaycan bir neçə ölkəni bir komanda şəklində necə deyərlər, səfərbər edib. Bu işə biz birlikdə nail olmuşuq və gələn ay Bakıda növbəti dəfə Cənub Qaz Dəhlizinin Məşvərət Şurası keçiriləcək, ənənəvi olaraq bizim təşəbbüsümüzlə Bakıda keçirilir. Hər dəfə bu görüşlərdə mən özüm şəxsən iştirak edirəm və görüləcək işlərlə bağlı geniş fikir mübadiləsi aparılır, artıq orada iştirak edən ölkələrin sayı genişlənir. Üstəgəl, orada bütün aparıcı banklar iştirak edir – Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur Bankı - yəni, bütün aparıcı maliyyə qurumları, həmçinin şirkətlər iştirak edir. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyətini bəlkə də indi Avropada daha çox görürlər. Çünki bu qaz böhranı bunları böyük dərəcədə sarsıtdı - həm qiymətlər, həm qazın qıtlığı, həm qaz anbarlarının dolu olmaması.

Qış təzə başlayır və gözlənilir ki, qış çox sərt olacaq. Ona görə qazın çatışmamazlığı böyük fəsadlara gətirib çıxaracaq. Azərbaycan qazının həcmi o qədər də böyük deyil, amma bir neçə ölkə üçün bu, həlledici ola bilər və əlbəttə ki, ilk növbədə, burada bizim maraqlarımız təmin olunur. Çünki əgər bu kəmər çəkilməsəydi, biz zəngin qaz ehtiyatlarının üstündə, necə deyərlər, oturacaqdıq, nəyi isə gözləyəcəydik. Əgər bu perspektiv olmasaydı, heç bir şirkət milyardlarla, on milyardlarla dollar vəsaiti bu yataqların işlənməsinə qoymazdı. Hazırda ixrac artır, yeni rəqəmlər mənə təqdim edildi. Bu il təxminən 19 milyard kubmetr qaz ixrac ediləcəkdir. Ondan 8 milyarddan çoxu Türkiyə, 7 milyarddan çoxu İtaliyaya ixrac ediləcək. Qalan qaz Gürcüstan, Bolqarıstan, Yunanıstan arasında bölünəcək. Yəni bu, böyük rəqəmdir və eyni zamanda, daxili tələbat da artır və artacaq. Biz daxili tələbatı ödəyirik. Bütövlükdə Azərbaycanda 45 milyard kubmetr qazın hasilatı gözlənilir. Qeyd etdiyim kimi, 19 milyard ixraca gedəcək, qalan hissə isə daxili tələbata və lay təzyiqini saxlamaq üçün neft laylarına yenidən qazın vurulmasına. Bu, böyük həcmdir və əlbəttə, bizə imkan verəcək ki, həm öz tələbatımızı ödəyək, eyni zamanda, Avropa məkanına daha böyük həcmlə çıxa bilək. Məhz bizim bu layihəmiz, eyni zamanda, Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verdi və indi orada bu sahədə də işlər görülür. Beləliklə, fiziki olaraq, yəni infrastruktur nöqteyi-nəzərindən biz qazımızı başqa ölkələrə də çatdıra bilərik, nəzərə alsaq ki, "Şahdəniz"in çox böyük potensialı var. Bunun, düzdür, təsdiq edilmiş həcmi 1 trilyon kubmetrdən çoxdur. Amma mən tam əminəm ki, daha çox olacaq, necə ki, Azəri-Çıraq-Günəşli. İlkin hesablamaları göstərirdi ki, 500 milyon tondur, amma bunun potensialı artıq 1 milyardı ötür. Üstəgəl, gələcəkdə Abşeron qaz yatağı istismara veriləcək. Ümid, Babək, Asiman, yəni bir çox qaz yataqlarımız tədricən artıq işlək vəziyyətə çıxacaq və bizim həcmimiz böyük dərəcədə artacaq. Bu, bizim böyük üstünlüyümüzdür. Həm ölkəmizə əlavə vəsait gətirəcək, ölkəmizin beynəlxalq imkanları genişlənəcək və təbii ki, Avropa İttifaqı-Azərbaycan əlaqələrində bu faktor bundan sonra da mühüm rol oynayacaq.

*– Cənab Prezident, icazənizlə sonuncu sualı vermək istərdim, çünki artıq üç saata yaxındır davam edir. Təşəkkür edirəm ki, yorulmadan müsahibə verirsiniz. Bu, sonuncu sualımızdır. Hazırda dünyada beynəlxalq hüququn ciddi böhranı yaşanır. Hüquq amili geri çəkilir, güc amili önə çıxır. Bunu bir çox siyasi araşdırmaçılar deyir. Daha dərinə gedib deyənlər var ki, yeni dünya düzəni formalaşır, dünyanı yenidən nüfuz dairələrinə bölmək istəyirlər və yaxud da bölmək fikrindədirlər. Yeni Yalta deyənlər də var. Sizin baş verən bu proseslərə münasibətiniz necədir? Bu proseslər Azərbaycan qarşısında hansı yeni çağırışlar yaradır?*

– Mən sizin fikrinizlə razıyam və onu da bildirməliyəm ki, bu meyilləri mən uzun illər müşahidə edirəm. Çünki indi bir çox təmaslar əsnasında, görüşlər əsnasında görürəm və görürdüm ki, ənənəvi davranış qaydaları artıq tükənir. Baxmayaraq ki, onlar hələ sözdə tələffüz edilir, amma real həyatda bəyan edilmiş açıqlamalar real həyatla uzlaşmır. Əgər yadınızdadırsa, artıq son illərdə, hətta pandemiyaya qədər mən öz çıxışlarımda dəfələrlə deyirdim ki, indi güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq. Deyirdim ki, bu, bizim seçimimiz deyil. Biz hər zaman beynəlxalq hüququn aliliyini müdafiə edirdik və ümid edirdik ki, bu, bizim məsələmizin həllinə, bizə köməklik göstərəcək. Amma görürük ki, bu, yoxdur, bu, işləmir. Münaqişələr uzun müddət həll olunmayanda, bu münaqişələrlə məşğul olanlar və ümumiyyətlə, beynəlxalq aləm dediyimiz bir toplum bu münaqişələrdən yorulur. Bu yorğunluq indi digər münaqişələrdə də hiss olunur. Yəqin ki, siz də bunu izləyirsiniz. Ona görə mənim üçün artıq son illər ərzində

tam aydın idi ki, ənənəvi yollarla, yəni, Minsk qrupunun xətti ilə, yaxud da vasitəçilik xətti ilə biz öz torpaqlarımızı geri ala bilməyəcəyik. Yəni, bu, bugünkü fikrim deyil. Mən artıq bunu görürdüm və Ermənistanın daha da azğınlaşması, Ermənistanın cəzasız qalması bu fikri gücləndirirdi. Ona görə, hər zaman deyirdim ki, biz öz gücümüzə güvənməliyik, daha güclü olmalıyıq, gücümüzü artırmalıyıq, daha güclü ordu yaratmalıyıq. İqtisadiyyatı gücləndirməliyik ki, heç kimdən asılı olmayaq. Çünki təsəvvür edin, əgər biz indi iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, nə gündə olacaqdıq. Bizə heç kim imkan verməzdi öz torpaqlarımızı güc tətbiq etməklə azad edək. Ona görə biz bütün bu istiqamətlərdə ardıcıl iş aparırdıq, əlbəttə ki, beynəlxalq davranış qaydalarını gözləmək şərti ilə. Əlbəttə ki, bizə vaxt lazım idi və əminlik lazım idi. Çünki torpaqlarımızın azad edilməsində biz ancaq uğur qazanmalı idik. Bütövlükdə baxdıqda, əgər Azərbaycan kontekstindən çıxsaq, görərik ki, bu gün böyük ölkələr artıq açıq bəyan edirlər ki, beynəlxalq hüquq onlar üçün əhəmiyyət daşımır. Əgər əvvəlki dövrlərdə bunu hansısa bəyanatlarla pərdələmək istəyirdilərsə, bu gün bu da yoxdur. Yəni, bu, mən buna siyasi sinizm deyirəm, artıq ifrat dərəcəyə çatıb. Əgər belədirsə, əgər bu qaydaları işləyən, bu qaydaları İkinci Dünya müharibəsindən sonra təsdiqlə-yən ölkələr özlərini belə aparırlarsa, onda başqa ölkələr nə etsin? Onda başqa ölkələr də onlar da özünə, necə deyərlər, öz başına çarə qılmalıdırlar. Biz bunu çoxdan edirik. Bəzi ölkələr ki, beynəlxalq hüquqa inanıb və buna aldanıb və gözləyir ki, kimsə gələcək onların yerinə onların problemlərini həll edəcək, onlar, indi, hesab edirəm ki, peşmançılıq çəkirlər. Bizim üçün də bu müddət olub və mən gizlətmirəm. Prezident vəzifəsinə seçiləndən sonra mənim də ümidlərim var idi. İlkin mərhələdə mən də hesab edirdim ki, bu məsələni, Qarabağ məsələsini sülh yolu ilə həll etmək olar. Bizə elə gəlirdi ki, təklif etdiyimiz variantlar məntiqlidir, ədalətlidir və beynəlxalq hüquqa tam uyğundur. Hətta təəccüb edirdim ki, nə üçün bunu qarşı tərəf, yaxud da vasitəçilər başa düşmürlər. Prezident seçiləndə mənim 41 yaşım var idi və təcrübəm də o qədər böyük deyildi və mən o vaxt beynəlxalq hüquqa inanırdım. İnanırdım ki, ədalət haradansa göydən düşüb bizim məsələmizi həll edəcək. Sonra başa düşdüm ki, ədaləti biz özümüz bərpa etməliyik. Danışıqların birinci mərhələsində, mənim iştirak etdiyim dövrdə belə ümidlərim var idi. Sonra isə gördüm ki, artıq bunun heç bir əhəmiyyəti yoxdur. Xüsusilə indiki Ermənistan hakimiyyəti bunu yenə də açıq-aşkar bəyan edəndə, faktiki olaraq, danışıqlara öz bəyanatları və yersiz addımları ilə son qoyanda, artıq tam aydın oldu ki, vaxt itirmək mümkün deyil. Bilirsiniz, bir şeyi də deməliyəm, hər şeyi vaxtında etmək lazımdır. İkinci Qarabağ müharibəsi də onu göstərdi. Bir il əvvəl bəlkə də tez idi, bir il sonra gec idi, hər şey vaxtında. Bu vaxtı müəyyən etmək, düzgün seçmək, avantüraya getməmək, ölkəni risk altına salmamaq və mümkün dərəcədə maksimum uğura nail olmaq, əlbəttə ki, böyük zəhmətin işidir. Bunu mən tamamilə açıq deyə bilərəm.

Amma buna baxmayaraq, bu gün Azərbaycan beynəlxalq aləmin məsuliyyətli üzvü kimi və Qoşulmama Hərəkatının sədri kimi, əlbəttə, bundan sonra da beynəlxalq hüququn aliliyini müdafiə edəcək. Biz dünya təsisatlarının – BMT və İkinci Dünya müharibəsindən sonra yaradılmış digər təsisatların fəaliyyətində fəal iştirak edəcəyik, bu imkanlardan bu gün daha rahat istifadə edəcəyik. Çünki artıq biz Qarabağ problemi kimi ağır yükü çiynimizdən atdıq və hesab edirəm ki, yeni dünya düzənində də təşəbbüs göstərən ölkələrdən biri olacağıq. Çünki de-fakto bu, artıq baş verib və biz bu de-fakto vəziyyətə tam hazırıq, bütün daxili resurslarla hazırıq. Həm mənəvi, həm xalqımızın səfərbərliyi, xalq-iqtidar birliyi, iqtisadi müstəqillik, enerji müstəqilliyimiz, siyasi gündəliyimiz və Qarabağ Zəfərindən sonra xüsusilə artan imkanlarımız – biz tam hazırıq, istənilən varianta hazırıq. Əgər dünya ənənəvi yollarla inkişaf etməyə davam etsə, – halbuki, mən buna inanmıram, – hazırıq. Əgər dünya, beynəlxalq arxitektura tamamilə çöksə, biz buna hazırıq. Yəni, biz komanda kimiyik. Hər an hazır olmalıyıq ki, özümüz öz gücümüzə əsaslanaraq istənilən vəzifəni istənilən yerdə yerinə yetirək və bayrağımızı həmişə uca tutaq.

*– Cənab Prezident, maraqlı müsahibəyə və bizə vaxt ayırdığınıza görə, Sizə həmkarlarım adından təşəkkür edirəm və həmçinin arzulayıram ki, Siz bu 2022-ci ildə də uğur qazanasınız, uğurlarınız davamlı olsun və istədiyiniz yerə bayrağımızı sancasınız.*

– Sağ olun. Təşəkkür edirəm, sağ olun.

## *"Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Gülüstan sarayında Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır.

Mən şadam ki, bizim bərpaolunan bu böyük enerji layihəsinin icraçısı və investoru qardaş Səudiyyə Ərəbistanının şirkətidir. Bildiyiniz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətləri vardır. Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Eyni zamanda, iqtisadiyyatın müxtəlif sahələrində fəal əməkdaşlıq edirik. Pandemiyaya qədər Səudiyyə Ərəbistanından gələn turistlərin sayı ildən-ilə artırdı. Ümid edirəm ki, pandemiya başa çatandan sonra biz yenə də Səudiyyə Ərəbistanının vətəndaşlarını, öz qardaşlarımızı Azərbaycanda görəcəyik.

İqtisadi sahədə çox böyük perspektivlər var. Təbii ki, biz birlikdə energetika sahəsində OPEC+ formatında fəal çalışırıq. Deyə bilərəm ki, OPEC+ formatı yaradılandan bu günə qədər Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əməkdaşlığında xüsusi rol oynamışdır. Bu formatda iştirak edən digər ölkələrlə bərabər biz neftin qiymətinin sabitləşməsinə nail ola bilmişik.

Bu stansiyanın investoru tanınmış və bu sahədə böyük təcrübəsi olan Akvopao şirkətidir. Şirkət haqqında çox danışmaq olar, təkcə onu qeyd etməliyəm ki, bu, enerji sahəsində dünyanın ən böyük şirkətidir. Mənə verilən məlumata görə, şirkət tərəfindən inşa edilmiş stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Yəni, təsəvvür etmək o qədər də çətin deyil və şadam ki, bu şirkət Azərbaycana da maraq göstərir.

Əlbəttə ki, burada bizim ikitərəfli dövlətlərarası əlaqələrimizin rolu çox böyükdür, eyni zamanda, son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik – bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır. Bir də ki, Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış Əsrin müqaviləsi artıq uzun illərdirki icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə, Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir. Xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir. Amma buna baxmayaraq, qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib, bu qərarı qəbul edib və bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq. Onu da bildirməliyəm ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə, bizim neft və qazla bağlı

olmayan, yəni qeyri-neft sənayemiz təxminən 20 faiz artıbdır. Ölkə əhalisi artır, tələbat artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq. Bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir. Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə, Cəbrayıl rayonunda hazırda böyük günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər bu böyük layihələrə start versinlər.

Onu da bildirməliyəm ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zamanda, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda, dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan "Yaşıl gündəliyi" də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var.

Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni, həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir.

Mən tam əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpaolunan enerji stansiyasının açılışından sonra və bəlkə də açılışına qədər biz digər investisiya layihələrini icra etməyə başlayacağıq. O ki qaldı, bu stansiyanın açılışına, ümid edirəm, çox vaxt keçmədən biz bu böyük enerji layihəsinin açılışını birlikdə qeyd edəcəyik.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, dediyim kimi, yaxın gələcəkdə bu stansiyanın açılışını birlikdə qeyd edək. Sağ olun.

## *Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında İlham Əliyevin nitqi*

Bir neçə dəqiqə bundan əvvəl Zeynalabdin Tağıyevin abidəsinin açılışını qeyd etdik. Abidə metronun girişinə yaxın olduğuna görə insanlara problem yaratmamaq üçün mən əziz xalqımı bu münasibətlə buradan təbrik edirəm.

Bu abidənin açılması çox əlamətdar hadisədir. 2020-ci ildə mənim tərəfimdən Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması ilə bağlı müvafiq Sərəncam imzalanmışdır. Açıq müsabiqə elan edilmişdir və Xalq rəssamı, məşhur heykəltaraş Xanlar Əhmədovun işi müsabiqədə qalib gəlmişdir. Ondan sonra mənə abidənin ucaldılması üçün bir neçə yer təklif edildi və mən məhz bu yeri seçdim. Çünki Zeynalabdin Tağıyevin adına layiq olan bir yerdir, Bakının tarixi yerlərindən biridir, şəhər sakinlərinin ən sevimli yerlərindən biridir, tarixi qala divarının önündədir. Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə Azərbaycanın inkişafına böyük töhfələr vermişdir.

Çox zəngin adam idi, amma hər kəs bilir ki, çox kasıb ailədə böyümüşdü və sərvətini öz zəhməti hesabına qazanmışdır. Ancaq tarixdə o, zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qalmışdır. Əgər onun xeyriyyəçilik fəaliyyəti olmasaydı, yəqin ki, o, Azərbaycan xalqının yaddaşında qalmazdı. Onun təşəbbüsü ilə Azərbaycanda bir çox önəmli layihələr həyata keçirilmişdir. Onların arasında, əlbəttə ki, Bakıya təmiz içməli suyun gətirilməsi layihəsini xüsusilə qeyd etməliyəm. Şollar su kəməri bu günə qədər fəaliyyətdədir, bu günə qədər Bakını, Sumqayıtı təmiz içməli su ilə təmin edir. Bu kəmərin tikintisi üçün Zeynalabdin Tağıyev öz vəsaitindən istifadə etmişdir. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası inşa edilmişdir, bir çox sənaye müəssisəsi inşa edilmişdir, azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılmışdır. Deyə bilərəm

ki, müsəlman aləmində ilk dünyəvi məktəb məhz Bakıda azərbaycanlı qızlar üçün Tağıyevin vəsaiti və təşəbbüsü ilə yaradılmışdır. Bakıda tramvay xətlərinin açılması da Tağıyevin adı ilə bağlıdır. Bu gün Bakıya əlavə gözəllik verən, Bakının memarlığına töhfə verən bir çox gözəl binaların müəllifi, yəni ki, təşəbbüskarı məhz Tağıyev olmuşdur. Biz Bakının müxtəlif yerlərində onun memarlıq əsərlərini görə bilərik. Baxmayaraq ki, o, kasıb ailədə doğulub və o dövrün mühitində böyüyüb, amma Bakının gözəlliyini təmin etmək üçün xaricdən memarlar dəvət etməsi onun mütərəqqi fikirdə olmasından xəbər verir. Qızlar üçün məktəbin açılması gələcəyə yönəlmiş bir addımdır. Hər kəs bilir ki, o, yüzlərlə tələbəni Rusiyaya və Avropaya göndərməklə onların təhsil xərcini öz üzərinə götürmüşdür və bu da gələcəyə yönəlmiş bir addım idi, gələcəyi düşünürdü. Mən artıq bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, o tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdır. Çünki o, həm gözəl həkim, eyni zamanda, böyük dövlət xadimi olmuşdur. İkinci Dünya müharibəsində onu Bakıdan Dağıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Çünki o vaxt başqa Qafqaz xalqları ilə bərabər, dağıstanlıları da Qazaxıstana sürgün etmək istəyirdilər, sovet hökumətinin belə planları var idi. Məhz Əziz Əliyevin qətiyyətli mövqeyinə görə bu, baş vermədi. Dağıstanlılar bunu yaxşı bilirlər, yaxşı xatırlayırlar və təsadüfi deyil ki, Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılmışdır.

Zeynalabdin Tağıyev Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirmiş və eyni zamanda, bu sahədə də təşəbbüskar olmuşdur. İlk dəfə olaraq Qurani-Kərim Azərbaycan dilinə tərcümə edilmişdir. Onun təşəbbüsü və maliyyə vəsaiti hesabına Azərbaycanda bir çox dini abidə inşa edilmiş və təmir olunmuşdur. Onun təhsillə bağlı təşəbbüsləri təkcə Bakı ilə məhdudlaşmırdı. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə onun pulu hesabına məktəblər açılmışdır.

Yəni, onun haqqında çox danışmaq olar. O, böyük şəxsiyyət idi, xalqa bağlı olan, xalqı qəlbən sevən, xalqın gələcəyini düşünən bir insan idi. Onu da bildirməliyəm ki, XIX əsrdə xeyriyyəçilik ənənələrini məhz Zeynalabdin Tağıyev qoymuşdur. Bu ənənələr sovet dövründə təbii ki, davam etmədi. Onu da bildirməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra sovet hakimiyyəti onu bütün imkanlardan məhrum etmişdir, bütün onun əmlakları əlindən alınmışdı, tək bir bağ qalmışdı, orada da o, ömrünün sonuna qədər yaşamışdır. O, uzun ömür yaşadı, dolğun ömür yaşadı. Ancaq əfsuslar olsun ki, ömrünün sonunda bu cür ədalətsizliklə üz-üzə qaldı və həyatdan çox narahat getdi.

Bu gün isə müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələri, onun qoyduğu xeyriyyəçilik ənənələri davam edir, geniş vüsət almışdır. Bildirməliyəm ki, bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək. Bildiyiniz kimi, məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət almışdır və mənim iştirakımla Qobu qəsəbəsində bir neçə böyük, çoxmərtəbəli evlərin inşası təmin edilmişdir.

Yəni, bu ənənələr var, davam edir, cəmiyyətdə çox yüksək qiymətləndirilir. Müharibədən sonra mənim təşəbbüsümlə Qarabağ Dirçəliş Fondu, "YAŞAT" Fondu yaradılmışdır. Azərbaycan vətəndaşları, eyni zamanda, şirkətlər könüllü olaraq həm Qarabağ Dirçəliş Fonduna, həm "YAŞAT" Fonduna vəsait təqdim edirlər və bu vəsait hesabına bu gün yüzlərlə qazi həm Azərbaycanda,

həm xüsusilə xaricdə müalicə alır, həyata qayıdır, öz sağlamlığını bərpa edir. Bu, bir daha onu göstərir ki, xeyriyyəçilik hər zaman Azərbaycan xalqının ayrılmaz əlaməti olubdur. Sadəcə olaraq, buna şərait yaradılmalı idi, dövlət tərəfindən bu siyasət dəstəklənməli idi və bu gün biz bunu görürük.

Mən Zeynalabdin Tağıyevin şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşmışam. Hələ 2000-ci illərin əvvəllərində, – mən hələ Prezident deyildim, – onun qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı mənim təşəbbüsümlə abadlaşdırıldı və qəbrin ətrafında olan ərazi yeni görkəm aldı. Prezident seçiləndən sonra dərhal mənim təşəbbüsümlə onun evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edildi, həm onun yaşadığı evin bir hissəsi muzey kimi qaldı, eyni zamanda, Tarix Muzeyində bizim tariximizin müxtəlif dövrlərini əhatə edən eksponatlar nümayiş etdirilir.

Bu gün mən çox şadam ki, Zeynalabdin Tağıyevin abidəsi Bakıda ucaldılıb. O, buna layiq idi. Azərbaycan xalqı qarşısında, tarix qarşısında, millət qarşısında xidməti olan hər bir insanı Azərbaycan xalqı öz qəlbində yaşadır.

Bir daha əziz xalqımı bu münasibətlə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

## *“Rossiya 24” telekanalında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş “Hakimiyyət formulu” verilişi yayımlanıb*

Yanvarın 30-da “Rossiya 24” telekanalında TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş “Hakimiyyət formulu” verilişi yayımlanıb.

Müəllifdən: Azərbaycan Cənubi Qafqazın Şərqində, Xəzər dənizinin sahilində yerləşir. Ölkənin ümumi sahəsi 86,6 min kvadratkilometrdir. Şimalda Rusiya Federasiyası, şimal-qərbdə Gürcüstan, qərbdə Ermənistan, cənub-qərbdə Türkiyə, cənubda isə İran ilə həmsərhəddir. Quru sərhədlərinin uzunluğu 2647 kilometr, dəniz sərhədlərinin uzunluğu isə 816 kilometrdir. Əhalisi 10 milyon 383 min 704 nəfər, paytaxtı Bakı şəhəridir. Bir neçə ay bundan əvvəl Azərbaycan dövlət müstəqilliyinin bərpasının 30 illiyini qeyd edib.

Mixail Qusman: “Hakimiyyət formulu” verilişində Azərbaycan Prezidenti İlham Əliyev ilə dəfələrlə görüşmüşük. Lakin hər dəfə bizim görüşlərimiz çox maraqlı, məzmunlu, dərin xarakter daşıyıb. Bu gün mən filmimizə 10 il bundan əvvəl olmuş bir söhbət epizodundan başlamaq istərdim: “İlham Heydər oğlu, istəristəməz artıq 50 yaşın astanasındasınız. Çox iş görülüb. Şəxsən Siz öz qarşınızda növbəti yarım əsr üçün hansı vəzifələri qoyursunuz?

Prezident İlham Əliyev: Açığını deyim ki, mən həyatda qabaqcadan qarşıma heç bir vəzifə qoymuram. Amma Prezident kimi bunu özümə rəva görə bilmərəm, çünki əgər gələcəyi düşünməsək, bu günün problemlərini həll etmək çox çətin olacaqdır. Lakin mən məhz sizin dediyiniz kimi, yarım əsr irəliyə baxıram. Energetika sahəsində bu müddət 100 ildir. Yəni, Azərbaycan ən azı yüz il beynəlxalq enerji bazarında əvəzedilməz və çox mühüm aktora çevrilir. Biz nəqliyyat sahəsində elə infrastruktur yaradırıq ki, o, əsrlər boyu ölkəmizin rifahı naminə işləyəcək. Təhsil – o da bir neçə onillik irəlini nəzərdə tutmalıdır.

Mixail Qusman: Bunlar gələcəyə investisiyalardır.

Prezident İlham Əliyev: Əlbəttə, kadrların, informasiya texnologiyalarının hazırlanması. Dünya irəliyə doğru hərəkət edir, biz də geri qalmamalıyıq. Əgər istək, siyasi iradə və yaxşı təşəbbüskarlıq varsa, çox iş görmək olar.

Mixail Qusman: O vaxtdan 10 il keçib. Bir neçə ay bundan əvvəl Azərbaycan dövlət müstəqilliyinin bərpasının 30 illiyini, bir ay bundan əvvəl isə Azərbaycan Prezidenti İlham Əliyev 60 illik yubileyini qeyd edib. Ölkə yetkinləşir, təcrübə toplayır, dünyada daha mühüm yer tutur və bunu BMT Baş Assambleyasının tribunasından bəyan edir.

Prezident İlham Əliyev: BMT-nin Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan 2030-cu ilin gündəliyinin icrası barədə üçüncü Könüllü Milli Hesabat təqdim etmiş 12 ölkədən biri və öz regionunda birinci dövlətdir.

Müəllifdən: Son onilliklərdə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Azərbaycan gəlir səviyyəsi ortadan yuxarı olan dövlətlər qrupuna daxil olub. Ölkədə davamlı demoqrafik artım müşahidə olunur. Neft hasilatı artır. Bu gün Azərbaycan dünyada enerji təhlükəsizliyinə nail olmaqda liderlər sırasındadır. 2017-ci il sentyabrın 14-də Bakıda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərin sulu hissəsinin birgə işlənməsi barədə yeni Saziş imzalanıb. Bu layihəyə 36 milyard dollardan çox sərmayə qoyulub. 500 milyon ton neft çıxarılıb. 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu qaz kəməri – TANAP-ın rəsmi açılışı olub. Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon

kubmetrə, proqnozlaşdırılan ehtiyatlar təqribən 3 trilyon kubmetrə bərabərdir.

Mixail Qusman: Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər Siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır.

Prezident İlham Əliyev: Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Ona görə də qeyri-neft sektoruna istiqamətlənmə əsas prioritet olub və yenə belədir.

Müəllifdən: Azərbaycan əlavə regional layihələr həyata keçirir. Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri sayəsində bu ölkə Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Şimal-Cənub Nəqliyyat Dəhlizinin Azərbaycan hissəsi yekun mərhələyə qədəm qoyub. Bu dəhliz Hindistanı, Pakistanı, İranı, Azərbaycanı, Rusiyanı və Şimali Avropa ölkələrini birləşdirəcək.

Prezident İlham Əliyev: Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Nəqliyyat-logistika infrastrukturunun yaradılması tamamlanıb. Bu gün biz daşımanı çoxaltmaq və Azərbaycanın tranzit imkanlarını artırmaq üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.

Müəllifdən: 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi təmin edilib. Mahiyyət etibarı ilə Qədim İpək Yolu bərpa olunub. 2018-ci il mayın 14-də Bakının Qaradağ rayonundakı Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi təntənəli şəkildə açılıb. Bu kompleksin yükaşırma qabiliyyəti 15 milyon tondur. Bu həcm 25 milyon tona qədər artırıla bilər. Prezident İlham Əliyevin tapşırığına əsasən, Ələt qəsəbəsində yaradılan azad ticarət zonası 130 milyon nəfəri əhatə edən regional miqyaslı bazara xidmət edəcək. Azərbaycan iqtisadiyyatın müxtəlif sahələrinə böyük investisiyalar cəlb etmək üçün bank islahatı aparır.

Prezident İlham Əliyev: İnformasiya-kommunikasiya texnologiyaları sektorunda da təməl pis deyil. Artıq üç peykə malik olan Azərbaycan kosmik klubun üzvüdür. İKT sahəsi çox fəal inkişaf edir və bu sahədə mühüm artım var. Başqa sahələrə gəldikdə isə, əlbəttə, mən ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim. Burada çox böyük potensial var, çox böyük sərmayə qoyulub və yetərincə ciddi artım var. Biz turizmə böyük diqqət yetirmişik və yenə yetiririk, müasir turizm infrastrukturu yaradılıb. Lakin, əlbəttə, pandemiya bu sektora çox güclü zərbə vurub. Hazırda biz daxili turizmin stimullaşdırılması barədə düşünürük.

Mixail Qusman: Bütün dünyanı faciəli şəkildə əənginə almış koronavirus pandemiyası, əlbəttə, Azərbaycanda da həyata təsir göstərməyə bilməzdi. Azərbaycan rəhbərliyi koronavirusun ölkəyə nüfuz etməsinə, onun inkişafına mane olmaq üçün nə mümkündürsə edib. Qeyd etmək lazımdır ki, Azərbaycanın hakimiyyət orqanlarının fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib.

Müəllifdən: 2021-ci ilin yanvar ayı. Azərbaycanda vaksinasiya kampaniyasının başlanğıcı. Hər yüz nəfər üçün istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən çoxdur. Əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün 2 milyard 700 milyon dollar həcmində sosial-iqtisadi paket təqdim olunub. Ümumdünya Səhiyyə Təşkilatının proqramlarına Bakının könüllü maliyyə yardımı 10 milyon dollar olub. 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərilib. Dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərilib.

Prezident İlham Əliyev: Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanladığı məktubda Azərbaycan rəhbərliyinin fəaliyyəti yüksək qiymətləndirilib, habelə Azərbaycan nümunəvi ölkə, yəni bu bəla ilə mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

Müəllifdən: 2020-ci ilin may ayı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin Zirvə görüşü keçirilib. Bu görüş COVID-19-a qarşı mübarizəyə həsr edilib. Qoşulmama Hərəkatı üçün yubiley ili olan 2021-ci ildə təşkilatın 120 üzvünün qərarı ilə Azərbaycanın sədrlik müddəti 2023-cü ilə qədər uzadılıb.

Prezident İlham Əliyev: Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir. Bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında münasibətlər, yumşaq desək, gərgindir. Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib.

Müəllifdən: 2020-ci ilin dekabr ayı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusa qarşı mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirilib. İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışında yeni təşəbbüs irəli sürüb.

Prezident İlham Əliyev: Biz COVID-19-dan sonra ümumi bərpa üzrə BMT-nin yüksək səviyyəli panelinin yaradılmasını təklif edirik. O, postpandemiya dövründə qlobal tədbirlər barədə tövsiyələr hazırlayacaq.

Mixail Qusman: Azərbaycan əksər beynəlxalq təşkilatların özünəinamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü də olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi sistemində, ATƏT-də və digər qurumlarda fəal işləyir.

Prezident İlham Əliyev: Azərbaycana gəldikdə, biz iştirak etdiyimiz bütün təşkilatlarda məhz həmin təşkilatı gücləndirmək, habelə bu təşkilatın fəaliyyəti çərçivəsində öz milli mənafelərimizi maksimum təmin

etmək üçün iştirak edirik. Hər bir beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortababların, bir də hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə də burada bütün ölkələrin mənafelərinin nəzərə alınması vacibdir. Bu səbəbdən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörməti mühüm prioritetlərdən biri hesab edirəm. Azərbaycan qanunun aliliyini və beynəlxalq hüququn aliliyini həmişə üstün tutur.

Mixail Qusman: Azərbaycanda ən qədim dövrlərdən ən müxtəlif dini və etnik qrupların nümayəndələri, ən müxtəlif xalqlar sülh və mehriban qonşuluq şəraitində yaşayırlar. Mən bunu başqalarından eşitdiyimə görə demirəm. Tam inamla deyə bilərəm ki, multikulturalizm azərbaycanlıların qanındadır.

Müəllifdən: 2018-ci il mayın 2-də Bakıda Mədəniyyətlərarası Dialoq üzrə V Ümumdünya Forumu keçirildi. BMT bu Forumu mədəniyyətlərarası dialoqun təşviq edilməsi üçün mühüm qlobal platforma kimi qiymətləndirir.

Prezident İlham Əliyev: Əlbəttə, gənc nəslə müraciət edərək demək istərdim ki, onlar öz əcdadlarından nümunə götürərək fədakarlıqla, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, öz Vətənini qoruyarkən canını belə əsirgəmədən qəhrəmanlıq göstərsinlər.

Mixail Qusman: 10 il bundan əvvəl Azərbaycan Prezidenti ilə söhbət zamanı biz Onunla çox ağrılı bir məsələni – Dağlıq Qarabağ ətrafında vəziyyəti müzakirə edirdik.

Dəhşətli dərəcədə çətin düyünə düşmüş siyasi problemlər, əlbəttə, öz həllini tələb edir. Sizin fikrinizcə, bu düyünü əmələ gətirən sapları bir-birinin ardınca dartmaqla açmaq mümkündür, yoxsa bu, Qordi düyünüdür, onu yalnız kəsmək olar?

Prezident İlham Əliyev: Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının, digər təşkilatların qətnamələri var. Bu sənədlərin hamısında tələb eynidir – Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bu, bizim suveren hüququmuzdur.

Müəllifdən: 2020-ci ilin sentyabr ayı. Dağlıq Qarabağda hərbi münaqişənin yeni mərhələsi. 44 gündən sonra, noyabrın 9-dan 10-na keçən gecə atəşkəs barədə üçtərəfli Saziş Rusiyanın vasitəçiliyi, Prezident Putinin şəxsən iştirakı ilə imzalandı. Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi barədə qərar qəbul edildi.

Prezident Vladimir Putin: Rusiyanın həlledici töhfəsi sayəsində Dağlıq Qarabağda münaqişə dayandırılıb. Rusiya sülhməramlıları regionda sülhə və təhlükəsizliyə etibarlı təminat verirlər.

Prezident İlham Əliyev: Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yolla nizamladı, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı.

Müəllifdən: Prezident Əliyevin qərarı ilə Qarabağ "yaşıl enerji" zonası elan edilib. Yaxın dörd ildə orada 240 meqavat gücündə yeni günəş elektrik stansiyası tikiləcək. 2030-cu ilədək bütün ölkədə daha 10 belə layihə həyata keçirilməsi planlaşdırılır.

2016-cı il. Azərbaycan İqlimə dair Paris Sazişini ratifikasiya edir. 2030-cu ilədək istixana effekti yaradan qazların səviyyəsini 35 faiz azaltmaq barədə könüllü öhdəlik götürür. Bu gün ölkədə ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Ən yaxın hədəf 10 ildən sonra bu rəqəmi ikiqat artırmaqdır.

Mixail Qusman: Son illərdə Azərbaycan çoxlu sayda böyük idman, mədəni, siyasi, iqtisadi tədbirlər, müxtəlif forumlar keçirib. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq.

Prezident İlham Əliyev: Dünya artıq başqalaşıb, biz tədricən işin yeni formatına, həyatın yeni formatına, özünütəcrid rejiminə öyrəşirik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Beynəlxalq forumlara gəldikdə isə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, artıq Azərbaycan, ilk növbədə, humanitar əməkdaşlıq üçün mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və təşəkkülündə sizin, Mixail Solomonoviç, şəxsən çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış çoxlu başqa tədbirlər də suallar doğurur: biz onları necə keçirəcəyik? Lakin mənim fikrimcə, əsas məsələ, hər halda, o cümlədən beynəlxalq praktika məsələlərində əməkdaşlığın məzmununu, bu sahədə müsbət təcrübəni qoruyub saxlamaqdır.

Mixail Qusman: 25 il bundan əvvəl, 1997-ci ildə Rusiya və Azərbaycan Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizlik haqqında Müqavilə imzalayıblar. 2008-ci ildə bu müqavilə Dostluq və Strateji Tərəfdaşlıq haqqında Bəyannamə ilə möhkəmlənib. Şübhə yoxdur ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsasını hüquq bərabərliyi və mehriban qonşuluq prinsipləri təşkil edir. Əslində, bu prinsiplər Rusiya və Azərbaycan xalqları arasında əsrlər boyu yaranmış dostluq, qarşılıqlı hörmət ənənələrinin davamıdır.

Mən Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətlərinizə toxunmaq istərdim. Bilirəm ki, Sizin aranızda yetərincə sıx yoldaşlıq münasibətləri, necə deyərlər, "personal chemistry", şəxsi münasibətlər yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Prezident Putin Azərbaycanda olub.

Prezident İlham Əliyev: Sizin qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı fəaliyyətimizin inkişafına çox müsbət təkan verir, qarşılıqlı siyasi fəaliyyət də çox yüksək səviyyədədir.

Mixail Qusman: Keçən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev 60-cı doğum gününü qeyd etdi. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin bu yubiley münasibətilə İlham Əliyevi səmimi təbrik etdi.

Prezident Vladimir Putin: İlk növbədə, Onun ölkəsinə əmin-amanlıq, firavanlıq arzu edirəm. Ona görə ki, mən Onu neçə illərdir tanıyıram. Yüksək vəzifə tutan hər hansı abırlı insan kimi Onun da həyatının əsas məqsədi ondan ibarətdir ki, ölkəsi üçün yaxşı olsun, insanlar üçün, Azərbaycan xalqı üçün yaxşı olsun. Mən Ona, ilk növbədə, həyati məqsədlərinin, niyyətlərinin reallaşmasında uğurlar diləyirəm. Əlbəttə, Ona firavanlıq, cansağlığı arzu edirəm. Nəisə dolaşıq salacağımdan qorxuram, məncə Azərbaycan folklorunda bir atalar sözü var: "Həqiqi dost yüz ildən sonra da dostdur". O bilməlidir ki, onun dostları var, o cümlədən Rusiyada da. Ümidvarıq ki, O da bizə, Rusiyaya eyni hisslər bəsləyir. Ona ən xoş arzularımı bildirirəm və yubileyi münasibətilə təbrik edirəm.

Müəllifdən: 2024-cü ilə qədər olan dövrdə Rusiya – Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə fəaliyyət planı 5 yol xəritəsində əks olunub. Bu xəritələr çərçivəsində ticarətdə maneələrin aradan qaldırılması; nəqliyyat infrastrukturunun inkişafı; elmtutumlu birgə istehsalatlar yaradılması; qarşılıqlı turist mübadilələrinin artırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev: Əlbəttə, humanitar sahədə əməkdaşlığı hökmən qeyd etmək lazımdır və Rusiya Prezidenti ilə biz həmişə belə edirik. Fikrimcə bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Azərbaycanda təhsilin rus dilində olduğu 330-dan çox məktəbin, Rusiyanın aparıcı ali məktəblərinin filiallarının mövcud olması və yetərincə zəngin mədəni proqramın olması Rusiyada çox yüksək qiymətləndirilir. Biz daim əlaqə saxlayırıq, yaxın dostlar və tərəfdaşlar kimi işləyirik.

Mixail Qusman: Bu gün Azərbaycan gələcəyə istiqamətlənib. İqtisadi islahatlar uğurla inkişaf edir, kənd təsərrüfatı və sənaye yüksək səmərəlilik nümayiş etdirir. Biznes üçün gözəl şərait yaradılıb. Azərbaycan xalqı quruculuqla məşğuldur. Əlbəttə, çox iş görülüb, lakin ölkənin daha da firavanlaşması üçün Prezident Əliyev qarşıya daha yüksək məqsədlər və genişmiqyaslı vəzifələr qoyur.

Azərbaycan vətəndaşları: - Azərbaycan mənim Vətənim, şərəfim və ləyaqətim, vicdanımdır. Biz əsrlər boyu bu torpağı Vətən adlandırmaq hüququnu insanların həyatı bahasına qazanmışıq.

– Mənim doğmalarım və yaxınlarım, mənim işim buradadır.

– Azərbaycanın dünyada öz mövqeyi və öz səsi var.

– Azərbaycan mənim üçün hər şeydir – mənim Vətənim, torpağım, ata yurdumdur, mən burada doğulmuşam, boya-başa çatmışam və xoşbəxt yaşayıram.

– Bu diyarın çöllərindən başlamış uca dağlarına qədər sərhəd bilməyən nadir təbiəti var.

– Öz Vətəninə xidmət etmək hər bir vətəndaşın borcudur.

– Mən öz Vətənimin firavanlığı üçün hər şeyi edirəm və edəcəyəm.

– Azərbaycanın qarşısında çox vəzifələr var. Biz öz Vətənimiz uğrunda canımızdan keçməyə hazırıq.

## *Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin VIII toplantısında İlham Əliyevin nitqi*

Sabahınız xeyir, əziz dostlar, hörmətli komissar Simson, hörmətli komissar Varhelyi.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hamınızı Azərbaycanda salamlamaq istəyirəm və bizi ziyarət etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Bildiyiniz kimi, keçən il iclasımız videokonfrans vasitəsilə olmuşdu. Lakin pandemiya ilə bağlı bəzi narahatçılıqlara baxmayaraq, çox şadam ki, siz iclasda şəxsən iştirak etmək qərarını verdiniz. Eyni zamanda, təəssüf hissi ilə demək istəyirəm ki, iclasın bəzi iştirakçılarının koronavirusa yoluxması aşkar olunub və buna görə də onlar bu gün fiziki olaraq burada iştirak edə bilmirlər. Mən onlara möhkəm cansağlığı, tezliklə sağalmalarını arzulayıram. Əminəm ki, Azərbaycan həkimləri onların mümkün olduğu qədər tez normal həyata qayıtması üçün hər şey edəcəklər.

Qeyd etdiyim kimi, keçən il iclas videokonfrans formatında keçirildi. Bu gün biz qarşılıqlı əlaqəmizin ənənəvi formatını bərpa edirik. Əlbəttə ki, belə format təkcə önümüzdə olan əhəmiyyətli məsələləri həll etmək üçün yox, eyni zamanda, ikitərəfli və çoxtərəfli təmaslar qurmaq üçün daha yaxşı imkanlar yaradır. Hər ilin fevral ayında biz ənənəvi olaraq əvvəlki ildə görülmüş işləri nəzərdən keçiririk və gələcək addımlarımızı planlaşdırırıq.

Qeyd etmək istəyirəm ki, Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilmişdir. Hər il biz müəyyən yeni nailiyyətlər haqqında məlumat verirdik. Biz çox şadıq və özümüzü təbrik edə bilərik ki, bu dəfə biz Cənub Qaz Dəhlizinin uğurla tamamlanması haqqında məlumat verə bilərik. Biz çox şadıq ki, 2020-ci ilin sonuncu günü - dekabrın 31-də, - yeri gəlmişkən, bu, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür, – azərbaycanlılar üçün mühüm olan bu gündə biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan TAP layihəsinin tamamlanması haqqında məlumat verdik. Əlbəttə ki, mən layihədə iştirak edən bütün tərəflərə minnətdarlığımı bildirmək istəyirəm, ilk növbədə,

Avropa Komissiyasına. Avropa Komissiyası və Azərbaycan həmtəşkilatçı olaraq və bütün ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutlarının Məşvərət Şurasının iclasında səylərinin koordinatorları olaraq il ərzində bu layihənin həyata keçirilməsində çox mühüm rol oynamışdır. Bu gün iki komissarın burada olması faktı buna dəlalət edir. Həmçinin mən regionda enerji təhlükəsizliyi layihələrinə dəstək verdiyi üçün Prezident Şarl Mişelə minnətdarlığımı bildirmək istəyirəm və minnətdarlığımı ona çatdırmağınızı xahiş edirəm. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində şəxsən iştirak etdiyinə görə də ona minnətdarlığımı bildirirəm. Həmçinin Cənub Qaz Dəhlizi layihəsinin iştirakçıları olan ölkələrin hökumətlərinə də təşəkkürümü bildirmək istəyirəm – Türkiyəyə, Gürcüstana, Yunanıstana, Bolqarıstana, Albaniyaya və İtaliyaya. Biz həqiqətən də bir komanda olaraq çalışdıq.

Hesab edirəm ki, milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni - XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizini icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. Cənub Qaz Dəhlizi layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini vermişdir – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərlərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik.

Əlbəttə, biz gələcəyə baxmalıyıq və mən əminəm ki, bugünkü iclasda iştirakçılar ənənəvi əməkdaşlıq sahələrini, gələcək planlarımızı müzakirə edəcək. Çünki hamımızın bildiyi kimi, əlavə qaz mənbəyinə tələbat artmaqdadır. Eyni zamanda, bərpa olunan enerji mənbələri ilə bağlı məsələlər də müzakirə olunacaq. Azərbaycan öz “yaşıl enerji” siyasətinə münasibətdə çox işlər görür. Dediyim kimi, yeni mənbələrdən qaz üçün tələbat artır. Cənub Qaz Dəhlizi layihəsinin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracı artıra bilib. Keçən il Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib - Türkiyəyə 8,5 milyard, İtaliyaya demək olar ki, 7 milyard kubmetr. Yerdə qalan həcm komandanın başqa üzv ölkələrinə – Gürcüstana, Yunanıstana və Bolqarıstana ixrac olunub. Əminəm ki, komandamızın üzvü olan Albaniya da öz qazpaylayıcı şəbəkəsini tamamlayan kimi Azərbaycan qazını əldə edəcək.

Həmçinin o faktı vurğulaya bilərik ki, bugünkü iclasda keçən illə müqayisədə daha çox sayda ölkə və şirkətlər iştirak edir. Yeni iştirakçılarımız var və bu da onu göstərir ki, yeni bazarlarda Azərbaycan qazına ehtiyac var. Biz hazırıq, çünki Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olmuşdur.

Biz neft ixracatına 2006-cı ildən başlamışıq, artıq uzun illərdir. Təchizatda heç bir fasilə olmamışdır, müqavilə şərtləri pozulmamışdır, enerji siyasəti arxasında heç bir siyasi gündəm yox idi. Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb. İndi isə mən qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara baxanda görürəm ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər artır. Çünki biz hasilatı artırmağı planlaşdırırıq. Bu il biz keçən illə müqayisədə daha çox ixrac edəcəyik – böyük potensial var, xüsusilə indi, qaz bazarındakı vəziyyətin sabit olmamasını nəzərə alaraq. Həmçinin qiymətlər də çox dəyişkəndir.

Hesab edirəm ki, yeni nəticələrin necə əldə olunması üçün biz gələcəyimizi koordinasiya və xoşməramlı şəkildə birlikdə planlaşdırmalıyıq. Azərbaycanın isbat edilmiş qaz ehtiyatı məlumdur: 2,6 trilyon kubmetr. Əlbəttə ki, ən böyük yataq “Şahdəniz”dir - bir trilyon kubmetr. Əminəm ki, daha çox olacaq. Çünki neft və qaz yataqlarının işlənilməsi ilə bağlı təcrübəmizə baxsanız görərsiniz ki, biz həmişə yolumuzun əvvəlində gözlənildiyindən daha böyük həcmdə ehtiyatları görürük. Bunlar yeni yataqların kəşfi və yeni texnologiyalar sayəsində mümkün olmuşdur. Çünki bu gün bu sahədə texnologiya sürətlə inkişaf edir. Buna görə də mən əminəm ki, Azərbaycanın isbat edilmiş qaz ehtiyatları daha da çox olacaq. Dediyim kimi, “Şahdəniz” Azərbaycanda əsas qaz yatağıdır və bu vaxtadək Cənub Qaz Dəhlizinə töhfə verən yeganə yataqdır. Lakin digər layihələr üzərində də iş gedir. Ümid edirik ki, ən böyük qaz kondensatı yataqlarından biri olan “Abşeron”da tezliklə hasilata başlanılacaq. Ola bilsin, bir ildən də az müddətdə. İş mərhələlərlə aparılacaq. “Abşeron”da birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu, böyük bir həcm deyil. Lakin düşünürəm ki, bəzi ölkələr üçün əhəmiyyətli göstəricidir. Bu, bizim də artan tələbatımızı qarşılaya bilər və həmçinin ixrac imkanlarını da təmin edə bilər.

Yaxşı nəticə verəcəyinə ümid bəslədiyimiz digər böyük bir yataq “Babək”dir. Onun təxmin olunan qaz ehtiyatı 400 milyard kubmetrdir. “Ümid” yatağının qaz ehtiyatı ən azından 200 milyard kubmetrdir. Əlbəttə ki, bizim çoxdan istismarda olan neft-qaz yataqlarımızdan biri – “Azəri-Çıraq-Günəşli”dən böyük gözləntilərimiz var. Onun tezliklə istismara veriləcəyinə ümid etdiyim dərin qaz hissəsində yüz milyardlarla kubmetr qaz

olacaq və düşünürəm ki, qısa zamanda hasil edilə biləcək. Beləliklə, bu, bizim bugünkü potensialımızdır. Bizi 4 ölkə, 4 qonşumuzla birləşdirən şaxələndirilmiş qaz nəqli şəbəkəsinə malik olmaqla, əsas ixrac marşrutu - Cənub Qaz Dəhlizi tamamlanandan sonra, düşünürəm ki, bizim planlarımız həyata keçiriləcək. Lakin əlbəttə ki, biz bu komanda işini davam etdirməliyik. Cənub Qaz Dəhlizi layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik.

Həmçinin demək istərdim ki, ilk növbədə, əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir. Eyni zamanda, sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru demək olar ki, 20 faiz artıb. Əlbəttə ki, bizim öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız var. Həmçinin ümidvaram ki, 2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilən ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq. Bu, tamamilə dağıdılmış böyük bir ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazi 10 min kvadratkilometrdən çoxdur. Siz bizim qarşımızda necə çağırış olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Biz artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərimizi geri qaytarmağı planlaşdırırıq. Ona görə də, bizim öz istehlakımız üçün əlavə qaza ehtiyacımız olacaq. Burada biz bərpaolunan enerji mənbələri ilə bağlı diqqətimizi cəmləşdirdiyimiz çox mühüm bir məqama gəlirik. Yeri gəlmişkən, Azərbaycan dünyanın xam neft, təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir. Azərbaycanın elektrik enerjisi potensialı əsasən daxili istehlaka hesablanıb.

Biz elektrik enerjisi infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq və deyə bilərəm ki, Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, enerjiyə əlçatanlıq reytinqində biz dünyada ikinci yerdəyik. Beləliklə, biz böyük həcmdə vəsait yatırmışıq və elektrik enerjisi xətlərini demək olar ki, tamamilə müasirləşdirmişik, yeni elektrik stansiyaları tikmişik. Misal üçün, tezliklə biz Qobu qəsəbəsində demək olar ki, 400 meqavat gücündə yeni elektrik stansiyasının açılışını edəcəyik. Ötən ay bu zalda biz tamamilə əcnəbi investor, enerji bazarında tanınmış, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti tərəfindən maliyyələşdiriləcək ilk böyük bərpaolunan enerji mənbəyi layihəsinin – 240 meqavat gücündə külək elektrik stansiyasının təməlqoyma mərasimini qeyd etdik.

Mən, həmçinin demək istərdim ki, bizim elektrik enerjimizə regional bazarda da ehtiyac var, bəlkə də, biz daha uzağa, Avropaya qədər gedə bilərik. Çünki bu gün biz dörd qonşu ölkəyə - Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Həcm artır. Bizim Azərbaycanda bərpaolunan enerji mənbəyimiz nə qədər çox olsa, biz ixrac üçün daha çox qaza qənaət edəcəyik. Məsələn, mənim indicə qeyd etdiyim elektrik stansiyası – külək elektrik stansiyası ilə biz 200 və ya 300 milyon kubmetr qaza qənaət edəcəyik. Bu, yaxşı göstəricidir və istehlakı böyük olmayan ölkələr üçün ciddi dəyişiklik ola bilər. Beləliklə, bizim “yaşıl enerji” strategiyamız hazırda təkcə qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir.

Bizim işğaldan azad edilmiş ərazilər üçün xüsusi proqramımız var. Energetika Nazirliyimiz aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” zonası üçün konseptual proqnoz hazırlayıb. Biz artıq Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsini aparmışıq və ilkin rəqəmlər çox ümidvericidir. Külək enerjisində potensial təxminən 7200 meqavat, Günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Yeri gəlmişkən, sizi məlumatlandırmaq istərdim ki, bizim neft-qaz sahəsində strateji tərəfdaşımız olan BP işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir. Biz artıq orada 200 meqavatdan çox gücə malik bərpaolunan enerji mənbəyinin tikintisi ilə bağlı BP ilə danışıqlar mərhələsindəyik.

Mən, həmçinin demək istərdim ki, hazırda bizim Energetika Nazirliyi bərpaolunan enerjiyə investisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir. Bizdə bununla bağlı böyük ruh yüksəkliyi var. Düşünürəm ki, bu, Azərbaycanda “yaşıl enerji”nin inkişafına dair bizim daxili strategiyamızın bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələri idxal edən ölkələr üçün də faydalı olacaq. Bizim, həmçinin Xəzər dənizinin qiymətləndirilməsinə dair xüsusi proqramımız var. İlkin rəqəmlər göstərir ki, Xəzər dənizinin texniki potensialı 150 min meqavatdan çoxdur. Artıq biz bu potensialın inkişafı ilə bağlı aparıcı beynəlxalq enerji şirkətlərindən müəyyən ilkin təkliflər almışıq. Düşünürəm ki, bu, çox təbii olacaq. Çünki Azərbaycan artıq uzun illərdir özünü etibarlı enerji mənbəyi kimi sübut edib.

Qeyd etdiyim kimi, biz hər növ enerji mənbələri ixrac edirik. Biz ölkə daxilində olan və bizi bütün qonşularımızla birləşdirən elektrik xətlərini şaxələndirmişik. Bizim yaxınlığımızda ixrac bazarları, özü də artan ixrac bazarları var. Məsələn, iqtisadiyyatı artan, əhalisi artan Türkiyə kimi ölkə, düşünürəm ki, bizim üçün əsas bazardır, həmçinin əhalisi eynilə artan İran. Mən Qara dənizin dibi ilə Mərkəzi Avropanı bizim regionumuzla birləşdirən elektrik xətlərinin çəkilməsi ilə bağlı müəyyən planlardan xəbərdaram. Azərbaycan Gürcüstanın elektrik enerjisi təchizatçısı olaraq burada iştirak edə bilər. Bizim burada həqiqətən də böyük potensialımız var.

Biz çox fəal işləyirik, üzərimizə düşəni edirik. Eyni zamanda, şadam ki, Avropa Komissiyası ilə bizim

Energetika Nazirliyimiz arasında buna həsr olunmuş xüsusi sessiya keçirilməsi üçün razılıq əldə olunub. Bunu həqiqətən də təqdir etməyə dəyər. Başqa sözlə, Cənub Qaz Dəhlizi tamamlanıb, lakin bizim işimiz davam edir. Biz bir komanda kimi işləməyə davam etməliyik.

Mən bir daha məmnunluğumu ifadə etmək istərdim ki, bu dəfə daha çox iştirakçımız var. Enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi ilə bağlı məsələlərin nə dərəcədə mühüm olduğunu sübut etməyə ehtiyac yoxdur. Biz hamımız bunu başa düşürük. Əlbəttə ki, Azərbaycan nəhəng neft-qaz ehtiyatları və bərpaolunan enerji potensialına malik ölkə olduğundan, sözsüz ki, biz öz məsuliyyətimizi başa düşürük. Sizə deyə bilərəm ki, biz daha yaxşı imkanlar yaratmaq üçün gələcəkdə də məsuliyyətli şəkildə davranacağıq. Bundan əlavə, həmçinin demək istərdim ki, bizim birgə yürütdüyümüz enerji siyasəti enerji şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərinin də hüdudlarını aşır. Çünki bu, ölkələr arasında yeni bağlantılar yaradır və əlaqələrin inkişafına kömək edir, bu prosesə cəlb olunmuş bütün ölkələr arasında qarşılıqlı etimad səviyyəsinin artırılmasına kömək edir.

Beləliklə, bizim gördüyümüz işlərin çox sayda müsbət nəticələri var. Bir daha qeyd edim ki, biz bu yola çıxanda işlərin necə olacağı çox aydın deyildi. Biz əməkdaşlığın yeni formatına qədəm qoymuşduq, bu ölkələrin bəziləri ilə bizim heç vaxt bu formatda əməkdaşlığımız olmamışdı. Lakin bu, uğurlu oldu. Çünki biz səmimi, açıq və vicdanlı idik və eyni məqsədimiz var idi. Məqsədimiz budur, layihələr müxtəlif ola bilər, lakin əməkdaşlığın ruhu bizə planlaşdırdığımız hər şeyə nail olmağa kömək edəcək.

Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Məşvərət Şurasının iclasına uğurlar arzulayıram. Sağ olun.

## *BMT Baş Assambleyasının sədrinin təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələrdə İlham Əliyevin nitqi*

Cənab Sədr.

Cənab Baş katib.

Qoşulmama Hərəkatına üzv dövlətlər adından çıxış etməkdən şərəf duyuram.

Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Baş Assambleyasının sədri cənab Abdulla Şahidin COVID-19 pandemiyası ilə mübarizədə universal peyvəndlənməyə dair belə yüksək səviyyəli tematik müzakirələrin keçirilməsi təşəbbüsünü təqdir edir. Bu toplantı dünyada COVID-19 əleyhinə keyfiyyətli, təhlükəsiz, effektiv və məqbul qiymətə olan peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin edilməsi ilə bağlı problemlərin davam etdiyi vaxta təsadüf edir.

Biz, COVID-19 ilə qlobal mübarizə, onun nəzarət altında saxlanılması və yayılmasının qarşısının alınması, habelə dövlətlərə dəstəyin verilməsi üzrə səylərin əlaqələndirilməsində BMT sisteminin fundamental rolunu vurğulayırıq. Bu mənada biz Ümumdünya Səhiyyə Təşkilatının aparıcı rolunu qeyd edirik.

Pandemiyanın başladığı dövrdən Qoşulmama Hərəkatı multilateralizm, əməkdaşlıq və həmrəylik ruhunda geniş beynəlxalq ictimaiyyətin səylərini fəal şəkildə səfərbər edərək, pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması baxımından bir sıra uğurlu təşəbbüslər irəli sürmüşdür.

2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr Qoşulmama Hərəkatına üzv dövlətlər adından irəli sürülmüşdür.

COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyət qlobal yanaşma tələb edir. Lakin az və orta gəlirli ölkələrdə peyvəndlərin tədarükünün aşağı səviyyədə olması bu baxımdan hələ də çox işlərin görülməli olduğunu göstərir.

COVID-19 peyvəndlərinin bölgüsü baxımından inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qeyri-bərabərlik beynəlxalq ictimaiyyətin qısa zamanda pandemiyanın tamamilə aradan qaldırılmasına nail olmasının qarşısını alır. Bu, həm də Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin reallaşdırılmasına mane olur.

Səhiyyə sisteminin davamlı fəaliyyətinin təmin edilməsi və pandemiya ilə mübarizədə səmərəli addımların atılması üçün əsas səhiyyə xidmətlərinin bütün müvafiq aspektlərinin gücləndirilməsi vacibdir. Buraya müxtəlif addımlarla yanaşı, səhiyyənin universal əlçatanlığı üçün fasiləsiz peyvəndlənmə proqramlarının davam etdirilməsi də daxil edilməlidir.

Biz, həmçinin COVID-19 peyvəndlərini ianə edən ölkələrin səylərini alqışlayırıq və bütün dövlətlərə buna ehtiyacı olan az və orta gəlirli ölkələrlə peyvənd dozalarını bölüşməyi fəal şəkildə təşviq edirik.

Bu kontekstdə biz bütün ölkələr üçün COVID-19 peyvəndlərinin məqbul qiymətə, bərabər, universal və

vaxtında əlçatanlığın təmin olunmasına xidmət edən COVAX Mexanizmi, COVAX Öncədən Bazar Öhdəliyi, COVAX Öncədən Bazar Öhdəliyi Forumu və digər aidiyyəti konstruktiv təşəbbüsləri yüksək qiymətləndirir və dəstəkləyirik. Bundan əlavə, BMT sülhməramlıların mürəkkəb vəziyyətlə üzləşdiyini nəzərə alaraq, BMT-nin sülhməramlı əməliyyatlarına COVID-19 əleyhinə peyvənd ianə edən ölkələrin səylərini alqışlayırıq.

Bütün ölkələrin, beynəlxalq təşkilatların və aidiyyəti tərəfdaşların milli və regional hüquqi çərçivəyə uyğun olaraq peyvənd istehsalı, paylanılması və ədalətli qiymət qoyulması məsələlərində şəffaflıqla bağlı öhdəlik götürmələri vacibdir. COVID-19 əleyhinə peyvəndlərin məqbul qiymətə, vaxtında, bərabər və universal əlçatanlığına mane ola biləcək möhtəkirliyin, lazımsız ixrac nəzarətinin və lüzumsuz artıq tədarükün qarşısının alınması ilə bağlı ölkələr tərəfindən təcili addımların atılması eyni dərəcədə əhəmiyyətlidir.

Xanımlar və cənablar, Qoşulmama Hərəkatı pandemiyanın tezliklə aradan qaldırılması və effektiv bərpa prosesinə imkan yaradacaq beynəlxalq həmrəyliyin gücləndirilməsi üçün fəal şəkildə səylərini davam etdirməyə hazırdır. Bu mənada Hərəkatımız post-COVID-19 dövrünün bərpa ehtiyacları ilə bağlı nəticəyönümlü təşəbbüslərlə çıxış edəcək.

Hörmətli tədbir iştirakçıları, indi isə mən ölkəm adından çıxış etmək istərdim.

Azərbaycan COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün təsirli və adekvat tədbirlərin həyata keçirilməsini davam etdirir. Biz peyvəndlənmə kampaniyasına 2021-ci ilin yanvarında başlamışıq. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub.

COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün bu ilin dövlət büdcəsindən 1.6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb.

Azərbaycan pandemiya, “peyvənd millətçiliyi” və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının Xüsusi Sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunəsidir. Fürsətdən istifadə edərək, həmin təşəbbüsləri dəstəkləmiş bütün üzv dövlətlərə minnətdarlığımı bildirirəm.

Həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardımı etmişdir. Bununla yanaşı, biz 5 ölkəyə peyvənd ianəsi etmişik və bu iş davam etdiriləcək. Hazırda biz Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesindəyik.

İndi biz post-COVID-19 dövrü üçün fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti yüksək səviyyəli iclasının təşkil edilməsi üzərində işləyirik.

Biz, həmçinin qlobal tədbirlərlə bağlı konkret tövsiyələr hazırlaya biləcək BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin təsis edilməsinin tərəfdarıyıq. Bundan sonra da təşəbbüslərimizin tərəfinizdən dəstəklənəcəyinə ümid edirik.

Sonda sizə iclasın uğurlu, müzakirələrin məhsuldar olmasını arzu edirəm.

## *Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür. Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Doğrudan da çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək.

Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış və bu sahədə böyük təcrübəsi olan “Masdar” şirkətidir. Qeyd etdiyim kimi, “Masdar” şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və

əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır.

"Masdar" şirkəti bizim üçün dost ölkəni - Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var. Şadam ki, bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir. Əslində, Azərbaycan Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında icra müqaviləsi bir il bundan əvvəl imzalanmışdır. Bu müddət ərzində hazırlıq işləri gedirdi və bu gün biz artıq təməlqoyma mərasiminə toplaşmışıq.

Bildirməliyəm ki, bu ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi sistemimizə daxil ediləcəkdir və bu, işin sadəcə olaraq başlanğıc hissəsidir. Çünki bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir. Biz uzun illər bu məsələnin həlli ilə bağlı çalışırıq və bu gün real nəticələr görürük. Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır. Mən buna əminəm, biz artıq bu işin təzahürlərini görürük. Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik.

Böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, bp şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcək. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik. Keçən il 4 su elektrik stansiyasını bərpa etmişik. Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün təbii ki, daha böyük potensial var. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır.

Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni, bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Əlavə etsəm ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, – bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir, – və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz

yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır – həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik. Yəni, bütün bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik.

Mən stansiyanın inşasına uğurlar arzulayıram, “Masdar” şirkətinə bizə etibar etdiyi və böyük sərmayəni qoymağa planlaşdırdığı üçün təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, biz yaxın gələcəkdə Qaradağda bu stansiyanın açılışını birlikdə qeyd edəcəyik. Sağ olun.

D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
P U B L I C A D M I N I S T R A T I O N

UOT 351

**MÜBARİZ QURBANLI**
**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, tarix üzrə fəlsəfə foktoru, dosent**
*e-mail: chairman@scwra.gov.az*

# AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

## Bəşəriyyətlə həmyaşıd fenomen: din

Din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsi olmuşdur. Onun insanlar tərəfindən doğru dərk edildiyi və aşılandığı zaman sülhün zəmanətçisi olduğu birmənalıdır. Sivilizasiyalararası toqquşmaların hökm sürdüyü müasir dövrdə ayrı-ayrı dinlərin mənsublarına dözümlülük nümayiş etdirmək nəinki yüksək mənəvi üstünlük, hətta demokratik yaşam tərzinin əsas elementlərindən biri kimi qəbul edilməkdədir. Bu gün bütün dinlərə, onların ardıcıllarına hörmət bəsləmək kimi önəmli keyfiyyət cəmiyyətin bütövlüyünün əsas şərtlərindən biri kimi qəbul edilsə də, təcrübə göstərir ki, bu ali dəyər heç də hər zaman nəzərə alınmır. Amma çağdaş dövrdə dünyada baş verən bir çox münaqişənin kökündə məhz din, yaxud məzhəb ayrı-seçkiliyinin dayandığını nəzərə alsaq, mövcud şəraiti düzəltməyin, insanlara dini dözümlülük xüsusiyyətlərini aşılamağın nəinki ayrı-ayrı dövlətlərin, beynəlxalq təşkilatların, eyni zamanda hər kəsin əsas vəzifələrindən biri olduğunu söyləyə bilərik.

Tarixboyu dinin iki – fərdi və sosial rolu olmuşdur. Bir tərəfdən fərd olaraq insanın əsas problemlərini həll etmək üçün müxtəlif təkliflər önə sürən din, digər tərəfdən sosial qurumlara və hadisələrə də təsir göstərir. Dinin mədəniyyətdən ayrılması mümkün deyildir. Belə ki, o, əvvəlcə fərdlərə, fərdlər vasitəsilə də sosial qurumlara elə nüfuz edir ki, nəticədə mədəniyyətin ayrılmaz parçasına çevrilir.

Fransız sosioloq və filosof Emil Dürkheymin fikrincə, dinin cəmiyyət həyatında dörd əsas vəzifəsi vardır:

1. Din insanın müəyyən qaydalara riayət edərək özünütərbiyəsinə yardım göstərir;
2. Fərdlər arasında birliyə, bərabərliyə və yardımlaşmaya səbəb olur;
3. Adət-ənənələrin qorunmasında mühüm rol oynayır;
4. Dini ayinlər insanlara hüzur, rahatlıq verərək onları qəm-qüssədən, digər problemlərdən uzaqlaşdırır və xoşbəxtliklərini təmin edir [1, s.41-48].

Din insanlığın əsas bağıdır, onun cəmiyyətdəki funksiyalarından biri də birləşdiricilikdir. Bir çox sosioloq hesab edir ki, din inteqrasiya olunduğu cəmiyyətdəki müxtəlif inanclar, normalar, dəyərlər, adətlər, davranış qaydaları vasitəsilə özünə yer tapır, bir müddət sonra isə onlarla qaynayıb-qarışır. Hətta bəzi sosioloqlar iddia edirlər ki, dinin əsas vəzifəsi ictimai həmrəyliyi gücləndirməkdir. Belə ki, o, insanları dostluğa, qardaşlığa, birlikdə yüksəlməyə və irəli getməyə səsləyir. Ancaq bəzi dairələr dindən bölücülük məqsədilə istifadə edirlər. Buna nümunə kimi Yaxın Şərqdə müxtəlif dini qruplar, məzhəblər və təriqətlər arasında baş verən münaqişəni göstərmək olar.

Xalqların milli-mənəvi dəyərlərinin formalaşmasında dinlər bilavasitə rol oynamışdır. Çünki əxlaqi prinsiplərə malik olmayan cəmiyyət xaos, anarxiya və hərc-mərcliyə məhkumdur. Dini rədd edən insan mənəviyyatın topluma nə üçün gərəkli olduğunu anlamaqda çətinlik çəkir. Dinin izlərinə ictimai həyatın, az

qala, hər sahəsində rast gəlmək mümkündür. Memarlıq, rəssamlıq, ədəbiyyat, musiqi, fəlsəfə, hətta mətbəxə də din öz təsirini göstərir. O, bir çox məşhur incəsənət və elm xadimi üçün dayaq nöqtəsi olur. Bu baxımdan din cəmiyyətdə ikinci və ya üçüncü dərəcəli məsələ hesab edilə bilməz. O, bütün maneələrə baxmayaraq, tarixin hər səhifəsində toplumları istiqamətləndirən, onların taleyinə təsir göstərən qüvvə olub. Dini dünyagörüşün təsir gücü o dərəcədə qüvvətlidir ki, o, bir xalqın taleyini tamamilə dəyişə, hətta onu dünyanın ən qabaqcıl xalqlarından birinə çevirə bilər.

Heç kimə sirr deyil ki, dindən siyasi vasitə kimi istifadə olunması onun əsas mahiyyətindən uzaqlaşmasına səbəb olur və xalq kütlələrini idarə etmək üçün alətə çevirir. Bəzi dairələrin sabit və inkişaf edən ölkələrdə qarışıqlıq, xaotik vəziyyət yaratmaq və ya hakimiyyətə yiyələnmək istəyən siyasi qüvvələrin xalq kütlələrini öz tərəfinə çəkmək, yaxud da ölkənin elmi-texniki inkişafını arzulamayan qüvvələrin dövlətin həyata keçirdiyi islahatların, texniki tərəqqinin inkişaf etməsinin qarşısını almaq üçün din amilindən istifadə etməsi tarixin bütün dövrlərində rast gəlinən, tarixi mənbələrdə yüzlərlə nümunəsi olan faktdır. Ona görə də dini təhlükəsizlik bütün dövlətlər üçün milli təhlükəsizliyin əsas elementlərindən birinə çevrilib və elə bu səbəbdən dövlət-din münasibətlərinin daim yüksək səviyyədə saxlanılması, dini məsələlərdə mərkəzdənqaçma meyillərinin qarşısının vaxtında və qəti şəkildə alınması dövrün tələbi olub. Artıq hər bir dövlət öz idarəetmə sistemində təmsil etdiyi xalqın və ya xalqların dini mənsubiyyətini nəzərə almaqla yanaşı, dövlətçilik, milli və dini mənsubiyyət üçün ciddi təhlükə olan kənar dini-ideoloji axınlara qarşı mübarizə aparmalı olur.

Müasir idarəetmə sistemində dinin dövlət idarəçiliyindən uzaqlaşdırılması, onun yalnız xalqın mənəvi-əxlaqi tələbatları üçün istifadə olunması əsas götürülür. Bununla belə, "din dövlətdən ayrı olsa da, dindar dövlətdən ayrı deyil" prinsipi ilə xalqın inancına hörmət, dini bayramların, eləcə də adət-ənənələrin keçirilməsini təmin etmək, dindarların ibadətləri üçün lazımi mühitin formalaşdırılması dövlət idarəetmə siyasətində xüsusi diqqət edilən məqamlardan biridir. Xüsusilə də, çoxkonfessiyalı, müxtəlif din və məzhəb mənsublarının birgə yaşadığı dövlətlərdə bu məsələnin düzgün nizamlanması vacibdir. Çünki etnik qruplaşmalar, din və məzhəb ayrı-seçkiliyi, dindarların sıxışdırılması ciddi fəsadlara yol açan və dövlət idarəetməsində əsaslı xaos yarada biləcək nəticələrə gətirə bilər. İngilis politoloqu Con Anderson "Keçid dövrü cəmiyyətlərində dini etiqad azadlığı: din siyasəti" adlı əsərində keçid dövrü cəmiyyətlərində dövlət-din münasibətlərini və din siyasətini müqayisəli təhlil edərək belə nəticəyə gəlir ki, keçid dövrü cəmiyyətləri kimi xarakterizə edilən ölkələrdə din sahəsinin qanuni yollarla tənzimlənməsi, dinin rəsmi olaraq tanınması, qeyri-ənənəvi dinlərin fəaliyyətinə bəzi məhdudiyyətlərin qoyulması və digər hərəkətlər ictimai nizam və milli təhlükəsizliyin təmin olunmasının prioritetliyi prinsipinə əsaslanır. Əlbəttə, ictimai təhlükəsizliyin dini azadlıqla müqayisədə daha önəmli olduğu başadüşüləndir. Çünki ictimai nizam və təhlikəsizlik təmin olunmazsa, din və etiqad azadlığından danışmaq mümkün deyil [2, s.177].

## Azərbaycan modelinin nümunəviliyi

Qloballaşma prosesinin sürətləndiyi müasir dövrdə ali dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyəti üçün artıq birgəyaşayış normasıdır. Azərbaycanda milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma hallarının olmaması, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, o cümlədən dini münasibətlərin qurul ması ölkəmizi bu mövzuda ən yaxşı nümunəyə çevirmişdir. Şübhəsiz, bütün bunlar müstəqil Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu mükəmməl din siyasəti və uğurlu dövlət-din münasibətlərinin nəticələridir. Məhz Ümummilli Liderimizin xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda başladılmış hərtərəfli quruculuq işləri qısa müddətdə din sahəsinə öz

töhfələrini vermişdir.

1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyanın 18-ci maddəsinin I bəndi ilə ölkəmizdə dinin dövlətdən ayrı, bütün dini etiqadların qanun qarşısında bərabər olduğu təsbit edilmişdir. Eyni zamanda, Konstitusiyada Azərbaycan dövlət idarəetmə siyasətində dinin siyasi amil kimi istifadə edilmədiyi, dövlətin dünyəvi, hüquqi və unitar respublika olduğu qeyd-şərtsiz qəbul olunmuşdur. Lakin bu, heç də dinin tamamilə cəmiyyətin öhdəsinə buraxıldığı, bir növ, nəzarətsiz qoyulduğu mənasına gəlmir. Belə ki, 18-ci maddənin II bəndində bildirilir: “İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır”. Bununla göstərilir ki, Azərbaycan dövləti xalqın milli-mənəvi və dini-əxlaqi normalarına edilən qanunsuz müdaxilələrə, yad, zərərli ideologiyaların ölkəyə idxal edilməsinə imkan verməz. Konstitusiyanın 48-ci maddəsində deyilir: “Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır”. Lakin dini əqidənin heç bir qanun pozuntusuna bəraət qazandırmadığı elə həmin maddənin IV bəndində öz əksini tapır: “Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır” [3].

Azərbaycanda dövlət-din münasibətlərinin hüquqi mexanizmi “Dini etiqad azadlığı haqqında” Qanunda detallı şəkildə öz əksini tapır. Həm bu qanun, həm də dövlət-din siyasətini tənzimləyən digər hüquqi-normativ aktlar Azərbaycan dövlətinin siyasətinin dini münasibətlərin tənzimlənməsində ənənəviliyə və tarixiliyə böyük önəm verməsinin göstəricisidir.

Azərbaycanda dövlət-din münasibətləri sahəsindəki mütərəqqi addımlardan biri də Ümummilli Liderimiz Heydər Əliyevin 21 iyun 2001-ci il tarixdə, Konstitusiyamızın 48-ci maddəsini əsas tutaraq 512 nömrəli Fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsini yaratması olmuşdur. 20 iyun 2001-ci il tarixdə Azərbaycan Respublikasının Prezidentinin 544 nömrəli Fərmanı ilə Əsasnaməsi təsdiq edilən, dövlətin din siyasətini həyata keçirən Komitənin əsas fəaliyyət istiqaməti ölkəmizdə dini etiqad azadlığının həyata keçirilməsi üçün münasib şəraitin yaradılmasıdır. Dövlət Komitəsinin vəzifələri sırasına dini etiqad azadlığının təmin olunması ilə yanaşı, dini etiqad azadlığı sahəsində vahid dövlət siyasətinin formalaşması, bu siyasətin həyata keçirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafının təmin edilməsi, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatının həyata keçirilməsi, öz səlahiyyətləri daxilində dini təhsil ilə bağlı məsələlərin tənzimlənməsi, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər daxildir [4]. Bir sözlə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycanda dini-ideoloji işlərin qurulmasında iştirak edən əsas orqan kimi dövlətin din siyasətinin mərkəzində dayanır. Bu sahədə qanunvericilik bazası edilən əlavə və dəyişikliklərlə ildən-ilə təkmilləşdirilir, ölkəmizdə ənənəvi dini mühit daha da möhkəmləndirilir, din siyasəti demokratik dövlət quruculuğuna, dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Məhz buna görədir ki, Azərbaycan illərdir dünyada tolerantlığın gücləndirilməsi, universal mənəvi dəyərlərin beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması, dini zəmində ekstremizmə və ayrı-seçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, eləcə də fərqli dinlərin, mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq, qarşılıqlı anlaşmanın bərqərar edilməsi kimi aktual problemlər ətrafında konstruktiv fikir mübadilələrinin aparıldığı platformaya, beyin mərkəzinə çevrilib [5, s.24-26].

Ölkədə yaşayan müxtəlif din və məzhəblərin nümayəndələrinə qayğı göstərmək, onların problemlərini həll etmək Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Hökumət davamlı olaraq bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir, nəsillərdən-nəsillərə ötürülən dini dəyərləri, dözümlülük ənənələrini qoruyur və

dini durumu nəzarətdə saxlayır.

Bu gün Azərbaycan bütün dünyada dövlət-din, həmçinin dinlərarası münasibətlərin ideal göstəricilərinin olduğu ölkə kimi tanınır. Ölkə tolerant, multikultural mühitin formalaşması, radikal baxışlara ictimai qınağın və dövlət nəzarətinin olması baxımından mükəmməl nümunə təşkil edir. Multikultural və tolerant dəyərləri öz siyasətinin tərkib hissəsinə çevirmiş Azərbaycan dövləti dini etiqadından asılı olmayaraq, bütün vətəndaşlara öz inanclarını yaşamaq üçün lazımi şərait yaratmışdır və bu, hər sahədə hiss edilməkdədir [6, s. 185].

Prezident İlham Əliyevin yürütdüyü din siyasətinin əsasları

Ulu Öndər Heydər Əliyevin bütün istiqamətlər üzrə siyasətini layiqli şəkildə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Xüsusilə, böyük tarixə malik məbədlərimizin təmir-bərpa olunması, yeni dini ibadət ocaqlarının tikilməsi milli-mənəvi dəyərlərimizə böyük xidmətdir və ölkədə fəaliyyət göstərən konfessiya rəhbərləri buradakı tolerantlıq mühitini, dövlət başçısının dindarlara diqqət və qayğısını hər zaman dərin minnətdarlıq hissi ilə ifadə edirlər. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Ölkədə mövcud dini konfessiyaları dəstəkləmək, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqətinin bariz nümunələrindəndir. Dövlət başçısının 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmış Fond, əsasən, milli-mənəvi dəyərlərin qorunması, inkişafı və təbliği istiqamətində işlər görür, eyni zamanda xeyriyyəçilik, şəhid ailələrinə maddi dəstək, tələbələr üçün təqaüd proqramları və s. həyata keçirir. Fondun əhəmiyyətli xidmətləri arasında məscidlərdə çalışan din xadimlərinə maddi yardımın göstərilməsi də xüsusi qeyd edilməlidir. Heç kimə sirr deyil ki, cəmiyyətləri radikalizmə, fanatizmə, mövhumata sürükləyən, yad dini ideologiyaların geniş vüsət almasının əsas səbəblərindən biri, bəlkə də birincisi savadlı din xadimlərinin olmamasıdır. Müstəqilliyinin ilk illərində bu problemlə üz-üzə qalan ölkəmizdə də savadlı mütəxəssislərin yetişdirilməsini və ilahiyyat elminin inkişafını təmin etmək üçün yeni çağırışlara cavab verən ali təhsil müəssisəsinin yaradılmasına ehtiyac var idi. Prezident İlham Əliyevin 2018-ci il 9 fevral tarixli 3654 nömrəli "Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında" Sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun (AİI) yaradılması bu istiqamətdə atılmış ən mütərəqqi addımlardandır. Qarşısına Azərbaycan xalqının din sahəsində yüksək ixtisaslı kadrlara olan ehtiyacını beynəlxalq standartlar əsasında təmin etmək, ilahiyyat sahəsindəki problemləri araşdıran beynəlxalq standartlı tədqiqatlar aparmaq, İslam və digər dünya dinləri haqqında dərin biliyə yiyələnən, tərəfsiz və bütün konfessiyalara qarşı dözümlülüklə yanaşan din xadimləri yetişdirmək, milli, dini və əxlaqi dəyərləri qorumaqla Azərbaycan xalqının milli və mədəni inkişafına töhfələr vermək məqsədləri qoyan AİI-də İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. Cari ilin aprel ayının 11-də Prezident İlham Əliyevin iştirakı ilə yeni inzibati binasının açılışı olan institutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır [7].

### Ulu Öndərin irsinə xidmətin parlaq nümunəsi

Azərbaycan gerçəkliklərinin, mədəniyyətinin, tolerantlıq ənənələrinin təbliği istiqamətində görülən işlərdə Birinci vitse-prezident, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çox böyük rolu

vardır. Təsadüfi deyil ki, Ümummilli Liderin zəngin mənəvi irsini yaşatmaq, azərbaycançılıq fəlsəfəsini şaxələndirmək məramı ilə yaradılmış Fondun fəaliyyəti təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur. Bu, həm də ölkəmizdə dinə dövlət qayğısının bariz nümunəsi, ümumiyyətlə, dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürüdür. Heydər Əliyev Fondu bütün sahələrdəki nailiyyətləri ilə yanaşı, dünyada tolerantlıq və multikulturalizmin də mükəmməl örnəyini yaratmaqdadır. Fond Azərbaycanda mədəniyyət diplomatiyasını mütəşəkkil, sistemli, təşkilatlanmış, müasir dövrün çağırışlarına uyğun, ən əsası, qlobal miqyasda həyata keçirən ilk ictimai təşkilatdır. Mədəni irsimizin qorunmasına, tarixi abidələrimizin bərpasına böyük önəm verən, beynəlxalq aləmdə milli, dini dəyərlərimizin təbliği sahəsində məqsədyönlü işlər görən, Azərbaycan mesenatlığının dirçəldilməsində layiqli nümunə göstərən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə ölkə ərazisində onlarla dini ibadət ocağında yenidənqurma və əsaslı təmir-bərpa işləri görülür, yeni məscidlər istifadəyə verilir. Eyni zamanda, Fondun dəstəyi ilə Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb, yəhudi uşaqları üçün təhsil kompleksi istifadəyə verilib.

30 illik işğal dövründə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması, təcavüzkarın ifşası istiqamətində müstəsna xidmətlər göstərən Fond 44 günlük Vətən müharibəsindən sonra azadlığına qovuşan Vətən torpaqlarında aparılan geniş quruculuq işində fəal iştirak edir. Fond qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlamışdır. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunmuşlar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilmişdir. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir [8].

### Vətən müharibəsi: milli və dini birliyin təntənəsi

Qətiyyətlə söyləmək olar ki, dövlətimizin bugünkü hərtərəfli inkişafının, atılmış uğurlu addımların arxasında məhz Ulu Öndərimizin adı ilə bağlı olan azərbaycançılıq ideologiyası dayanmaqdadır. Bu həqiqət Azərbaycan xalqının şanlı qələbəsi ilə başa çatmış 44 günlük müharibə ərzində də bir daha təsdiqini tapdı. Tarixi Zəfərimizin memarı, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında ordumuz otuz ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımızı düşməndən azad etdi. 44 günlük hərbi əməliyyatlarda Azərbaycanın Milli Ordusunun sıralarında ölkəmizdə yaşayan müxtəlif xalqların, dinlərin nümayəndələri Dəmir Yumruq ətrafında birləşərək Vətənin müdafiəsinə qalxdılar, ölkəmizin ərazi bütövlüyünün bərpası naminə canlarından keçməyə hazır olduqlarını misilsiz şücaətləri ilə sübuta yetirdilər. Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların bu prosesdə aktiv iştirakını da xüsusi qeyd etmək lazımdır. Onlar istər döyüş meydanında, istər ideoloji mübarizədə, istərsə də haqq səsimizin beynəlxalq səviyyədə eşidilməsində böyük xidmətlər göstərdilər. Bütün konfessiya rəhbərləri dəfələrlə milli birlik və dini həmrəylik göstərərək düşmənin ölkəmizə qarşı yönəlmiş təxribatlarına kəskin şəkildə etiraz etdilər, cəbhədə Vətən torpaqlarını işğaldan azad edən qəhrəman əsgərlərə humanitar yardımlar göndərdilər. İşğal faktına etiraz məqsədilə dini icmalar tərəfindən müxtəlif səpkili, xarici dillərdə sənədli filmlər, videoçarxlar, məlumat xarakterli materiallar hazırlanaraq yerli ictimaiyyətə və dünya ictimaiyyətinə, o cümlədən beynəlxalq siyasi dairələrə, təşkilatlara, dini mərkəzlərə təqdim edildi. Ermənilər təcavüzkar siyasətlərini və cinayətkar əməllərini gizlətmək üçün bu müharibəni müsəlman-xristian münaqişəsi

kimi təqdim etməyə çalışsalar da, dövlətimizin vaxtında gördüyü tədbirlər, atdığı lazımi addımlar nəticəsində düşmənin bu iyrənc siyasəti iflasa uğradıldı.

Heç kimə sirr deyil ki, Ermənistan hər zaman Azərbaycana qarşı hərbi təcavüz və işğal siyasətinin tərkib hissəsi kimi işğal olunmuş ərazilərimizdə maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi vandalizm siyasəti yürüdüb. XIX əsrə aid Ağdam məscidi kimi onlarla ibadət ocağımız dağıdılaraq talan edilməklə yanaşı, donuz və mal-qara saxlanılması üçün tövlə kimi istifadə edilib. Bu isə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən “Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunmasına dair” 1954-cü il Haaqa Konvensiyasının və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulması deməkdi. Hesablamalar nəticəsində müəyyən edilib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun işğaldan azad etdiyi torpaqlarımızda vaxtilə mövcud olmuş 67 məsciddən 63-ü dağıdılıb. Dağıdılmayanlardan biri – Şuşa şəhərindəki Yuxarı Gövhər Ağa məscidi məqsədyönlü şəkildə salamat saxlanılıb. Bu, Ermənistanın məkrli planı idi və bununla ermənilər İslam aləminə, bütün dünyaya göstərmək istəyirdilər ki, guya onlar məscidləri dağıtmırlar və Ermənistanın İslam dünyası, müsəlmanlar ilə problemi yoxdur. Ancaq hətta bu işi də çirkin şəkildə edirdilər – Yuxarı Gövhər Ağa məscidini başqa ölkəyə məxsus məscid kimi qələmə verirdilər. Ümumiyyətlə, araşdırmalar da göstərir ki, Ermənistanın işğaldan azad olunan ərazilərdə tarixi-dini abidələrimizlə bağlı siyasətində üç əsas məqam olub: tarixi-dini abidələri özününküləşdirmək, özgəninkiləşdirmək və dağıtmaq. Özgəninkiləşdirmək dedikdə Yuxarı Gövhər Ağa məscidi, özününküləşdirmək dedikdə isə Qafqaz Albaniyasının yadigarı olan alban məbədlərini qriqoryanlaşdırmaqları nəzərdə tutulur. Artıq dövlətimiz tərəfindən bu kimi saxtakarlıqların tarixi sübutlar və faktlar əsasında ifşa edilməsi prosesinə başlanılıb ki, bu da ədalətin tezliklə bərpa olunacağına – alban irsinə aid məbədlərin əsl sahiblərinə qaytarılacağına əminlik yaradır.

Artıq bütün dünya ölkələri bu faktla razılaşır ki, Azərbaycan 2020-ci ilin 8 noyabrında qazandığı şanlı qələbədən, Böyük Zəfərdən sonra nəinki Cənubi Qafqazda, bütövlükdə Avrasiya məkanında yeni reallıqlar yaratdı. Bu reallığa imza atan lider Prezident İlham Əliyev, yeni dövrün aparıcı qüvvəsi isə regionda söz sahibi kimi statusunu və mövqelərini qat-qat gücləndirən Azərbaycandır. O Azərbaycan ki, bütün uğurlarının əsasında məhz xalqla iqtidarın birliyi dayanır və bu qarşılıqlı inam sayəsində ölkəmiz bundan sonra da yeni zirvələr fəth edəcək, yeni qələbələrə imza atacaqdır.

**Ədəbiyyat:**


1. Dürkheim Emile. Dini hayatın ilkel biçimleri, Ataç Yayınları, 2005, s. 530
2. Anderson John. Religious Liberty in Transitional Societies: The Politics of Religion. Cambridge: Cambridge University Press, 232 p.
3. Azərbaycan Respublikasının Konstitusiyas / https://e-qanun.az/framework/897
4. Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı / https://e-qanun.az/framework/4392
5. Qurbanlı Mübariz. Azərbaycanda dövlət-din münasibətləri: Tarixi baxış və müasirlik, Tuna printing and publishing company. Bakı, 2017. – 220 s.
6. Qurbanlı Mübariz. Dövlət-din münasibətləri və Azərbaycan modeli // "Din araşdırmaları" jurnalı. – 2019. – №1(2). – s.179-193.
7. İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışında iştirak edib / https://president.az/az/articles/view/55767
8. https://azertag.az/xeber/Heyder_Aliyev_Merkezinde__quotIsgaldan_azad_edilmis_erazilerde_medeni_irs_abidelerinin_berpasi_uzre_layiheler_hedefler_chagirislar_xususiyyetler_perspektivler_quot_movzusunda_deyirmi_masa_kechirilib-1950402


***Açar sözlər:*** *din, dövlət, milli-mənəvi dəyərlər, tolerantlıq, multikulturalizm*

**Mubariz Gurbanli**
*Chairman of the State Committee for Work*
*with Religious Organizations of Azerbaijan,*
*Ph.D. in History, Associate Professor*

## STATE-RELIGION RELATIONS IN AZERBAIJAN


## ABSTRACT

The article discusses the role of religion in the life of society and the state-religion relations in Azerbaijan. It is noted that in any historical period, religion, which is an integral part of the system of moral values of any society, acts as a guarantor of peace when adequately understood by people. It calls people to friendship, unity, and brotherhood to rise together and move forward. However, some circles use religion for separatist purposes, trying to create inter-religious or inter-sectarian conflict. An example of this is the religious and political processes in the Middle East.

At the same time, the article says that caring for the representatives of different religions and denominations living in Azerbaijan and solving their problems is one of the essential directions of the government's policy on religion. The government takes consistent measures in this direction, preserves religious values and traditions of tolerance passed down from generation to generation, and monitors the religious situation. Today, Azerbaijan is recognized worldwide as a country with ideal state-religion and inter-religious relations indicators. The Azerbaijani state, which has made multicultural and tolerant values an integral part of its policy, has created the necessary conditions for all citizens to live their faiths, regardless of their religious beliefs.


***Keywords:*** *religion, state, national-moral values, tolerance, multiculturalism*

**Мубариз Гурбанлы**
*Председатель Государственного Комитета*
*по Работе с Религиозными Структурами Азербайджана,*
*доктор философии по истории, доцент*

## ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В статье рассматривается роль религии в жизни общества, а также государственно-религиозные отношения в Азербайджане. Отмечается, что в любой исторический период религия, являющаяся неотъемлемой частью системы нравственных ценностей любого общества, при правильном понимании людьми выступает гарантом мира. Она призывает людей к дружбе, единству, братству, вместе подниматься и идти вперед. Однако некоторые круги используют религию в сепаратистских целях, пытаясь создать межрелигиозный или межконфессиональный конфликт. Примером тому служат религиозно-политические процессы на Ближнем Востоке.

В то же время в статье говорится, что забота о представителях различных религий и конфессий, проживающих в Азербайджане, решение их проблем является одним из важных направлений государственной политики в религиозной сфере. Правительство постоянно принимает последовательные меры в этом направлении, сохраняет религиозные ценности, традиции толерантности, передающиеся из поколения в поколение, осуществляет мониторинг религиозной ситуации. Сегодня Азербайджан признан в мире страной с идеальными показателями государственно-религиозных, а также межконфессиональных отношений. Азербайджанское государство, сделавшее мультикультурные и толерантные ценности неотъемлемой частью своей политики, создало необходимые условия для того, чтобы все граждане жили своими верованиями, независимо от их религиозных убеждений.

***Ключевые слова:*** *религия, государство, национально-нравственные ценности, толерантность, мультикультурализм*

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**
**SUSTAINABLE DEVELOPMENT MANAGEMENT**

UOT 351

**VÜQAR KƏRİMOV**
**Azərbaycan Respublikası Ekologiya və təbii sərvətlər nazirinin müavini**

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ EKOLOJİ MÜHİTİN QİYMƏTLƏNDİRMƏSİ VƏ BƏRPASI İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN VƏ PLANLAŞDIRILAN TƏDBİRLƏR

Azərbaycanın təbiəti füsunkar gözəlliyə, zəngin biomüxtəlifliyə və təbii sərvətlərə malikdir. Bu sərvətlərin qorunması ölkənin gündəliyində duran prioritetlərdən biridir.

Ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə atılan addımlara baxmayaraq Ermənistan tərəfindən işğal dövründə təbiətə qarşı qeyri-humanist münasibət regionun ətraf mühitinə mühüm təhlükə yaratmışdır.

Müasir dövrdə ayrılıqda bir dövlət üçün ekoloji təhlükəsizlik sisteminin yaradılması qeyri-mümkündür. Yalnız birgə səylər sayəsində müvafiq hüquqi rejim yaratmaqla, bugünkü və gələcək nəsillərin sağlam yaşayışını və inkişafını təmin etmək olar. Odur ki, ətraf mühitin qorunmasında və təbii ehtiyatların mühafizəsində beynəlxalq ekologiya hüququ həlledici rol oynamalıdır.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın qiymətli meşə sahələrinin, flora və faunanın, o cümlədən təbiət abidələrinin məhv edilməsi, su resurslarının çirkləndirilməsi və təbii sərvətlərin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur.

Ermənistan beynəlxalq hüququn bütün prinsiplərini və ekoloji konvensiyaların müddəalarını kobud şəkildə pozmaqla 30 ilə yaxın bir müddət ərzində praktiki olaraq nəzarətsiz qalmış ərazilərdə ekoloji terror həyata keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz tərəfindən tarixi torpaqlarımızın işğaldan azad olunması bu ərazilərdə bərpa prosesinin başlanmasına zəmin yaratmışdır.



**Şəkil 1.** Bəsitçay Dövlət Təbiət Qoruğu ərazisində məhv edilmiş Şərq çinarı meşəsi



**Şəkil 2.** Məhv edilmiş təbiət abidələri
Ağdam şəhərinin mərkəzində məhv edilmiş və əsas gövdə hissəsi kəsilmiş Şərq çinarları (hər ikisinin diametri 90 sm, hündürlüyü 25 m, yaşı 200 il).

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi İnkişafa dair Milli Prioritetlər" sənədində işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühitin təmin olunması yaxın 10 illiyə əsas strateji istiqamətlər kimi göstərilmişdir.

Bu sənəddə tarixi torpaqlarımızda ətraf mühitin bərpası üçün ekoloji təmiz texnologiyaların tətbiqi, alternativ enerji mənbələrindən istifadə, yaşıllıq ərazilərinin artırılması və çirklənmiş ərazilərin bərpası məsələləri ön plana çəkilmişdir.

Bu ərazilərdə məskunlaşacaq əhalinin sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi istiqamətində hazırda digər sahələrlə yanaşı ekoloji mühitin bərpası üçün mərhələli şəkildə işlərə başlanılmışdır. Müasir texnologiyaların tətbiqi ilə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması regionun unikal təbiətinin qorunması, insanla ətraf mühit arasında tarazlığı təmin etməklə sağlam həyat tərzinin bərqərar edilməsinə səbəb olacaqdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən işğaldan azad olunmuş ərazilərdə qiymətləndirilmə və ekoloji tarazlığın bərpa olunması ilə bağlı tədbirlər görülür - meşələrin bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərində ekoloji mühitin yaxşılaşdırılması, təbii sərvətlərdən, su ehtiyatlarından səmərəli istifadə, müşahidə və monitorinq sistemlərinin bərpası və digər istiqamətlərdə işlər aparılır.

Meşə fonduna aid olmayan yaşıllıq sahələrinə, meşə fondu torpaqlarına, xüsusi mühafizə olunan təbiət ərazilərinə, təbiət abidələrinə (qədim ağaclar, xüsusi qiymətli meşə sahələri, geoloji-paleontoloji obyektlər), mineral-xammal yataqlarına, yerüstü və yeraltı su obyektlərinə baxış keçirilmişdir.

Monitorinqlər zamanı işğal dövründə meşə fonduna aid olmayan yaşıllıq sahələrində 846 min ədəd ağac və kolun, 54 328 ha meşə ilə örtülü sahənin, ümumi sahəsi 43 min hektar olan xüsusi mühafizə olunan təbiət ərazilərinin meşə ilə örtülü 6 800 hektarının, 131 təbiət abidəsi statuslu qədim ağacın məhv edildiyi, 32 hidrometeoroloji stansiya və məntəqənin tamamilə dağıdıldığı, 52 mineral-xammal yatağının qanunsuz şəkildə istismar edildiyi müəyyən olunmuşdur.

Bununla bağlı fotolar çəkilmiş, xəritələr, peyk təsvirləri və digər sübutedici materiallar toplanmışdır. Həmçinin, su mənbələrindən, torpaqdan və atmosfer havasından çoxsaylı nümunələr götürülərək təhlillər aparılmış, çirklənmə səviyyəsi müəyyənləşdirilmiş və mövcud ekoloji vəziyyət qiymətləndirilmişdır.

İşğal dövründə regionun təbii sərvətlərinə, ətraf mühitinə, biomüxtəlifliyinə ziyan vurul-



**Şəkil 3.** Zəngilan rayonunda məhv edilmiş meşə sahələri

ması, qiymətli meşələrimizin məhv edilməsi ilə bağlı 15-dən çox beynəlxalq təşkilata (UNEP, FAO, UNDP, UNECE və s.) və 30-dan çox ölkənin ətraf mühit, ekologiya və iqlim dəyişmələri sahəsində səlahiyyətli nazirliklərinə müraciət edilmişdir.

Bununla bərabər, Azərbaycan Respublikasının qoşulduğu çoxtərəfli ekoloji konvensiyaların katibliklərinə müraciət edilmiş, Ermənistanın qanunazidd fəaliyyətinin ölkəmizin konvensiyalar qarşısındakı öhdəliklərinin yerinə yetirilməsinə ciddi maneələr törətməsi diqqətə çatdırılmışdır.

Bununla yanaşı, işğaldan azad edilmiş və münaqişənin təsirinə məruz qalmış ərazilərdə ətraf mühitə dəymiş zərərin aradan qaldırılmasına beynəlxalq dəstəyin göstərilməsi üçün post-münaqişə zonalarında ekoloji zərərin bərpası üzrə təcrübəyə malik BMT-nin Ətraf Mühit Proqramının (UNEP) müvafiq missiyasının ölkəmizə səfəri çərçivəsində həmin ərazilərin yerində qiymətləndirilməsi və ehtiyaclara uyğun olaraq ekoloji bərpası prosesinə dəstək məqsədilə işğaldan azad edilmiş ərazilərə səfərləri təşkil edilmişdir.

Missiya tərəfindən həmin ərazilərin meşə ehtiyatları, su resursları, sənaye və kimyəvi çirklənməsi, tullantılar və onların idarəolunması, bioloji müxtəliflik və digər ekoloji bərpa ehtiyaclarının müəyyən edilməsi nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərdə mövcud ekoloji vəziyyətin öyrənilməsi, dəymiş ziyanın qiymətləndirilməsi və bununla bağlı hüquqi və



**Şəkil 4.** Faydalı qazıntıların qeyri-qanuni istismarı



**Şəkil 5.** Füzuli rayonu Qacar kəndində məhv edilmiş meşə sahələri

beynəlxalq müstəvidə aparılan işlərlə yanaşı, yüksək keyfiyyətli təmiz ekoloji mühitin bərpası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

İşğaldan azad edilmiş rayonlarda mövcud olmuş 167 faydalı qazıntı yatağının kadastr işləri icra edilmiş, işğal dövründə istismar edilmiş 52 yatağın təftişi və monitorinqi aparılmışdır. Kəlbəcər rayonunda 8 termal su yatağında çöl diaqnostik monitorinq və laboratoriya təhlilləri aparılmışdir.

Kəlbəcər rayonunda mövcud Tutğun qızıl təzahürü, Zərqulu, Qızılitən, Qərbi Qızılitən və Qazıxanlı sahələri üzrə geoloji və geofiziki işlər aparılır.

İşğaldan azad edilmiş rayonlarda bərpa-quruculuq işlərində, o cümlədən avtomobil və dəmir yollarının inşasında yerli tikinti və inşaat materiallarının istifadə edilməsi üçün bu ərazilərdəki yataq və təzahürlərin ehtiyatları yenidən qiymətləndirilmişdir. Sığnaq və Yemişcan mərmərləşmiş əhəngdaşı təzahürlərindəki xammaldan Şuşa şəhərində bərpa-quruculuq işlərində üzlük daş materialı kimi istifadəsi nəzərdə tutulur. Ümumiyyətlə regionda həyata keçirilən tikinti-quruculuq işlərində istifadə üçün 18 faydalı qazıntı yatağının hərraca çıxarılması istiqamətində işlər aparılır.

Növbəti mərhələdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aerokosmik şəkillərinin deşifrələnməsi, filiz və qeyri-filiz faydalı qazıntı yataqlarının axtarışı, təftişi və qiymətləndirilməsinin davam etdirilməsi, Şərqi Zəngəzur bölgəsində əlvan və nəcib metalların axtarışı və kəşfiyyatı, Qarabağ düzü yeraltı şirin su ehtiyatlarının qiymətləndirilməsi, Zəngilan rayonunun hidrogeoloji, geoekoloji qiymətləndirilməsi nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərdə 14 əsas çay (Araz çayı, Tərtərçay, Bərgüşadçay, Həkəriçay, Oxçuçay, Bəsitçay, Levçay, Zabuxçay, Tutqunçay, Torağayçay, Qarqarçay, Xaçınçay, Quruçay və Köndələnçay), 9 su anbarı (Sərsəng, Suqovuşan, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Xaçınçay, Ağdamkənd, Xudafərin və Qız Qalası), bir neçə böyük göl (Böyük Alagöl, Qaragöl və s.) və təbii mineral bulaqlar yerləşir.

Bununla yanaşı həmin ərazilərdə ehtiyatları təsdiq edilmiş və balansa qəbul edilmiş 26 su yatağı mövcuddur. Bunların 16-sı yeraltı şirin su, 7-si termal-mineral su, 3-ü mineral su yataqlarıdır.

Azərbaycan Respublikasının illik su təsərrüfatı balansına əsasən işğaldan azad edilmiş ərazilərdə formalaşan əsas çayların illik su




**Xəritə 1.** İşğaldan azad edilmiş ərazilərin hidroqrafik xəritəsi

ehtiyatı 2021-ci il üçün 1,93 milyard m3 proqnozlaşdırılmışdır.

Ərazinin su ehtiyatlarının dəyişmə tendensiyasının izlənilməsi, hidroloji proqnozların tərtib edilməsi, suyun kəmiyyət və keyfiyyət göstəricilərinin öyrənilməsi məqsədilə mütəmadi olaraq ölçmə işləri aparılmış, yeraltı suların kadastrına daxil edilmiş quyular haqqında fond məlumatları araşdırılmışdır.

Şuşa şəhərinin içməli su təchizatının təmin edilməsi məqsədilə monitorinq keçirilmiş, müvafiq məlumatlar və xəritə hazırlanmışdır. Şuşa şəhərinin mineral su ehtiyatlarının fond məlumatları əsasında təhlilləri, o cümlədən bulaq və quyuların monitorinqi aparılmış və perspektiv istifadə istiqamətləri müəyyənləşdirilmişdir.

Ağdam şəhərinin su təchizatı tədbirləri çərçivəsində müvafiq araşdırmalar aparılmış, rayon ərazisində qeydə alınmış artezian, subartezian və kəhriz komplekslərindən ibarət şəbəkəyə daxil olan 752 qaynağın əksəriyyətinin təftiş və monitorinqi başa çatdırılmış, yeraltı su ehtiyatları hesablanaraq Ağdam şəhərinin içməli su ilə təchizatının təmin edilməsi üçün təklif edilmişdir.

Füzuli rayonu üzrə əsasən Mil düzü hövzəsinə aid olan 68 quyunun, Kəlbəcər rayonu üzrə 7 termal-mineral su yatağı və 15 şirin su çıxışının monitorinq və təftiş işləri başa çatdırılmışdır. İşğal dövrü ərzində hidrorejimin vəziyyəti qiymətləndirilmişdir.

İşğaldan azad edilmiş ərazilərdən axan çaylarda ekoloji vəziyyətin öyrənilməsi və onların çirklənmə səviyyəsinin müəyyən edilməsi məqsədilə yerli və beynəlxalq laboratoriyalar tərəfindən monitorinqlər keçirilmiş, su və dib çöküntüsü nümunələri üzərində fiziki-kimyəvi analizlər aparılmışdır.

Aparılan analizlərin nəticələrinə əsasən Ermənistan ərazisindən daxil olan transsərhəd çaylar, xüsusilə Oxçuçayın ciddi çirklənməyə məruz qaldığı müəyyən edilmişdir. Oxçuçayın su və dib çöküntüsü nümunələrində ağır metalların (mis, molibden, manqan, dəmir, sink, xrom və s.) miqdarının normadan çox (bir sıra hallarda on dəfələrlə) olduğu qeydə alınmışdır.

Oxçuçayın çirklənməsinin əsas mənbəyi Ermənistan ərazisində yerləşən Qacaran mis-molibden zavodu və Qafan mis filizsaflaşdırma kombinatının toksiki tullantıları, eləcə də

Qafan və Qacaran şəhərlərində formalaşan məişət-çirkab və müxtəlif təyinatlı istehsalat obyektlərinin tullantı sularının təmizlənmədən birbaşa çaya axıdılmasıdır.

Oxçuçayın ekoloji böhranı və kritik vəziyyəti, o cümlədən Ermənistan tərəfindən davamlı çirkləndirilməsi baxımından çay və onun ekosistemi üçün gözlənilən ekoloji risklər barədə məlumatlandırma və çirklənmənin qarşısının alınması məqsədilə beynəlxalq təşkilatlara müraciətlər edilmişdir.

Oxçuçayın çirklənməsinin qarşısının alınması, bioloji ehtiyatlarının bərpası və suyun keyfiyyətinin yaxşılaşdırılması üçün elmi cəhətdən əsaslandırılmış tədbirlərin müəyyənləşdirilməsi və müvafiq tədbirlər planının hazırlanması məqsədilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatı ilə məsləhətləşmələr aparılmış və kompleks elmi tədqiqatın aparılması istiqamətində Ekologiya və Təbii Sərvətlər, Səhiyyə, Kənd Təsərrüfatı, İqtisadiyyat, Fövqəladə Hallar nazirlikləri, Dövlət Qida Təhlükəsizliyi Agentliyi, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" və "Azərsu" açıq səhmdar cəmiyyətləri ilə birlikdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi məqsədilə yeni su anbarlarının layihələndirilməsi nəzərdə tutulur.

Məhv edilmiş meşə ehtiyatlarının bərpası məqsədilə Zəngilan, Qubadlı, Füzuli, Ağdam, Cəbrayıl, Şuşa, Kəlbəcər, Laçın, Xocavənd (Hadrut qəsəbəsi) rayonlarının ərazisində ümumilikdə 54 hektara yaxın sahədə 38 min ədəd çinar, sərv, şam, xurma, göyrüş, dağdağan, qarağac, meliya və akasiya cinsli ağac tingi əkilmiş və 3000 kq palıd və şərq çinarı toxumu səpilmişdir.

Eyni zamanda Ağdam rayonu ərazisində salınmış 13 hektar yeni yaşıllıq sahəsinin suvarılması üçün damcılı suvarma sistemi qurulmuş və hazırda Zəngilan şəhərinin girişində salınan 55 hektar yeni yaşıllıq sahəsində damcılı suvarma şəbəkəsinin qurulması işləri aparılır.

Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin dəstəyi ilə Cəbrayıl şəhərinin yaxınlığında "Qapalı Kök Sistemli Tinglik Sahəsi"nin, "Beynəlxalq Meşəçilik Mərkəzi"nin yaradılması, həmçinin "Dostluq meşəsi"nin salınması nəzərdə tutulur. Tinglik sahəsinin yaradılması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında meşəbərpa tədbirlərinə böyük təkan verəcəkdir.

İşğal dövründə itirilmiş meşə ilə örtülü əraziləri bərpa etmək və müəyyən edilmiş strateji hədəflərə çatmaq üçün yerli meşəbitmə şəraitinə uyğun ağac və kol cinslərindən istifadə edilməklə Şərqi Zəngəzur və Qarabağ iqtisadi regionunda "2022-2026-cı illər üzrə Meşə Fondunun Bərpası Proqramı"na uyğun olaraq 2022-ci ildə 1435,3 ha, 2023-cü ildə 3849,7 ha, 2024-cü ildə 5859,05 ha, 2025-ci ildə 7260,85 ha, 2026-cı ildə 10920,1 ha sahədə meşəbərpa tədbirləri nəzərdə tutulur.



**Şəkil 6.** Oxçuçayın çirkləndirilməsi



**Şəkil 7.** Yaşıllaşdırma tədbirləri

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə "Qarabağ Dirçəliş Fondu" arasında işğaldan azad olunmuş ərazilərdə ətraf mühitə vurulmuş ziyanın aradan qaldırılması və bərpa işlərinin görülməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Əsas məqsəd işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə regionda dayanıqlı məskunlaşmaya və inkişafa töhfə vermək, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri təşviq etməkdir. Bölgədəki ekosistemlərin və infrastrukturun, hidrometeoroloji müşahidə sistemlərinin bərpası, yaşıllıqların salınması, meşəbərpa tədbirləri, su mənbələrinin qiymətləndirilməsi, su bioresurslarının bərpası kimi layihələrin icrası nəzərdə tutulur.

Memorandumdan irəli gələrək "Zəfərdən Dirçəlişə" adlı layihə çərçivəsində Zəngilan şəhərinin girişində 30 hektar ərazidə 30 min ağacın əkilməsi nəzərdə tutulur. Aksiyanın ilkin mərhələsində indiyədək ərazinin torpaq-iqlim şəraitinə uyğun 17 000-dən çox müxtəlif cinsli ağac tingi əkilmişdir.

Həmçinin, "Əhmədbəyli-Füzuli-Şuşa" avtomobil yolunun (Zəfər yolu) və digər avtomobil yollarının mühafizə zolaqlarında yaşıllıqların salınması nəzərdə tutulur.



**Şəkil 8.** Yaşıllaşdırma tədbirləri

İşğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin qorunub saxlanılması məqsədilə xüsusi mühafizə olunan ərazilərin fəaliyyətinin bərpası işləri davam etdirilir.

"Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası istiqamətində Qoruğun sərhədlərinin müəyyənləşdirilməsi, inventarizasiyası və zəruri infrastrukturun yaradılması üzrə işlərə başlanılmışdır. Hazırda Qoruq üçün inzibati binanın tikintisinin layihə-smeta sənədlərinin hazırlanmasına başlanılıb, eləcə də "Qoruğun sanitar-mühafizə zonasının xəritəsi"nin təsdiq edilməsi yekunlaşmaq üzrədir.

İşğaldan azad olunmuş ərazilərdə xüsusi mühafizə olunan təbiət əraziləri ilə bağlı növbəti mərhələdə Qaragöl Dövlət Təbiət Qoruğunun və Arazboyu, Daşaltı, Qubadlı və Laçın Dövlət Təbiət Yasaqlıqlarının fəaliyyətinin bərpası, bioloji müxtəlifliyinin, ekoloji vəziyyətinin qiymətləndirilməsi və ekosistemin bərpası həyata keçiriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur bölgəsində fauna və floranın yenidən tədqiqi nəzərdə tutulmuşdur. Tədqiqatların nəticələrinə əsasən regionda fauna və flora növləri beynəlxalq kateqoriyalara uyğun qiymətləndirilərək Azərbaycan Respublikasının Qırmızı kitabının 3-cü nəşrinə daxil ediləcəkdir.

IDEA İctimai Birliyinin təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə əməkdaşlığı çərçivəsində işğaldan azad olunmuş xüsusi mühafizə olunan təbiət ərazilərində bərpa tədbirlərinə dəstək verilir.

Təbii su obyektlərində ekoloji vəziyyətinin yaxşılaşdırılması və bərpası məqsədi ilə Zəngilan rayonu ərazisindən keçən Bəsitçaya 1500 ədəd qızılbalıq, 500 ədəd qızılxallı, Qubadlı rayonu ərazisindən keçən Həkəriçay və Bərgüşadçaya 3000 ədəd qızılxallı, Füzuli rayonu ərazisindəki Köndələnçay su anbarına isə 1000 ədəd çəki və 500 ədəd ağ amur balıq körpələri buraxılmışdır.

İşğaldan azad edilmiş ərazilərdə yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay (Araz, Bəsitçay, Oxçuçay, Həkəriçay, Bərguşadçay, Zabuxçay, Levçay, Tərtərçay, Xaçınçay, Qarqarçay) üzərində 11 hidroloji avtomat stansiyanın quraşdırılması işlərinə başlanılmışdır. Həmçinin, Zəngilan rayonunda inşa edilən "Ağıllı kənd" ərazisində avtomat aqrometeoroloji stansiya quraşdırılmışdır.

Bundan əlavə 2022-ci ildə Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonları ərazisində 5 meteoroloji stansiyanın quraşdırılması, Kəlbəcər, Zəngilan, Laçın və Füzuli rayonlarında radioelekoloji müşahidələrin aparılması üçün cihaz və avadanlıqların alınması, Füzuli şəhərində atmosferin yuxarı qatlarında atmosfer proseslərinin şaquli dinamikasının müəyyənləşdirilməsi məqsədilə aeroloji stansiyanın quraşdırılması, Xocavənd rayonu ərazisində Quruçay və Köndələnçay çayları üzərində 2 hidroloji avtomat stansiyanın quraşdırılması, 2023-cü ildə Şuşa şəhərində radar müşahidələrinin bərpası və 4 rayon üzrə avtomat meteoroloji stansiyanın quraşdırılması, 2024-cü ildə 2 rayon üzrə atmosfer havasının keyfiyyəti üzərində müşahidələrin aparılması məqsədilə cihaz və avadanlıqların və 2025-ci ildə 3 çay üzərində avtomat hidroloji stansiyanın quraşdırılması nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərdə baş planların hazırlanması məqsədilə Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı şəhərlərində, bu rayonların kəndlərində və Xocavənd rayonunun Hadrut qəsəbəsində uçuş aparatı vasitəsilə 213 $km^2$ ərazinin fotoçəkilişləri çəkilmiş, ortofotoplanlar və rəqəmsal topoqrafik planlar hazırlanmışdır.

Ayrı-ayrı rayonlar və ümumi formada meşə fondu, xüsusi mühafizə olunan təbiət əraziləri, faydalı qazıntı yataqları, hidrologiya üzrə xəritələr hazırlanmışdır. Qarabağın elektron CİS xəritəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin səlahiyyət çərçivəsinə aid olan müvafiq sahələr üzrə məlumatlar daima yenilənir.

İşğaldan azad olunmuş ərazilərin sərhədləri, relyefi, daxili və transsərhəd çayları, sututarları, işğaladək fəaliyyət göstərmiş hidrometeoroloji stansiyalar, bərpası nəzərdə tutulan məntəqələr və avtomat hidroloji stansiyalar, rayon mərkəzləri, yaşayış məntəqələri və yollar göstərilməklə elektron su xəritəsinin ilkin versiyası kameral şəraitdə hazırlanmışdır.

Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə müxtəlif miqyaslı rə-

qəmsal topoqrafik planları və xəritələri, elektron tematik xəritələr, “Qarabağın təbii ehtiyatlar atlası” hazırlanır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli Sərəncamı ilə yaradılmış “İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi sahəsində Komissiya” çərçivəsində işğaldan azad edilmiş ərazilərdə tullantıların idarə olunmasının təşkili ilə bağlı əlaqələndirilmiş şəkildə tədbirlər görülür.

İşğaldan azad edilmiş ərazilərdə yaranan tullantılarının yerləşdirilməsi məqsədilə poliqon əraziləri müəyyən edilmişdir. 1-ci mərhələdə Zəngilan, Xocalı (Şuşa şəhəri üçün), Füzuli, Ağdam, Tərtər, 2-ci mərhələdə isə Qubadlı və Cəbrayıl rayonlarında 7 poliqon ərazisinin inşası planlaşdırılır.

Şuşa şəhərində bərk məişət tullantılarının idarə olunmasında şəhərin turistik görünüşü və ekoloji təhlükəsizliyi nəzərə alınmaqla müasir və ağıllı sistemin qurulması nəzərdə tutulur.

Bununla yanaşı işğaldan azad edilmiş ərazilərdə tullantıların idarə edilməsi sisteminin müasir standartlara uyğun qurulması və bu tədbirlərin “Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair Milli Strategiya”ya inteqrasiya edilməsi məqsədilə tədbirlərin icrasına başlanılmışdır.

Bu ərazilərdə yaranan tikinti və söküntü tullantılarının çeşidlənməsi və tikintiyə yararlı olan çeşidlənmiş tullantıların emalının təşkil edilməsi ilə bağlı aidiyyəti qurumlar tərəfindən tədbirlər görülür.

İşğaldan azad edilmiş ərazilərdə törədilmiş ekoloji terrorla bağlı ölkə və dünya ictimaiyyətinin məlumatlandırılması üçün aparıcı kütləvi informasiya vasitələrinin və xarici media nümayəndələrinin mütəmadi olaraq ərazilərə səfərləri təşkil edilmişdir. Belə səfərlər zamanı zəruri məlumatların verilməsi, yerində baxışların keçirilməsi ilə yanaşı, media nümayəndələrinin iştirakı ilə bu ərazilərdə yeni yaşıllıq sahələrinin salınması, su hövzələrinə balıq körpələrinin buraxılması tədbirləri də həyata keçirilmişdir.

İDEA İctimai Birliyi, Azərbaycan Gənclər Fondunun təşkilatçılığı və ETSN-in dəstəyi ilə həyata keçirilmiş "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsi çərçivəsində 70-ə yaxın gəncin Ağdam, Şuşa, Xocavənd, Füzuli, Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarına səfəri təşkil edilmiş və layihə iştirakçıları Nazirliyin mütəxəssisləri ilə birlikdə işğal dövründə törədilmiş ekoloji cinayətlərin qiymətləndirilməsində iştirak etmişdir.

ETSN və ADA Universitetinin birgə təşkilatçılığı ilə “Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında ətraf mühitin və təbii sərvətlərin vəziyyəti” mövzusunda brifinq keçirilmişdir. Azərbaycandakı diplomatik korpusun 70-dən çox nümayəndəsinin iştirak etdiyi brifinqdə Ermənistan tərəfindən ətraf mühitə vurulmuş zərər və hazırda ekosistemin bərpası istiqamətində aparılan işlər barədə iştirakçılar məlumatlandırılmışdır.

Azərbaycan Respublikasında aparılan ardıcıl islahatlar da dövlət orqanlarının fəaliyyətində səmərənin və çevikliyin artırılmasına, "rəqabət" prinsipinin tətbiqinə, dövlət orqanları arasında rəqabətin yaradılmasına, dövlət qulluğunun müsbət imicinin artırılmasına, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, dövlət qulluğunun xalqa qulluq mənasını ifadə etməsinə, məsuliyyətli, kreativ, dövlətinə və xalqına sadiq dövlət qulluqçularının hazırlanmasına xidmət edir.

Azərbaycan dövlətçiliyinin davamlı inkişafına, şəffaf, demokratik və peşəkar dövlət qulluğunun formalaşdırılmasına yönəlmiş modernləşmə xətti əlavə təhsilin roluna və məzmununa yeni çalarlar qazandırmış və onu kadr siyasətinin potensialın artırılmasına yönələn strateji və dinamik icra mexanizminə çevirmişdir. Bu mexanizmin strateji hədəfləri, metod və prinsipləri, məzmun və keyfiyyət meyarları dövlət qulluğunun inkişaf istiqamətlərinə uyğun şəkildə müntəzəm olaraq təkmilləşmişdir.

**Ədəbiyyat:**


1. Məhərrəmova A., (Qafqaz Maarif Birliyi, redaktor), 18.12.2020.
2. Change Managemen by Jim Downey and Technical Information Service, May 2008
3. Change Management In Publıc Sector, Wan Narita Mustapha, Noor Hamimah Hamidun, Noryanne Amer, Rugayah Hashim
4. Change Management, 2010, Prof. DR. Olaf Passenheim
5. Communications of the Association for Information Systems, Introducing e-Gov: History, Definitions, and Issues, January 2004.
6. Digital Public Administration Factsheets – European Union
7. European Journal of Sustainable Development (2021), 10, 4, 33-40
8. Əliquliyev R.M., Yusifov F.F., Elektron dövlətin formalaşmasının bəzi aktual elmi-nəzəri problemləri və həll perspektivləri // İnformasiya cəmiyyəti problemləri. – 2014. – №2, . – s.3-13 AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan.
9. Global Encyclopedia of Public Administration, Public Policy, and Governance (pp.1-9)
10. https://schoolofpoliticalscience.com/new-public-management/
11. https://www.prosci.com/change-managemen
12. Hüseynova N., İdarəetmədə müasir islahatların əsas istiqamətləri: şəffaflıq, asan xidmət, vətəndaş məmnunluğu // Azərbaycan. – 2014. – 21 fevral. – № 38. – s.6.
13. Akyos M., Kamuda İnovasyon, Mart 2007
14. Likar B, Fatur P, Mrgole U., Korona plus d.o.o. - Institute for Innovation and Technology, 1st edition, 2013.
15. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. – Bakı: Elm. – 2009. – 416s.
16. Leading organizational change in a complex public environment, Accepted for publication in Journal of Organizational Change Management, Dr. Joris van der Voet Institute of Public Governance and Management, ESADE Business School
17. The Encyclopedia of Human Resource Management: Short Entries (pp.103-106)
18. Tek Turan H ., Yaratıcı bürokrasi festivali: Kamu yönetimi eğitiminde inovasyonun önemi, Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi XLVI, 2019/1, 289-311
19. Atmaca Y,Geylani D., "Kamu Sektöründe İnovasyon Yönetimi: Zorluklar ve Çözüm Önerileri" Uluslararası Akademik Birikim Dergisi Yıl: 2020
20. Həbibova Z, Abdullayeva M. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi. – Bakı. – 2018. – 232s.
21. "Bakutel–2016" XXII beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransının iştirakçılarına İlham Əliyevin müraciəti [29.11.2016] // https://president.az/az/articles/view/21867
22. https://azertag.az/


***Açar sözlər:*** *dövlət idarəçiliyi, dəyişikliklər, innovasiya, yenilik, rəqəmsallaşma, müasir texnologiyalar*

**Murtuza Hasanov**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Department of Civil Service and Personnel Policy*
*Ph.D. in Political Sciences, Associate Professor*

# INNOVATIONS IN PUBLIC ADMINISTRATION

## ABSTRACT

Public administration is an academic discipline with various research interests that analyzes the process of public policy implementation, as well as explores this application and training of civil servants to work in the civil service, the primary purpose of which is to improve governance.

However, work is being done to increase the efficiency of public administration and to improve public services using new technologies and innovative methods. Today the issue of the application of innovations in public administration and their management is acute. The reforms and work implemented in managing changes and innovations have positively impacted and formed a system of public administration that meets modern world standards. The e-government portal, digitalization, and new technologies form a system of interaction of executive authorities with citizens, civil society, and business structures via the Internet.

The diversity of public administration functions also determines the diversity of implementation methods. Public administration methods reflect the government's influence on the development vectors of public and state affairs. They show how the state influences people's behavior and how it governs them.

***Keywords:*** *public administration, change, innovation, digitalization, modern technologies*

**Муртуза Гасанов**
*Доцент кафедры «Государственная служба и кадровая политика» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

## ИННОВАЦИИ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

### РЕЗЮМЕ

Государственное управление представляет собой академическую дисциплину с различными исследовательскими интересами, которая занимается анализом процесса реализации государственной политики, а также подготовкой государственных служащих, основной целью является совершенствование управления. Наряду с этим ведется работа по повышению эффективности государственного управления, совершенствованию государственных услуг с использованием новых технологий и инновационных методов. Вопрос применения инноваций в государственном управлении и управлении ими актуален на сегодняшний день. Проведенные реформы и работа в области управления изменениями и инновациями оказали положительное влияние и сформировали систему государственного управления, отвечающую современным мировым стандартам. Портал электронного правительства, цифровизация и новые технологии составляют систему взаимодействия органов исполнительной власти через интернет с гражданами, гражданским обществом и бизнес-структурами .

Разнообразие функций государственного управления обуславливает разнообразие методов их реализации. Методы государственного управления отражают влияние правительства на векторы развития общественных и государственных дел. Они показывают какими средствами государство влияет на поведение людей и как ими управляет.

***Ключевые слова:*** *государственное управление, изменения, инновации, новшества, цифровизация, современные технологии*

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 32

**XATİRƏ ƏFƏNDİYEVA**
**Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail:xatira-bdu@yandex.ru*

**MƏFTUNƏ ABDULLAYEVA**
**Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: ms.meftune@mail.ru*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN STRATEGİYASINDA MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ DAXİLİ SABİTLİYİN YARADILMASINDA ƏSAS FAKTOR KİMİ

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistematik strategiyanın fonunda milli təhlükəsizliyə real və potensial təhdid yaradan ünsürlərin neytrallaşdırılması, münasibətləri sürüşkən müstəvidə cərəyan edən qüvvələrarası antaqonist əlaqələrə son qoyularaq ümumi konsensusun əldə edilməsi, parlament və hökumət böhranı şəklində təzahür edən və mürəkkəb siyasi-hüquqi kataklizmlərlə müşayiət edilən daxili siyasi böhranın aradan qaldırılması və ümumilikdə ictimai-siyasi sabitliyin təmin edilməsi artıq qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu vəzifəsinin fonunda növbəti strateji istiqamətlərin müəyyən edilməsini diktə edirdi. Bu istiqamətlər sırasına siyasi sistemin təməl atributları və struktur elementlərinin dirçəldilməsi və təkmilləşdirilməsi, ictimai-siyasi institutlaşma prosesinin sürətləndirilməsi, inzibati səciyyə daşıyan struktur islahatlarının həyata keçirilməsi, legitimləşdirmə tendensiyasının sürətləndirilməsi fonunda siyasi plüralizmin təmin edilməsi və bütün bunların əsasında demokratik transformasiyanın milli dəyərlərə və maraqlara müvafiq surətdə baş tutması kimi fundamental strateji vəzifələr aid idi. Zəngin dövlətçilik təcrübəsinə, rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan ümummilli lider Heydər Əliyev tətbiq etdiyi strategiya sayəsində mərhələli şəkildə bütün bu vəzifələrə nail ola bildi (21, səh. 4).

İlk növbədə inzibati səciyyəli struktur islahatları həyata keçirildi. Öncə icra hakimiyyəti strukturlarının və bütövlükdə dövlət sektorunun işinin səmərəliliyinin artırılması, onların fəaliyyətinin cəmiyyətin tələbatlarına və sosial qrupların maraqlarına uyğunlaşdırılması üçün ictimai inzibatçılıq sisteminin dəyişdirilməsi prinsipləri, vasitələri və mexanizmləri müəyyənləşdirildi və bu, islahatların davamlı xarakter almasında özünəməxsus rol oynadı.

Hakimiyyət strukturları arasında koordinasiya və əməkdaşlığın simmetrik surətdə təmin edilməsi, vəzifə və səlahiyyət bölgüsünün dəqiq həyata keçirilməsi struktur islahatlarında ilk həyata keçirilənlər oldu. İnzibati islahatların səmərəlilik səviyyəsinin artırılması və əhatə dairəsinin genişləndirilməsi üçün qanunvericilik bazasının zənginləşdirilməsi lazım idi ki, bunun üçünsə Ana Qanun önəmi kəsb edən yeni konstitusiyanın qəbul edilməsi lazım idi. Yeni Konstitusiya dövrün tələbləri, reallıqları və qanunauyğunluqlarına görə

mükəmməl və təkmil siyasi-hüquqi sənəd idi. Konstitusiyanın hazırlanmasında dünya dövlətlərinin konstitusiya təcrübəsindən geniş istifadə edilməsi ilə yanaşı, Respublikamızın tarixi ənənələri, spesifik özəllikləri və xalqımızın mentaliteti də nəzərə alınmışdı. Ana Qanunda bütün demokratik prosedurlar və prinsiplər öz əksini tapmış, eləcə də insan və vətəndaş hüquq və azadlıqları geniş surətdə təsbit edilmişdi (konstitusiyanın 48 maddəsi, yəni üçdə biri insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdi). Hakimiyyət bölgüsünün (qanunverici, icraedici və məhkəmə hakimiyyəti) təsbit edilməsi isə hakimiyyətin effektivliyinin artırılmasına xüsusi şərait və zəmin yaradan hüquqi substrat idi.

12 noyabr 1995-ci il tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası formasına görə kodifikasiya olunmuş, müddətinə görə isə daimi (eyni zamanda dəyişikliklərə açıq) xarakterli idi.

Ümumxalq səsverməsi-referendum əsasında ölkə konstitusiyasının qəbul edilməsindən sonra qarşıda duran ictimai-siyasi institutlaşma vəzifəsinin fonunda parlament seçkilərinin keçirilməsi istiqamətində strateji addımlar atıldı. Bundan sonra 12 noyabr 1995-ci il tarixində Milli Məclisə seçkilər keçirildi. Seçkilər qarışıq seçki sistemi əsasında baş tutdu. Belə ki, 25 nəfər proporsional, 100 nəfər isə majoritar seçki sistemi əsasında parlamentdə təmsilçilik hüququ qazandı. Proporsional seçki sistemi əsasında deputat mandatı uğrunda 8 siyasi partiyadan 200 namizəd mübarizə aparsa da, Milli Məclisdə 3 partiyanın nümayəndələri təmsilçilik hüququ qazandı. Proporsional seçki sistemi əsasında hakim Yeni Azərbaycan Partiyasından (YAP) 19, Azərbaycan Xalq Cəbhəsi Partiyasından (AXCP) və Azərbaycan Milli İstiqlal Partiyasından 3 nəfər Milli Məclisdə deputat mandatı qazandılar (22, səh. 144).

Beləliklə, yeni Konstitusiyanın qəbul edilməsi və parlament seçkilərinin keçirilməsi həyata keçirilən demokratik transformasiyanın fonunda ölkədə siyasi plüralizmin, siyasi inteqrasiyanın təmin və bərqərar olunması, genişmiqyaslı islahatların reallaşdırılması və digər bu kimi strateji vəzifələrin nail olunmasına əlverişli zəmin və şərait yaratdı. Belə ki, qəbul edilmiş yeni konstitusiyanın fonunda hakimiyyət bölgüsü təmin edildi, siyasi partiyalar başda olmaqla subyektlərin fəaliyyətinə hüquqi zəmində əlverişli şərait yarandı və təsisatlar arasında rəqabətə əsaslanan simmetrik və rasional münasibətlər sistemi formalaşdı. Bütün bunların fonunda isə həyata keçirilən islahatların davamlılığını təmin etmək mümkün oldu. Belə ki, həyata keçirilən islahatların fonunda ölkədə sosial tərəqqini, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini təmin etməyə qadir olan səmərəli idarəçilik sisteminin formalaşdırılması istiqamətində xüsusi strateji uğurlar əldə edildi. Qısa zaman kəsiyində dövlət tənzimləməsinin metodlarında ciddi, kardinal reformativ dəyişikliklər edildi, plüralizm şəraitində rəqabət mühiti təmin edildi, icra hakimiyyəti orqanları və bütövlükdə dövlət sektorunun işinin səmərəliliyi artırıldı, dövlət idarəçiliyinin qanunvericilik və normativ-hüquqi bazası inkişaf etdirildi, dövlət hakimiyyəti orqanları üzərində nəzarət, onların işinin dəyərləndirilməsi metodları sistemi təkmilləşdirildi.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran fundamental strateji vəzifələrdən biri də modern cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin əsasının qoyulması idi. Bunun üçünsə ilk növbədə ictimai-siyasi müstəvidə sabitlik təmin edilməli, əlaqələri sürüşkən müstəvidə cərəyan edən subyektlərarası antaqonist meyillər aradan qaldırılmalı, ictimai-siyasi təsisatlanmanın operativ və effektiv surətdə həyata keçirilməsini şərtləndirən struktur elementləri və real zəmin bərqərar olunmalı və sistematik strategiyanın fonunda mərhələli surətdə demokratik tranzit həyata keçirilməli idi. Bütün bunları reallaşdırmaq üçünsə ilk növbədə rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan LİDER SİYASƏTÇİ lazım idi (35, səh. 14).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə

gəlməsindən sonra həyata keçirilən sistematik və kompleks tədbirlər sayəsində ictimai-siyasi sabitlik təmin edildi və demokratik tranzit prosesinin həyata keçirilməsinə əlverişli zəmin yaradıldı. Demokratik tranzit prosesinin fonunda ilk növbədə Konstitusiyanın qəbul edilməsi milli inkişaf strategiyasının hüquqi substratlarının bərqərar olunmasını şərtləndirdi və bundan sonra mərhələli surətdə demokratik transformasiya prosesi həyata keçirilməyə başlandı.

Həmin ərəfədə ümummilli lider Heydər Əliyev demokratik tranzitlə bağlı ölkənin qarşısında duran strateji vəzifələri məhz bu cür səciyyələndirirdi: "Biz Azərbaycanda demokratik respublika quraraq sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik-hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq".

Azərbaycanda demokratik transformasiyanın səmərəliliyini və tamlığını təmin edən digər təməl faktor bu prosesin radikal surətdə yox, təkamül yolu ilə baş tutması oldu. Bununla bağlı Azərbaycan xalqının ümummilli lideri, Ulu öndər Heydər Əliyev deyirdi: "Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə inqilabi yolla yox, təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir" (6, səh. 39).

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu demokratik tranzit prosesi təkmil struktur elementləri ilə özündə bir neçə xüsusi və fundamental səciyyəvi xüsusiyyətləri cəmləşdirdi. Belə ki, tranzit prosesinin başlanğıcında və onun müxtəlif mərhələlərində vətəndaşlara geniş hüquq və azadlıqlar verildi, mövcud məhdudiyyətlər aradan qaldırıldı və formalaşmış siyasi plüralizm rəqabətə əsaslanan münasibətlər və proseslərin konstruktivliyini təmin etdi. Köhnə təsisatların yeniləri ilə əvəz olunması, idarəetmədə kardinal reformativ dəyişikliklərin baş verməsi, loyallığın və legitimliyin təmin edilməsi istər-istəməz cəmiyyətdə bəhs edilən innovasiyalara münasibətdə təfəkkür dəyişikliklərinin baş tutmasını zəruri etdi.

Beləliklə, 1993-cü ildən başlayaraq milli inkişaf strategiyasının təməl prinsip və müddəaları əsasında həyata keçirilən sistematik strateji kurs sayəsində demokratik tranzitin effektivliyi və tamlığı bərqərar olundu. Məhz bunun qanunauyğun nəticəsi kimi, demokratik transformasiyanın milli modelinin-Azərbaycan modelinin əsası qoyulmuş oldu.

Ulu öndər Heydər Əliyevin sistematik surətdə başlatdığı demokratik transformasiya prosesi Prezident İlham Əliyev tərəfindən dövrün və şəraitin çağırışlarına, qanunauyğunluqlarına adekvat surətdə davam etdirildi. Prezident İlham Əliyev bəhs edilən strateji vəzifələri məhz bu cür dəyərləndirirdi: "Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmlənməsi, hüquqi dövlətin formalaşması heç də şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur" (12, səh. 11).

Bütün bunların fonunda bir daha belə bir nəticəyə gəlmək olur ki, Ulu öndər Heydər Əliyevin milli mental xüsusiyyətlərə və dəyərlərə müvafiq surətdə başlatdığı demokratik transformasiyanın milli modelinin Prezident İlham Əliyev tərəfindən dövrün reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə yeni keyfiyyətdə davam etdirilməsi siyasi sistemin təməl struktur elementlərinin təkmilləşməsinə təkan verməklə yanaşı, hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunmasını da şərtləndirmiş oldu. Nəticə etibarilə, milli demokratiya modelinin fonunda siyasi və iqtisadi islahatların paralel

surətdə effektiv və operativ şəkildə aparılması milli inkişafın fundamental determinantı qismində çıxış etmiş oldu.

Qeyd etdiyimiz kimi, müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran təməl strateji vəzifələrdən biri və birincisi qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin əsasının qoyulması və onun davamlılığının təmin edilməsi idi. Bunun üçünsə siyasi, iqtisadi, hüquqi və digər sahələrdə sabitləşdirici mexanizmlər yaradılmalı və bunun ardınca bəhs edilən istiqamətlərdə fundamental struktur islahatları həyata keçirilməli idi. Amma müstəqilliyin ilk iki ilində (1991-1993-cü illər) ölkəyə rəhbərlik edən səriştəsiz qüvvələrin antimilli mövqe əsasında yaratdıqları xaos və kataklizmlər nəinki bəhs edilən vəzifələrin həyata keçirilməsini mümkün etmədi, hətta Azərbaycanı mürəkkəb siyasi-iqtisadi problemlərin fonunda öz müstəqilliyini itirmək təhlükəsi qarşısında qoydu.

Ancaq ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra bəhs edilən vəzifələrin yerinə yetirilməsi mümkün oldu. Belə ki, ilk növbədə ictimai-siyasi sabitlik təmin edildi, təsisatlar və strukturların fəaliyyətinə normal şərait yaradıldı, bunun ardınca bütün sahələrdə təməl struktur islahatlarının həyata keçirilməsi tendensiyasının əsası qoyuldu. Bununla da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsasını qoymaq üçün real əlverişli şərait yarandı.

Beləliklə, 1995-ci ilin 12 noyabr tarixində Konstitusiyanın qəbul edilməsi ilə ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması istiqamətində təməl strateji tədbirlər görülməyə başlandı. Bəhs edilən strateji səciyyəli vəzifənin yerinə yetirilməsi üçün konstitusion-hüquqi substratların yaradılması bu sahədə ardıcıl və mütəmadi islahatların həyata keçirilməsini mümkün etməklə yanaşı, qanunların aliliyinin, hüquqi norma və qaydaların üstünlüyünün təsbit olunduğu, mütəmadi siyasi-hüquqi islahatların reallaşdırıldığı, subyektlərin fəaliyyətinə legitim və leqal surətdə rəqabətə əsaslanan plüralist mühitin yaradıldığı, ictimai-siyasi təsisatlanmanın hüquqi substratlarının formalaşdırıldığı siyasi sistemin bərqərar olunması işinə fundamental töhfələr bəxş etdi. Məhz bundan sonra hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması istiqamətində həyata keçirilən ardıcıl və sistematik tədbirlər bəhs edilən sahədə əhəmiyyətli nailiyyətlərin əldə olunmasını şərtləndirdi (1, səh. 18).

Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində müəyyən olunmuş tədbirlərin əsaslı və məqsədyönlü şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq edilməsini, məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyunun Azərbaycanda İnsan hüquqları günü elan edilməsini və bundan sonra da bu sahədə əhəmiyyətli strateji tədbirlərin görülməsini, 24 avqust 2002-ci il və 18 mart 2009-cu il tarixlərində keçirilmiş ümumxalq səsverməsi-referendumlar nəticəsində insan və vətəndaş hüquq və azadlıqları istiqamətində qanunvericilik bazasının zənginləşdirilməsini və digərlərini aid etmək olar.

24 avqust 2002-ci il tarixində qəbul olunmuş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Konstitusiya Qanunu tənzim etdiyi məsələlərin əhatə dairəsinə görə olduqca mühüm əhəmiyyət kəsb edir. Bu Qanun Azərbaycanda insan hüquq və azadlıqlarının həyata keçirilməsini “İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında” Konstitusiyaya uyğunlaşdırmaq məqsədi daşıyır (4, səh.22).

Konstitusiya Qanunu hər kəsin onun hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiyasına şikayət vermək hüququnu və məhkəmələrin insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağl Konstitusiyanın və qanunların şərh edilməsi haqqında Konsti-

tusiya Məhkəməsinə müraciət edə bilmək hüquqlarını təsbit etmiş və bununla da qeyd olunan Konvensiyanın tələblərinə uyğun surətdə tərtib olunmaqla insanların hüquq və azadlıqlarının qorunması, məhkəmənin nüfuzunun və ədalət mühakiməsinin qərəzsizliyinin təmin edilməsi üçün real hüquqi baza yaratmışdır (1, səh. 17).

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərman bəhs edilən məsələlər baxımından xüsusi əhəmiyyət kəsb edir. Həmin Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolunu seçmişdir.

Ulu öndərin həmin Fərmanında 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində Azərbaycanda insan hüquqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmış hallara və faktlara siyasi qiymət verilib. Burada insan hüquqlarının, qadınların, uşaqların, milli azlıqların müdafiəsinə dair dövlət proqramlarının layihələrinin işlənib hazırlanması, qaçqınların və məcburi köçkünlərin, əlillərin müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqlarının daha səmərəli təmin edilməsi, insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli Müvəkkili təsisatının, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər qurumların yaradılması, hüquqi islahatların həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, insan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları üzrə elmi-tədqiqat institutunun yaradılması və digər məsələlərə dair təkliflərin hazırlanması və lazımi tədbirlərin görülməsi müvafiq dövlət strukturlarına tapşırılmışdır.

Demokratiya yolunda qəti və ardıcıl addımlarla irəliləyən Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində müəyyən olunmuş tədbirlərin əsaslı və məqsədyönlü şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir (6, səh. 72).

Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində görülən fundamental tədbirlərdən biri də ölüm cəzasının ləğvi olmuşdur. Qeyd etmək lazımdır ki, ölüm hökmü Azərbaycanın cinayət məcəlləsində hər zaman olmuşdur və statistikaya görə, 1988-1993-cü illər ərzində 32 şəxs haqqında icra olunmuşdur. Onlardan 8 nəfər haqqında hökm 1993-cü ildə Prezident fərmanları əsasında icra edilmişdir. Amma 1993-cü ilin iyun ayından isə ölkə rəhbərliyinə qayıtmış ümummilli lider Heydər Əliyevin humanist siyasətinin təzahürü kimi Azərbaycanda ölüm hökmünün icrasına faktiki moratorium qoyulmuş, bu müstəsna cəza növü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv edilmişdir. Bu addım Azərbaycan dövlətinin humanist və demokratik mahiyyətini, ölkədə insan hüquqlarının təmin və mühafizə edilməsinə verilən önəmi bir daha sübut etmişdir (33, səh. 148).

Bundan başqa, Ulu öndər Heydər Əliyevin insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi ilə bağlı həyata keçirdiyi humanist siyasət Prezident İlham Əliyevin dövründə xüsusi diqqət və qayğı göstərilən prioritet istiqamət olmuşdur. "Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk" – deyən Prezident İlham Əliyevin birbaşa tövsiyə və göstərişləri əsasında görülən sistematik işlər insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusi əhəmiyyət kəsb etmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk... Əlbəttə, çox vacibdir ki, bu sahədə həm beynəlxalq təşkilatlar tərəfindən, eyni zamanda, bu sahə ilə bilavasitə məşğul olan

qurumlar tərəfindən vahid meyarlar tətbiq olunsun. Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda həm siyasi, həm iqtisadi, həm də sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik" (12, səh. 56).

Məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyun Azərbaycanda İnsan hüquqları günü elan edilib. Sərəncamda Ulu öndər Heydər Əliyevin 1998-ci il iyunun 18-də Azərbaycanda ilk «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı»nı təsdiq etdiyi xatırladılır və bildirilir ki, Heydər Əliyev insan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Məhz bunun əsasında 18 iyun tarixi Azərbaycanda insan hüquqları günü elan olunub. Sərəncama görə, hər il iyunun 18-i Azərbaycanda İnsan hüquqları günü kimi qeyd olunmalıdır (12, səh. 25).

Beləliklə, yuxarıda istinad edilən məsələ və məqamları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi istiqamətində 1993-cü ildən-ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra sistematik və ardıcıl tədbirlər görülməyə başlanmışdır. Və bu gün bütün sahə və istiqamətlərdə insan və vətəndaş hüquq və azadlıqları ən yüksək səviyyədə təmin və müdafiə edilməkdədir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran başlıca vəzifə və problemlərdən biri də yeni münasibətlər sisteminə müvafiq surətdə milli elitanın formalaşdırılması və bu istiqamətdə milli münasibətlər zəminində təkamül xarakterli yeni keyfiyyət dəyişikliklərinə nail olmaq idi. Milli elitanın formalaşdırılması üçün bir sıra strateji səciyyəli zəruri tədbirlər görmək lazım idi ki, bütün bunların fonunda gərəkli şərait və resurslar təmin edilsin:

İlk növbədə müstəqillik əldə etmiş dövlətə milli münasibətlər sistemini rasional surətdə tənzimləyəcək, ictimai-siyasi ahəngdarlıq və tərəqqini təmin edəcək və ümummilli inkişaf strategiyasını müəyyən və tətbiq edə biləcək güclü siyasi hakimiyyət lazım idi. Hakimiyyətin effektivliyi milli tərəqqiyə mane olan mövcud problemlərin həll edilməsi və milli inkişaf strategiyasının müəyyən və icra olunmasını mümkün edəcəkdi. Amma qeyd etdiyimiz kimi, müstəqilliyin ilk iki ilində ölkəyə səriştəsiz və irrasional şəxslərin rəhbərlik etməsi nəinki milli inkişaf strategiyasının müəyyən və icra edilməsini mümkün etmədi, eləcə də həmin subyektlərin disfunksionallığı yeni müstəqillik əldə etmiş ölkə üçün çox ciddi təhdid və risklər yaratmış oldu. Məhz bu cür kəskin situasiyanın fonunda milli elitanın formalaşdırılması mümkün olmadı və institusional aktorların bərqərar oluna bilməməsi ölkə miqyasında kataklizmlərin dərinləşməsini şərtləndirdi. Yalnız 1993-cü ildən-Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra bəhs edilən vəzifələrin yerinə yetirilməsi üçün əlverişli şərait yaradıldı və bu istiqamətdə milli resurslardan səmərəli surətdə istifadə edildi. Nəticə etibarilə, bütün bunlar milli elitanın da formalaşmasını təmin etdi və elita transformasiyasının əsası mövcud dəyərlərə, qanunauyğunluqlara və tələblərə müvafiq surətdə qoyuldu (7, səh. 348).

Qısacası, milli elitanın formalaşdırılması və mütəmadi yenilənməsi üçün zəruri şərtlərdən biri olan hakimiyyətin effektivliyi prinsipi məhz 1993-cü ildən sonra-Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyası sayəsində mümkün oldu;

İkincisi, milli elitanın formalaşdırılması, transformasiyası və yenilənməsi üçün xüsusi əhəmiyyət kəsb edən faktorlardan biri də milli dəyərlərin və maraqların nəzərə alınması ilə həyata keçiriləcək hüquqi və ictimai-siyasi təsisatlanmadır. Hüquqi təsisatlanma dedikdə subyektlərin fəaliyyət mexanizmini tənzimləyəcək qanunlar və qaydaları sisteminin məcmusundan ibarət bazanın formalaşdırılması (buraya konstitusiyanın və ona müvafiq surətdə sahəvi və funksional səciyyəli normativ-hüquqi aktların qəbul olunması və onlara

nəzarət edilməsi aiddir) və onun işləkliyinin təmin edilməsi nəzərdə tutulur. Hüquqi təsisatlanmanın təmin edilməsi nəticə etibarilə ictimai-siyasi institutlaşmanı mümkün edir ki, bu da institusional aktorların bərqərar olunmasını və funksionallığını şərtləndirən strateji səciyyəli fundamental faktorlardan biridir. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, hüquqi və ictimai-siyasi təsisatlanma vəzifəsinə sistematik surətdə Konstitusiyanın qəbul olunmasından sonra (12 noyabr 1995) nail olundu. Ana Qanunun qəbul olunması və ona müvafiq surətdə bütün sahələri əhatə edən qanunvericilik bazasının zənginləşdirilməsi institusional aktorların funksionallığı və fəaliyyət mexanizminə əlverişli zəmin yaratdı. Bu isə siyasi sistemin struktur elementlərini təkmilləşdirməklə yanaşı, milli elitanın transformasiyasını da mümkün etdi;

Milli elitanın formalaşdırılması üçün sosiomədəni transformasiyaya start verilməsi, buna müvafiq və paralel surətdə struktur islahatlarının həyata keçirilməsi və institusional bazisin formalaşdırılması vəzifələrinin də həyata keçirilməsi strateji səciyyəli fundamental vəzifələr sırasında idi. Sosiomədəni transformasiyaya nail olmaq cəmiyyətdə yetkin stratifikasiyalaşma vəzifəsinin təmin olunmasını mümkün edəcəkdi ki, bu da nəticə etibarilə təkmil sosial-siyasi sistemin bərqərar olunmasını şərtləndirirdi. 1993-cü ildən başlamaq etibarilə Ulu öndər Heydər Əliyevin rasional və praqmatik strateji tədbirləri sayəsində ictimai-siyasi sabitlik təmin edildikdən, bölücü meyillər və mərkəzdənqaçma tendensiyaları neytrallaşdırıldıqdan sonra sosiomədəni transformasiya prosesinin əsası qoyuldu və bütün sahələri əhatə edən partikulyar və universal struktur islahatları həyata keçirildi (17, səh. 132).

Beləliklə, ölkəmizdə milli elitanın formalaşması, transformasiyası və yenilənməsi ümummilli lider Heydər Əliyevin milli inkişaf strategiyasının fonunda həyata keçirdiyi kompleks strateji tədbirlərin fonunda mümkün oldu. Ulu öndər Heydər Əliyevin sabitləşdirici mexanizmlərdən məharətlə istifadə edərək "mərkəzdənqaçma" meyillərini neytrallaşdırması və siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və digər sahələri əhatə edən milli inkişaf strategiyasını həyata keçirməsi elita transformasiyasının milli maraqlara və dəyərlərə müvafiq surətdə başlanmasını şərtləndirdi. Kadr siyasətində tədricən dəyişikliklər edildi və ümummilli inkişafa fundamental töhfələr bəxş edəcək cəmiyyətdaxili dinamik subyektlərlə xüsusi iş həyata keçirildi. Bu istiqamətdə həyata keçirilən gənclər siyasəti xüsusi əhəmiyyət kəsb etdi. Gənclərə dövlət səviyyəsində yüksək diqqət və qayğının göstərilməsi, onların ölkə həyatının bütün sahələrində iştirakına əlverişli şəraitin yaradılması, müxtəlif sahələr üzrə xarici ölkələrdə təhsil almalarının təmin edilməsi kimi strateji önəm kəsb edən tədbirlər elitanın transformasiyası və yenilənməsi işinə əhəmiyyətli töhfələr verdi. Bu, sosial stratifikasiyalaşma prosesində yeni-daha dinamik intellektual təbəqənin formalaşmasını təmin etməklə yanaşı, cəmiyyətin inkişafının yeni ideya əsaslarının və konseptual substratlarının formalaşmasına və ictimai şüurun yenilənməsinə də da yardımçı oldu. Bunlarla yanaşı, ictimai-siyasi və hüquqi təsisatlanma milli aktorların funksionallığına və fəaliyyət mexanizminə əlverişli şərait yaratdı və institusional subyektlərin ictimai-siyasi palitrada normal təmsilçiliyi elita təsisatının transformasiyasına bilavasitə müsbət təsir etdi. Nəticə etibarilə, bütün bunlar milli elitanın formalaşması və transformasiyasını təmin etməklə yanaşı, modern cəmiyyət quruculuğu da sürətləndirmiş oldu (34, səh. 96).

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Adiloğlu. – 2007.
2. Abdullazadə F. Heydər Əliyev siyasi portret. – Bakı. – 1998.
3. Abbasov N. Milli Təhlükəsizlik orqanlarının 80 illik təntənəli yığıncağında məruzə // Sərhəd. – 1999. – 17 aprel.
4. Azərbaycan Respublikasının qanunvericilik toplusu. 1999.
5. Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı Dövlət Universitetinin nəşriyyatı. – 2001.
6. Əliyev Heydər. Müstəqil Azərbaycan hüquqi dövlət quruculuğu, demokratiya və bazar iqtisadiyyatı yolu ilə inamla irəliləyir. – Bakı. – 2002.
7. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. – III cild. – Bakı. – 1998.
8. Əliyev Heydər. Azərbaycan bütün azərbaycanlıların vətənidir. – Bakı. – 2000.
9. Əliyev H. Qafqaz Müsəlmanlarının qurultayında nitq. 30 sentyabr 1998. Müstəqilliyimiz əbədidir. – Bakı. – 17 c. – səh.391-408.
10. Əliyev H. Bakıda akkreditə olunmuş diplomatik korpusun üzvlərinin səfirlərinin beynəlxalq təşkilatlarının nümayəndəliklərinin toplantısında çıxışı. (20 oktyabr 1998). Müstəqilliyimiz əbədidir. 18 c. – s. 83-90
11. Əliyev H. Münaqişə tezliklə həll olunmalıdır. Respublika Prezidenti ATƏT-in Minsk Qrupunun həmsədrlərini qəbul etmişdir // Azərbaycan. – 1997. – 7 noyabr.
12. Əliyev İ. İqtibaslar və təhlillər. – Bakı. – 2008. – səh.328.
13. Əsrin müqaviləsi. – Bakı. – 1996.
14. Əfəndiyev M. Siyasi elm. – Bakı. – 2017. Siyasət: – s.811.
15. Hans J. Morgentau. Politics Among Nations: The Struggle for Powerand Peace. Fifth edition. New-York, 2003, p.34
16. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siaysəti. – Bakı: Azərbaycan. – 2005. – s.752.
17. Həsənov Ə. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. – Bakı: Azərbaycan. – 2005. – səh.590.
18. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Heydər Əliyev və müasir Azərbaycan. – Bakı: 2003.
19. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. – Bakı: 2005.
20. Hikmət Babaoğlu. Heydər Əliyevin hakimiyyətə gəlməsi ümumxalq tələbinə çevirilmişdi // Yeni Azərbaycan. – №29 (203). – 1997. – 16 aprel.
21. Hikmət Babaoğlu. Ulu öndər Heydər Əliyevin adı təkcə Azərbaycan etnosiyasi cografiyası ilə məhdudlaşmır // Yeni Azərbaycan. – №095(3029). – 2009. – 23 may.
22. Hikmət Babaoğlu. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. – Bakı. – 2010.
23. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. – Bakı: Çinarçap. – 2010. – s. 568.
24. İbadov N. Müqayisəli politologiya. – Bakı: AzTU. – 2010. – s.221.
25. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu. – Bakı. – 2004.
26. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. – II cild. – Bakı: Azərbaycan. – 2008. – s.440.
27. Mehdiyev R. Azərbaycan qloballaşma dövrünün tələbləri. – Bakı: XXI əsr yeni nəşrlər evi. – 2005. – s.494
28. Mehdiyev R. Gələcəyin strategiyası // Dirçəliş-XXI əsr. – Bakı. – 2008. – №118-119. – s.9-33.

29. Nəcəfov Z. Azərbaycanın Milli Təhlükəsizlik problemləri: nəzər məsələlər// Beynəlxalq həyat. – №4. – 1998. – s.14
30. Xəlilov X. Heydər Əliyev-75. – Bakı. – 1998.
31. Orucov Hidayət. Heydər Əliyev və Azərbaycanda milli siyasət. – Bakı. – 2001.
32. Ramiz Mehdiyev. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. – Bakı: "Azərbaycan" qəzeti, 2006 ("Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi III kitab).
33. Ramiz Mehdiyev. Demokratiya yolunda: irs haqqında düşünərkən. – Bakı: Şərq-Qərb. – 2008.
34. Ramiz Mehdiyev. Milli məfkurə, milli dövlətçilik, müstəqillik yolu ilə. II hissə. – Bakı: XXI-Yeni Nəşrlər Evi. – 2007.
35. Ramiz Mehdiyev. Yeni siyasət: inkişafa doğru. – Bakı: 2006 ("Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi IV kitabı).
36. Ramiz Mehdiyev. Azərbaycan-2003-2008: Zaman haqqında düşünərkən. – Bakı: Şərq-Qərb. – 2009.
37. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU. – 2005. – s.544

***Açar sözlər:*** *ümummilli lider, konstitusion status, siyasi strategiya, daxili sabitlik, milli təhlükəsizlik, demokratizm, hüquq və azadlıqlar*

**Khatira Efendiyeva**
*Baku State University*
*Department of Political Science and Sociology*
*Ph.D. in Political Science, Associate Professor*

**Maftuna Abdullayeva**
*Baku State University*
*Department of Political Science and Sociology*
*Ph.D. in Political Science, Lecturer*

## THE MAIN FACTOR IN CREATING STABILITY WITHIN THE NATIONAL SECURITY POLICY IN THE STRATEGY OF NATIONAL LEADER HEYDAR ALIYEV

### ABSTRACT

The paper demonstrates that the national model of democratic transformation initiated by the great leader Heydar Aliyev in accordance with the national mental characteristics and values is continued by President Ilham Aliyev in a new quality in accordance with the realities and legal regulations of the time, encouraging the improvement of the basic structural elements of the political system. In addition, it conditioned the establishment of the legal state and the necessary components of civil society. As a result, the effective and efficient implementation of political and economic reforms against the background of the national democracy model acted as a fundamental determinant of national development.

***Keywords:*** *national leader, constitutional status, political strategy, internal stability, national security, democracy, rights and freedoms*

**Хатира Эфендиева**
*Доцент кафедры Политологии и социологии*
*Бакинского Государственного Университета,*
*доктор философии по политическим наукам*

**Мафтуна Абдуллаева**
*Преподаватель кафедры Политологии и социологии*
*Бакинского Государственного Университета,*
*доктор философии по политическим наукам*

# ПОЛИТИКА НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ КАК ОСНОВНОЙ ФАКТОР СОЗДАНИЯ ВНУТРЕННЕЙ СТАБИЛЬНОСТИ В СТРАТЕГИИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

## РЕЗЮМЕ

Продолжение Президентом Азербайджанской Республики Ильхамом Алиевым на новом качественном уровне национальной модели демократической трансформации, инициированной Общенациональным лидером Гейдаром Алиевым в соответствии с особенностями национального менталитета и национальными ценностями в соответствии с реалиями и закономерностями нынешнего времени, стимулирует совершенствование основных структурных элементов. В то же время оно обусловило установление абсолютных компонентов правопорядка и гражданского общества. В результате на фоне модели национальной демократии параллельное эффективное и действенное осуществление политических и экономических реформ стало основополагающим фактором национального развития.

***Ключевые слова:*** *общенациональный лидер, конституционный статус, политическая стратегия, внутренняя стабильность, национальная безопасность, демократия, права и свободы*

# T Ə H S İ L
# E D U C A T I O N

UOT 001.89

**ASİMAN İLYASOV**
**Təhsildə Keyfiyyət Təminatı Agentliyi Təlim və metodologiya şöbəsinin müdiri, Azərbaycan Texnologiya Universitetinin doktorantı**
*e-mail: Asiman.ilyasov@tkta.edu.az*

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏLƏBƏQƏBUL PROQNOZLAŞDIRILMASINDA ƏMƏK BAZARINDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏRİ NƏZƏRƏ ALMASI VƏZİYYƏTİ

### Giriş

Qloballaşma ölkələr arasındakı əlaqələri genişləndirir və bunun nəticəsi olaraq təhsil sistemlərinin və müəssisələrinin fəaliyyətinin keyfiyyət və effektivliyinin müqayisəsinə maraq artır. Bundan əlavə, regional və qlobal dəyər zəncirində ölkələr arasında rəqabətin artması yüksəkixtisaslı işçi qüvvəsinə tələbat yaradır və qlobal innovasiya iqtisadiyyatı şəraitində belə işçi qüvvəsi olan ölkələr üstünlüyə malik olurlar [3, s.52].

Məşğulluq təhsil siyasətinin müəyyən edilməsinə güclü təsir göstərir və təhsilə, eləcə də peşə biliklərinə qoyulan sərmayə kifayət qədər istifadə edilmədikdə işsizlik yaranır. İşsizlik nisbətlərinin yüksək olmasının ən mühüm səbəblərindən biri əmək bazarında tələb olunan bacarıqların işçi qüvvəsinin ixtisasları ilə uyğun gəlməməsidir. Belə ki, bir ölkədə təhsil alan əhalinin öz ixtisaslarına uyğun olaraq çalışması xoşagələn və digər şərtlər sabitkən (ceterius paribus) bu hal umulan və planlanan haldır. Lakin, bu gün ölkəmizdə işlə təmin olunanların əksəriyyəti təhsil aldıqları təhsil istiqamətinə (ixtisas və (və ya) ixtisaslaşmalarına) uyğun olaraq əmək bazarında fəaliyyət göstərmirlər. Belə olan halda əsas problemlərdən bəlkə də ən mühümü təhsillə məşğulluq arasında lazımi əlaqənin sağlam şəkildə qurulmamasıdır.

Bir sıra ölkələrdə qlobal iqtisadi qeyri-müəyyənliyin təsiri nəticəsində biznesə etimad zəifləmiş, iş yerlərinin sayı azalmışdır. İşsizlik səviyyəsinin yüksək olmasına baxmayaraq, istedadlı işçi qüvvəsinin çatışmazlığı təhsil sistemi ilə əmək bazarının tələbləri arasındakı uyğunsuzluğun nəticəsi kimi qiymətləndirilir. Xüsusən də, cari qlobal mühitdə gənclər arasında işsizlik səviyyəsinin yuxarı olması iqtisadi inkişafı ləngidən və sosial sabitliyi pozan mühüm problemlərdən biridir [3, s.4].

Getdikcə artan ixtisaslı kadr çatışmazlığı problemini həll etmək, tələbələrin və işəgötürənlərin ehtiyaclarını təmin etmək məqsədilə təhsilə maraq daha da artmaqdadır. İxtisaslı kadr çatışmazlığının getdikcə artması, əsasən, təhsil və əmək bazarı arasında kəmiyyət, keyfiyyət və gözləntilər baxımından uyğunsuzluqlarla əlaqədardır. Kəmiyyət baxımından uyğunsuzluqlar müxtəlif ixtisas dərəcələri (ilk, orta və ya ali ixtisas) və sahələr (tibb, texnologiya və s.) üzrə əmək bazarında bəzən tələb olunandan çox, bəzən isə tələb olunandan az sayda kadrların hazırlanması nəticəsində yaranır. Keyfiyyət uyğunsuzluqları məzunların işəgötürənlərin iş səriştələri və işə hazırlıq səviyyəsi ilə bağlı tələblərinə uyğun olmaması nəticəsində baş verir. Həmçinin ixtisasın təmin etdiyi gələcək imkanlar və karyera uğurunu təmin edəcək digər vasitələrlə bağlı yanlış ilkin təsəvvürlər təhsil və əmək bazarı arasında gözləntilər baxımından uyğunsuzluğa səbəb olur [3, s.5].

Əmək bazarında ixtisaslı işçi çatışmazlığı və ixtisassız işçi artıqlığı problemləri eyni

vaxtda yaşanmaqda davam edir. Təhsil-məşğulluq münasibətlərinin qurulması baxımından təhsil müəssisələri tərəfindən verilən təhsilin səmərəliliyi və keyfiyyəti çox vacibdir. Buna nail olmaq üçün əmək bazarı ilə təhsil müəssisələri arasında harmoniya və məqsəd birliyinə nail olunmalıdır. Tələb olunan ixtisaslara malik işçi qüvvəsinə uyğun olaraq təlim proqramları yaradılmalı və işçi qüvvəsi lazımi bilik/peşəkar bilik, bacarıq və bacarıqlarla təmin edilməlidir [1, s.25].

İxtisaslı işçi qüvvəsi texnoloji tərəqqinin yaratdığı sosial və fərdi uyğunsuzluq problemlərini azalda bilər. Bu vəziyyətdən ölkə iqtisadiyyatı dolayısı ilə müsbət təsir göstərir. Bununla belə, ixtisassız işçi qüvvəsi işsizlik problemlərinə səbəb olur. Bu baxımdan, ixtisaslı işçi qüvvəsi təhsil baxımından işsizliyin azaldılmasında ilk addımdır [7, s.39].

## Metodologiya

Elmi tədqiqat zamanı mövcud vəziyyətin təhlili keyfiyyət tədqiqatı metodu əsasında aparılmışdır. Tədqiqat sualı olaraq ali təhsil müəssisələrinin əmək bazarında baş verən dinamik dəyişiklikləri nəzərə almasının mövcud vəziyyətinə dair cavab axtarılmışdır. Azərbaycan Dövlət Statistika Komitəsinin təqdim etdiyi əmək bazarının göstəricilərinə və təhsil sahəsinə dair statistik nəticələr birinci mənbə olaraq qəbul edilmiş və müəyyən meyarlar əsasında tədqiqatçı tərəfindən təhlil edilmişdir. Eləcə də, bu Təhsil Nazirliyindən sorğu əsasında əldə edilmiş statistik nəticələr də təhlil zamanı tədqiqat sualına cavab tapmaq üçün istifadə edilmişdir.

## Ali təhsil müəssisələrinin və təhsilalanların sayının müstəqillik dövründən sonra dəyişmə dinamikası

Azərbaycan Respublikasının Təhsil Nazirinin 513 nömrəli 25 iyun 1999-cu il tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində yeni ixtisasların açılması və lisenziyaya əlavə olunması" qaydalarına əsasən ali təhsil müəssisələrində yeni ixtisasların açılması ali təhsil müəssisəsinin rəhbərinin təqdimatı əsasında Elm və Təhsil Nazirliyinin əmri ilə həyata keçirilir. Eyni zamanda, ali təhsil müəssisəsində tədris olunan mövcud ixtisaslar üzrə bakalavr və magistr təhsil səviyyələri üzrə proqnozlaşdırılan tələbə qəbul planı müəssisənin rəhbəri tərəfindən tərtib olunaraq Elm və Təhsil Nazirliyinə müvafiq qaydada təqdim olunur. Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq qaydada Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrindən toplanmış proqnozlaşdırılan tələbə qəbul planları Azərbaycan Respublikası Nazirlər Kabinetinə müvafiq qaydada təqdim olunur və müvafiq orqan tərəfindən təsdiqləndikdən sonra tələbə qəbulunun aparılması üçün müvafiq məsələyə dair səlahiyyətli orqan sayılan Dövlət İmtahan Mərkəzinə göstəriş verilir.

Ali təhsil müəssisələrinin maliyyələşməsinin əhəmiyyətli hissəsinin təhsilalanların təhsil haqqlarından formalaşdığını nəzərə alaraq deyə bilərik ki, ali təhsil müəssisələri maliyyə dayanıqlılığı üçün daha çox tələbə cəlb etməyə maraqlıdırlar. Bu tendensiyanı statistik nəticələrdə görmək mümkündür.

Azərbaycan Dövlət Statistika Komitəsinin 2021-ci ildə elan etdiyi statistikaya əsasən yuxarıda qeyd olunan illər aralığında ali təhsil müəssisələrinə qəbul olmuş təhsilalan tələbələrin təhsil səviyyələri üzrə statistikasına müqayisəli olaraq baxdığımız zaman toplam olaraq artım dinamikasını, əsasən də bakalavr təhsil səviyyəsi üzrə təhsilalanların sayında artımı müşahidə edirik.

Ali təhsil pilləsi üzrə Dövlət standartının müvafiq müddəalarına əsasən ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin qanunvericiliyə uyğun olaraq bakalavr ali təhsil səviyyəsi üzrə normativ təhsil müddəti təhsilalma formasından asılı olaraq ortalama 4-5 il, magistr təhsil səviyyəsi üzrə isə 2-2.5 il olaraq qəbul olunur. Bunu nəzərə alaraq, ali təhsil müəssisələrinə bakalavr təhsil səviyyəsi üzrə qəbul olan tələbələrin normativ təhsil müddətində məzunolma faizinə nəzər salsaq görərik ki, 2005/2006-ci tədris ilində ali təhsil müəssisələ-

**Qrafik 1.** Ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı




Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

**Qrafik 2.** Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı (təhsil səviyyələri üzrə)




Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

rinə bakalavr təhsil səviyyəsi üzrə qəbul olan tələbələrin 2010/2011-ci ildə 98.6%-i, 2010/2011-ci ildə qəbul olan tələbələrin isə 2015-ci ildə 96.99%-i, 2015/2016-cı ildə qəbul olan tələbələrin 2020-ci ildə 93.75%-i məzun olaraq diplom əldə etmişdir. 2019/2020-ci tədris ilində qəbul magistr təhsil səviyyəsi üzrə qəbul olmuş tələbələrin 2020/2021-ci tədris ilində 87.1% məzun olmuşdur.

**Qrafik 3.** Ali təhsil müəssisələrini bitirən mütəxəssislərin ümumi sayından təhsilin səviyyəsi üzrə diplom alanlar (bakalavr, magistr)




Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

Yuxarıdakı statistik nəticələrə baxdığımız zaman aydın olur ki, ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin çox əhəmiyyətli hissəsi normativ təhsil müddətində məzun olaraq diplom əldə edir. Normativ təhsil müddətində məzun ola bilməyən tələbələr sırasında sosial məzuniyyət, hərbi xidmətə yollanan, akademik məzuniyyət götürən və müəyyən çətinliklərlə bağlı öz istəyi ilə təhsilini müvəqqəti müddət təxirə salan tələblərin də olduğunu nəzərə alsaq, akademik göstəricilərinə görə məzun ola bilməyən tələbələrin sayının çox az olduğu görsənəcəkdir.

Ali təhsil müəssisələrinin sayı təhsilalan sayına və əmək bazarında məşğulluq məsələsinə təsir edən əsas faktorlardan biridir. Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin sayını bir sıra MDB məkanı ölkələri ilə müqayisə etdiyimiz zaman son 21 il ərzində Belarusda (12%), Qazaxıstanda (26%), Moldovada (49%), Rusiyada (23%), Ermənistanda (34%) ali təhsil müəssisələrinin sayında azalma dinamikası müşahidə edilir. Türkmənistanda ali təhsil müəssisələrinin sayının illər ərzində sabit qalmasına baxmayaraq, Azərbaycanda (21%), Qırğızıstanda (27%), Ukraynada (63%), Özbəkistanda (108%) və Tacikistanda (37%) ali təhsil müəssisələrinin sayında artım dinamikası görülür.

Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsilalan sayının bir sıra MDB məkanı ölkələri ilə müqayisə etdiyimiz zaman son 21 il ərzində Azərbaycanda (66%), Ermənistanda (31%), Qırğızıstanda (13%), Qazaxıstanda (31%), Özbəkistanda (211%), Tacikistanda (215%) təhsilalan sayında əhəmiyyətli dərəcədə artım müşahidə edilir. Lakin, Belarusiyada (7%), Moldovada (25%), Rusiyada (15%), Ukraynada (19%) təhsilalan sayında azalma dinamikası müşahidə edilir.

**Cədvəl 1.** MBD məkanı ölkələrində ali təhsil müəssisələrinin sayının dəyişmə dinamikası

| İllər | Azərbaycan | Belarus | Qazaxıstan | Qırğızıstan | Moldova | Ukrayna | Rusiya | Özbəkistan | Tacikistan | Türkmənistan |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2000/2001** | 43 | 57 | 170 | 45 | 47 | 315 | 965 | 61 | 30 | 16 |
| **2005/2006** | 42 | 55 | 181 | 51 | 35 | 345 | 1068 | 62 | 36 | 16 |
| **2007/2008** | 42 | 56 | 167 | 49 | 31 | 351 | 1108 | 62 | 33 | 16 |
| **2009/2010** | 53 | 53 | 148 | 54 | 33 | 350 | 1114 | 63 | 36 | 16 |
| **2010/2011** | 51 | 55 | 149 | 56 | 33 | 349 | 1115 | 63 | 33 | 16 |
| **2011/2012** | 51 | 55 | 146 | 53 | 34 | 345 | 1080 | 63 | 33 | 16 |
| **2012/2013** | 52 | 54 | 139 | 54 | 34 | 334 | 1046 | 64 | 33 | 16 |
| **2013/2014** | 52 | 54 | 128 | 55 | 32 | 325 | 969 | 66 | 33 | 16 |
| **2014/2015** | 53 | 54 | 126 | 53 | 31 | 277 | 950 | 68 | 37 | 16 |
| **2015/2016** | 54 | 53 | 127 | 52 | 31 | 288 | 896 | 68 | 38 | 16 |
| **2016/2017** | 51 | 51 | 125 | 50 | 30 | 287 | 818 | 68 | 39 | 16 |
| **2017/2018** | 51 | 51 | 122 | 51 | 29 | 289 | 766 | 70 | 39 | 16 |
| **2018/2019** | 52 | 51 | 124 | 51 | 29 | 282 | 741 | 98 | 39 | 16 |
| **2018/2019** | 52 | 51 | 124 | 51 | 29 | 282 | 741 | 98 | 39 | 16 |
| **2019/2020** | 52 | 51 | 125 | 38 | 27 | 281 | 741 | 119 | 40 | 16 |
| **2020/2021** | 52 | 50 | 125 | 57 | 24 | 515 | 741 | 127 | 41 | 16 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin statistik göstəricilərinə əssasən doktorant tərəfindən tərtib olunmuşdur.

**Cədvəl 2.** MBD məkanı ölkələrində ali təhsil müəssisələrində təhsilalan sayının dəyişmə dinamikası

| İllər | Azərbaycan | Belarus | Qazaxıstan | Qırğızıstan | Moldova | Özbəkistan | Rusiya | Tacikistan | Tükmənistan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2001** | 120 | 282 | 441 | 189 | 79 | 184 | 4741 | 78 | 17 | 1403 |
| **2006** | 130 | 383 | 776 | 231 | 126 | 279 | 7065 | 132 | 17 | 2204 |
| **2007** | 130 | 414 | 717 | 251 | 123 | 297 | 7461 | 154 | 17 | 2373 |
| **2008** | 139 | 430 | 610 | 234 | 110 | 286 | 7419 | 158 | 17 | 2245 |
| **2009** | 140 | 443 | 620 | 230 | 108 | 286 | 7050 | 152 | 17 | 2130 |
| **2010** | 143 | 446 | 630 | 239 | 104 | 286 | 6490 | 152 | 17 | 1955 |
| **2011** | 146 | 428 | 572 | 232 | 102 | 258 | 6074 | 152 | 17 | 1825 |
| **2012** | 151 | 395 | 527 | 223 | 97 | 259 | 5647 | 152 | 17 | 1724 |
| **2013** | 158 | 363 | 477 | 214 | 90 | 261 | 5209 | 165 | 17 | 1438 |
| **2014** | 161 | 336 | 459 | 199 | 82 | 264 | 4767 | 176 | 17 | 1375 |
| **2015** | 164 | 313 | 477 | 175 | 75 | 264 | 4399 | 187 | 17 | 1369 |
| **2016** | 168 | 299 | 496 | 161 | 66 | 298 | 4246 | 196 | 17 | 1330 |
| **2017** | 177 | 283 | 542 | 165 | 61 | 360 | 4162 | 210 | 17 | 1322 |
| **2018** | 177 | 283 | 542 | 165 | 61 | 360 | 4162 | 210 | 17 | 1322 |
| **2019** | 188 | 273 | 604 | 160 | 57 | 441 | 4068 | 230 | 17 | 1266 |
| **2020** | 199 | 263 | 577 | 214 | 59 | 572 | 4049 | 246 | 17 | 1142 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin statistik göstəricilərinə əsasən doktorant tərəfindən tərtib olunmuşdur

**Ali təhsil müəssisələrinin əmək bazarında baş verən dəyişiklikləri nəzərə alması vəziyyəti**

Ali təhsil müəssisələrindən məzun olmuş mütəxəssislərin əmək bazarında istiqamətlər üzrə bölgüsünə diqqət yetirsək görərik ki, qeyd olunmuş illər aralığında 6 il ərzində təhsil ixtisasları (25%), humanitar və sosial ixtisaslar (26%), mədəniyyət və incəsənət ixtisasları (53%), eləcə də kənd təsərrüfatı ixtisasları (120%) üzrə ali təhsil müəssisələrində bakalavr səviyyəsi üzrə məzun olmuş mütəxəssislərin sayında artım dinamikası müşahidə olunur. Eləcə də, magistr təhsil səviyyəsi üzrə təhsil ixtisasları (74%), mədəniyyət və incəsənət ixtisasları, (59%), texniki və texnoloji ixtisaslar (52%), səhiyyə, rifah və xidmət ixtisasları (368%) üzrə məzun olan təhsilalanlar sayında da yüksələn dinamika görülür.

**Cədvəl 3.** Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrini bitirən mütəxəssislərin istiqamətlər üzrə bölgüsü

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **Ali təhsil müəssisələrini bitirənlərin sayı - cəmi, nəfər** | **33705** | **36951** | **37506** | **37116** | **37562** | **40824** |
| onlardan təhsilin səviyyəsi üzrə diplom alanlar: | | | | | | |
| **bakalavr - cəmi, nəfər** | **28985** | **31138** | **32480** | **31707** | **31468** | **34716** |
| o cümlədən ixtisas qrupları üzrə: | | | | | | |
| təhsil ixtisasları qrupu | 7569 | 9354 | 9499 | 8417 | 9004 | 9475 |
| humanitar və sosial ixtisaslar qrupu | 3501 | 3425 | 3914 | 4157 | 4142 | 4418 |
| mədəniyyət və incəsənət ixtisasları qrupu | 877 | 939 | 1090 | 991 | 889 | 1345 |
| iqtisadiyyat və idarəetmə ixtisasları qrupu | 6381 | 6744 | 6978 | 6853 | 6559 | 7449 |
| təbiət ixtisasları qrupu | 1220 | 1528 | 1291 | 1339 | 1174 | 1468 |
| texniki və texnoloji ixtisaslar qrupu | 6637 | 6302 | 6779 | 7048 | 6771 | 7028 |
| kənd təsərrüfatı ixtisasları qrupu | 319 | 334 | 383 | 303 | 433 | 703 |
| səhiyyə, rifah və xidmət ixtisasları qrupu | 2414 | 2506 | 2540 | 2579 | 2496 | 2830 |
| **magistr - cəmi, nəfər** | **4720** | **5813** | **5026** | **5409** | **6094** | **6108** |
| o cümlədən ixtisas qrupları üzrə: | | | | | | |
| təhsil ixtisasları qrupu | 435 | 555 | 522 | 676 | 784 | 755 |
| humanitar və sosial ixtisaslar qrupu | 919 | 831 | 599 | 631 | 824 | 713 |
| mədəniyyət və incəsənət ixtisasları qrupu | 164 | 193 | 158 | 206 | 230 | 261 |
| iqtisadiyyat və idarəetmə ixtisasları qrupu | 1576 | 2078 | 1966 | 1822 | 1964 | 1968 |
| təbiət ixtisasları qrupu | 622 | 737 | 568 | 588 | 576 | 602 |
| texniki və texnoloji ixtisaslar qrupu | 811 | 979 | 818 | 1011 | 1153 | 1239 |
| kənd təsərrüfatı ixtisasları qrupu | 78 | 99 | 85 | 117 | 108 | 74 |
| səhiyyə, rifah və xidmət ixtisasları qrupu | 106 | 341 | 310 | 357 | 455 | 496 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

Yuxarıdakı təhlildən görünür ki, ali təhsil müəssisələrinə toplam olaraq qəbul olan və məzun olan tələbələrin, eləcə də əmək bazarında mövcud olan istiqamətlər üzrə təhsil alıb məzun olan tələbələrin sayında illər ərzində artım dinamikası müşahidə edilir. İndi isə, ali təhsil müəssisələrinin tələbə qəbul planlamasında əmək bazarında baş verən dəyişiklikləri nəzərə alması vəziyyətini təhlil edək.

Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrini bitirən mütəxəssislərin istiqamətlər üzrə bölgüsünü nəzərə alaraq əmək bazarının müəyyən meyarlar üzrə tərtib olunmuş statistikasına nəzər yetirsək görərik ki, əhalinin sayının artımı ilə düz mütənasib olaraq iqtisadi cəhətdən fəal əhalinin sayı da illər üzrə artmışdır. 2020-ci ildə işsiz əhalinin sayının artmasına, eləcə də bir sıra sahələrdə məşğulluq faizinin aşağı düşməsinə pandemiyanın da böyük ölçüdə təsir etdiyi düşünülür.

Azərbaycanda bakalavr təhsil səviyyəsi üzrə təhsilalan və məzun olmuş tələbələrin ən azı 21-22 yaş olmasını, fasiləsiz olaraq magistr təhsil səviyyəsi üzrə təhsilalanın isə ən azı 23-24 yaş olmasını nəzərə alsaq, 35-yaşadək iqtisadi cəhətdən fəal əhali arasında işsizlərdən ali təhsilli olanların faiz nisbətinin artması müşahidə olunur. Bu isə ali təhsil müəssisələrindən məzun olan şəxslərin dərhal əmək bazarına daxil olmasında çətinliklərin olduğu və həmin şəxslərin bir müddət friksional işsiz olaraq sinifləndirildiyi görülür. Bu hala təsir edəcək faktorlar sırasında ali təhsil müəssisəsinin əmək bazarının tələblərini nəzərə alaraq tələbəqəbul planlaması etməməsi (şəxslərin bir müddət öz ixtisasları üzrə iş tapa bilmədikdən sonra sahə dəyişməsi), əmək bazarının tələblərinə uyğun kadr yetişdirməməsi (şəxslərin müəyyən təkmilləşmə kurslarından keçərək iş yerlərinə müraciət etməsi) və qlobal miqyasda iqtisadi çətinliklərin olması (minimum əmək haqqının yüksəlməsi, pandemiya və s) və s. kimi təsir edən faktorları sıralamaq mümkündür.

Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə statistikasına son 15 il nəzər alaraq təhlil etdiyimiz zaman tikinti (69%), informasiya və rabitə (90%), peşə, elmi və texniki fəaliyyət (68%), maliyyə və sığorta fəaliyyət üzrə (59%) məşğulluğun 50%-dən çox artdığı müşahidə edilir. Eyni zamanda, turistlərin yerləşdirilməsi və ictimai iaşə (158%), eləcə də inzibati və yardımçı xidmətlərin göstərilməsi fəaliyyəti (132%) üzrə məşğulluq göstəriciləri son 15 il ərzində 100%-dən çox artmışdır.

**Cədvəl 4.** İqtisadi fəal əhalinin və işsiz əhalinin ali təhsilli olmasına dair

| Yaş qrupları | İqtisadi fəal əhali, cəmi | Ali təhsil | Faiz | İşsiz əhali, cəmi | Ali təhsil | Faiz |
|---|---|---|---|---|---|---|
| Cəmi | 5252.5 | 871.2 | 16.6 | 375.9 | 46.9 | 12.5 |
| 15-19 | 107.6 | 0.0 | 0.0 | 16.6 | 0.0 | 0.0 |
| 20-24 | 500.9 | 83.2 | 16.6 | 75.1 | 7.9 | 10.5 |
| 25-29 | 769.5 | 187.1 | 24.3 | 62.4 | 8.4 | 13.5 |
| 30-34 | 772.9 | 103.1 | 13.3 | 47.9 | 8.2 | 17.1 |
| 35-39 | 656.6 | 97.2 | 14.8 | 38.0 | 5.5 | 14.5 |
| 40-44 | 621.8 | 75.3 | 12.1 | 32.6 | 4.5 | 13.8 |
| 45-49 | 597.6 | 97.0 | 16.2 | 35.2 | 3.6 | 10.2 |
| 50-54 | 633.9 | 88.4 | 13.9 | 36.0 | 4.9 | 13.6 |
| 55-59 | 394.3 | 109.6 | 27.8 | 27.6 | 3.7 | 13.4 |
| 60-64 | 152.9 | 25.3 | 16.5 | 4.5 | 0.2 | 4.4 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

**Cədvəl 5.** İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin sayı

min nəfər

| İqtisadi fəaliyyət növləri | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə – cəmi | 4062.3 | 4329.1 | 4671.6 | 4822.1 | 4879.3 | 4938.5 | 4876.6 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1573.6 | 1655.0 | 1698.4 | 1752.9 | 1769.3 | 1777.7 | 1771.9 |
| Mədənçıxarma sənayesi | 42.3 | 41.5 | 39.1 | 37.9 | 40.3 | 40.4 | 40.1 |
| Emal sənayesi | 198.4 | 208.9 | 229.8 | 249.1 | 254.8 | 262.6 | 258.3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27.9 | 30.6 | 27.1 | 27.5 | 27.5 | 30.5 | 28.3 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 23.9 | 25.2 | 25.4 | 30.8 | 41.1 | 30.2 | 29.9 |
| Tikinti | 211.9 | 287.5 | 336.4 | 347.9 | 354.5 | 366.2 | 357.5 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 634.8 | 626.7 | 693.7 | 705.9 | 706.1 | 712.0 | 690.5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 174.6 | 179.1 | 197.1 | 201.0 | 203.2 | 205.8 | 202.7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 25.1 | 46.9 | 61.5 | 73.5 | 78.2 | 80.5 | 64.9 |
| İnformasiya və rabitə | 32.3 | 55.8 | 60.3 | 61.7 | 62.8 | 63.2 | 61.4 |
| Maliyyə və sığorta fəaliyyəti | 18.1 | 24.4 | 33.0 | 26.9 | 27.4 | 28.0 | 28.9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 82.1 | 69.6 | 89.7 | 88.8 | 90.8 | 93.3 | 90.0 |
| Peşə, elmi və texniki fəaliyyət | 43.4 | 45.6 | 59.6 | 73.5 | 74.3 | 74.5 | 72.9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 38.7 | 46.5 | 55.2 | 58.0 | 59.5 | 70.0 | 89.8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 256.6 | 279.1 | 287.3 | 284.2 | 281.5 | 282.1 | 276.9 |
| Təhsil | 345.1 | 349.8 | 373.5 | 377.8 | 380.2 | 382.9 | 380.1 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 188.8 | 170.3 | 180.8 | 189.0 | 190.0 | 191.3 | 190.2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 52.4 | 59.6 | 69.6 | 80.6 | 81.5 | 82.0 | 77.7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 92.3 | 127.0 | 154.1 | 155.1 | 156.3 | 165.3 | 164.6 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi (www.stat.gov.az)

Yuxarıdakı təhlillərdən görünür ki, ali təhsil müəssisələrinin istiqamətlər üzrə məzun göstəriciləri ilə həmin istiqamət üzrə məşğulluğun dəyişmə dinamikası arasında uyğunsuzluq mövcuddur və bu uyğunsuzluq da əmək bazarında disbalansın yaranmasına və ali təhsilli işsizlərin formalaşmasına səbəb olan əsas amillərdən biridir. Ali təhsil müəssisələri il ərzində tələbə qəbul planı müəyyənləşdirərkən və ya ixtisasların (ixtisaslaşmaların) təsnifatında olan müvafiq yeni ixtisas (ixtisaslaşma) açmağa qərar verərkən əmək bazarının tələblərini və ehtiyaclarını, eləcə də öz kadr potensialını və maddi-texniki göstəricilərini nəzərə almalıdır. Lakin, ali təhsil müəssisələrinin qəbul planını müəyyən etmə və yeni ixtisas açma ilə bağlı meyar, indikator və müvafiq qanunvericilik olmadığı üçün əmək

bazarının tələblərini nəzərə alaraq qəbul planının formalaşdırılmasının hüquqi bazasının qurulmasına ehtiyac vardır.

Nəticə olaraq, ali təhsil müəssisələrinin tələbə qəbul planlaması ilə əmək bazarının tələbləri, eləcə də müəssisənin keyfiyyət göstəriciləri uzlaşmır və əmək bazarında ixtisaslı kadr profisiti və (və ya) defisiti, eləcə də kadr hazırlığının keyfiyyəti ilə bağlı problemlər ortaya çıxır. Qeyd olunan məsələyə dair daha spesifik hal üzərində təhlil aparaq.

Bildiyimiz kimi, müəllimlərin işə qəbul olunması prosesi müvafiq qanunvericiliyə və obyektiv meyarlara əsasən mərkəzləşmiş qaydada Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Belə ki, 2010-2011-ci tədris ilindən etibarən Respublikanın ümumi təhsil məktəblərinə müəllimlərin işə qəbulunun yeni qaydalar əsasında müsabiqə yolu ilə aparılmasına başlanılmışdır. Sözügedən proses 2013-ci ildən etibarən tam şəkildə elektronlaşdırılmışdır.

Pedaqoji istiqamətdə kadr hazırlığı aparan ali təhsil müəssisələrinin qəbul planını formalaşdırmasında əmək bazarının tələblərinin nəzərə alma səviyyəsini müəyyən etmək üçün 2019-2021 müəllimlərin işə qəbulu göstəricilərinin statistik nəticələri ilkin məlumat olaraq alınmış və müxtəlif aspektlərdən öncədən müəyyən olunmuş meyarlar əsasında təhlili aparılmışdır. Belə ki, vakant elan olunan yerlər və bu yerlərə müraciətlərin sayının artım dinamikası, habelə təyinat alan müəllimlərin nəticələrinin müxtəlif parametrlər üzrə təhlili aparılmışdır.

Sözügedən sorğunun təhlilinin nəticəsi aşağıdakı kimidir:

1. İbtidai sinif (5%), Azərbaycan dili və ədəbiyyat (8%), Tarix (11%) və Xarici dil (11%) fənləri üzrə edilmiş müraciətlərin qarşılığında vakansiyaya çıxarılan yerlərin sayının kəskin azlığı müşahidə olunur;

2. Mövcud fənlər arasında yalnız Kimya fənni üzrə vakansiyaya çıxarılan yerlərin sayı həmin vakansiya üzrə edilmiş müraciətlərin sayından artıqdır (+20%);

3. Dövr ərzində Azərbaycan dili və ədəbiyyat fənni üzrə müraciətlərin sayı vakant elan olunan yer və vakant yerə təyinat sayından təqribən 15 dəfə çoxdur;

4. Dövr ərzində İbtidai sinif müəllimliyi üzrə müraciətlərin sayı vakant elan olunan yer və vakant yerə təyinat sayından təqribən 16 dəfə çoxdur;

5. Dövr ərzində Tarix fənni üzrə müraciətlərin sayı vakant elan olunan yer və vakant yerə təyinat sayından təqribən 14 dəfə çoxdur.

**Qrafik 4.** Əmək bazarının ixtisaslar üzrə MİQ nəticələri əsasında təhlili




Mənbə: Müəllimlərin işə qəbulu statistik göstəriciləri əsasında dissertant tərəfindən tərtib olunmuşdur.

Ümumi nəticələr təhlil olunduqdan sonra Elm və Təhsil Nazirliyindən alınmış statistik göstəricilər əsasında son 3 il ərzində əmək bazarında disbalansın yarandığı İbtidai sinif müəllimliyi, Tarix müəllimliyi, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Kimya müəllimliyi üzrə ali təhsil müəssisələrinə aparılmış tələbəqəbulu nəticələrinə nəzər salaq. Tədqiqatın məqsədi bu disbalansın yaranmasında ali təhsil müəssisəsinin planlamasının nə ölçüdə rol oynadığını tədqiq etməkdir.

Yuxarıdakı statistik göstəricilərdən aydın olur ki, əmək bazarında təklif profisiti yaşanan Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, İbtidai sinif müəllimliyi və Tarix müəllimliyi üzrə illər ərzində əksər ali təhsil müəssisələri əmək bazarındakı məşğulluğun azalmasına baxmayaraq tələbə qəbul planını artırmış və nəticə olaraq daha çox tələbə qəbul etmişdir. Bu isə bazardakı tələb-təklif disbalansının daha da dərinləşməsinə səbəb olur və olacaqdır. Lakin, əmək bazarında tələb profisitinin yaşandığı Kimya müəllimliyi ixtisası üzrə ATM-lər üzrə tələbəqəbulu planlarında əsaslı dinamiki artım müşahidə edilmir.

**Cədvəl 6.** Müvafiq ixtisaslar üzrə ATM-lərə tələbə qəbulu statistikası

| | **İbtidai sinif müəllimliyi** | | | **Tarix müəllimliyi, Tarix, Tarix və coğrafiya müəllimliyi** | | | **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Filologiya (Azərbaycan dili və ədəbiyyatı üzrə)** | | | **Kimya müəllimliyi, Kimya** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ATM-in adı** | **2019** | **2020** | **2021** | **2019** | **2020** | **2021** | **2019** | **2020** | **2021** | **2019** | **2020** | **2021** |
| Bakı Dövlət Universiteti | N/A | N/A | N/A | 263 | 310 | 359 | 181 | 195 | 204 | 265 | 262 | 271 |
| BDU Qazax filialı | 29 | 30 | 29 | 117 | 101 | 91 | 57 | 108 | 70 | N/A | N/A | N/A |
| Azərbaycan Dövlət Pedaqoji Universiteti | 331 | 325 | 330 | 227 | 247 | 240 | 186 | 180 | 200 | 88 | 86 | 84 |
| ADPU Ağcabədi filialı | 29 | 30 | 49 | 25 | 27 | 6 | 30 | 30 | 50 | N/A | N/A | N/A |
| ADPU Cəlilabad filialı | 37 | 38 | 49 | 24 | 30 | 24 | 40 | 40 | 50 | N/A | N/A | N/A |
| ADPU Quba filialı | 36 | 40 | 44 | 38 | 40 | 35 | 39 | 40 | 50 | N/A | N/A | N/A |
| ADPU Şamaxı filialı | 25 | 39 | 48 | 25 | 24 | 6 | 25 | 29 | 29 | N/A | N/A | N/A |
| ADPU Şəki filialı | 21 | 25 | 29 | 25 | 24 | 12 | 23 | 30 | 40 | N/A | N/A | N/A |
| Azərbaycan Dillər Universiteti | 20 | 20 | 20 | 126 | N/A | N/A | 20 | 30 | 60 | N/A | N/A | N/A |
| Bakı Slavyan Universiteti | 112 | 112 | 92 | N/A | N/A | N/A | 115 | 140 | 129 | N/A | N/A | N/A |
| Sumqayıt Dövlət Universiteti | 25 | 39 | 50 | 139 | 143 | 113 | 123 | 125 | 113 | 18 | 20 | 22 |
| Gəncə Dövlət Universiteti | 40 | 40 | 60 | 169 | 170 | 223 | 123 | 130 | 130 | 29 | 34 | 27 |
| Lənkəran Dövlət Universiteti | 58 | 58 | 58 | 90 | 108 | 44 | 57 | 60 | 60 | N/A | N/A | N/A |
| Mingəçevir Dövlət Universiteti | 40 | 39 | 58 | 25 | 25 | 40 | 39 | 40 | 50 | N/A | N/A | N/A |
| Naxçıvan Dövlət Universiteti | N/A | N/A | N/A | 43 | 45 | 45 | 33 | 30 | 45 | 20 | 19 | 29 |
| Naxçıvan Müəllimlər Universiteti | 140 | 140 | 138 | N/A | 15 | 20 | N/A | N/A | 15 | N/A | N/A | N/A |
| Azərbaycan Universiteti | N/A | N/A | N/A | 30 | 30 | 30 | N/A | 30 | 29 | N/A | N/A | N/A |
| Qərbi Kaspi Universiteti | N/A | N/A | N/A | 77 | 49 | 53 | 60 | 30 | 45 | N/A | N/A | N/A |
| Naxçıvan Universiteti | N/A | N/A | N/A | 20 | 25 | 25 | N/A | 43 | 30 | N/A | N/A | N/A |
| Xəzər Universiteti | 28 | 43 | 55 | 22 | 25 | 36 | 48 | 53 | 35 | 15 | 12 | 1 |
| Odlar Yurdu | N/A | N/A | N/A | N/A | N/A | N/A | N/A | 45 | 45 | N/A | N/A | N/A |
| Bakı Avrasiya Universiteti | N/A | N/A | N/A | N/A | N/A | N/A | 87 | 100 | 99 | N/A | N/A | N/A |
| Bakı Qızlar Universiteti | 50 | 50 | 48 | 50 | 50 | 50 | 50 | 53 | 58 | N/A | N/A | N/A |
| Toplam | 1021 | 1068 | 1157 | 1272 | 1178 | 1093 | 1155 | 1366 | 1432 | 170 | 171 | 163 |

Mənbə: Elm və Təhsil Nazirliyinin təqdim etdiyi statistik göstəricilər əsasında doktorant tərəfindən hazırlanmışdır.

Qrafik 5. Müvafiq ixtisaslar üzrə ATM-lərə tələbə qəbulu statistikası




Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin statistik göstəriciləri əsasında doktorant tərəfindən hazırlanmışdır.

Əmək bazarında yaşanan disbalansın aradan qaldırılması və ya minimallaşdırılması üçün Elm və Təhsil Nazirliyi və Nazirlər Kabineti müəyyən tənzimləyici addımlar atılır. Misal olaraq, əmək bazarında yaşanan təklif artıqlığını nəzərə alaraq, Elm və Təhsil Nazirliyi tərəfindən Filologiya (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi) ixtisasını bitirmiş şəxslərin ixtisasartırma kurslarına cəlb olunaraq Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərmələri prosesini bir müddətlik dayandırılmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmişdir "Pedaqoji fəaliyyətlə məşğul olma" qaydalarına əsasən bir sıra ixtisaslar üzrə məzun olmuş şəxslər ixtisasartırma kurslarına cəlb olunduqdan sonra qaydalara görə müəyyən olunmuş müvafiq ixtisaslar (əmək bazarında tələb artıqlığı müşahidə olunan) üzrə pedaqoji fəaliyyətlə məşğul ola biləcəklər.

**Nəticə**

Yuxarıda qeyd olunmuş statistik göstəricilərin təhlili nəticəsində aydın olur ki, əmək bazarında müvafiq ixtisaslar üzrə defisit və profisit yaranmasına dair statistik məlumatlar ali təhsil müəssisələri tərəfindən tələbəqəbulu proqnozlaşdırılması zamanı əsas rol oynamır və bunun üçün aşağıdakılar tövsiyə edilir:

1. Kadr hazırlığı aparılan ali təhsil müəssisələri tərəfindən tələbə qəbul planının hazırlanması zamanı əmək bazarının müvafiq sahə üzrə olan məşğulluq imkanları, daxili resursları (maddi texniki bazası, kadr potensialı) nəzərə alınmalı;

2. "Təhsil müəssisələrinin akkreditasiyası" qaydalarında proqram akkreditasiyasının məqsədlərindən birinin də proqramlar üzrə say həddinin təyin olunmasının göstərildiyini nəzərə alaraq bu məsələnin icrasını təmin edəcək meyarlar və metodoloji yanaşma hazırlanmalı;

3. Qəbul planın formalaşması və yeni ixtisasların açılmasına dair qanunvericilik təkmilləşməli və müvafiq məsələyə dair hesabatlılıq formalaşdırılmalıdır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli, 493 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası” Qaydaları // 14 dekabr 2020-ci il. – Bakı. – 2020.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmişdir “Pedaqoji fəaliyyətlə məşğul olma” qaydaları // 30 aprel 2020-ci il. – Bakı, -2020
3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi” Fərmanı // 24 dekabr 2016-cı il. – Bakı. – 2016.
4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi // 29 dekabr 2019-cu il. – Bakı, - 2019.
5. Azərbaycan Respublikasının Təhsil Nazirinin 513 nömrəli 25 iyun 1999-cu il tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində yeni ixtisasların açılması və lisenziyaya əlavə olunması” qaydaları // 25 iyun 1999-cu il. – Bakı. – 1999.
6. Azərbaycanda Təhsil, Elm Və Mədəniyyət Statistik məcmu. – Bakı. – 2021.
7. Meslek Yüksekokulu İktisadi ve idari Programlarından mezun olan Öğrencilerin işgücü piyasasindaki durumlarının analizi: Zonguldak Karaelmas Üniversitesi Örneği / Elif Gökbulut. – Zonguldak. – 2011. – 124 s.


***Açar sözlər:*** *ali təhsil müəssisəsi, əmək bazarı, keyfiyyət təminatı, akkreditasiya*

**Asiman Ilyasov**
*Head of the Department of Education and Methodology*
*of the Agency for Quality Assurance in Education,*
*Doctoral Student of the Azerbaijan Technological University*

# THE PROVISION OF ACCOUNTING FOR THE CHANGES THAT HAVE OCCURRED ON THE LABOR MARKET AND FORECASTING THE ADMISSION OF STUDENTS TO HIGHER EDUCATIONAL INSTITUTIONS

## ABSTRACT

When higher education institutions draw up a student admission plan, employment indicators in the relevant area of the labor market, as well as the internal resources of the university, do not play a key role. Such an approach leads to an excess or shortage of qualified personnel in the labor market and causes problems with quality. In the field of higher education in Azerbaijan, in the direction of admission and selection of specialties, it is the supply that forms the demand and not the demand that forms the supply. Thus, the admission system to higher educational institutions leads the student to enter the specialty according to the points scored, not the specialty that he/she wants. It does not prevent higher education institutions from increasing the admission plan even for the specialties with a surplus in the labor market because, in any case, those places are filled by people with low scores. It suggests that higher education is trying to ensure financial stability more.

***Keywords:*** *higher education institution, labor market, quality assurance, accreditation*

**Асиман Ильясов**
*Начальник отдела Обучения и методологии*
*Агентства по обеспечению качества образования,*
*докторант Азербайджанского Технологического Университета*

# СОСТОЯНИЕ УЧЕТА ПРОИСХОДЯШИХ ИЗМЕНЕНИЙ НА ТРУДОВОМ РЫНКЕ В ПРОГНОЗИРОВАНИИ ПРИЕМА СТУДЕНТОВ В ВЫСШИЕ УЧЕБНЫЕ ЗАВЕДЕНИЯ

## РЕЗЮМЕ

При составлении высшими учебными заведениями, занимающимися подготовкой кадров, плана приема студентов показатели занятости в соответствующей сфере на рынке труда, а также внутренние ресурсы вуза не играют ключевой роли, а это, как результат, на рынке труда приводит к созданию избытка или дефицита квалифицированных кадров, а также способствует появлению проблем, связанных с качеством. В сфере высшего образования в Азербайджане в направлении приема и выбора специальностей предложение формирует спрос, а не спрос формирует предложение. Так система приема в высшие учебные заведения приводит студента к поступлению на специальность по набранным баллам, а не на ту специальность, которую он желает и хочет. Это не мешает вузам увеличивать план приема даже на те специальности, которые имеют избыток на рынке труда, поскольку в любом случае эти места заполняются за счет людей с низким баллом. Это говорит о том, что высшее образование больше старается обеспечить финансовую устойчивать.

***Ключевые слова:*** *высшее учебное заведение, рынок труда, обеспечение качества, аккредитация*

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ INTELLEKTUAL SİSTEMLƏR

# DİGİTAL PUBLİC ADMİNİSTRATİON AND INTELLECTUAL SYSTEMS

UOT 354

**ELVİN ƏZİZBƏYOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının müdiri, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: eazizbayov@dia.edu.az*

**GÜLNAR MİRZƏYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti, mexanika üzrə fəlsəfə doktoru**
*e-mail: gulnar.mirzayeva@gmail.com*

## DÖVLƏT İDARƏÇİLİYİNDƏ BÖYÜKHƏCMLİ VERİLƏNLƏR STRATEGİYALARI

### Giriş

Məlumdur ki, XXI əsrin ilk illərindən başlayaraq informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində insan fəaliyyətinin hər bir sahəsində yaranan verilənlərin həcmi və müxtəlifliyi durmadan artır. Rəqəmsal texnologiyaların, sosial medianın, müşahidə kameralarının və s. həyatımızın hər sahəsinə nüfuz etməsi insanları davamlı olaraq böyük həcmdə informasiya istehsalçısına çevirmişdir. Belə ki, bir neçə il əvvəl mexaniki olaraq çalışan cihazlar müasir dövrdə ağıllı cihazlarla əvəz olunur və bu ağıllı cihazlar mütamadi olaraq məlumat istehsal edir. Bu cür cihazların çox olması və informasiya mənbələrinin müxtəlifliyi yaranan məlumatların həcminin sürətlə artmasını şərtləndirir. İnformasiyanın həcminin sürətlə artması isə elmə yeni anlayış “Böyükhəcmli verilənlər” (Big Data) anlayışını gətirmişdir. Bu termindən ilk dəfə Michael Cox və David Ellsworth tərəfindən 1997-ci ildə IEEE tərəfindən təşkil olunmuş 8th Conference on Visualization adlı konfransın materiallarına təqdim olunmuş “Application-Controlled Demand Paging for Out-of-core Visualization” adlı məqalədə istifadə olunmuşdur [1]. Qeyd olunan məqalədə müəlliflər informasiya mübadiləsinin həcmcə çox böyük olması elektron cihazların yaddaş qurğularını sürətlə doldurmağından bəhs etmiş, daxil olan məlumatların həcminin intensiv artmasının yarada biləcəyi çətinliklərin həlli yollarını təklif etmişlər və bu məsələni “Böyükhəcmli verilənlər” məsələsi (Big Data Problem) adlandırmışlar. Daha sonra 2000-ci ildə Francis X. Diebold tərəfindən nəşr olunan “Big Data Dynamic Factor Models for Macro-economic Measurement and Forecasting” adlı işdə Böyük verilənlərin düzgün analizi nəticəsində əldə olunan məlumatları təbiət və sosial elmlərin müəyyən sahələrində tətbiqi mümkün olan bir “fenomen” adlandırmışlar [2]. Böyük verilənlərin ilk aktiv istifadəçiləri və bu verilənləri analiz edərək nəticələri gələcək işlərinə uğurla tətbiq edənlər – Google, eBay, Amazon, Twitter, LinkedIn ve Facebook kimi nəhəng şirkətlər olmuşdur. Ümumiyyətlə, Böyük verilənlərə tərif verilməsə də onu aşağıdakı kimi izah etmək olar: Böyük verilənlər ənənəvi hesablama üsulları vasitəsilə analiz edilməsi mümkün olmayan həcmdəki məlumatları özündə birləşdirən müxtəlif rəqəmsal

məzmunlu məlumat toplusudur. Qeyd edək ki, "Böyükhəcmli verilənlər", "Bulud" texnologiyaları, Paralel hesablamalar, MapReduce kimi texnologiyalardan istifadə edərək kompyuterlər vasitəsilə böyük verilənlərin analizinə nail olmaq olar.

İnternetdə olan son statistikaya görə hələ 2008-ci ildə mövcud rəqəmsal məlumat hissələrinin (bit) sayı ulduzların sayını ötmüşdür.

Dünyada sosial medianın təsir sahəsinin böyüməsi, hər yerdə şəbəkəyə çıxış imkanlarının olması və davamlı olaraq artan ağıllı cihazların sayı "Böyükhəcmli verilənlər"-in həcminə böyük təsir göstərir. Bugünkü "rəqəmsal kainat" hər iki ildən bir məlumat həcmini iki dəfə artıraraq sürətlə genişlənir (Şəkil 1).

Qeyd edək ki, insan həyatının bütün sahələrində olduğu kimi idarəetmədə də sürətlə elektronlaşma və rəqəmsallaşma prosesi gedir və dövlət idarəçiliyində yeni innovasiyalar geniş tətbiq olunur [3]. Ümumiyyətlə, son illərdə Dövlət qurumlarında müxtəlif analizlər aparmaq və müəyyən statistika tərtib etmək məqsədi ilə yaranan verilənlərin miqdarı da sürətlə artmaqdadır. Eyni zamanda, bir çox hallarda düzgün qərarvermə məqsədilə bəzi Dövlət qurumlarında malik olduqları verilənlərdən başqa sosial media istifadəçilərinin verilənlərini də məlumat bazalarına daxil etmək zərurəti yaranır. Ona görə də hazırki dövrdə mövcud olan yaddaş qurğularında saxlanması mümkün olmayan, həcmcə çox böyük olan və Dövlət qurumlarının xidmət keyfiyyətinin artırılmasında istifadə oluna biləcək Böyük verilənlər daha da aktual mövzuya çevrilir.

Mütəxəssislər tərəfindən informasiya kommunikasiya texnologiyaları sahəsinin lokomotivi adlandırılan və "yeni neft" kimi dəyərləndirilən "Böyükhəcmli verilənlər" strateji əhəmiyyətə malik resurs kimi nüfuzlu beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Son illər beynəlxalq təşkilatlar tərəfindən "Böyükhəcmli verilənlər"-ə yüksək dəyər verilmiş, onun potensial imkanlarından istifadə sahəsində bir sıra strateji planlar və layihələr qəbul edilmişdir. 2012-ci ildə Davosda keçirilən Dünya İqtisadi Forumunda "Böyükhəcmli verilənlər" valyuta və ya qızıl dəyərində yeni iqtisadi aktiv kimi dəyırləndirilmiş, beynəlxalq inkişaf üçün "Böyükhəcmli verilənlər"-in imkanlarını təqdim edən sənəd hazırlanmışdır [4]. 2009-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Global Pulse" təşəbbüsü irəli sürülmüşdür. Təşəbbüs ölkələrin inkişafı, yoxsulluğun, böhranlı vəziyyətlərin aradan qaldırılması,




**Şəkil 1.** 2010 və 2020-ci illər arasında eksponensial məlumat artımı.
Mənbə: IDC-nin Rəqəmsal Kainat Araşdırması, EMC-nin sponsorluğu ilə, dekabr 2012

insanların yaşayış səviyyəsinin yüksəldilməsi sahəsində "Böyükhəcmli verilənlər"-in imkanlarından istifadəni nəzərdə tutan bir konsepsiyadır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "İnformasiya, Kompüter və Kommunikasiya Siyasəti üzrə Komitəsi (OECD – Committee for Information, Computer and Commu-nications Policy) tərəfindən 2012-ci ilin oktyabrında təqdim edilən "Exploring data-driven innovation as a new source of growth" hesabatda əhəmiyyətli dərəcədə rəqabət üstünlüyünün yaradılması, innovasiyaların, iqtisadiyyatın və cəmiyyətin dayanıqlı inkişafını stimullaşdıra bilən biliklərə əsaslanan kapitalın formalaşdırılması üçün verilənlərin və onların analizinin potensial rolu tədqiq olunur. Hesabatda verilənlərin istifadəsinin onlayn reklam, dövlət idarəçiliyi, səhiyyə, kommunal xidmətlər, loqistika və nəqliyyat kimi sahələrdə innovasiya və əməyin məhsuldarlığının yüksəldilməsi mənbəyi kimi potensial dəyərə malik olduğu göstərilir. Avropa Komissiyası elmi tədqiqatlar və innovasiyalar sahəsində Horizon 2020 proqramını qəbul etmişdir [5]. 2013-cü ilin noyabrında Beynəlxalq Telekommunikasiya İttifaqının "Böyük həcmli verilənlər: bu gün böyükdür, sabah normal" (Big Data: Big today, normal tomorrow) adlı hesabatı nəşr olunmuşdur. Hesabatda "Böyükhəcmli verilənlər"-in səhiyyə, elmi tədqiqat və nəqliyyat sahələrində tətbiqiylə bağlı təhlükəsizlik məsələləri yer almışdır [6]. 2009-cu ilin sentyabrında Avropa komissiyası tərəfindən qəbul olunmuş iKnow (Interconnect Knowledge) layihəsi Avropada elmi tədqiqatların dərinləşməsinə istiqamətlənmişdir.

### "Böyükhəcmli verilənlər" dünya ölkələrinin siyasətində

"Böyükhəcmli verilənlər" Beynəlxalq təşkilatlar kimi dünyanın bir çox qabaqcıl ölkələrinin də diqqətini cəlb etmişdir. Bu istiqamətdə ilk təşəbbüs Amerika Birləşmiş Ştatları tərəfindən irəli sürülmüşdür. Sonralar bir sıra qərb dövlətləri – Avstraliya, Çin, Yaponiya və s. dövlət və hökumət strukturları tərəfindən "Böyükhəcmli verilənlər"-i neft qədər strateji resurs kimi dəyərləndirilmiş, bu sahədəki problemlərə çox böyük önəm verilmişdir. Bəzi İnkişaf etmiş ölkələrin "Böyükhəcmli verilənlər" strategiyalarını nəzərdən keçirək.

**A. ABŞ-ın "Böyükhəcmli verilənlər" strategiyası.** Amerikada "Böyükhəcmli verilənlər"-in tədqiq və inkişaf səviyyəsindən artıq onun tətbiq mərhələsinə keçilmişdir. 2012-ci ilin martında ABŞ prezident administrasiyası "Böyük verilənlərin tədqiqi və inkişafı" (Big Data Research and Deve-lopment Initiative) təşəbbüsünü [7], 2016-cı ilin may ayında isə "Federal "Böyük həcmli verilənlər" tədqiqat və inkişaf strateji planını elan etmişdir [8]. Təşəbbüs çərçivəsində "Böyükhəcmli verilənlər" texnologiyalarının ABŞ dövlət siyasətinin aparıcı istiqamətlərində istifadəsi üçün kompleks tədbirlərin keçirilməsi (konfransların, forumların və s.), layihələrin işlənməsi nəzərdə tutulmuş, böyük həcmli rəqəmsal verilənlərin təşkili və analizi üçün aidiyyatı dövlət agentliklərinə (NSF – National Science Foundation, NIH – National Institutes of Health, DoD – Department of Defense, DoE – Department of Energy, DARPA – Defense Advanced Research Projects Agency və USGS – US Geological Survey) 200 milyon dollar həcmində vəsait ayrılmışdır. Bu təşəbbüs çərçivəsində 84 layihənin işlənməsi həyata keçirilmişdir. Təşəbbüsün əsas hədəfi "Böyükhəcmli verilənlər"-in yeni infrastrukturunun və tədqiqat metodologiyasının, eləcə də elmi kəşflər üçün onlardan istifadə bacarığının yüksəldilməsi olmuşdur. Ağ Ev "Böyükhəcmli verilənlər"-in aşağıdakı məqsədlər üçün istifadəsini nəzərdə tutmuşdur:

– "Böyükhəcmli verilənlər"-in yığılması, saxlanması, mühafizəsi, idarə olunması, analizi və mübadiləsi üçün lazım olan texnologiyaların inkişafı;

– Elm və mühəndislik (texnologiya) sahəsində elmi kəşflərin tempinin sürətləndirilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi, təhsilin və təlimin kökündən dəyişdirilməsi üçün bu texnologiyalara yiyələnmək;

– "Böyükhəcmli verilənlər" texnologiyalarının inkişaf etdirilməsi və istifadəsi sahəsində

yeni istedadların, mütəxəssislərin hazırlanmasının sürətləndirilməsi.

Layihə çərçivəsində alim və mühəndislərinin, xüsusilə də, istənilən dildə olan mətnlərdən çıxarışların edilməsi sahəsində yüksək qabiliyyətə malik analitiklərin yetişdirilməsi və onun aşağıdakı sahələrdə tətbiqi nəzərdə tutulmuşdur: səhiyyə və əhalinin sosial müdafiəsi, ətraf mühit və dayanıqlı inkişaf, fövqəladə vəziyyətə və təbii fəlakətlərə reaksiya vermə, istehsal, robot texnikası və intellektual sistemlər, kiberfəzanın təhlükəsizliyi, nəqliyyat və energetika, təhsil və əmək resurslarının inkişafı sahələri.

Qeyd edək ki, "Böyükhəcmli verilənlər"-in yaratdığı imkanlardan maksimum yararlanmaq, onun potensialından səmərəli istifadə etmək məqsədilə bu təşəbbüsün həyata keçirilməsində dövlət, sənaye müəssisələri, elmi dairələr və qeyri-kommersiya təşkilatları birgə fəaliyyət göstərirlər.

**B. Avstraliyanın "Böyükhəcmli verilənlər" strategiyası.** 2013-cü ildə Avstraliya hökuməti tərəfindən "Avstraliya dövlət xidmətinin Böyükhəcmli verilənlər strate-giyası" (Australian Public Service Big Data Strategy) qəbul edilmişdir. Bu strategiyada "Böyükhəcmli verilənlər"-in imkanlarından istifadə etməklə dövlət sektorunun xidmət sahəsində islahatların aparılması, daha effektiv dövlət siyasətinin və vətəndaşların informasiya təhlükəsizliyinin təmini sahəsində layihələr nəzərdə tutulmuşdur. Burada əsas məqsəd, dövlət sektorunda göstərilən xidmətlərin səmərəliliyinin yüksəldilməsi, əməkdaşlıq və innovasiya sahələrində böyük verilənlərin analizindən istifadə edilməsində Avstraliyanın dünya ölkələri arasında lider mövqe tutmasından ibarətdir. Strategiyanın inkişafı ilkin olaraq "2012-2015-ci illər üçün Avstraliya dövlət xidmətində informasiya kommunikasiya texnologiyaları strategiyası"-da (Australian Public Service Information Communication Technology Strategy 2012-2015) təsbit edilmişdir. Strategiyanın məqsədi ümumi şəkildə aşağıdakı kimi müəyyən edilmişdir:

- xidmətlərin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi vasitəsilə daha yaxşı xidmətlərin göstərilməsi;
- optimal investisiya qoyuluşu və innovasiyaların genişləndirilməsi vasitəsilə hökumətin fəaliyyətinin səmərəliliyinin artırılması;
- biliyin və səmərəli əməkdaşlığın yaradılmasında birbaşa iştirak.

**C. Böyük Britaniyanın "Böyükhəcmli verilənlər" siyasəti.** 2013-cü ilin yanvar ayında Britaniya hökuməti tərəfindən "Böyükhəcmli verilənlər" sahəsində plan qəbul edilmiş və bu planın yerinə yetirilməsinə 189 milyon funt sterlinq ayrılmışdır. Planda elmi-tədqiqat institutlarında "Böyükhəcmli verilənlər"-in imkanlarından istifadə öz əksini tapmış, həmçinin səhiyyə, kənd təsərrüfatı, kommersiya, elmi tədqiqatlarda və digər sahələrdə də "Böyükhəcmli verilənlər"-in tədqiqi və tətbiqi nəzərdə tutulmuşdur. Hazırda Böyük Britaniyada piylənmə (çəki artımı xəstəliyi), sahil eroziyası, iqlim dəyişiklikləri kimi risklərin idarə edilməsində və epidemiyalara qarşı əks tədbirlərin görülməsində də "Böyükhəcmli verilənlər"-dən istifadə edilir.

**D. Fransanın "Böyükhəcmli verilənlər" strategiyası.** 2013-cü ilin fevral ayında Fransa hökuməti tərəfindən "Rəqəmsal yol xəritəsi" ("Digital Roadmap") planı qəbul edilmişdir. "Böyükhəcmli verilənlər" də daxil olmaqla, gələcəkdə yeddi layihəninin yerinə yetirilməsini nəzərdə tutan bu plana Gələcək üçün İnvestisiyalar Proqramı (Programme of Investments for the Future) çərçivəsində 11,5 milyon avro investisiya ayrılmışdır. Plan aşağıdakı əsas istiqamətləri özündə birləşdirir:

- Gənc nəsil üçün rəqəmsal iqtisadiyyatın imkanlarına nail olunması;
- Rəqəmsal cəmiyyətdə və iqtisadiyyatda dəyərlərin dəstəklənməsi.

Fransa hökuməti son illər "Böyükhəcmli verilənlər" sahəsində siyasətin inkişaf etdirilməsinə diqqət daha da artırmışdır. Belə ki, 2013-cü ildə "New Industrial France" strategiyasında "Böyükhəcmli verilənlər" Fransa sənayesinin yenidən qurulmasının 34 əsas maddəsindən biri kimi yer almışdır. "New Industrial France" strategiyası çərçivəsində 2014-cü ilin iyulunda "Big Data Plan" qəbul edilmişdir. Bu plan əsasən üç fəaliyyət istiqamətini özündə birləşdirmişdir:

- Fransada "Böyükhəcmli verilənlər" ekosisteminin inkişafı;
- Böyük verilənlər üzrə sahə təşəbbüsləri (Buraya dövlət və özəl sektorlarına dair layi-hələr daxildir);
- Tənzimlənmənin qiymətləndirilməsi (Evaluation of regulation).

**E. Yaponiyanın "Böyükhəcmli verilənlər" strategiyası.** 2012-ci ildə Yaponiyada şəffaflığın təmin olunmasına yardım məqsədilə "Open Government Data Strategy" qəbul edilmişdir. İslahatların Tənzimləməsi Şurası (Council for Regulatory Reform) dövlət qarşısında yerli şirkətlərin məxfilik qanunlarını pozmadan "Böyükhəcmli verilənlər"-dən istifadə etməsi üçün əsas prinsiplərin yaradılması təşəbbüsü irəli sürmüş və bu strategiyanın həyata keçirilməsi üçün dövlət tərəfindən 13,2 milyard yapon yeni ayrılmışdır. 2012 və 2013-cü illərdə isə Yaponiya hökuməti tərəfindən uyğun olaraq "The Integrated ICT Strategy for 2020" və "Declaration to be the World's Most Advanced IT Nation" milli "Böyükhəcmli verilənlər" strategiyaları qəbul edilmişdir. Bu strategiyalar 2013-2020-ci illər ərzində açıq dövlət verilənləri və "Böyükhəcmli verilənlər" ilə Yaponiyanın yeni informasiya texnologiyaları (İT) strategiyasını inkişaf etdirməyə istiqamətlənmişdir. Burada məqsəd Yaponiyanın informasiya texnologiyaları sənayesində "Böyükhəcmli verilənlər"-in geniş istifadəsi üzrə yüksək standartlara malik ölkə statusu qazanmasından ibarətdir.

**F. Çinin "Böyükhəcmli verilənlər" strategiyası.** "Böyükhəcmli verilənlər" ilə bağlı bir sıra tədbirlərin, o cümlədən "Big Data Technology Conference", "Big Data & Analytics Innovation Summit", "China Legal Big Data Symposium", "Big Data Asia Showcase" və "Big Data World Forum" kimi mötəbər konfransların, sammitlərin və forumların Çində keçirilməsi onun bu sahədə əldə etdiyi texnoloji nailiyyətlərlə izah oluna bilər. Belə ki, 1,2 milyard mobil rabitə abunəçisinə malik olan Çin Xalq Respublikası dünyanın ən böyük mobil telefon bazarına malikdir. Həmçinin, Çində 600 milyondan çox İnternet istifadəçisinin olması bu ölkədə sosial media sahəsində də fəallığın yüksək olmasını göstərir. Dövlət hesablamalarına görə bloqlar, sosial şəbəkələr, mikrobloqlar və s. daxil olmaqla sosial mediadan 250 milyondan çox insan istifadə edir. Qeyri-dövlət təşkilatlarının qiymətləndirməsinə görə isə bu rəqəm 590 milyona yaxındır. Çində real-vaxt rejimində aparılan informasiya mübadiləsinin, sosial media və İnternet istifadəçilərinin sayının sürətlə artması ölkənin inkişafında "Böyükhəcmli verilənlər"-dən istifadə üçün əlverişli şərait yaratmışdır. Bu məqsədlə dövlət idarəçiliyi sektorunda "Böyükhəcmli verilənlər"-in imkanlarının istifadə olunmağa başlanmışdır. 2014-cü ilin iyun ayında ölkənin siyasi konsultativ qanunvericilik orqanı olan Çin Xalq Siyasi Məşvərət Şurası (Chinese People's Political Consultative Conference – CPPCC) tərəfindən keçirilən forumda idarəetmə imkanlarının yüksəldilməsində "Böyükhəcmli verilənlər" texnologiyalarının potensial istifadəsi təşəbbüsü irəli sürülmüşdür. Bu təşəbbüsdə aşağıdakı sahələrdə yaranan problemlərin həll edilməsi məqsədilə "Böyükhəcmli verilənlər"-in istifadəsi ilə bağlı konkret məsələlər nəzərdə tutulmuşdur:

- Dövlət sektorunun məhsuldarlığının yüksəldilməsi;
- Şəhər nəqliyyatının planlaşdırılmasının yaxşılaşdırılması;
- Sosial-iqtisadi tendensiyaların dərk edilməsi;
- Yoxsulluğun vəziyyətinin qiymətləndirilməsi;
- Davamlı e-tullantıların praktiki utilizasiyasına yardım edilməsi;
- Şəhərlərdə çirklənmənin geniş yayıldığı ərazilərin müəyyən edilməsi və s.

"Böyükhəcmli verilənlər"-in imkanlarından istifadənin həyata keçirilməsi üçün ilk növbədə bir çox problemlərin (verilənlərin analitikası, operativ/system problemləri) həlli üçün dövlət və özəl sektorlar tərəfindən birgə iş aparılması üçün əlverişli şəraitin yaradılması nəzərdə tutulmuşdur.

**G. Koreyanın "Böyükhəcmli verilənlər" layihələri.** Digər texnologiyalarla yanaşı artıq "Böyükhəcmli verilənlər" da Koreyanın inkişafında mühüm rol oynamağa başlamışdır.

Ölkədə Seul Milli Universite-tinin (Seoul National University) nəzdində fəaliyyət göstərən "Böyükhəcmli verilənlər" İnstitutunun (Big Data Institute) dəstəyi ilə Milli İnformasiya Cəmiyyəti Agentliyinə (National Information Society Agency) daxil olan Böyük Verilənlər Strateji Mərkəzi (Big Data Strategy Center) yaradılmışdır. 2012-ci ilin noyabrında "Smart Nation" ideyasını reallaşdırmaq üçün Koreyada fəaliyyət göstərən Milli Elmi-Texnoloji Komissiya (National Science & Technology Commis-sion) tərəfindən "Big Data Master Plan" işlənib hazırlanmışdır. Bu planın tərkib hissəsi kimi dövlət tərəfindən "Pilot Project for Using Big Data in Official Statistics" layihəsi təsis edilmişdir. Koreyada müxtəlif mənbələrdən əldə olunmuş informasiyalar əsasında təbii fəlakətlərin proqnozlaşdırılması məqsədilə "Böyükhəcmli verilənlər"-in informasiya sistemi inkişaf etdirilir. Milli hökumət əhalinin siyahiya alınması işlərində ənənəvi siyahıya alınma ilə müqayisədə təxminən 140 milyon dollara qənaət etməyə imkanı verən "Böyükhəcmli verilənlər"-dən istifadə etməyi planlaşdırır.

### Azərbaycanda "Böyükhəcmli verilənlər" texnologiyalarından istifadə ilə bağlı tövsiyələr

Azərbaycan İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi sahəsində yüksək mövqe tutan ölkələr siyahısındadır. 2008-ci ildən başlayaraq Azərbaycanda institusional siyasət və səmərəli idarəetmənin tərkib hissəsi olan "Elektron hökumət"in formalaşdırılması üçün Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən müxtəlif illərdə fərman, sərəncam və strateji sənədlər imzalanmışdır. 2013-cü ildə təsdiq edilmiş "Elektron hökumət" portalının əsasnaməsi dövlət qurumlarına məxsus müxtəlif dövlət informasiya sistemləri, ehtiyatları və portalları üçün əsas istiqamətverici sənəd olmuşdur. Dövlət tərəfindən "Elektron hökumət"in formalaşdırılması sahəsində görülən faydalı işlər, bu sahənin inkişafı üçün verilmiş mühüm qərarlar təqdirə layiqdir. Misal üçün, "Elektron hökumət"in infrastrukturu və onun e-xidmətlərə girişinə açarı olan e-imza infrastrukturu qurulmuş, e-ödənişlər üzrə "Hökumət ödəniş" portalı, sahibkarların lisenziyalar və icazələr alması üçün "Lisenziyalar və icazələr" portalı, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə elektron vizalar verilməsi üçün "ASAN viza" sistemi yaradılmış, aqrar sektorda elektron kənd təsərrüfatı sistemi və ədliyyə sahəsində elektron məhkəmə sistemi formalaşdırılmış, həmçinin dövlət əhəmiyyətli kadastrlar və s. kimi xidmətlər göstərilir. Qeyd edilən dövr ərzində ümumilikdə vətəndaşlara 400-dən çox elektron xidmətlərin göstərilməsi təmin olunmuşdur. Bu xidmətlərin sırasında Mənzil İnşaatı Dövlət Agentliyinin "Güzəştli mənzil" layihəsi sosial əhəmiyyətli olması ilə seçilir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında 27 aprel 2021-ci il tarixli fərmanda [9] müasir dövrdə telekommunikasiya texnologiyalarının cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaratması, qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunması qeyd olunur. Həmçinin sənəddə səmərəliliyin və şəffaflığın artırılmasında rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafının vacibliyi vurğulanır. Fərmanda iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyasının son illərdə Azərbaycan Respublikasının qarşısında duran prioritet məsələlərdən birinə çevrilməsi, ölkədə rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlərin görülməsi ifadə olunur. Ölkə Prezidentinin fərmanına əsasən Azərbaycanda iqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə İKT infra-strukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, "Hökumət buludu" (G-Cloud), "Bö-

yükhəcmli məlumat-lar" (Big Data), "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) kimi rəqəmsal təşəbbüslərin həyata keçirilməsi, Azərbay-canın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılması, hazırda geniş zolaqlı internet şəbəkəsinin ölkənin bütün ərazisində tətbiq olunması, o cümlədən özəl sektorun fəaliyyəti üçün səmərəli hesab edilməyən ucqar məntəqələrdə rəqəmsal infrastruktur qurulması, dövlət şirkətləri vasitəsilə müasir xidmətlər təqdim edilməsi, cəmiyyətdə müvafiq sahədə vərdiş-lər formalaşdırılması prosesi aparılır.

Sonrakı illərdə bu fərmanın tələbləri əsasında rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkili, əlaqələndirilməsi və həyata keçirilməsi nəticəsində ölkədə dövlət idarəçiliyi sahəsində "Böyükhəcmli verilənlər" texnologiyalarının tətbiqi sferaları da əhəmiyyətli dərəcədə genişlənmiş və bu amilin vətəndaş məmnunluğunun təmin edilməsin-də, şəffaflığın artırılmasında böyük rolu olmuşdur.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) və "McKinsey" məsləhətçi şirkətinin birgə təşkilatçılığı ilə "Dövlət idarəçiliyində böyük həcmli məlumatlar" mövzusunda seminarlar keçirilir. Son illərdə bu sahənin inkişafına xidmət edən 4 normativ sənəd hazırlanmışdır: Bunlar, "Telekommuni-ksiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi", "2018-2020-ci illərdə rəqəmsal ödənişlərin geniş-ləndirilməsi üzrə Dövlət Proqramı", "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" prezident fərmanı və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasi-yası və arxivləşdirilməsi Qaydaları" və "Hökumət buludu" (G-cloud) konsepsiyasıdır.

Rəqəmsal inkişafın təməli rəqəmsal transformasiya hesab olunur. Rəqəmsal transformasiya dövlət və özəl sektorun, ümumilikdə isə iqtisadiyyatın səmərəliliyinin artırılması, xərclərin azaldılması, rəqabətqabiliyyətli məhsulların və xidmətlərin yaradılması, sosial həyatın yaxşılaşdırılmasına yönəlmişdir. Rəqəmsal inkişafla bağlı prosesləri və tranzaksiyaları böyükhəcmli məlumatların təhlilinə əsaslanmadan həyata keçirmək mümkün deyildir. Hətta bir çox proqramların, eləcə də mobil tətbiqlərin sürəti məlumatların yaradılması həcmindən daha vacibdir. Çünki gündəlik həyatda hiss etmədiyimiz "data" axınları vardır. Bu "data" axınları əsasında bir çox maraqlı xidmətlər ərsəyə gəlir. Misal üçün, gündəlik və ya iş həyatında e-mail, SMS, whatsapp üzərindən mesajlar, şəkillər, səslər, videolar göndəririk. Əslində bunların hər biri kodlaşdırılmışdır və "Böyükhəcmli verilənlər" şəklindədir. Məsafəli xidmətlərdən olan sen-sor oxunuşları və cib telefonlarından əldə edilən GPS siqnalları da buna bənzərdir.

"Böyükhəcmli verilənlər"-in analitik təhlili "Süni intellekt" (AI) və maşınla öyrənmə (Machine learning) ilə sıx əlaqəlidir. "Süni intellekt" və maşınla öyrənmə "Böyükhəcmli verilənlər"-in tətbiqini genişləndirir, bu məlumatları xammaldan informasiyaya və biliyə çevirərək dövlətə və biznesə təqdim edir. "Böyükhəcmli verilənlər"-in xüsusiyyət-lərinə həcm (Volume), sürət (Velocity) və müxtəliflik (Variety) daxildir. "Böyükhəcmli verilənlər"-in rəqəmsal idarəçilik və iqtisadiyyatda faydasını 3 prinsip ilə müəyyənləşdirmək olar: xərclərdə azalma, çevik və sürətli qərarlar, yeni məhsul və xidmətlər. "Böyükhəcmli verilənlər"-in analitik təhlili həm də əlavə gəlir deməkdir. Hesablamalar göstərir ki, "Böyükhəcmli verilənlər"-in anlalitik təhlili sahibkarlıqda 8-10% əlavə gəlir formalaşdırır. Bu isə 2025-ci ilədək "Böyükhəcmli verilənlər"-in təhlili hesabına ümumlikdə təqribən 119 milyard dollar qazanc deməkdir.

Ümumiyyətlə, ölkədə "Böyükhəcmli verilənlər" texnologiyalarının geniş tətbiqi, eyni zamanda, bu sahədəki problemlərin həllinə dövlət səviyyəsində dəstəyin artırılması məqsədəuyğundur. Bu istiqamətdə dövlət tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə olunur [10]:

1. "Böyükhəcmli verilənlər" texnologiyalarının tətbiqi ilə bağlı ölkədəki müxtəlif situasiyaların analiz edilməsi, bu texnologiyaların effektiv olduğu prioritet sahələrin müəyyənləşdirilməsi.

2. Ölkənin milli "Böyükhəcmli verilənlər" strategiyasının hazırlanması inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq, ölkənin inkişaf strategiyasına uyğun ayrıca sənəd və ya İKT strategiyasının bir hissəsi kimi qəbul edilə bilər.

3. E-infrastrukturun inkişaf etdirilməsi. Böyük həcmli verilənlərin toplanması, saxlanması, mühafizəsi, idarə olunması, analizi və mübadiləsi üçün zəruri olan proqram təminatı və infrastrukturun yaradılması. Böyük həcmdə yaddaş sahəsi və vaxt tələb edən çox mürəkkəb hesablama məsələlərinin həllini təmin edən yüksək məhsuldarlıqlı hesablamalar, "Bulud" və digər müasir tex-nologiyaların inkişafına dövlət dəstəyinin verilməsi.

4. Ölkədə verilənlər sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi.

5. Dövlət idarələri, müəssisə və təşkilatlar tərəfindən toplanan böyük həcmli verilənlərin elmi-tədqiqatlar, təşkilatlar, bütövlükdə, cəmiyyət üçün səmərəli istifadəsini təmin edən açıq verilənlər şəbəkəsinin yaradılması və dövlət tərəfindən dəstəklənməsi.

6. Böyük verilənlər üzrə texnologiyaların inkişaf etdirilməsi və istifadəsi sahəsində yeni istedadların, mütəxəssislərin hazırlanma-sını sürətləndirməsi və elmi kəşflər üçün onlardan istifadə bacarığının yüksəldilməsi. Verilənlər mühəndislərinin və yüksək qabiliy-yətə malik analitiklərin yetişdirilməsi.

7. Ali və ondan sonrakı təhsilə istiqamətlənmiş verilənlər alimi (Data Scientist) ixtisası üzrə akademik fənnin tədris olunması, texnoloji resurs mərkəzlərinin yaradılması, elmi araşdırmaların dəstəklənməsi və s.

8. Böyük verilənlərin yaratdığı imkanlardan maksimum faydalanmaq, onun potensialından səmərəli istifadə etmək məqsədilə dövlət, sənaye, elmi dairələr və qeyri-kommersiya təşkilatlarının birgə fəaliyyətinin əlaqələndirilməsi və təşkili.

9. Ölkədə Böyük verilənlər ekosistemi-nin, smart texnologiyalar, şəbəkə texnologiyaları, proqram təminatı, "Bulud" hesablamaları, informasiya təhlükəsizliyi sistemləri və s. kimi sahələrin inkişaf etdirilməsi.

10. "Böyükhəcmli verilənlər" texnologiyalarının tətbiqi ilə əlaqədar normativ-hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi. Buraya verilənlərin saxlanması, mühafizəsi, informasiya təhlükəsizliyi, vətəndaşların məxfiliyi və s. təmin edilməsi kimi əsas məsələlər daxildir. Böyük verilənlər üzrə texnologiyaların aşağıdakı sahələrdə tətbiqi məqsədəuyğun hesab olunur: səhiyyə və əhalinin sosial müdafiəsi, şəffaflığın təmin olunması, ətraf mühit və dayanıqlı inkişaf, fövqəladə vəziyyətlərə və təbii fəlakətlərə reaksiya, nəqliyyat və energetika, təhsil və əmək resurslarının idarə edilməsi və inkişafı, yeni biznes sahələrinin və xidmətlərin yaradılması.

**Nəticə**

Məqalədə "Böyükhəcmli verilənlər"-in xarakteristikaları, mühafizəsi və emal olunma üsulları tədqiq olunmuş, Internet və mobil istifadəçilərin sayına görə MDB məkanında üstünlüyə malik olan, regionda dayanıqlı iqtisadi inkişafına görə ilk sırada yer alan Azərbaycanın dövlət idarəçiliyi siyasətinin formalaşdırılmasında "Böyükhəcmli verilənlər" texnologiyalarının tətbiqi sferaları araşdırılmışdır. Həmçinin, qabaqcıl ölkələrin dövlət idarəçiliyində "Böyükhəcmli verilənlər"-in istifadəsi təcrübələri, onların strategiyaları öyrənilmiş və ölkədə "Böyükhəcmli verilənlər" texnologiyalarının tətbiqinin prioritet sahələri müəyyənləşdirilmişdir.

**Ədəbiyyat:**


1. Cox M., Ellsworth D. Application-controlled demand paging for out-of-core visualization, Proceedings of the 8th conference on Visualization'97 (Cat. No. 97CB36155), October 18-24, 1997, Arizona, USA, pp. 235-244, doi: 10.1109/VISUAL.1997.663888.
2. Diebold F.X. Big Data dynamic factor models for macroeconomic measurement and forecasting, Eighth World Congress of the Econometric Society, August 11-16, 2000, Seattle, USA, pp. 115-122, http://www.ssc.upenn.edu/~fdiebold/papers/paper40/temp-wc.PDF.
3. Rəhimli R., Dövlət idarəçiliyinin rəqəmsal gələcəyi: Dünya trendləri və müasir dövlət qulluğu, 2020, cild 70, № 2, səh. 173-186.
4. Big Data, Big Impact: New Possibilities for International Development, 2012, 10p. https://www3.weforum.org/docs/WEF_TC_MFS_BigDataBigImpact_Briefing_2012.pdf
5. Horizon 2020 - The EU Framework Programme for Research and Innovation 2014-2020, ec.europa.eu/programmes/horizon2020
6. https://www.itu.int/dms_pub/itu-t/oth/23/01/T23010000220001PDFE.pdf
7. https://itlaw.fandom.com/wiki/Big_Data_Research_and_Development_Initiative
8. https://bigdatawg.nist.gov/pdf/bigdatardstrategicplan.pdf
9. https://president.az/az/articles/view/51299
10. Hacırəhimova M.Ş., Əliyeva A.S. İnkişaf etmiş ölkələrin "Böyükhəcmli verilənlər" ilə bağlı təşəbbüsləri. İnformasiya cəmiyyəti problemləri, 2017, №1, səh. 12-23.


***Açar sözlər:*** *böyük verilənlər, böyük verilənlər startegiyası, böyük verilənlər analitikası, dövlət idarəçiliyi, süni intellekt*

**Elvin Azizbayov**
*Head of the Department of Control for Intelligent Systems*
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Doctor of Philosophy in Mathematics, Associate Professor*

**Gulnar Mirzayeva**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*The Department of Control for Intelligent Systems*
*Doctor of Philosophy in Mechanics, Associate Professor*

## BIG DATA STRATEGIES IN PUBLIC ADMINISTRATION

### ABSTRACT

The article investigates the characteristics, methods of protection, and processing of "Big Data," the application of the results obtained by analyzing the collected data to ensure citizen satisfaction, and the application of "Big Data" technologies in Public Administration. The article also provides information on the history of the origin and development of the term "Big Data," analyzes the role of "Big data" in the policy of developed countries, studies the "Big Data" strategies of developed countries, and provides some recommendations on the use of these technologies in Azerbaijan.

***Keywords:*** *Big Data; Big Data strategy, Big Data analytics; Public administration, Artificial intelligence*

**Эльвин Азизбеков**
*Заведующий кафедрой Управления интеллектуальными системами*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по физико-математическим наукам, доцент*

***Гюльнар Мирзоева***
*Доцент кафедры Управления интеллектуальными системами*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по механике*

# СТРАТЕГИИ БОЛЬШИХ ДАННЫХ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

## РЕЗЮМЕ

Статья посвящена изучению характеристик, методов защиты и обработки «Больших данных», использованию результатов анализа собранных данных для обеспечения удовлетворенности граждан и применению технологий «Больших данных» в государственном управлении. В статье также представлена информация об истории возникновения и развития термина «Больших данных», проанализирована их роль в политике развитых стран, изучены стратегии «Больших данных» передовых стран и даны некоторые рекомендации по использованию этих технологий в Азербайджане.

***Ключевые слова:*** *большие данные, стратегия больших данных, аналитика больших данных, государственное управление, искусственный интеллект*

# SİYASİ NƏZƏRİYYƏ
# POLITICAL THEORY

UOT 327; UOT 341.24

**ЕЛЕНА КАСУМОВА**
**Доцент кафедры Политологии и политического управления**
**Академии Государственного Управления**
**при Президенте Азербайджанской Республики, доктор философии по истории**
*e-mail: elena.kasumova26@mail.ru*

## КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ СТРУКТУРЫ АЗЕРБАЙДЖАНСКОГО ПОЛИТИЧЕСКОГО ДИСКУРСА

Современная методология политической науки представляет собой квинтэссенцию различных концепций и подходов, позволяющих глубже понять сущность и иерархию политических процессов и их репрезентации на политическом поле. Политический процесс, как развертывание политики во времени и в пространстве в виде последовательности действий и взаимодействий, связан с конкретными лидерами, выдвигаемыми ими идеями и стратегиями достижения целей. Идеологическое и эмоциональное воздействие высказываний лидера позволяет проследить матрица дискурс-экспертизы политического текста. Возможности данной матрицы через анализ политического текста адекватно исследовать воздействующий на мобилизацию гражданского участия и общественное мнение потенциал делают дискурс-экспертизу крайне востребованным методом. Один из наиболее влиятельных философов и политологов XX века П. Бурде связывал политические слова с обязательствами политически ответственного агента, способного эти обязательства выполнить. Только при личной ответственности слово политика эквивалентно его действию (16).

Понятие «дискурс» происходит от латинского слова discursus, что означает «бег в разных направлениях». Необходимо подчеркнуть, что это «бег» не в противоположных, а именно, в разных направлениях, что позволяет дифференцировать смыслы в пространстве политической коммуникации. Постструктуралисты Р.Барт, П.Бурдье определили структуру матрицы дискурса, выполняющего информативную, аргументативную, контролирующую и убеждающую (персуазивную) функции (18). Матрица дискурса обладает структурой, объективированной в устной и письменной формах. Достоверность и объективность дискурса оценивает получатель. Французский постструктуралист М. Фуко писал: «Все, что совершается в общественной жизни, совершается в пространстве дискурса, слов, текстов. Власть производит дискурс, власть стремится его контролировать» (17, с.84).

Важные смысловые посылы лиц, принимающих решения, как векторные линии расходятся из системообразующего ядра центральной идеи и очерчивают поле политической коммуникации. Структура матрицы политического дискурса включает три элемента: идейный концепт как системообразующее ядро, метапрограмма как стратегия мышления лидера, последующее за метапрограммой структурирование конденсации смыслового посыла. Для политического лидера характерна своя мета-программа, отражающая особенности его личного понимание целей и ответственности (19, с.312).

В структуре азербайджанского политического дискурса системообразующим ядром выступает великая Победа во Второй Карабахской войне, достигнутая под политическим руководством Президента Азербайджана, Верховного Главнокомандующего Ильхама Алиева. Особо необхо-

димо выделить личную, ставшую символом Победы, ярко эмоционально окрашенную, патриотическую метапрограмму Президента Азербайджана, Верховного Главнокомандующего Ильхама Алиева. В телеобращении к нации 10 ноября 2020 года Президент Азербайджанской Республики Ильхам Алиев сказал: «Выражение «Карабах – это Азербайджан и восклицательный знак» уже стало символом нашей победы. Я сказал это год назад. Я горжусь тем, что мое высказывание уже превратилось в национальный лозунг» (7). Нет слов, которые могли прозвучать громче, убедительнее и красноречивее! Необходимо обратить внимание на завершение фразы – восклицательный знак!

Впервые Президент произнес фразу «Карабах – это Азербайджан и восклицательный знак» в октябре 2019 года на Валдайском политическом форуме, чтобы убедить участников форума и всю мировую общественность в лживости заявления премьер-министра Армении об исконной принадлежности Карабаха. Именно восклицательный знак сигнализировал национальной и международной аудитории конденсацию смысла – Азербайджан готов сражаться за Карабах и победа будет за Азербайджаном.

Метапрограмма «Карабах – это Азербайджан и восклицательный знак» получила развитие в выступлении Президента Ильхама Алиева на 76-й сессии Генеральной Ассамблеи ООН: «В Азербайджане больше нет административно-территориальной единицы под названием Нагорный Карабах. Призываю государства-члены ООН и Секретариат ООН при ссылке на наши территории не допускать использования не существующих с правовой точки зрения, предвзятых в политическом отношении названий, носящих манипуляционный характер». Президент добавил, что Азербайджан передал представительствам всех государств в ООН документы, включающие в себя информацию и фотоснимки, отражающие состояние городов и сел в Карабахе, разрушенных за годы армянской агрессии.

Политический дискурс всех телеобращений Президента Ильхама Алиева, сделанных в течение Второй Карабахской войны, синтезирует патриотическую эмоциональность, глубокую информативность и политическую рациональность. Синтез всех компонентов метапрограммы убеждал народ Азербайджана в скорой и сокрушительной победе. Политические мотивы, которые отражались в дискурсе – это не только цель Президента, но также цели и интересы всего народа. Глава государства напомнил, что за годы руководства Азербайджаном неоднократно заявлял, что не допустит создания на нашей земле второго армянского государства. «На территории Азербайджана нет территориальной единицы под названием Нагорный Карабах. Это слово, выражение вообще не должно употребляться» (11). В телеобращении от 10 ноября 2020 года Президент крайне эмоционально отметил, что в подписанных документах ничего не говорится об особом статусе: «Нет статуса, и не будет. Пока я президент, не будет статуса. Карабах – это Азербайджан» (7).

С первых же дней боевых действий мировые медиа проявляли повышенный интерес ко Второй Карабахской войне. Президент Ильхам Алиев принимал все просьбы на дачу интервью, потому что «считал нужным довести до внимания общественности как можно большего числа стран правду о ситуации: что происходит, в чем были причины конфликта, кто является оккупантом, а кто жертвой оккупации» (14). Дискурс-экспертиза ряда интервью Президента Азербайджанской Республики, Верховного Главнокомандующего Вооруженными силами Ильхама Алиева зарубежным средствам массовой информации раскрывает многие структурные компоненты азербайджанского политического дискурса. Остановимся на нескольких метапрограммах (выделено курсивом):

- *войну начала Армения*: «Единодушное мнение международных наблюдателей было таково, что Армения совершила нападение на нас. Они хотели ок-

купировать новые территории. Хотели захватить контроль над нашей стратегической энергетической инфраструктурой, расположенной в нескольких километрах от государственной границы с Арменией (12). В результате армянской военной провокации, которая началась утром 27 сентября, были подвергнуты массированному артиллерийскому обстрелу населенные пункты Азербайджана и наши боевые позиции. В результате этой агрессии 11 мирных жителей Азербайджана, включая двоих детей, погибли, также есть жертвы среди военнослужащих. Мы вынуждены были дать адекватный ответ агрессору (8). Это было третьей подряд военной провокацией против нас. Первая была совершена в июле. В то время они совершили нападение на армяно-азербайджанскую границу. Среди наших гражданских лиц и военнослужащих были потери. Вторая попытка произошла в августе. Армения отправила диверсионную группу, главаря которой мы задержали, он показал, что группа была направлена для совершения нападения на гражданских лиц. В третий раз – 27 сентября они подвергли тяжелой артиллерийской бомбардировке некоторые города и села, расположенные недалеко от линии соприкосновения. Мы ответили» (3).

- *Азербайджан не воюет против мирного населения:* «Никто не может сказать, что мы сбросили баллистическую ракету в то или иное место, где проживают гражданские лица, в Нагорном Карабахе или Армении (9). Нашей мишенью являлись только военные установки. Наши военные цели были установлены очень внимательно (4). В первый же день военных действий Президент Азербайджана Верховный главнокомандующий Ильхам Алиев дал очень жесткие указания военнослужащим, что будут строго наказываться те, которые позволят себе военные преступления (14).
- *Армения воюет против мирного населения:* город Тертер, расположенный очень близко к линии соприкосновения, подвергается бомбардировкам. Ежедневно на город сбрасывают 2000 снарядов (15). В Гяндже армяне нанесли удар по территории, где жили люди. Это было международным террористическим действием, еще одним проявлением армянской политики военных преступлений. Атаки на Гянджу нельзя оправдать, и они понесут ответственность за это (12).
- *Предел терпения Азербайджана был переполнен.* «Заявления руководства Армении о том, что Карабах – это Армения и точка, по существу означали выход из переговорного процесса. Поведение за столом переговоров состояло из попыток обмануть посредников и нас (14). Армяне делали переговоры бесконечными и пытались выиграть время, им удавалось это в течение 27 лет. Они хотели навсегда оставить наши земли под оккупацией. Наша позиция неизменна. Она основана на исторической правде и международном праве (1). Попытка Армении интернационализировать данный конфликт абсолютно не эффективна, разрушительна и опасна для многих стран. Статус-кво должен был быть изменен» (15).
- *Справедливая война Азербайджана*: «Наши солдаты погибают на исторической и признанной на международном уровне азербайджанской земле. Для нас это Отечественная война. Мы защищаем себя. Мы хотим восстановить нашу территориальную целостность, чтобы создать возможность для возвращения одного миллиона переселенцев. А на какой земле умирают армянские солдаты? Они умирают в Физули, Джебраиле, на других азербайджанских территориях. Что они там делают?» (9).
- *Международное право.* «Право на самоопределение является важным фак-

тором международного права. Однако оно не должно нарушать территориальную целостность Азербайджана. Представьте себе, что произойдет, если армяне будут самоопределяться повсюду, где они живут, сколько мини-Армений в мире тогда образуется. Это подход, который дает обратный эффект» (10).

- *Истоки победы:* мы – сильная страна и воюем на своей земле. Мы восстанавливаем признанную на международном уровне территорию Азербайджана, его территориальную целостность. Мы выполняем резолюции Совета Безопасности ООН, требующие вывода армянских войск с нашей территории, однако игнорируемые Арменией на протяжении, можно сказать, 30 лет. Мы уже выполнили основные принципы урегулирования, предложенные Минской группой ОБСЕ, которые фактически требовали освобождения оккупированных территорий Азербайджана (5). Наше государство обладает твердой волей, у нас мощная армия. Именно поэтому подлые нападения не смогли сломить нашу волю. Наша цель – защитить наш народ, страну и отстоять наше право жить на своей земле (15). В условиях независимости появились новые люди – патриоты, сильные, как морально, так и физически» (13).
- *Боевая сила Азербайджана.* «Нам удалось в первый же день прорвать первую линию обороны противника, и после этого все 44 дня мы шли только вперед. В течение этих 44-х дней мы сформировали еще один армейский корпус. Мобилизация личного состава этого корпуса была осуществлена всего за два дня. Мы создали очень мощную военную составляющую, и Вторая Карабахская война это показала (14). За время тридцатилетней оккупации Армения соорудила на захваченных территориях очень прочные укрепления. Поэтому перейти линию соприкосновения было нелегко. Однако мы сделали это, на различных направлениях – на севере, юге. Это демонстрирует высокое мастерство и потенциал Азербайджанской армии» (2).
- *Роль Турции:* «У каждой страны может быть партнер или союзник. Азербайджан и азербайджанский народ очень счастливы, что у нас такой партнер, союзник как братская страна Турция (15). Турция сказала: Мы находимся рядом с Азербайджаном и до конца будем рядом с ним. Это стало предупреждением и многим другим акторам. Поэтому Турция обязательно должна участвовать в последующем мирном процессе (13). Турция играет в регионе стабилизирующую роль. Однако, военного участия Турции нет. Турция никак не участвует в процессе, за исключением политической плоскости (12).
- *Итоги победы:* «Достоинство азербайджанского народа восстановлено. Кровь наших шехидов не осталась неотомщенной. Мы достигли всех заявленных мною целей. Восстановление нашей территориальной целостности, возвращение наших земель было моей главной задачей как Президента. Самоотверженность азербайджанского народа в очередной раз показывает, что мы – великий народ, мы продемонстрировали единство, и это единство еще больше усилит нас, сделает нашу страну еще более могучей (6).

Послевоенное развитие Азербайджана связано с проводимыми Президентом Ильхамом Алиевым реформами системы государственного управления в регионах. Дискурс – экспертиза этого направления очень широка: от систематизации общественного контроля и гражданских инициатив, до механизмов формирования положительного инвестиционного климата в сфере малого и среднего бизнеса сельских районов. Азербайджанский политический дискурс обладает огромным научно-практическим

потенциалом, обусловленным как сложившейся отечественной практикой государственно-гражданских отношений, так и реалиями общественно-политической жизни страны.

**Литература:**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-ой ə “Əl-Cəzirə” televiziya kanalına müsahibə verib. 02 oktyabr 2020. https://president.az/az/articles/view/41429
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının kanlına "Fox News"" televiziya kanalına müsahibə verib. 25 oktyabr 2020. https://president.az/az/articles/view/44279
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına müsahibə verib. https://president.az/az/articles/view/45111
4. İlham Əliyev “France 24” televiziya kanalına müsahibə verib 14 oktyabr 2020. https://president.az/az/articles/view/43037/videos
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. https://president.az/az/articles/view/45475
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da “BBC News” müsahibə verib. https://president.az/az/articles/view/45845
7. İlham Əliyev xalqa müraciət edib.10 noyabr 2020. https://president.az/az/articles/view/45924
8. İlham Əliyev “Rossiya -1” telekanalının “60 dəqiqə” proqramında sualları cavablandırıb. https://president.az/az/articles/view/41172
9. İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. 10 oktyabr 2020. https://president.az/az/articles/view/42449
10. İlham Əliyev Yaponiyanın “Nikkei” qəzetinə müsahibə verib. 21 oktyabr 2020. https://president.az/az/articles/view/43836
11. Prezident İlham Əliyev: Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. 24 sentyabr 2021. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Azerbaycanda
12. Prezident İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi. 24 oktyabr 2020/ https://president.az/az/articles/view/44170
13. Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib. 24 noyabr 2020.https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Turkiyenin_TRT_Haber_televiziya_kanalina_musahibe_verib
14. Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" (“Milli müdafiə”) jurnalının may buraxılışında İlham Əliyevin müsahibəsi dərc olunub. https://president.az/az/articles/view/38065
15. 9 октября в передаче «The Connect World» телеканала CNN International транслировалось интервью Президента Азербайджанской Республики Ильхама Алиева. https://aznotary.az/storage/464/
16. Бурдьё.П. Политическое представление. Элементы теории политического поля.\ Социология социального пространства. М., 2005. https://gtmarket.ru/library/articles/3047
17. Фуко М. Нужно защищать общество. — СПб.: Наука. 2015
18. Elements for a Structural Constructivist Theory of Politics . Niilo Kauppi. Harvard University http://aei.pitt.edu/9048/1/Kauppi104.pdf
19. George Nyabadza. The lived experience of the strategic leader: what effective CEOs do, how they do it and an exploration into how they think about it. VDM Verlag. (19 Jun. 2009).


***Ключевые слова:*** *политический процесс, политический дискурс, Вторая Карабахская война, метапрограмма*

**Yelena Kasumova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

## AZƏRBAYCAN SİYASİ DİSKURSUNUN STRUKTURUNUN KONSEPTUAL ƏSASLARI

### XÜLASƏ

Məqalədə siyasi mətnin ideoloji və emosional təsirini öyrənmək üçün aktual metod kimi siyasi diskurs matrisi təhlil edilir. Siyasi diskursun strukturuna üç element daxildir. Diskursun ideoloji konsepsiyası sistemi formalaşdıran nüvəni təşkil edir. Azərbaycan siyasi diskursunun strukturunda İkinci Qarabağ Müharibəsində əsas özəyi Qələbə təşkil edir. Liderin düşüncə strategiyası metaproqramlar yaradır və təsirin semantik messencerlərini strukturlaşdırır. Məqalədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xarici KİV-ə verdiyi silsilə müsahibələrin diskurs matrisi təhlil edilir. Azərbaycan siyasi diskursu böyük elmi-praktik potensiala malikdir və ölkənin ictimai-siyasi həyatının reallıqlarını əks etdirir.

***Açar sözlər:*** *siyasi proses, siyasi diskurs, İkinci Qarabağ müharibəsi, metaproqram*

**Elena Kasumova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*The Department of Political Science and Political Management*
*Ph.D. in History, Associate Professor*

## CONCEPTUAL FOUNDATIONS OF THE STRUCTURE OF AZERBAIJANI POLITICAL DISCOURSE

### ABSTRACT

The article analyzes the matrix of political discourse as an actual method of studying a political text's ideological and emotional impact. The structure of political discourse includes three elements. The ideological concept of discourse forms a system-forming core. The Victory in the Second Karabakh War is the system-forming core of the structure of the Azerbaijani political discourse. The leader's thinking strategy creates metaprograms and structures semantic messages of influence. The article analyzes the discourse matrix of a number of interviews of the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev, with foreign mass media. The Azerbaijani political discourse has substantial scientific and practical potential and reflects the realities of the country's socio-political life.

***Keywords:*** *political process, political discourse, Second Karabakh war, metaprogram*

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 327

**ZÜMRÜD MƏLİKOVA**
**Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: zumrud.melik@gmail.com*

# AZƏRBAYCAN-ERMƏNİSTAN DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI VƏ DEMARKASİYASI MƏSƏLƏSİ: SİYASİ VƏ HÜQUQİ ASPEKTLƏR

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan, Rusiya və Ermənistan arasında keçirilən üçtərəfli görüşlərdə yolların açılması ilə yanaşı, təhlükəsizlik, sərhədlərin delimitasiyası, gömrük, sanitariya, fitosanitar və digər sahələrə aid məsələlər müzakirə olunmaqdadır. Lakin danışıqlar fonunda səslənən bəyanatlar, SSRİ dağıldıqdan və torpaqlarımız Ermənistan tərəfindən işğal olunduqdan sonra kəsilmiş əlaqələr ikitərəfli münasibətlərin normallaşdırılması məsələsində kəskin problemlərin olduğu reallığını ortaya qoyur. Azərbaycan beynəlxalq hüququn prinsipləri, xüsusilə də dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında Ermənistanla münasibətlərin normallaşdırılmasına hazırdır. 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci ildə imzalanmış üçtərəfli bəyanatların icrası da elə məhz buna xidmət edir [1]. Ermənistanla dövlət sərhədimizin delimitasiyası və demarkasiyası prosesi ən mübahisəli, həm Azərbaycan, həm də erməni ictimaiyyətində geniş müzakirə olunan məsələlərdəndir.

Siyasi ədəbiyyatlarda və beynəlxalq hüquqda qeyd olunduğu kimi, delimitasiya prosesi qonşu dövlətlərlə sərhəd xətlərinin müəyyən edilməsinin ilk mərhələsidir. Delimitasiya prosesi zamanı bir qayda olaraq, böyükmiqyaslı xəritələr üzərində relyef, hidroqrafiya, yaşayış məntəqələri ətraflı göstərilir. Bu proses yekunlaşdıqdan sonra dövlət sərhədi xətti ilə bağlı müqavilə imzalanır. Delimitasiya dövlət sərhədlərinin yaradılması və ya dəyişdirilməsinə dair sülh müqavilələrinin və ya xüsusi razılaşmaların ayrılmaz hissəsidir. Delimitasiya prosesi çərçivəsində tərəflər vahid xəritə üzrə sərhəd xəttini müəyyən edirlər. Delimitasiya materialları sərhədi müəyyənləşdirməyin növbəti mərhələsi üçün, yəni torpaq üzərində çəkmək (demarkasiya) üçün əsas rol oynayır. Demarkasiya dövlət sərhədinin müəyyənləşdirilməsinin ikinci mərhələsi olub əvvəldən hazırlanmış delimitasiya müqaviləsinə və ona əlavə olunan xəritə və təsvirlərə uyğun şəkildə dövlət sərhəd xəttinin yerində müəyyənləşdirilməsi və qeyd edilməsidir [2]. Sərhədlərin delimitasiyası haqda sənədlər əsasında isə xüsusi sərhəd nişanları quraşdırılmaqla dövlət sərhədi çəkilir və bununla da sərhədin demarkasiyası gerçəkləşir. Demarkasiya işləri aparılarkən ərazidə topoqrafik çəkiliş və ya aerofotoçəkiliş aparılır. Bunun əsasında isə sərhəd zolağının böyükmiqyaslı topoqrafik xəritəsi tərtib edilir, sərhəd nişanları (dirəklər, tikanlı məftillər və s.) quraşdırılır və onların topoqrafik koordinatları müəyyənləşdirilir. Sərhədin demarkasiyası zamanı bütün hərəkətlər üçün xüsusi sənədlər tərtib edilir: sərhəd xəttinin keçməsini və sərhəd işarələrini izah edən protokollar (bu işarələrin diaqramları və fotoşəkilləri protokollara əlavə olunur). Ermənistanla Azərbaycan arasında münaqişə nümunəsində delimitasiya sülh müqaviləsinin tərkib hissəsi kimi həyata keçirilə bilər.

Vətən müharibəsində zəfər əldə etdikdən sonra Azərbaycan Ordusu delimitasiya işlərinə başladı. Qeyd etmək lazımdır ki, Ermənistanla sərhəd Azərbaycan Respublikasının quru sərhədlərinin 38%-ni təşkil edir (AR-nin quru sərhədləri 2657,4 km, Ermənistanla sərhəd 1007,1 km-dir). Azərbaycan Respublikasının 8 eksklav ərazisi - Bağanis Ayrım, Bərxudarlı, Aşağı Əskipara, Yuxarı Əskipara, Qızıl Hacılı, Xeyrimli, Sofulu və Kərki kəndləri I Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal olunmuşdur [3].

SSRİ dağıldıqdan sonra Ermənistan və Azərbaycan sərhədlərinin demarkasiyası həyata keçirilmədi. I Qarabağ müharibəsindən sonra Azərbaycanın qərb sərhədlərinin böyük hissəsi erməni işğalı altında olmuşdur. II Qarabağ müharibəsi zamanı işğaldan azad edilən Zəngilan və Qubadlı rayonları, 10 noyabr üçtərəfli bəyanatına əsasən Ermənistanın geri qaytardığı Laçın və Kəlbəcər rayonlarına nəzarətini bərpa edən Azərbaycan Respublikası dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesinə başladı. Bu gün də dövlət sərhədi boyunca sərhəd nəzarəti infrastrukturunu qurmağa davam edir. Qeyd edək ki, Azərbaycan Vətən müharibəsi dövründə 1993-cü ildən işğal altında olan İran-Azərbaycan sərhədinin qərb hissəsinə nəzarətini geri qaytardı. Azərbaycan Ordusu 22 oktyabr 2020-ci ildə Zəngilan rayonundakı Ağbənd sərhəd zastavasını öz nəzarətinə qaytararaq Azərbaycan–İran sərhədinin 132 km-lik hissəsində dövlət sərhədini, oktyabrın 31-də isə İran sərhədindəki 4 sərhəd məntəqəsini bərpa etdi. Qondarma rejim de-yure Azərbaycan Respublikası ilə əvəz edildi. İndi sərhəd idarəçiliyi, Xudafərin su anbarı və su elektrik stansiyasının reallaşdırılması da daxil olmaqla müxtəlif məsələlərlə bağlı İranla əməkdaşlıq imkanları artdı [4].

Azərbaycan Ermənistanla dövlət sərhədinin delimitasiyasını rəsmi İrəvanın kapitulyasiyaya getməsindən və 10 noyabr bəyanatını imzaladıqdan sonra bəyanatın müddəalarına uyğun olaraq həyata keçirməyə başladı. Ermənistanla sərhəddə yerləşən avtomobil yollarının Azərbaycana məxsus hissəsində Azərbaycan silahlı qüvvələri Gorusdan Vorotana gedən yolun bir hissəsinə, Qapandan Aqaraka gedən yola, Azərbaycanın Zəngilan və Qubadlı rayonlarının ərazisi olan Şurnux kəndinin bir hissəsində öz nəzarətini bərpa etdi. Azərbaycan Ordusunun dövlət sərhədinin bir hissəsində nəzarətini bərpa etməsi Ermənistanın Sünik rayonundakı sərhədyanı ərazilərdə yaşayan əhalinin narazılığına səbəb olmuş, etirazçılar yolları blokadaya alaraq aksiyalar keçirmişlər. Sünik bölgəsində Azərbaycanla sərhəddəki gərginliyə münasibət bildirən baş nazir Paşinyan: “Ermənistan beynəlxalq səviyyədə tanınmış sərhədlərinə qayıdır” demişdir. 2020-ci ilin dekabrında Azərbaycan Ordusu Ermənistanın Cermux vilayəti əhalisinin sovet dövründə otlaq sahələri kimi istifadəsinə icazə verdiyi əraziləri nəzarətə götürməklə öz beynəlxalq sərhədlərinin demarkasiyasını həyata keçirib Zəngəzurda bu istiqamətdə 25 km irəlilədi [5]. Azərbaycan hərbçiləri Zəngilanla Qafan arasında yerləşən Azərbaycana məxsus yüksəklikləri də nəzarətə alaraq Qafanın 13 kəndinə vizual nəzarət edirlər.

Çətin və dağlıq relyef, sərt iqlim şəraitində çalışan Azərbaycan hərbçiləri 2021-ci ilin yazında dövlət sərhədinin delimitasiyası işini davam etdirərək mayın əvvəllərində Zəngəzurda Qara göl ətrafında hərbi hissə yaradıb gölü nəzarətə götürdülər. Ermənilər bunu ərazilərinə müdaxilə kimi qiymətləndirsələr də, Rusiya sülhməramlı kontingentinin komandanı R.Muradovun səyləri nəticəsində kompromiss əldə olundu və 4 nəzarət postumuz göl ətrafında xidmətə başladı. Azərbaycan hərbçiləri yüksəklikdə, erməni hərbçiləri isə aşağıda mövqe tutdular. Qaragölün hansı tərəfə məxsusluğu ətrafında müzakirələrlə bağlı qeyd etmək istərdik ki, SSRİ dövründə Qaragöl Azərbaycana məxsus olmuş, sonra isə əkin sahələrinin suvarılması və maldarlıqla məşğul olan erməni əhalinin azərbaycanlılarla birgə otlaqlardan istifadəsinə icazə verilmişdir. Sovet hərbi xəritəsində bu ərazi Azərbaycana, sovet topoqrafik xəritəsində isə Ermənistana aid göstərilir. Ermənistan tərəf topoqrafik xəritəyə, Azərbaycan isə SSRİ SQ baş qərargahının xəritələrinə üstünlük verir. Həmin xəritələri hazırlayan sovet hərbi hissə komandiri, polkovnik-leytenant Q.A.Skvorçov olub. 1942-ci

ilə aid bu xəritə Rusiyanın məxfi hərbi sənədlərindəndir. Həmin xəritə sonradan yenidən hazırlanıb [6]. Bu zaman 1952 və 1954-cü illərdə çəkilən foto və materiallardan istifadə olunub. İkinci məxfi xəritə isə 1942-ci il variantının 1973-cü ildə yenilənmiş formasıdır. Xəritələrdən açıq-aydın görmək olar ki, Qaragöl Ermənistan sərhəddindən çox aralıda, xəritənin Azərbaycana aid olan hissəsindədir. Qaragöl və onun ətraf ərazisi tarixən Azərbaycan torpağı olmuş və 30 ilə yaxın davam edən işğaldan sonra hazırda tamamilə azad edilmişdir. AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin veb saytında qeyd olunub ki, ərazisi 240 hektar olan Qaragöl qoruğunun müasir vəziyyəti qənaətbəxş deyil. Ətraf çəmənliklər sistemsiz olaraq daim otarılmaqla bitki örtüyü korlanmışdır [7].

Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası və demarkasiyasında erməni tərəfini ən çox narahat edən "Zəngəzur dəhlizi" məsələsidir. Azərbaycan 2020-ci il 10 noyabr tarixli bəyanatın 9-cu bəndində uyğun olaraq Zəngəzur dəhlizinin tezliklə reallaşması yolunda fəaliyyətini genişləndirməkdədir [8]. İqtisadi layihə olan Zəngəzur dəhlizi böyük siyasi əhəmiyyət kəsb edir, Bakı ilə İstanbul arasında nəqliyyat "hub"ı rolu oynayır. Zəngəzur dəhlizi Bakı-Tbilisi-Qars dəmir yolundan 1,7 dəfə, təxminən 343 km qısadır. Zəngəzur dəhlizi regionda yeni nəqliyyat imkanları yaratmaqla Avropa ilə Asiyanın daha sıx birləşməsinin geosiyasi əhəmiyyətini artıracaq, həmçinin türk dünyasının əlaqələrini xeyli möhkəmləndirəcəkdir. 2021-ci il oktyabrın 26-da Azərbaycan və Türkiyə prezidentləri tərəfindən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulması Zəngəzur dəhlizinin reallaşması yolunda vacib addımdır. Bu dəhlizin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq, Bakını İstanbula və Avropaya bağlayan ən qısa nəqliyyat xətti reallaşmış olacaqdır. Bu layihə Ermənistan üçün də imkanlar yaradaraq onun iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin icrası barədə danışarkən "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik" [9] dedi.

Bu gün Azərbaycan–Ermənistan dövlət sərhədinin delimitasiyası və demarkasiyası məsələsinin həlli hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyır. Sərhədlərin hansı xəritə əsasında müəyyənləşdirilməsi ətrafında gedən müzakirələrə son qoyulmuşdur. Delimitasiya və demarkasiyanın hansı xəritə əsasında aparılacağı məsələsinə Azərbaycan, Ermənistan və Rusiyanın rəsmi mövqeyindən baxsaq görürük ki, əsasən sovet dövrünə aid hərbi xəritələr əsasında sərhədlərin müəyyənləşdirilməsi müzakirə olunur. 2021-ci il oktyabrın 22-də Valday beynəlxalq diskussiya klubunda müxbirlərin suallarını cavablandıran Rusiya prezidenti V.Putin Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası və demarkasiyası haqqında demişdir: "Ermənistan–Azərbaycan sərhədi Rusiya Federasiyasının baş qərargahının xəritəsi (keçmiş SSRİ xəritəsi nəzərdə tutulur) əsasında müəyyənləşdiriləcəkdir. Bu xəritələrə əsaslanaraq hər iki tərəf qarşılıqlı kompromiss tələb edən addımlar atmalı, ərazi mübadiləsi aparılmalıdır. Bu hər iki tərəf üçün qəbulolunan və sərfəli olmalıdır. Ermənistanla Azərbaycan arasında münaqişənin həllinə imkan verən, bu dövlətlərin sərhədlərinin qarşılıqlı tanınması yolunda, habelə Cənubi Qafqazda sabitlik atmosferi və qarşılıqlı etimadın yaranması üçün baza şərt məhz sərhədlərin delimitasiyası və demarkasiyası məsələsidir. Beynəlxalq hüquq və ərazi bütövlüyü prinsipi nöqteyi nəzərindən iki Cənubi Qafqaz dövləti arasında sovet sərhədlərinin bərpa edilməsi obyektiv və irəliyə atılmış doğru addımdır"[4].

Ermənistanda Zəngəzur mahalının Azərbaycanın nəzarətinə keçə bilməsi ilə bağlı narahatlıq var. Erməni müxalifətinin və baş nazir Paşinyana qarşı olan digər qüvvələrin fikrincə, sərhədlərin delimitasiyası Zəngəzurun Azərbaycanın nəzarətinə keçməsi ilə nəticələnə bilər. Ermənistandakı hakim və müxalif siyasi xadimləri birləşdirən anti-Azərbaycan nifrət ritorikası kövrək normallaşma prosesini risk altına alır. Ermənistan beynəlxalq humanitar hüquq, habelə üçtərəfli bəyanat çərçivəsində

götürdüyü öhdəliklərini yerinə yetirməli və əlavə insan itkisinin qarşısını almaq üçün minalanmış ərazilərin xəritələrini təqdim etməlidir. Ermənistan baş naziri Paşinyan sərhədlərin delimitasiyası və demarkasiyasının sovet dövrü hərbi xəritələri əsasında aparılacağını və bu xəritələrin əllərində olan xəritələrə 98% uyğun olduğunu bildirmişdir.

Azərbaycan prezidenti İlham Əliyev delimitasiyanın beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipi əsasında həyata keçirilməli olduğunu bildirmişdir: "Ermənistanın inkişafı üçün yeganə yol var - öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək, Dağlıq Qarabağ sözünü ümumiyyətlə işlətməmək. Çünki Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur". Prezident Ermənistanın sülh sazişini imzalamaqla Azərbaycanın ərazi bütövlüyünü tanımalı olduğunu və ardınca sərhədlərin delimitasiyası və demarkasiyası prosesini başa çatdırmaq üçün konstruktiv mövqe nümayiş etdirməli olduğunu qeyd etmişdir[10]. Azərbaycan prezidentinin mövqeyi dəyişməz olaraq qalır: Qarabağda yaşayan 25 min erməniyə status tələb edən Ermənistan 1990-cı illərdə münaqişə başlayarkən Ermənistandakı öz dədə-baba torpaqlarından qovulan yüz minlərlə azərbaycanlının Zəngəzura, Göyçəyə qayıtmasına da razı olmalı, onlara status vermək haqqında düşünməlidir. Regiona ədalətli sülh yalnız o halda gələ bilər. Azərbaycan dövlətinin xoşgörülü siyasəti sayəsində ermənilər də digər etnik qruplar kimi bərabərhüquqlu vətəndaş olaraq Azərbaycan torpaqlarında yaşaya bilərlər, amma heç bir dövlət öz tarixi ərazilərində 25 min nəfərlik etnik azlığa ayrıca bir status verməyə razı olmaz. Xankəndidə olan, ancaq Yerevandan idarə olunan separatçı rejimin Azərbaycan dövlətinə qarşı düşmənçilik siyasəti də ortadadır. Bakı Qarabağda yenidən potensial münaqişə ocağının yaranmasına razı olmayacaq. Xankəndidə də Azərbaycanın suverenliyi təmin edilməli, bölgə separatçılardan təmizlənməlidir. Ermənilər Zəngəzur dəhlizinin açılmaması, regionda normallaşmanın baş verməməsi durumunda Laçın dəhlizinin də bağlanmasının qaçınılmaz olacağını anlamalıdır. Prezident İlham Əliyev: "Biz Zəngilan və Qubadlı rayonlarının ərazisində ermənilərə 21 km uzunluğunda yolumuzdan istifadə etməyə icazə veririk. Həmin yol Azərbaycan ərazisindədir və əvvəllər ermənilər tərəfindən istifadə edilib. Biz buna mane olmadıq, ancaq müharibə dövründə işğal altında saxladıqları ərazilərdə bizə bir metr irəli hərəkət etməyə icazə verirdilərmi? Xeyr. Yəni, bütün bunlar birtərəfli qaydada atılmış addımlardır" söyləmişdir. Azərbaycan Respublikası İrəvan xanlığı, Zəngəzuru öz torpaqları saysa da Ermənistan Respublikasına qarşı torpaq iddiası irəli sürmür. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır" bəyan etmişdir [4].

Nəticə etibarilə, SSRİ dağılandan sonra onun yerində müstəqilliyini elan edən bütün respublikalar ərazilərini sovet xəritələri əsasında müəyyən etdilər. Hətta Rusiya Federasiyası da öz ərazisini həmin xəritəyə uyğun formalaşdırıb, qonşularla sərhədini SSRİ-nin xəritəsi əsasında müəyyənləşdirdi. Baltikyanı respublikalar – Latviya, Estoniya və Litvanın əraziləri, Kalininqradın Rusiyanın vilayəti olaraq qalması da həmin xəritə əsasında müəyyənləşdirildi. Başqa sözlə, həmin xəritə beynəlxalq hüquqi aktdır. Əks halda tamam başqa mənzərə yaranardı. Sonradan adlarına müttəfiq respublika yaradılan bir sıra etnosların heç vaxt yerləşdikləri regionda dövləti olmayıb. Onlardan biri də erməni etnik qrupudur. Odur ki, keçmiş sovetlərdən əvvəlki dövr əsas götürülsə idi, o zaman Ermənistan Azərbaycanın tərkibində bir region olardı. Lakin postsovet respublikaları SSRİ xəritəsi əsasında dövlət sərhədlərinin müəyyənləşməsini məqbul saydılar. Bu həm də yeni münaqişələrin yaranmasından yayınmağa yardım edərdi. Bununla belə, bəzi postsovet respublikalarının bir-birinə qarşı ərazi iddiaları qalmaqdadır.

Leybnisin varlıq təlimi Elmi inqilabın nəticəsində formalaşmış təbiətşünaslıq tərəfindən fəlsəfi-mücərrəd təfəkkürün tənqidinə cavab kimi dəyərləndirilə bilər. Belə ki, eksperimental-riyazi metoda əsaslanan təbiətşünaslığın yaranması, eksperiment və riyaziyyatla birbaşa əlaqəli olan elmi biliyin yeni modelinin formalaşmasına səbəb olmuşdur. Artıq dövrün görkəmli alimləri mücərrəd-nəzəri fəlsəfəyə skeptik yanaşır, onu faydasız mücərrəd nəzəriyyələrin konqlomeratı və bəhərsiz spekulyativ düşüncələrin məcmusu adlandırırlar. Lakin Leybnisin fikrincə, fəlsəfənin mücərrəd əsası kimi çıxış edən metafiziki prinsiplər istər adi, istərsə də elmi biliyin əsaslandırılması üçün zəruridir. Məhz buradan çıxış edən filosof, insan biliklərini, onların həm ümumiləşdirmə dərəcəsinə, həm də mücərrədlik səviyyəsinə görə təsnif edərkən yazırdı: “Anlayışların, yaxud ideyaların üç dərəcəsi mövcuddur: adi, riyazi və metafiziki anlayışlar” (9, 211). Onun fikrincə, elmi anlayışların xüsusi növü kimi çıxış edən metafiziki kateqoriyalar elmi biliyin fundamental elementləri olub təcrübi biliklərlə ziddiyyət təşkil etmirlər: “Bütün xüsusi hadisələr, onları başa düşənlər

tərəfindən riyazi və mexaniki cəhətdən izah edilməsinə baxmayaraq, həm təbiətin, həm də mexanikanın özünün cismani əsasları həndəsi deyil, daha çox metafiziki səciyyə daşıyır" (10, 144). Beləliklə filosof, riyazi-eksperimental elmlərin inkişafını əsas götürüb mücərrəd-metafizik fəlsəfi nəzəriyyələrin lazımsızlığını iddia edənlərlə qəti razı olmadığını bildirmiş, dövrün elmi nailiyyətləri ilə səsləşən varlıq konsepsiyası yaratmışdır.

Leybnisin ontoloji təliminə görə, bütün gerçəklik sonsuz sayda substansiyalardan təşkil olunmuşdur. O, bu substansiyaları "entelexiya", "substansional formalar", "formal atomlar", "fəal güclər", "mənəvi atomlar", yaxud "monadalar" adlandırmışdır. Antik atomizmdən fərqli olaraq monadalar cismani deyil, mənəvi təbiətə malikdir. Bütün mövcudluq ya monadadır, ya da monadaların məcmusudur: "Monada... başqa bir şey olmayıb sadə substansiyadır və mürəkkəb olanların tərkibinə daxildir; sadə, deməli tərkib hissəsinə malik olmayan... hissə olmayan yerdə isə, nə yertutum var, nə də fiqur və bölünmə mümkün deyil. Elə bu monadalar da təbiətin gerçək atomlarıdır, bir sözlə şeylərin elementləridir" (10, 413).

Monadalardan təşkil olunmuş dünya R.Dekart və B.Spinozanın təlimlərində olduğu kimi passiv və şəxssiz olmayıb dinamik və fərdiləşmişdir. Çünki sırf fiziki olmayıb mənəvi səciyyə daşıyan monadalar dünyanın fəal başlanğıcı, onun həyat qüvvəsinin mərkəzidir. Monadaların sonsuz sayda olması ilə yanaşı həm də fərdi olmaları səbəbindən dünyanın sırf kəmiyyət-mexaniki şərhi yetərli olmur. Burdan da dünyanın keyfiyyət baxımından interpretasiyasına ehtiyac yaranır. Bu amil Leybnisin varlıq təliminin güclü cəhəti olub, həmin dövrdə hökmran paradiqma kimi çıxış edən mexanisizmə qarşı yönəlmişdir. Belə olduqda dünyanın quruluşu nəinki dinamik, həm də iyerarxik və təşkilatlanmış kimi təqdim olunur.

Leybnis monadaların iyerarxiyasını, onların təkcə fəal olması ilə deyil, digərlərini "qavraması" ilə müəyyənləşdirir. "Monadalar sanki ikiüzlüdür: canatım (apetitio) və qavrayış (perceptio) – bu onlarının həyatının iki cəhətidir" (5, 308). Beləliklə, yaranan monadalar dünyanı qavranılmasının aydınlıq dərəcəsinə görə iyerarxiya təşkil edirlər.

İyerarxiyanın birinci pilləsində sadə, yaxud "çılpaq (nues)" monadalar dayanır. Sadə monadalar yalnız passiv qavrama qabiliyyətinə malik olub fiziki cisimləri əmələ gətirirlər. Bu monadalar cansız təbiətlə yanaşı, canlı təbiətin də bəzi elementlərini əmələ gətirirlər. Yəni onların sırf cansız təbiəti əmələ gətirdiyini fərz etmək doğru deyil. Sadə monadalar mexanika qanunları üzrə Allah tərəfindən idarə olunurlar.

İyerarxiyanın ikinci pilləsində duyğu və canlı seyrə malik monada-canlar dayanır. Belə monadalar tutqun təsəvvürlərə malik olub əsasən heyvanlar sinfini əmələ gətirir. İyerarxiyanın üçüncü pilləsində əbədi həqiqətləri dərk edə bilən monada-ruhlar dayanır. Onları həm də zəkalı insan monadaları adlandırmaq olar. "Zəruri və əbədi həqiqətlərin dərki bizləri sadə heyvanlardan fərqləndirir və bizləri zəka və elmlərə yiyələnməyə çatdırır... Və bu bizdə zəkalı can, yaxud ruh adlanır". (10, 418) Leybnis belə hesab edir ki, bu monadalar ədalətin mənəvi qanunları üzrə Allah tərəfindən idarə olunur. Nəhayət, monadalar iyerarxiyasının zirvəsində ilkin, yaxud ali monada – Allah dayanır: "...bu ali substansiya olub vahid. ən ümumi və zəruridir, belə ki, Ondan kənarda Ondan asılı olmayan heç nə yoxdur" (10, 419).

Allahın yaratdığı monadalar özünəkafidirlər. Hər bir monada özünə qapalı dünya olub kənardan heç bir təsirə məruz qalmır: "...monadalar, vasitəsilə nəyinsə oraya daxil olacağı, və oradan çıxacağı pəncərəyə malik deyillər" (10, 414). Leybnisin monadalar təlimini insanı mikrokosmos kimi təfsir edən antik konsepsiyalarla müqayisə etsək, deyə bilərik ki, hər bir monada mikrokosmos, Yaradan isə makrokosmosdur.

Leybnisin təklif etdiyi "öncədən müəyyənləşdirilmiş harmoniya" prinsipinə əsaslanaraq R.Dekartın üzləşdiyi psixo-fiziki parallelizm problemini, yəni can və bədənin əlaqəsi problemini həll etmişdir: "onlar filosof üçün əqrəblərinin hərəkəti Allah tərəfindən müəyyən-

ləşdirilmiş, parallel gerçəkləşən və saat mexanizmlərinin heç bir təsirini tələb etməyən iki saat kimi fəaliyyət göstərirlər... Leybnisdə mexanisizm teleologiya ilə sıx surətdə birləşdirilir: fizika mexaniki, metafizika isə məqsəd səbəblərini öyrənir" (11, 54).

Beləliklə, Yeni dövrün rasionalist sələflərinin substansiya haqqında təlimlərini inkişaf etdirən Leybnis, dünyanın, artıq formalaşmış elmi mənzərəsinə daha yaxın olan, bununla belə, dünyanın metafiziki mənzərəsini inkar etməyən orijinal varlıq konsepsiyası yaratmışdır.

Yuxarıda deyilənləri aşağıdakı kimi ümumiləşdirmək olar.

Yeni dövr fəlsəfəsində ontoloji problemlərə olan marağın azalması əsasən böyük coğrafi kəşflər və sənaye inqilabı nəticəsində təbiətşünaslıq elmlərinə tələbatın artması və bu da öz növbəsində fəlsəfi tədqiqatların episentrinə qnoseoloji problemlərin gətirilməsinə səbəb olmuşdur. Bununla belə, rasionalist fəlsəfi sistemlər çərçivəsində bir sıra ontoloji konsepsiyalar formalaşmışdır. R.Dekart, B.Spinoza və Q.Leybnisin təklif etdiyi ontoloji konsepsiyalar xüsusilə fərqlənir. Onların varlıq təlimi də əsasən Yeni dövrün fəlsəfi axtarışlarının iki əsas probleminin həllinə: səhih, müəyyən biliyin əldə edilməsi və dünyanın, yeni formalaşmaqda olan riyazi-eksperimental elmlərin verdiyi biliklərə zidd olmayan metafiziki mənzərəsinin hazırlanmasına yönəlmişdir. Ümumi rasionalist mövqedən çıxış etmələrinə və varlığın substansial konsepsiyalarını yaratmalarına baxmayaraq onların təlimləri bir-birindən fərqlənir: R.Dekart dualist, B.Spinoza monist, Q.Leybnis plüralist ontoloji konsepsiyalar yaradıb.

**Ədəbiyyat:**


1. Швырев В.С. Проблемы отношения науки и метафизики в современной англо-американской философии науки. / в кн. Проблемы и противоречия буржуазной философии 60-70-х годов XX века. – Москва: Издательство «Наука». – 1983. – с. 29-58
2. Розенвальд Ю.И. Феноменологическая онтология мюнхенско-геттингенской школы // Проблемы онтологии в современной буржуазной философии. – Рига: Зинатне. – 1988. – с.121-140
3. Бэкон Ф. Сочинение в 2-х томах. – т. I. . – Москва: Мысль. – 1971. – 590 с.
4. Фишер К. История новой философии: Рене Декарт. – М.: ООО «Издательство АСТ». – 2004. – 482 с.
5. Нарский И.С. Западно-Европейская философия XVII века. – Москва: «Высшая школа». – 1974. – 379 с.
6. Декарт Р. Сочинение в 2 т. – т.1. – Москва: Мысль. – 1989. – 654 с.
7. Калиниченко В.В. Онтологические основания научного познания. /в кн. Проблемы онтологии в современной буржуазной философии. – Рига: Зинатне. – 1988. – с. 44-61.
8. Спиноза Б. Сочинения. В 2-х томах. – т. I. – СПб.: Наука. – 1999. – 489с.
9. Лейбниц Г.В. Сочинения в 4-х т. – т.2. – Москва: Мысль. – 1983. – 686 с.
10. Лейбниц Г.В. Сочинения в четырех томах: . – т.1. – М.: Мысль. – 1982. – 636 с.
11. Батурин В.К. Онтология Г.В.Лейбница: целостный взгляд с позиций современной философии и науки. // Пространства и Время. – 2012. – №1 (7). – с.51-55.


***Açar sözlər:*** *varlıq, substansiya, dualizm, monizm, plüralizm*

**Fazila Aliyeva**
*Ganja State University*
*Ph.D. Candidate*

## THE ESSENCE OF ONTOLOGICAL CONCEPTIONS IN THE PHILOSOPHY OF MODERN TIMES

### ABSTRACT

The article deals with the problems of setting and solving ontological problems in the philosophy of modern times. It is noted that although the development of science during this period brought epistemological problems to the center of philosophical research, special attention within the framework of rationalistic systems was paid to ontological problems. From this point of view, the article analysis the formulation and solution of ontological problems in the philosophical systems of Descartes, Spinoza, and Leibniz and clarifies their significance.

***Keywords:*** *being, substance, dualism, monism, pluralism*

**Фазиля Алиева**
*Диссертант Гянджинского государственного университета*

## СУЩНОСТЬ ОНТОЛОГИЧЕСКИХ КОНЦЕПЦИЙ В ФИЛОСОФИИ НОВОГО ВРЕМЕНИ

### РЕЗЮМЕ

В статье рассматриваются проблемы постановки и решения онтологических проблем в философии Нового времени. Отмечается, что хотя развитие науки в этот период выдвинуло гносеологические проблемы в центр философских исследований, особое внимание в рамках рационалистических систем уделялось онтологическим проблемам. С этой точки зрения были проанализированы постановка и решение онтологических проблем в философских системах Декарта, Спинозы и Лейбница и выяснено их значение.

***Ключевые слова:*** *бытие, субстанция, дуализм, монизм, плюрализм*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

## T A R İ X
## H I S T O R Y

УДК 327..140.8

**ЛАМИЯ МАГЕРРАМОВА**
**Преподаватель кафедры «Истории Азербайджана и общественных наук» Бакинского Славянского Университета, докторант**
*email: konstitusiya2017@mail.ru*

## СТАНОВЛЕНИЕ И РАЗВИТИЕ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА В КОНЦЕ XX ВЕКА

Период завоевания государственной независимости являлся чрезвычайно ответственным и значимым в истории Азербайджана. Объединенный общенациональным лидером Гейдаром Алиевым, азербайджанский народ решительно встал на защиту целостности и суверенитета своего государства, выступил за торжество правовых норм, принятых и признанных мировым сообществом. Это осуществлялось благодаря своевременным, выверенным действиям Гейдара Алиева, его стратегическому и тактическому мышлению, веры в свое государство и свой народ. Вступая на высокую должность Президента страны, Гейдар Алиев дал клятву на Коране: «Клянусь достойно служить Азербайджанской Республике, азербайджанскому народу, стремиться к тому, чтобы наше независимое государство заняло достойное место среди цивилизованных государств мира» [3].

На следующий же день после передачи ему полномочий президента, у Гейдара Алиева состоялись важные переговоры и встречи, в том числе с представителями ближнего и дальнего зарубежья. Общенациональный лидер провел пресс-конференцию, на которой присутствовали и представители международных СМИ, встретился с послами Германии и Турции, принял американскую правозащитную группу по выполнению хельсинских соглашений по правам человека («Хельсинки-вотч»).

Азербайджан постепенно и последовательно развивал свою экономику, внедрял в жизнь демократические ценности, о нем, как независимом и развивающемся государстве, узнавали во всех уголках мира. Одной из важных примет возрождения Азербайджанской государственности стала реализация мирных инициатив Гейдара Алиева, направленных на справедливое урегулирование. Для общенационального лидера это являлось приоритетной задачей. На всех международных уровнях общенациональный лидер поднимал необходимость решения этой насущной для Азербайджана проблемы.

В связи с этим общенациональный лидер проводил работу по двум направлениям: одно – это формирование сильной, профессионально обученной национальной армии, создание регулярных Вооруженных сил, второе – задействование всех политических и дипломатических средств для достижения договоренности о прекращении огня. Как результат, уже в 1993 году, в разгар боевых действий Гейдару Алиеву удалось в корне изменить мнение мировой общественности об Азербайджане и роли Азербайджана в конфликте, результатом чего стали и 4 постановления СБ ООН, к слову, полностью проигнорированные Арменией.

Зарубежные визиты Гейдара Алиева – одно из важнейших направлений его внешней политики. Общенациональный лидер

проводил многочисленные встречи с руководителями государств и правительств, влиятельными политиками мира, выступал с трибун авторитетных международных организаций. С 1993 года Гейдар Алиев побывал практически во всех ведущих государствах мира и во многих из них не единожды. Именно этим мы обязаны тому, что тема справедливого урегулирования армяно-азербайджанского нагорно-карабахского конфликта была вынесена в центр внимания мировой общественности, что был наконец нарушен заговор молчания вокруг ситуации в Азербайджане и незыблемая, казалось бы, стена информационной блокады наконец рухнула.

Подписание в штаб-квартире НАТО в Брюсселе рамочного документа «Партнерство во имя мира», позволившего добиться дополнительных международных гарантий урегулирования конфликтов на Южном Кавказе, и историческую справку, обнародованную госдепом США в канун переговоров в Ки-Уэсте, в которой ситуация была наконец названа своими именами: в частности, признавалась оккупация азербайджанских земель армянской стороной, что было равносильно признанию Армении страной-агрессором. О том, что общественное мнение в мире меняется в пользу Азербайджана, свидетельствовал и тот факт, что представленную азербайджанской делегацией депутатам ПАСЕ Декларацию о геноциде азербайджанцев со стороны армян, помимо азербайджанских представителей, подписали еще 29 депутатов из 9 стран.

А еще раньше был Будапештский саммит 6-7 декабря 1994 г., где Гейдар Алиев выступил одним из самых активных реформаторов важнейшего структурного элемента ОБСЕ — Минской группы (сопредседателями которой стали Россия, Франция и США), а также встреча в верхах в рамках ОИК в Касабланке, на которой впервые Армения была признана международным сообществом государством-агрессором.

На будапештском саммите ОБСЕ стали очевидны первые результаты усилий Гейдара Алиева. Обе стороны – Азербайджан и Армения – согласились решать нагорно-карабахский конфликт в рамках международных договоров. И уже 5 мая 1994 года в Бишкеке такое соглашение было заключено, что имело для Азербайджана жизненно важное значение, поскольку давало передышку и возможность для маневра, позволяло собраться с силами, укрепить армию, упрочить положение на международной арене, начать правовые и демократические реформы; способствовало стабилизации обстановки в стране, а значит привлечению в экономику Азербайджана крупный иностранный капитал.

Таким образом, следовало начинать созидательную работу, возрождать разрушенную войной, руководителями-дилетантами и самой эпохой древнюю азербайджанскую государственность: делать первые шаги по пути, ведущему из тьмы к свету, из хаоса к порядку, из состояния разрухи, упадка к возрождению, из прошлого, полного архаичных, отживших идей и представлений, в будущее как время торжества демократии и процветания.

И конечно появилась возможность эффективно продолжать переговорный процесс. Благодаря усилиям и настойчивости Гейдара Алиева наметилось более действенное участие евроатлантических структур в урегулировании армяно-азербайджанского нагорно-карабахского конфликта, получила высокий международный статус Минская группа ОБСЕ. Вспомним резолюции Совета Безопасности ООН, историческое решение Лиссабонского саммита ОБСЕ. Одновременно неоднократно Гейдар Алиев в жесткой форме отчитывал постоянных членов Минской группы ОБСЕ за их пассивность.

Подлинным триумфом дипломатии Гейдара Алиева, отмеченной миролюбивым и в то же время принципиальным характером, диалогичностью и умением отстоять жизненно важные для страны принципы, стал Лиссабонский саммит ОБСЕ (декабрь 1996 г.), собравший правительства и

международные организации из 64 стран мира. Решения Лиссабонского саммита сыграли поистине историческую роль в судьбе не только Кавказского региона, но и всего мира, ибо они на исходе XX столетия провозгласили незыблемость принципов территориальной целостности государств и уважения прав национальных меньшинств в границах государств, в которых они проживают. Эти принципы обладают огромным потенциалом сдерживания агрессии сепаратизма, экспансии экстремизма, питающегося крайним национализмом и нетерпимостью по отношению к другим народам.

На Лиссабонском саммите во многом благодаря мудрости и принципиальности Гейдара Алиева – опытного политика и тонкого стратега – победила такая парадигма мироустройства, которая при ее реализации исключала любые возможности с помощью силы нарушить установившийся баланс в многополюсном мире.

«В своей речи на саммите Гейдар Алиев раскрыл для международной общественности подлинную сущность армяно-азербайджанского нагорно-карабахского конфликта. Трибуна саммита стала полем противоборства не просто двух президентов – Азербайджана и Армении, она явилась продолжением войны дипломатическими средствами. Довод на довод, вето на вето, а кто оказался сильнее, кто был прав? 53 голоса – за, 1 – против – это ответ. Причем, наши противники начали первыми наступление не только за несколько лет до этого, захватив 20 процентов территории Азербайджана, но попытались продолжить его и на легендарном европейском форуме» [2].

Но теперь нашу страну представляли уже не псевдолиберальные или некомпетентные руководители, на этот раз Азербайджан имел своего всенародно признанного лидера, который проявил твердую позицию, он, будучи выдающимся политиком, продемонстрировал отсутствие дипломатической двусмысленности, когда высказался против неконструктивной, отмеченной духом милитаризма позиции армянской стороны. Речь и пресс-конференция в Лиссабоне Гейдара Алиева, как и выступление перед азербайджанской общественностью по итогам саммита – это документы непреходящего исторического значения.

Стратегия внешней политики Гейдара Алиева была одобрена азербайджанским народом и зарубежными государствами. Вот какое мнение о Гейдаре Алиеве высказала обозреватель журнала «Новое время» В.Панфилова: «Не было бы Гейдара Алиева – не было бы и современного Азербайджана. Ни в Баку и республике, ни за пределами страны не найдется, пожалуй, ни одного человека, кто оспорил бы эту истину. Роль и значение общенационального лидера азербайджанского народа, одного из самых уважаемых политиков всего тюркского мира, настолько велики, что его жизненный путь, управленческая философия, уровень компетентности и влияния еще очень долго будут изучаться биографами и историками. Опыт Гейдара Алиева не только не потерял значения для жизни современного Азербайджана, напротив, с годами он становится еще более актуальным и значимым» [4].

О Лиссабоне можно говорить в прошедшем времени в историческом контексте, в политическом же плане он с нами — сегодня и всегда. За эти годы Гейдар Алиев провел колоссальную работу: на любом международном форуме, представительной встрече, независимо от того, какой тематике они были посвящены, он не упускал возможности, чтобы еще и еще раз напомнить, рассказать, разъяснить суть конфликта, в результате чего ему удалось развеять миф о «нехороших азербайджанцах», якобы притесняющих «многострадальных» армян.

Вопрос урегулирования армяно-азербайджанского нагорно-карабахского конфликта поднимался и на встречах с президентами США Биллом Клинтоном и Джорджем Бушем. «Я высоко ценю заслуги президента Гейдара Алиева в укреплении Азербайджана в последние годы в качестве независимого государства, идущего по пути

демократии и рыночной экономики, в проведении экономических реформ и достижении большого успеха в этом... Под руководством президента Гейдара Алиева Азербайджан добился значительного успеха в преодолении трудностей, с которыми сталкивается на пути независимости. В Соединенных Штатах желают продолжения этого успеха», – заявил Билл Клинтон [1]. Именно во время его президентства в 1997 году состоялся исторический визит Гейдара Алиева в США, положивший, по мнению многих американских политологов и экспертов, начало «новой стадии американо-азербайджанских отношений».

Гейдар Алиев стал одним из первых глав государств, выразивших соболезнование в связи с чудовищным террористическим актом, совершенным в США 11 сентября 2001 года. В своем письме он резко осудил террор и выразил готовность оказать помощь в выявлении и наказании виновных в произошедшем.

Вашингтонские встречи Гейдара Алиева позволили добиться динамики в урегулировании армяно-азербайджанского конфликта, нейтрализовать негативное влияние на перспективы американо-азербайджанских отношений пресловутой 907-й поправки к «Акту защиты свободы», реализовать стратегию Великого шелкового пути. Генри Киссинджер говорил: «Я верю в мудрость государственного деятеля Гейдара Алиева и знаю, что под его руководством Азербайджан еще больше укрепит и сделает вечной свою независимость. Дальновидная политика Гейдара Алиева приведет народ и страну к благоденствию, интенсивному развитию» [5]. Новым импульсом развития страны стало подписание в Вашингтоне трех нефтяных контрактов с фирмами «Эксон», «Мобил», «Монкрифойл», предусматривающих инвестиции на общую сумму 10 миллиардов долларов.

В данном русле складывались приоритеты внешней политики Азербайджана на этапе завоевания государственной независимости. Если говорить о дальнейшей интеграции в мировое сообщество, расширении инвестиционных возможностей и укреплении международных связей, то это направление развивалось по нарастающей. Очевидно, что миролюбивый курс Азербайджана снискал ему авторитет во всем мире. Наше молодое независимое государство не только провозглашало, но и неуклонно претворяло в жизнь миролюбивую политику по отношению ко всем государствам с различным общественным и социально-политическим устройством.

Принятие 12 ноября 1995 года парламентом Азербайджана новой национальной Конституции стало одним из крупных успехов Гейдара Алиева, и этот шаг заложил основу создания новой политической системы в нашей стране. Несмотря на попытки многих сил повернуть Азербайджан со взятого им курса, он успешно и стремительно продвигался в направлении строительства демократического, правового государства. Формирование демократической системы, а главное, обеспечение свободы слова и печати еще более сблизило Азербайджан с мировым сообществом.

Находясь на стыке интересов Севера и Юга, Запада и Востока, Азербайджан был открыт для взаимовыгодного сотрудничества со всеми странами мира, и никакое давление или чьи-то происки извне не могли этому помешать. Был выработан мощный нормативный потенциал во взаимоотношениях с зарубежными партнерами, что являлось очень важным фактором для укрепления позиции Азербайджана в мире. Пожалуй, единственной страной, с которой мы не имели дипломатических связей, была Армения.

Это – политический аспект. Не менее важными были и другие результаты внешнеполитических акций Гейдара Алиева, достигнутые им в ходе зарубежных визитов: интенсификация контактов в сфере экономики, энергетики и торговли, открытие инвестиционных «окон» для Азербайджана. расширение партнерства в области науки, образования, культуры, совместное осу-

ществление крупных проектов новых транснациональных транспортных коридоров, нефтепроводов, коммуникаций, связывающих Восток и Запад по новым, альтернативным маршрутам, в целом создание нормативно-правовой базы взаимовыгодного сотрудничества.

Целый ряд договоров, заключенных с иностранными государствами в экономических, производственных и финансовых областях – являлись по существу политическими пактами, обеспечившими независимость Азербайджана на этапе конца XX века. Именно этим целям: созданию единой семьи народов. объединенных общими экономическими, социальными и духовными интересами (а это и есть самая понятная и приемлемая для всех времен и народов политика!), служили дипломатические контакты Гейдара Алиева с Сулейманом Демирелем, Биллом Клинтоном, Гельмутом Колем, Жаком Шираком, Борисом Ельциным, Эдуардом Шеварднадзе. Хавьером Соланой, Жаком Сантером и многими другими руководителями зарубежных стран и крупнейших международных организаций. Жак Ширак говорил о Гейдаре Алиеве: «Эта необыкновенная личность вывела Азербайджан на путь прогресса. Я высоко оценил отвагу, мудрость и решимость, проявленные им во время наших различных встреч, особенно во время обсуждений вокруг нагорно-карабахского конфликта» [1].

Определяющим импульсом работы Гейдара Алиева в ходе официальных визитов являлось создание наиболее благоприятных условий для Азербайджана в системе международной политической конъюнктуры, привлечение новых инвестиций для возрождения его экономики, превращение его уникальных энергетических ресурсов, геополитического положения, духовных ценностей в гарантии мира и процветания для всех друзей й партнеров Азербайджана.

**Литература:**

1. Гейдар Алиев: выдающийся государственный деятель, политический гигант, историческая и легендарная личность // https://azertag.az/ru/xeber/Geidar_Aliev_vydayushchiisya_gosudarstvennyi_deyatel_politicheskii_gigant_istoricheskaya_i_legendarnaya_lichnost-949969
2. Ибрагимова Дж. Лиссабонский прорыв // Бакинский рабочий. 2 января 1997 г.
3. Инаугурационная речь Президента Азербайджанской Республики Гейдара Алирза оглу Алиева - Баку, дворец "Республика", 10 октября 1993 года // https://lib.aliyev-heritage.org/ru/66679364.html
4. Панфилова В. Формула успеха Гейдара Алиева // Независимая газета. – 2014. – 12 декабря.
5. Человек. Гражданин. Лидер // Известия. – 2003. – 24 апреля.

***Ключевые слова:*** *внешняя политика, дипломатия, мирное урегулирование, международное сообщество, официальные визиты, признание, возрождение, прогресс*

**Lamiyə Məhərrəmova**
*Bakı Slavyan Universitetinin "Azərbaycan tarixi və ictimai elmlər" kafedrasının müəllimi, doktorant*

# XX ƏSRİN SONLARINDA AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

## XÜLASƏ

Dövlətin xarici siyasəti onun həyat fəaliyyətinin ən mühüm sahələrindən biridir, inkişaf strategiyasının yaxın və uzaq perspektivlərini xarakterizə edir. "Azərbaycan müstəqil, demokratik, inkişaf edən dövlət kimi" məqaləsində XX əsrin sonlarında Azərbaycanın xarici siyasətinin formalaşması və inkişafının çətin və mühüm mərhələ olduğu açıqlanır. Qeyd edilir ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dünyanın ən böyük dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr qurmaqda mühüm nəticələrə nail olubdur.

Ölkəmizin başına gələn tarixi sınaqlara baxmayaraq, Azərbaycan ümummilli lider Heydər Əliyevin müdrik, fədakar fəaliyyəti sayəsində bu sınaqlardan şərəflə çıxmış, sürətlə inkişaf edən dövlətlər sırasında layiqli yerini tutmuşdur. Memarı Heydər Əliyev olan xarici siyasət, gənc Azərbaycan Respublikasının siyasətinin sarsılmaz bünövrəsi oldu. Məqalədə bu nailiyyətlərin salnamələrinin konkret nümunələri verilmişdir.

***Açar sözlər:*** *xarici siyasət, diplomatiya, sülh nizamlanması, beynəlxalq ictimaiyyət, rəsmi səfərlər, tanınma, dirçəliş, tərəqqi*

**Lamia Maharramova**
*Baku Slavic University*
*Ph.D. student, lecturer*

# FORMATION AND DEVELOPMENT OF THE FOREIGN POLICY OF AZERBAIJAN AT THE END OF THE XX CENTURY

## ABSTRACT

The state's foreign policy is one of the most important areas of its life, characterizing the development strategy for the near and long term. The article highlights a complex and important stage in Azerbaijan's foreign policy formation and development at the end of the 20th century. It is noted that under the leadership of national leader Heydar Aliyev, Azerbaijan has achieved impressive heights in establishing mutually beneficial relations with the world's largest countries.

Despite the historical trials that have befallen our country, Azerbaijan, thanks to the wise, selfless activities of the national leader Heydar Aliyev, has overcome them with honor and taken a worthy place among the rapidly developing states. The filigree foreign policy, the architect of which was Heydar Aliyev, became the indestructible foundation of the policy of the young Republic of Azerbaijan. The article provides specific examples of the annals of these accomplishments.

***Keywords:*** *foreign policy, diplomacy, peace settlement, international community, official visits, recognition, revival, progress*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Tələbələrimiz müsabiqədə fərqlənmə sertifikatına layiq görülüblər*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri "46-cı ICPC (International Collegiate Programming Contest) – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsinin regional mərhələsində (XVII Azərbaycan Birinciliyi) 4 komanda ilə təmsil olunub. Müsabiqənin nəticələrinə görə hər bir komandamız fərqlənmə sertifikatına layiq görülmüşdür.

Bakı Mühəndislik Universitetinin təşkilatçılığı ilə onlayn formada baş tutan müsabiqədə Azərbaycanın 24 ali təhsil müəssisəsindən hər komandada 3 tələbə və komanda rəhbəri olmaqla 87 komanda iştirak edib.

Komandalara 5 saat ərzində 14 alqoritmik məsələni C, C++, Java və ya Python proqramlaşdırma dillərində həll etmək tapşırığı verilib. Nəticələr sistem tərəfindən avtomatik olaraq qiymətləndirilib.

"46-cı ICPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsinin 2022-ci ildə keçiriləcək yarımfinal mərhələsində ölkəmizi təmsil edəcək komandaların adları yanvar ayında məlum olacaq.

Qeyd edək ki, "ICPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsi 1977-ci ildən mütəmadi olaraq keçirilir. 45-ci ICPC 2020-2021 statistikasına görə son müsabiqədə 115 ölkənin 3000-ə yaxın ali təhsil müəssisəsindən 60000-ə yaxın tələbə iştirak etmişdir. Azərbaycan Ali təhsil müəssisələrinin komandaları isə bu müsabiqədə 2005-ci ildən etibarən mütəmadi olaraq iştirak edirlər.

Müsabiqədə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını aşağıdakı komandalar təmsil etmişlər:

APA-1 komandanın rəhbəri: Musayeva İlahiyə (Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrası). Komandanın üzvləri: Əmir Ələkbərli, İlkin Ələkbərli, Asim Əlizadə.

APA-2 komandanın rəhbəri: Elvin Əzizbəyov (İntellektual sistemlərin idarə olunması kafedrası). Komandanın üzvləri: Taleh Məlikov, Leyla Əliyeva, Murad Əzimzadə.

APA-3 komandanın rəhbəri: Musayeva İlahiyə (Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrası). Komandanın üzvləri: Arzu Teymurova, Afət Ağayeva, Ramiz Vəliyev

APA-4 komandanın rəhbəri: Elvin Əzizbəyov (İntellektual sistemlərin idarə olunması kafedrası). Komandanın üzvləri: Əhməd Əhmədov, Səkinə Əlizadə, Rəfiqə Əlifova

## *Azərbaycan Respublikasının uğurları beynəlxalq elmi nəşrdə çap olunub*

2021-ci ildə SSRİ-nin süqutunun 30 illiyi münasibətilə Moskvada dünyanın müxtəlif ölkələrindən olan nüfuzlu ekspertlər, dövlət qurumları təmsilçiləri, ictimai və siyasi xadimlərin iştirakı ilə beynəlxalq forum keçirilib. Forumda Azərbaycanı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov təmsil edib. "Rusiya və dünya pandemiyadan sonra" başlığı altında keçirilən forum çərçivəsində Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının təşkilatçılığı ilə nəşr olunan "Postsovet məkanı ölkələrində dövlət idarəçiliyinin təkamülü" adlı informasiya-analitik toplunun təqdimatı olub. Toplunun təqdimatına hazırda Avropa İttifaqı üzvü

olan bütün postsovet ölkələrinin aparıcı idarəçilik məktəblərinin rəhbərləri qatılıblar. Qeyd edək ki, sözügedən topluda postsovet məkanında formalaşan müstəqil ölkələrin dövlət idarəçilik sistemlərinin inkişafına milli baxışlar əksini tapıb. Beləliklə, nəşrin başlıca məqsədi hər bir keçmiş SSRİ respublikasının son 30 ildə keçdiyi yolun dərk edilməsi, qazanılan nailiyyətlərin və dövlət idarəçiliyinin inkişaf perspektivlərinin dəyərləndirilməsidir. Azərbaycana həsr olunan analitik icmalı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov, Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının professoru Nizami Məmmədov, DİA-nın Tədris metodiki və analitika şöbəsinin müdiri professor Ziyafət Həbibova və Dövlət Qulluğu və kadr siyasəti kafedrasının müdiri dosent Rəcəb Rəhimli tərtib ediblər. Müəlliflər Azərbaycan haqqında ümumi tarixi, siyasi, mədəni, iqtisadi, sosial arayış təqdim etməklə yanaşı, beynəlxalq reytinqlərdə ölkənin uğurları ilə bağlı dəyərləndirmələri, dövlət və yerli idarəetmə sistemi, inzibati islahatlar və onların hüquqi, institusional təminatı, dövlət qulluğunun inkişafı, dövlət qulluqçularının yenidən hazırlanması və ixtisasının artırılması sisteminin təkmilləşdirilməsi, informasiya cəmiyyətinin inkişafı, rəqəmsal transformasiya və dövlət idarəçiliyi sahəsində kompleks dəyişikliklər, vətəndaş məmnunluğunun təmini, vətəndaş cəmiyyətinin rolu və siyasi institutlara etimadı, qərar qəbulu prosesində iştirakı ilə bağlı təhlil və proqnozlarını geniş oxucu kütləsinin diqqətinə təqdim ediblər.

Əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu, Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycan Respublikasının qazandığı nailiyyətlərə xüsusi yer ayrılıb. Nəşrdə Dünya İqtisadi Forumunun hesabatına əsasən, inklüziv inkişaf indeksinə görə Azərbaycan Respublikasının postsovet ölkələri arasında Litva və Estoniyadan sonra üçüncü yeri tutması faktının təhlilinə də geniş yer verilib. Göstərilib ki, Davos Forumu Azərbaycanı davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması naminə dünyada resurslardan ən səmərəli istifadə edən ölkə olaraq müəyyənləşdirib. Nəşrdə, həmçinin Davos Forumunun Prezidenti professor Klaus Şvabın dünyanın 146 ölkəsində iqtisadi imkanlar və sosial siyasətlə əlaqədar hesabatından bəhs olunub. Qeyd edilib ki, ABŞ, Almaniya, Danimarka, Braziliya, Cənubi Afrika, Vyetnam kimi ölkələrin nailiyyətlərinin müqayisə edildiyi həmin hesabatda Azərbaycan iqtisadi imkanlarından sosial problemlərin həlli və inklüziv cəmiyyətin formalaşdırılması naminə ən səmərəli istifadə edən nümunəvi ölkədir. Həmin hesabata görə, Azərbaycanın reytinqi +23-dür və bu, dünyada ən yaxşı göstəricidir. Bu nailiyyətlərin qazanılmasında ölkədə Birinci vitse-prezident institutunun təsis edilməsi və bu vəzifədə Mehriban Əliyevanın müstəsna fəaliyyətinin rolundan xüsusi bəhs edilib. Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və 30 il Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərin azad edilməsində təzahürünü tapması da xüsusi vurğulanıb. Zəfərin cəmi 44 günə başa gəlməsi və Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ölkə Prezidentinin innovativ inkişaf strategiyasının təntənəli ye kunu kimi dəyərləndirilib. Böyük tarixi dövrün təhlilinə həsr olunmuş elmi iş Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının “Dövlət qulluğu” jurnalında da tirajlanıb

### *20 Yanvarda Azərbaycan xalqına qarşı həyata keçirilən terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsinə həsr edilmiş elmi konfrans keçirilib.

Tədbirdə DİA-nın rektoru akademik Urxan Ələkbərov 20 Yanvar faciəsinin tariximizin həm qanlı, həm də qəhrəmanlıq səhifəsi olduğunu deyib. Rektor qeyd edib ki, keçmiş sovet imperiyası ordusunun 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətdir.

Akademik U.Ələkbərov faciənin xalqımızın qan yaddaşından heç vaxt silinməyəcəyini söyləyib.

Rektor faciədən dərhal sonra – 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyevin ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək keçirdiyi mətbuat konfransında kəskin bəyanatla çıxış etdiyini, Bakıda törədilən qırğınların təşkilatçılarını cinayətkar adlandırdığını, günahkarların cəzalandırılmasını qətiyyətlə tələb etdiyini xatırladıb.

Vurğulanıb ki, Ulu Öndərin Azərbaycanda hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilib.

U.Ələkbərov Prezident İlham Əliyevin 20 Yanvar şəhidlərinin ailələrinin sosial məsələlərinin həllinə daim xüsusi diqqət göstərdiyini bildirib.

Konfransda Milli Məclisin üzvü, Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru Elman Nəsirov, Hüquq kafedrasının müdiri professor İsaxan Vəliyev, Sosial məsələlər, təşkilati işlər və təlim-tərbiyə üzrə müşavir Zaur Məmmədov, Tarix kafedrasının professoru Musa Quliyev və digərləri 20 Yanvar hadisələrinin dəhşətlərindən bəhs edib, xalqımızın bu faciəni heç vaxt unutmayacağını, şəhidlərin xatirəsinin daim uca tutulacağını söyləyiblər.

### *Türkiyənin Anadolu Universitetinin nümayəndə heyəti Dövlət İdarəçilik Akademiyasında*

Türkiyənin Anadolu Universitetinin rektoru professor Fuat Erdalın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında olub.

Türkiyənin Anadolu Universitetində müasir dövrün tələblərinə cavab verən qlobal distant tədris sistemi qurulub. Türkiyədə və 30-dan çox ölkədə distant formada ali təhsil alan tələbə sayına görə dünya universitetləri sırasında 3-cü, Avropa universitetləri arasında isə 1-ci yerdədir. Distant təhsil sahəsində 36 ildən çox təcrübəsi olan Anadolu Universiteti tələbələrinin sayı hazırda 1,5 milyon nəfərdir.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Anadolu Universiteti arasında təhsil sahəsində əməkdaşlıq protokolu, həmin ildə "Mevlana" mübadilə proqramı çərçivəsində protokol imzalanıb. 2013-cü ilin may ayının 7-də Anadolu Universitetində yaradılan "Heydər Əliyev Məlumat və Araşdırma Mərkəzi"nin və bu Mərkəzdəki Heydər Əliyev büstünün təntənəli açılış mərasimi keçirilib. Ulu öndər Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Anadolu Universitetinin təşkil etdiyi silsilə tədbirlərdə Azərbaycan nümayəndə heyətinin tərkibində DİA-nın əməkdaşları da iştirak ediblər.

DİA-da keçirilən görüşdə əsasən universitetlərarası müəllim-tələbə mübadiləsi, imzalanan sənədlərin icra vəziyyəti, yeni istiqamətlər üzrə layihələrin təmin edilməsi, dövlət qulluq-



çularının təlim və inkişafı üçün vasitələrin mübadiləsinə yönələn fəaliyyət və distant təhsilin gələcəkdə genişlənməsinin aktuallığı barədə fikir mübadiləsi aparılıb.

Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycanın sürətlə inkişaf etdiyini bildirib. Rektor qeyd olunan uğurların təməlində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının olduğunu xüsusi vurğulayıb. U.Ələkbərov qazanılan uğurların Vətən müharibəsindəki parlaq Qələbədə böyük rolunun olduğunu da qeyd edib. Akademik bildirib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir.

Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu qeyd edib.

Rektor inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətlərini vurğulayıb.

Anadolu Universitetinin rektoru professor Fuat Erdal çıxış edərək DİA ilə imzalanan sənədlərin və əməkdaşlığın əhəmiyyətindən danışıb.

Rektor rəhbərlik etdiyi universitet haqqında geniş məlumat verərək postpandemiya dönəmindən sonra da distant təhsilin aktuallığını bildirib. O qeyd edib ki, Anadolu Universiteti qısa zamanda ölkənin və dünyanın böyük universitetləri arasında müasir, dinamik və yenilikçi bir universitet olaraq yerini alıb. Elm, mədəniyyət, eyni zamanda, bir gənclik şəhəri olaraq xarakterizə edilən Əskişəhərin mərkəzində yerləşən Anadolu Universiteti 12 fakültə, 1 Dövlət Konservatoriyası olmaqla 3 ali məktəb, 2 peşə məktəbi, magistratura və doktorantura səviyyəsində olan 6 institut və 30 araşdırma mərkəzindən ibarətdir. Bu gün Anadolu Universiteti Türkiyə və 30-dan çox ölkədə distant formada ali təhsil verir.

Görüşdə Anadolu Universitetinin prorektorları professor İbrahim Kaya, professor Ali Resul Üsul, Azərbaycan-Türkiyə İş Adamları

Birliyinin İdarə Heyətinin sədri Cemal Yanğın, Anadolu Universitetinin Azərbaycan Proqramları koordinatoru Azər Hətəmov, Dövlət İdarəçilik Akademiyasından isə prorektorlar professor Əlikram Abdullayev, dosent Cəfər Eyvazlı, şöbə müdirləri professor Ziyafət Həbibova, dosentlər Rəcəb Rəhimli, Yusif Ağayev iştirak ediblər.

Görüşdə çıxış edənlər hər iki təhsil və tədqiqat mərkəzlərinin əməkdaşlığının gələcəkdə səmərəli olacağına əminliklərini vurğulayıblar. Eyni zamanda, gələcəkdə birgə fəaliyyətə dair imzalanan memorandumun praktik icrasının təmin edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb və fəaliyyət istiqamətləri müəyyənləşdirilib.

***2 fevral Azərbaycan gəncləri günü münasibətilə Akademiyanın ictimai həyatında aktiv fəaliyyət göstərmiş gənclərin onlayn formatda görüşü keçirilmişdir***

02.02.2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 2 fevral Azərbaycan gəncləri günü münasibətilə Akademiyanın ictimai həyatında aktiv fəaliyyət göstərmiş gənclərin onlayn formatda “Zoom” tətbiqi vasitəsilə mükafatlandırılması baş tutmuşdur.

Tədbiri giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov ölkədə aparılan uğurlu gənclər siyasətindən bəhs etmiş, gənclərin aktiv ictimai fəaliyyətlərinin önəmini vurğulamışdır.

Tədbirdə DİA-nın sosial məsələlər, təşkilatı işlər və təlim-tərbiyə üzrə müşaviri Zaur Məmmədov və DİA Tələbə Gənclər Təşkilatının sədri Murad Həsənxanlı çıxış edərək DİA tələbələrinin Akademiya xaricində qazandıqları uğurları ilə bağlı tədbir iştirakçılarına geniş məlumat vermişdirlər.

Həmçinin DİA TGT sədri Murad Həsənxanlı tərəfindən DİA TGT və nəzdində fəaliyyət göstərən klubların illik fəaliyyət hesabatı təqdim olunmuşdur.

***DİA-da yerli icra hakimiyyətlərinin əməkdaşları üçün növbəti təlim keçirilib***

Dövlət İdarəçilik Akademiyasının (DİA) Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu yerli icra hakimiyyətlərinin Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbələrinin müdirləri və əməkdaşları üçün növbəti onlayn təlim keçirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən yerli icra hakimiyyətlərinin əməkdaşları üçün tarixi zəfərdən sonra ölkəmizin daxil olduğu yeni tarixi inkişaf mərhələsinə həsr olunub.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov daim yenilənən “Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” adlı məruzə ilə çıxış edib. Akademik Urxan Ələkbərov müstəqil dövlətimizin qurucusu ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb. Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir çox uğurlara imza atılıb. U.Ələkbərov müstəqil ölkəmizin uğurlu inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu diqqətə çatdırıb.

Akademik 44 günlük Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun düşmən üzərində qazandığı parlaq Qələbədən söz açıb. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun, vətənpərvər

gənclərinin qəhrəmanlığını, mübarizliyini xüsusi vurğulayıb. Daha sonra rektor Urxan Ələkbərov işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərindən, ölkəmizin müstəqillik əldə etdikdən bu günədək qazanılan siyasi, iqtisadi, hərbi uğurlarından, prioritetlərindən, inklüziv inkişafın idarə edilməsi sahəsindəki ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş məlumat verib.

Təlim diskussiya formatında davam edib və uğurla başa çatıb.

***DİA-da "Müasir dövrdə dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda növbəti təlim keçirildi***

Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu yerli icra hakimiyyətlərinin başçısının sosial-iqtisadi məsələlər üzrə müavini, aparıcı şöbələrin müdirləri və mövzuya aidiyyatı olan digər əməkdaşları üçün növbəti online təlim keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən 24 noyabr 2020-ci il tarixində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu və Qanunun tətbiqi ilə bağlı 26 dekabr 2020-ci il tarixində Fərman imzalanmışdır. Dəyişikliklər dövlət qulluqçusunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması, dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsini nəzərdə tutur. Online təlim məhz bu dəyişikliklərin izahı, həyata keçirilməsinin metodları və s. izahı üçün nəzərdə tutulmuşdur.

Təlimdə Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri s.e.ü.f.d., dosent Rəcəb Rəhimli "Müasir dövrdə dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda mühazirə ilə çıxış etmişdir. Təlimdə iştirakçılara dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi, qiymətləndirilməyə hazırlıq, qiymətləndirilmə dövrü, qiymətləndirmənin həyata keçirilməsi metodları və nəticələrin hesablanmasının yeni düstur formaları izah edilmiş, həmçinin qiymətləndirmənin nəticəsinə əsasən tətbiq edilən tədbirlər barədə slaydlarla müşayiət olunan geniş təqdimat olmuşdur. Təlim iştirakçılarının diqqətinə çatdırılmışdır ki, yeni dəyişikliklərin əsas məqsədi dövlət qulluqçusunun fəaliyyətinə yeni innovativ metodlarla nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşka-ra çıxarılması, peşəkarlığının artırılması, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçularının vəzifədə irəli çəkilməsi, o cümlədən dövlət orqanının fəaliyyətində səmərəliliyin artırılması kimi vacib məsələləri özündə ehtiva edir. Təlimdə 130-dan çox inzibati vəzifə daşıyan dövlət qulluqçusu iştirak etmişdir. Təlimin sonunda dos. Rəcəb Rəhimli dövlət qulluqçularını maraqlandıran sualları cavablandırdı və praktik tövsiyələr verdi. Təlim diskussiya şəklində keçdi və uğurla başa çatdı.

***Dövlət İdarəçilik Akademiyasının tələbəsi "Femida" olimpiadasının qalibi olmuşdur***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbəsi Leyla Ağayeva Rusiya Dövlət Ədliyyə Universitetinin xarici ölkə vətəndaşı olan bakalavrlara magistr səviyyəsində təhsil almaq üçün keçirdiyi beynəlxalq "Femida" olimpiadasında iştirak etmişdir. Olimpiadada 20-dən çox ölkəni

təmsil edən 200-dən çox tələbə iştirak etmişdir. L.Ağayeva olimpiadanın I və II mərhələlərini müvəffəqiyyətlə keçərək, birinci yerə layiq görülmüş, Rusiya Federasiyası Hökuməti tərəfindən müəyyən edilmiş xarici vətəndaşların təhsili üçün kvota çərçivəsində Rusiya dövləti tərəfindən maliyyələşdirilən magistr proqramında təhsil almaq hüququ əldə etmişdir. Qeyd edək ki, Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsinin tələbəsi Leyla Ağayeva akademiyanın ictimai həyatında fəal iştirak edən gənclərdəndi, eyni zamanda o, "Hüquq" kafedrasında da təcrübə keçib.

### *Dövlət İdarəçilik Akademiyasında "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda onlayn təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"lə bağlı 02 fevral 2021-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN" Xidmət) ilə mövcud Əməkdaşlıq Memorandumu çərçivəsində fəaliyyət davam etdirir. Bu fəaliyyətin təmin edilməsi ilə əlaqədar 2022-ci ildə "ASAN" Xidmət mərkəzlərinin əməkdaşları üçün daim yenilənən "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" adlı mövzusunda birinci onlayn təlim keçirilib.

«Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları» adlı ilk təlim mühazirəsini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov təqdim edib.

Rektor U.Ələkbərov Azərbaycanın Respublikasının son illərdə ölkənin inkişafı ilə bağlı məlumat verib. Natiq qeyd olunan uğurların kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının durduğunu xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideridir. Akademik U.Ələkbərov nisbətən məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin iqtisadi baxımdan daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqi olduğunu bildirib. Rektor vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. U.Ələkbərov qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da xüsusi vurğulayıb. Bildirib ki, ölkənin hazırkı davamlı inkişafı innovativ dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl islahatların nəticəsidir.

Eyni zamanda rektor U.Ələkbərov işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərindən, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin gücünün daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş böl-

gələrə tarixi qayıdışın təmin edilməsinin əhəmiyyətini qeyd edib.

Onlayn təlim qarşılıqlı fikir mübadiləsi ilə bitib. Təlimlər başa çatdıqdan sonra iştirakçılara sertifikatlar təqdim ediləcək.

***Dövlət İdarəçilik Akademiyasında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar konfrans keçirilib***

Fevralın 25-də Heydər Əliyev Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) tərəfindən DİA-da fəaliyyət göstərən "Heydər Əliyev Dövlət İdarəçilik Məktəbi"ndə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar konfrans keçirilib.

Əvvəlcə şəhidlərin və Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb.

Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüzə əl ataraq tarixdə misli görünməmiş soyqırımı törətdiyini deyib. Bildirilib ki, Xocalı faciəsinə ilk dəfə hüquqi-siyasi qiymət ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra verilib. Xocalı soyqırımı barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında dövlət strukturları ilə yanaşı, ictimai birliklər, vətəndaş cəmiyyəti institutları da mühüm rol oynayır.

Rektor Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlərin, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının əhəmiyyətindən bəhs edib.

Heydər Əliyev Mərkəzinin nümayəndəsi Vüqar İsmayılov Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin Xocalı soyqırımı ilə bağlı layihələri barədə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru Həvva Məmmədova "Xocalı soyqırımında yaşanan tarixin 30 ili", DİA-nın Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev



"Soyqırımı cinayətləri milli və beynəlxalq hüquqi müstəvidə", Politologiya və siyasi idarəetmə kafedrasının müdiri professor Nigar Ələkbərova "Xocalı soyqırımının səbəbləri və beynəlxalq aləmdə tanınması" mövzularında məruzə ediblər.

Məruzəçilər Xocalı soyqırımının Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu diqqətə çatdırıblar. Vurğulanıb ki, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı faciəsi barədə məlumatları, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, dünyada oxşar hadisələrin baş verməməsinə çağırış məqsədi daşıyır. Kampaniya çərçivəsində müxtəlif ölkələrdə həyata keçirilən tədbirlər, Xocalı soyqırımının dünyada tanıdıl-ması istiqamətində görülən işlər artıq öz nəticələrini verir.

Çıxış edənlər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun Vətən müharibəsində qazandığı Böyük Zəfərin əhəmiyyətindən danışıb, işğaldan azad olunmuş torpaqlarımızda geniş miqyasda bərpa və quruculuq tədbirlərinin həyata keçirildiyini bildiriblər.

## *DİA Tələbə Elmi Cəmiyyəti Xocalı soyqırımı ilə bağlı onlayn Dəyirmi masa keçirmişdir*

25 fevral 2022-ci il tarixində DİA Tələbə Elmi Cəmiyyəti tərəfindən "Xocalı soyqırımı insanlığa qarşı amansız bəşəri cinayətdir" mövzusunda onlayn dəyirmi masa keçirilmişdir.

Tədbir başlamazdan əvvəl Xocalı soyqırımı qurbanlarının və Vətənimizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Dəyirmi masanı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təcavüzkar Ermənistan dövlətinin silahlı qüvvələri tərəfindən keçmiş sovet ordusunun 366-cı alayının iştirakı ilə xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımının təkcə azərbaycanlılara qarşı deyil, insanlığa qarşı ağır cinayət olduğunu göstərmiş, tədbir iştirakçılarına bu il 30-cu ildönümü tamam olmuş Xocalı soyqırımı barədə ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, bu dəhşətli soyqırım aktına yalnız Ulu Öndərimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra siyasi-hüquqi qiymət verilmiş, onun rəhbərliyi altında Xocalı soyqırımı həqiqətlərinin dünya içtimaiyyətinə çatdırılması ilə bağlı geniş işlər görülmüşdür. Natiq Ümummilli lider Heydər Əliyevin layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə genişmiqyaslı və sistemli işlərin apardığını, bunun nəticəsində Xocalı soyqırımının bir çox dövlətlərdə tanındığını göstərmiş, bu işdə Birinci Vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın böyük xidmətləri olduğunu, həmçinin Fondun Vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan "Xocalıya Ədalət" kampaniyasının əvəzolunmaz əhəmiyyətini vurğulamışdır. Rektor tarixi ədalətin zəfər çaldığını, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın müdrik rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən erməni faşizminin məhv edildiyini, Ermənistanın işğalından əzəli torpaqlarımızın azad edildiyini və ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu göstərmiş, Tələbə Elmi Cəmiyyətinin Xocalı soyqırımı ilə bağlı keçirdiyi Dəyirmi masanın əhəmiyyətindən danışmış, müzakirələrin tələbə və magistrantların fəal iştirakı ilə keçəcəyinə əminlik bildirmişdir.

DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru Sevil Məmmədovanın aparıcılığı ilə keçən müzakirələrdə "Tarix" kafedrasının professoru Həvva Məmmədova, "İnzibati idarəetmə" fakültəsinin dekanı, dosent Elnur Əliyev, magistrantlardan İlkin

Rüstəmov, Günay Bəhramzadə, Aysel Cəfərova, tələbələrdən Zöhrə Kəngərli, Etibar Babayev, Şahanə Məmmədova, Elyar Səfərov, Hüseyn Hacıyev və b. çıxış etmiş, ətraflı fikir mübadiləsi aparılmış, tədbir iştirakçılarına təcavüzkar Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti, erməni vandalizmi və barbarlığı haqqında əsl həqiqətlərin dünya birliyinə çatdırılmasında fəal iştirak etməklə, bununla bağlı sosial şəbəkələrin imkanlarından geniş istifadə olunmasını tövsiyə etmişdir.

### *Dövlət İdarəçilik Akademiyasında "Hüquq ədəbiyyatı kitabxanası"nın açılış mərasimi keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Hüquq fakültəsi üçün yaradılan "Hüquq ədəbiyyatı kitabxanası"nın açılış mərasimi keçirilib.

Kitabxana Milli Məclisin deputatı Kamal Cəfərovun təşəbbüsü, Azərbaycan Respublikası Vəkillər Kollegiyası və "Black Garden" konsultasiya şirkətinin dəstəyi ilə təşkil olunub. Kitabxana BP Azərbaycan şirkəti tərəfindən kitablarla təmin edilib.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov ölkəmizdə elm və təhsilə daim böyük önəm verildiyini vurğulayıb.

Rektor Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində respublikamızın dinamik inkişaf etdiyini, dünya ölkələri arasında özünə layiq yer tutduğunu bildirib. Qeyd edilib ki, Azərbaycan Respublikası bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdırır.

Akademik vurğulayıb ki, inklüziv inkişaf sahəsində respublikamızın yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya ölkələrinə nümunə olmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri əvəzsizdir.

U.Ələkbərov qazanılan uğurların Vətən müharibəsindəki parlaq Zəfərdə böyük payının olduğunu deyib. Vurğulanıb ki, ölkənin davamlı inkişafı innovativ dövlət idarəçiliyi sahəsində həyata keçirilən islahatların nəticəsidir.

Rektor DİA-da yaradılan "Hüquq ədəbiyyatı kitabxanası"nın əhəmiyyətindən bəhs edib.

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov cəmiyyətdə elmin, təhsilin mühüm rolundan danışıb, Prezident İlham Əliyevin bu sahənin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayıb. Vəkillər Kollegiyasının ali təhsil müəssisələri, o cümlədən Dövlət İdarəçilik Akademiyası ilə əlaqələri barədə ətraflı məlumat verən A.Bağırov əməkdaşlıq çərçivəsində səmərəli tədbirlərin reallaşdırıldığını deyib. DİA-nın Hüquq fakültəsi tələbələrinin, gənc hüquqşünasların Vəkillər Kollegiyasında təcrübə keçdiklərini qeyd edən Anar Bağırov qurum tərəfindən onlara daim dəstək veriləcəyini bildirib. O, professor və müəllimlərə, tələbələrə uğurlar arzulayıb.

BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Hüquq ədəbiyyatı kitabxanası"nın təhsilin inkişafına töhfə verəcəyinə əminliyini söyləyib. O, elmə, təhsilə daim dəstək göstərilməsinin əhəmiyyətindən bəhs edib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Kamal Cəfərov ölkəmizdə elmin, təhsilin inkişafı üçün geniş imkanlar yaradıldığını deyib. Deputat gənclərin təhsildə, elmdə uğurlar qazanmasının, onların vətənpərvərlik ruhunda tərbiyə edilməsinin əhəmiyyətini diqqətə çatdırıb. DİA-da yaradılan "Hüquq ədəbiyyatı kitabxanası" haqqında danışan Kamal Cəfərov onun daha da zənginləşdiriləcəyinə inamını ifadə edib.

### *Dövlət İdarəçilik Akademiyasının professoru Namiq Əliyevin “Ermənistan və Azərbaycan arasında qarşıdurma: hüquqi aspektlər” adlı kitabının Bolqarıstanda təqdimatı keçirilib*

Azərbaycanın Bolqarıstandakı səfirliyinin təşkilatçılığı ilə Bolqarıstanın Milli Teleqraf Agentliyində Xocalı soyqırımına həsr olunmuş “Xocalı faciəsi 30 il sonra: hüquqi və humanitar aspektlər” adlı elmi-praktik konfrans keçirilib.

Konfransda Azərbaycan və Bolqarıstan parlamentlərinin üzvləri, Bolqarıstanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, ali elmi-təhsil müəssisələri və akademik dairələrin üzvləri, mütəxəssislər və Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq əlaqələr və xarici siyasət kafedrasının müdiri, Fövqəladə və Səlahiyyətli səfirin bolqar dilində kitabının təqdimat mərasimi keçirilib. Hüquq elmləri doktoru, professor Namiq Əliyev “Ermənistan və Azərbaycan arasında qarşıdurma: hüquqi aspektlər” kitab Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi və YUNESKO üzrə Milli Komissiyasının yardımı ilə tərcümə edilərək nəşr edilib.

Kitabda müəllif geniş elmi və empirik material əsasında Ermənistan-Azərbaycan qarşıdurmasının bir sıra hüquqi problemlərini araşdırır, Ermənistanın Azərbaycana qarşı davam edən ərazi iddialarının aşkar hüquqi uyğunsuzluğunu sübut edir. Sənəddə 44 günlük Vətən Müharibəsi nəticəsində ermənilər tərəfindən işğal edilmiş torpaqların azad edilməsinin nəticələri, Ermənistan Respublikasının törətdiyi əməllərin hüquqi nəticələri göstərilir. Monoqrafiya Bolqarıstanın bütün kitabxanalarına, eləcə də bir çox beynəlxalq beyin mərkəzlərinə göndəriləcək.

### *Dövlət İdarəçilik Akademiyasının tələbələri təltif ediliblər*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) fəal tələbələr mükafatlandırılıb.

Mükafatlandırma mərasimində Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov gənclərin ictimai fəallığının əhəmiyyətini vurğulayıb, dövlət gənclər siyasətinin ölkəmizdə uğurla həyata keçirildiyini qeyd edib.

DİA-nın ümumi işlər üzrə prorektoru dosent Cəfər Eyvazlı, Həmkarlar İttifaqı Komitəsinin sədri dosent Yusif Ağayev, akademiyanın müşaviri Zaur Məmmədov tələbələrə təhsildə və ictimai fəallıqda uğurlar arzulayıblar.

Mərasimdə 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbədə gənclərin müstəsna rolu və xidmətləri vurğulanıb.

Sonra 2021-ci il ərzində uğurlu fəaliyyətləri ilə fərqlənən DİA-nın tələbələrinə mükafatlar verilib.

### *Dövlət İdarəçilik Akademiyasında “44 günlük Vətən müharibəsinin yaratdığı yeni reallıqlar ” mövzusunda tədbir keçirilib*

Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Tələbə Gənc Politoloqlar Klubunun təşəbbüsü ilə “44 günlük Vətən müharibəsinin yaratdığı yeni reallıqlar” mövzusunda görüş keçirilib. Tələbə gənc politoloqlar klubunun bu dəfəki qonağı millət vəkili Ceyhun Məmmədov olub. Tədbirdən öncə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrün tarixi əhəmiyyətini vurğulayıb, Ulu Öndər Heydər Əliyevin başladığı və prezident İlham Əliyev tərəfindən uğurla davam edən siyasət nəticəsində Azərbaycanın keçdiyi inkişaf yolu barədə fikirlərini bildirib.

U.Ələkbərov müzəffər Ali Baş Komandan İlham Əliyevin Ermənistan və havadarları üzərində bütün sahələrdə qələbə əldə etdiyini qeyd edərək, 44 günlük müharibənin nəticəsinin bölgəyə yeni reallıqlar gətirdiyini qeyd edib. Daha sonra tədbir millət vəkili Ceyhun Məmmədovun interaktiv şəkildə çıxışı ilə davam edib. Milli Məclisin deputatı Ceyhun Məmmədov 44 günlük Vətən müharibəsinin beynəlxalq aləmdəki əks sədası haqqında öz çıxışında 9 noyabr kapitulyasiya aktının imzalanmasından sonra bölgədə yaranmış yeni reallıqlar, regional çağırışlar və məqsədlər haqqında geniş şəkildə danışmışdır. O, çıxışında müharibədən sonrakı dövrdə Azərbaycanın əksər dövlətlərlə münasibətlərinin inkişaf etdiyinə diqqəti çəkərək, dünyanın ayrı-ayrı geosiyasi güc mərkəzlərinin bölgədə yaranmış yeni reallığı qəbul etdiklərini qeyd etdi. Daha sonra Vətən müharibəsindən sonrakı dönəmdə qısa müddət ərzində Qarabağ və Şərqi Zəngəzur bölgələrində intensiv və operativ şəkildə strateji əhəmiyyətli layihələrin həyata keçirilməsini təhlil edərək, Füzuli Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi, eyni zamanda, Zəngilan və Laçında da yeni aeroportların inşasının reallaşdırılması yönündə işlərə başlanılması, işğaldan azad edilən bölgəmizdə müasir yol-nəqliyyat infrastrukturunun sürətli şəkildə yaradılması məsələlərinə toxundu. Qeyd edildi ki, Vətən müharibəsinin nəticəsi göstərdi ki, Azərbaycanda həyata keçirilən siyasi kurs dövlətimizi və xalqımızı qələbələrə aparan alternativsiz yoldur. Qarşıda isə xalqımızı Qarabağın və Şərqi Zəngəzurun sürətlə bərpası ilə keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarının sevinc hissi gözləyir. Görüş qarşılıqlı diskussiya formatında davam etdi. Tədbirdə DİA-nın ümumi işlər üzrə prorektoru dosent Cəfər Eyvazlı, akademiyanın müşaviri Zaur Məmmədov və Tələbə Gənc Politoloqlar Klubunun üzvləri iştirak ediblər.

## *Dövlət İdarəçilik Akademiyasında “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” adlı təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 2022-ci ildə “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün daim yenilənən “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” adlı növbəti onlayn təlim keçirilib.

Bildirilib ki, tədbir Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən DİA-nın Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (“ASAN xidmət”) ilə mövcud əməkdaşlıq memorandumu çərçivəsində təşkil olunub.

Təlimin mühazirəsini Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov təqdim edib.

Rektor Azərbaycanın son illərdə inkişafı ilə bağlı məlumat verib. O, qeyd olunan uğurların kökündə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının dayandığını xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdırır.

Akademik bildirib ki, nisbətən məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin iqtisadi baxımdan daha inkişaf etmiş ölkələrdən yüksək olması respublikanın iqtisadi potensialının hərtərəfli

inkişafı və əhalinin rifahının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir.

Rektor vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya ölkələrinə nümunə olmasında Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var.

Məruzəçi qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu xüsusi vurğulayıb. Bildirilib ki, ölkənin davamlı inkişafı innovativ dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl islahatların nəticəsidir.

U.Ələkbərov işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərindən, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin gücünün daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi Qayıdışın təmin edilməsinin əhəmiyyətini qeyd edib.

Sonra fikir mübadiləsi olub.

Təlimlər başa çatdıqdan sonra iştirakçılara sertifikatlar təqdim ediləcək.

***Dövlət İdarəçilik Akademiyasında “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” mövzusunda növbəti onlayn təlim keçirilib***

Martın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Fövqəladə Hallar Nazirliyinin komandir-rəis heyəti üçün “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” mövzusunda növbəti onlayn təlim keçirilib. Tədbir Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamı rəhbər tutularaq təşkil olunub.

Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycanın sürətlə inkişaf etdiyini bildirib. Rektor qeyd olunan uğurların təməlində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının olduğunu xüsusi vurğulayıb. U.Ələkbərov qazanılan uğurların Vətən müharibəsindəki parlaq Qələbədə böyük rolunun olduğunu da qeyd edib. Akademik bildirib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir.

Rektor vurğulayıb ki, inklüziv inkişaf sahəsində respublikamızın yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya ölkələrinə nümunə olmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var.

U.Ələkbərov işğaldan azad olunan ərazilərdə aparılan quruculuq tədbirlərinin, dərin islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin gücünün daha da artırılmasının, yüksək rifah cəmiyyətinin qurulmasının, azad edilmiş bölgələrə tarixi Qayıdışın təmin edilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, təlimlər başa çatdıqdan sonra iştirakçılara sertifikatlar veriləcək.

## *Dövlət İdarəçilik Akademiyası ilə Gənclər Fondu arasında Anlaşma Memorandumu imzalandı*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Gənclər Fondu arasında "Əməkdaşlıq və birgə fəaliyyət haqqında" Anlaşma Memorandumunun imzalanma mərasimi baş tutmuşdur.



Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov və Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov tərəfindən imzalanmış sənədin əsas məqsədi müxtəlif istiqamətlərdə birgə nəzəri və praktiki yönümlü tədbirlərin reallaşdırılması vasitəsilə Azərbaycan Respublikasında həyata keçirilən gənclər siyasəti sahəsində görülən işlərə töhfə verməkdən ibarətdir.

Memorandumda və tərəflərin təsdiqlədiyi "Fəaliyyət planı"nda əksini tapmış müddəalara əsasən gənclər təşkilatlarının nümayəndə və rəhbər heyəti eləcə də magistr təhsili alan tələbələr üçün "I İnkişaf Məktəbi" adlı ixtisasartırma kursunun və Təlim Mərkəzinin yaradılması nəzərdə tutulmuşdur.

Bununla yanaşı hər iki qurumun beynəlxalq tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində gənclər üçün beynəlxalq mübadilə proqramlarında iştirak imkanlarının yaradılması, gənclər təşkilatları nümayəndələrinin Akademiyanın nəzdində fəaliyyət göstərən elmi tədqiqat mərkəzlərinin fəaliyyətində yaxından iştirakına dair razılaşma əldə edilmişdir.

Anlaşma Memorandumundan irəli gələrək, Fondun rəhbər nümayəndələrinin tələbə həyati üçün mühazirələrinin təşkili, Fond tərəfindən həyata keçirilən təcrübə proqramlarında magistr təhsili alan tələbələrin daha geniş iştirakının təmini və ümumilikdə Azərbaycan gənclərinin peşəkar inkişafı, gənclər siyasətinə dair mövcud vəziyyət və bu sahədə görülməsi məqsədəmüvafiq tədbirlər barədə birgə tədqiqatların aparılması, ölkəmizdə həyata keçirilən gənclərlə iş sahələrində elmi araşdırma və akademik məqalələrin hazırlanmasına metodik dəstəyin göstərilməsi əsas fəaliyyət istiqaməti kimi təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Gənclər Fondu arasında imzalanmış "Əməkdaşlıq və birgə fəaliyyət haqqında" Anlaşma Memorandumu dövlət gənclər siyasətindən irəli gələn çağırış və vəzifələrin icrası məqsədilə hər iki qurumun əlaqələrinin gücləndirilməsi baxımdan vacib rol oynayacaqdır.

## *Gənclərin iştirakı ilə Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi-praktiki konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.

Konfrans Dövlət İdarəçilik Akademiyası ilə Gənclər Fondu arasında 2022-ci il martın 18-də imzalanmış Anlaşma Memorandumuna əlavə olunan "Fəaliyyət Planı" çərçivəsində təşkil edilib.

Tədbirdə ölkəmizdə fəaliyyət göstərən 20-yə yaxın gənclər təşkilatlarının rəhbərləri və akademiyanın fəal tələbələri iştirak ediblər. Konfransa moderatorluq edən Dövlət İdarəçilik Akademiyasının sosial məsələlər, təşkilati və təlim-tərbiyə işləri üzrə müşaviri Zaur Məmmədov çıxışı zamanı ermənilərin azərbaycanlılara qarşı mütəmadi olaraq etnik təmizləmə siyasəti həyata keçirdiklərini vurğulayıb, gənc nəslin tarixdə baş vermiş həmin hadisələri unutmamaları üçün daim maariflənmələrinin vacibliyinə toxunub.

Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov çıxışında ümummilli lider Heydər Əliyevin 1918-ci il hadisələrinə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində atdığı addımların əhəmiyyətini vurğulayaraq Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanının bu baxımdan müstəsna rolunu qeyd edib.

Sonra DİA-nın Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova tədbir iştirakçılarına azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətinin tarixi detalları, hadisənin beynəlxalq hüquq prizmasından qiymətləndirilməsi və digər aspektləri barədə geniş məlumat verib, azərbaycanlıların son iki yüz il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq öz tarixi torpaqlarından didərgin salındığını, qaçqın və məcburi köçkünə çevrildiyini bildirib. O, 1918-ci ilin mart-aprel aylarında erməni-daşnak silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlarla son 30 ildəki hadisələr arasında paralellər apararaq tarixdən dərs çıxarmağımızın zəruriliyini qeyd edib.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Azər Əliyev çıxışında gənclərin informasiya müharibəsi sahəsindəki rolunu qeyd edərək məlumatlandırma işlərinin davamlı qaydada aparılmasının zərurətini vurğulayıb və bu xüsusda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərə tövsiyələrini diqqətə çatdırıb.

Yekunda Azərbaycan gənclər təşkilatlarının nümayəndələri dünya ölkələri və beynəlxalq təşkilatlara müraciət edərək bəşəriyyət əleyhinə qarşı törədilmiş bu cür əməllərin təkrarlanmaması üçün 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətini ikili standartlara yol vermədən tanımağa çağırış ediblər.

## MÜNDƏRİCAT


**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................27

Ukraynaya işgüzar səfər ....................................................................................................27
Gəncə şəhərinə səfər...........................................................................................................30
Ağdam və Ağcabədi rayonlarına səfəri ................................................................................35
Rusiya Federasiyasına rəsmi səfər .......................................................................................43
Türkiyə Respublikasına işgüzar səfər...................................................................................62
Tərtər rayonuna səfər...........................................................................................................63

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** ............................................................................................67

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti ..................67

İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib.....................................................69

"Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində İlham Əliyevin nitqi ..........................................................................................88

Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında İlham Əliyevin nitqi ..........................................................................................89

"Rossiya 24" telekanalında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanıb .....91

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin VIII toplantısında İlham Əliyevin nitqi ..........................................................................94

BMT Baş Assambleyasının sədrinin təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələrdə İlham Əliyevin nitqi ................................................................................97

Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində İlham Əliyevin nitqi .......98

## DÖVLƏT İDARƏÇİLİYİ

**Mübariz Qurbanlı.** Azərbaycanda dövlət-din münasibətləri ..................................................101

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Vüqar Kərimov.** İşğaldan azad edilmiş ərazilərdə ekoloji mühitin qiymətləndirməsi və bərpası istiqamətində həyata keçirilən və planlaşdırılan tədbirlər .............................................109

**Фуад Мамедов.** Образование и устойчивое развитие ..........................................................121

**Məzahir Əfəndiyev.** Maliyyə sektorunun inkişafı Azərbaycanda davamlı inkişafın təmin edilməsində vasitə kimi ..........................................................................................................149

## DÖVLƏT İDARƏÇİLİYİ

**Нигяр Алекперова.** Экстраординарная личность в большой политике ............................157

**Murtəza Həsənov.** Dövlət idarəçiliyində innovasiyalar ..........................................................167

**Xatirə Əfəndiyeva, Məftunə Abdullayeva.** Ümummilli Lider Heydər Əliyevin strategiyasında milli təhlükəsizlik siyasəti daxili sabitliyin yaradılmasında əsas faktor kimi... 181

## TƏHSİL

**Asiman İlyasov.** Ali təhsil müəssisələrinin tələbəqəbul proqnozlaşdırılmasında əmək bazarında baş verən dəyişiklikləri nəzərə alması vəziyyəti ..............................................191

## ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ INTELLEKTUAL SİSTEMLƏR

**Elvin Əzizbəyov, Gülnar Mirzəyeva.** Dövlət idarəçiliyində böyükhəcmli verilənlər strategiyaları ..........................................................................................................................205

## SİYASİ NƏZƏRİYYƏ

**Елена Касумова.** Концептуальные основы структуры азербайджанского политического дискурса ..........................................................................................215

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Zümrüd Məlikova.** Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası və demarkasiyası məsələsi: siyasi və hüquqi aspektlər ....................221

**Ляман Караева.** Участие Азербайджана и России в Совете Европы ....................229

**Севиль Гидаятова.** Основные положения Конвенции о правовом статусе Каспийского моря 2018 г. и анализ их последствий ....................243

## GƏNC TƏDQİQATÇILAR

## FƏLSƏFƏ

**Fazilə Əliyeva.** Yeni dövr fəlsəfəsində ontoloji konsepsiyaların mahiyyəti ....................253

## TARİX

**Ламия Магеррамова.** Становление и развитие внешней политики Азербайджана в конце XX века ....................261

**Dövlət İdarəçilik Akademiyasında** ....................267

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

## Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2022, №1(77)**


Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.


Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş ... Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

## 2022, №1(77)

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., assistant professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order ........ Number of copies printed 500.